# AZƏRBAYCAN DİLİ 1

TƏDRİS DİLİ

# METODİK VƏSAİT



**Ülkər Nurullayeva**
**İradə Bayramova**
**Şəhla Zahidova**
**Nuriyə Allahverdiyeva**
**Aysel Xanalıyeva**

Ümumtəhsil məktəblərinin

1-ci sinfi üçün

# Azərbaycan dili

fənni üzrə dərsliyin

# METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
artitrm2017@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## GİRİŞ

**1. Dil və nitq** ..................................................... **3**
- Erkən yaş dövründə nitq bacarıqları ......... 3
- Məktəbə hazırlıq dövründə oxu bacarıqlarının formalaşması ...................... 3
- Dilin tədrisində kommunikativ yanaşma ................................................. 4
- Dil qaydaları ............................................. 4

**2. Dərsliyin komponentləri** ............................. **4**
- Şagird kitabı ............................................. 4
- İş dəftəri .................................................... 5
- Metodik vəsait .......................................... 5
- Valideyn bələdçisi...................................... 6

**3. Dərsliyin strukturu və təlim konsepsiyası** .... **6**
- Bölmə-fəsil-dərs ........................................ 6
- Tədris vahidinin konsepti: mövzu-bacarıq-bilik-kompetensiya vəhdəti.......... 6
- Təlim materiallarının saatlar üzrə bölgüsü............................................. 7

**4. 1-ci sinifdə Azərbaycan dilinin tədrisi** ......... 9
(məzmun standartları və onların şərhi)
- Dinləmə.................................................... 9
- Danışma ................................................... 9
- Söz ehtiyatı ............................................ 10
- Oxu ........................................................ 12
- Oxuyub-qavrama.................................... 12
- Yazı ........................................................ 15
- Dil qaydaları ........................................... 18
- Bölmələr üzrə nəzərdə tutulan əsas təlim məqsədləri .................................... 20

**5. Bilik və bacarıqların qiymətləndirilməsi** .... **24**
- Niyə qiymətləndiririk?............................ 24
- Necə qiymətləndiririk?........................... 24
- Nəyi qiymətləndiririk?............................ 25

**6. Diferensial təlim** ....................................... **26**

## DƏRSLƏR ÜZRƏ ŞƏRHLƏR VƏ TÖVSİYƏLƏR

**1. AİLƏ VƏ MƏKTƏB**............................. **27**
- Mənim ailəm........................................ 28
- Məktəb bazarlığı .................................. 33
- Babanın hədiyyəsi ................................ 39
- Ramin və dostları ................................. 44

**2. TƏHLÜKƏDƏN QORUNAQ** ............... **50**
- Diqqət! Təhlükə!.................................. 51
- Yanğın ................................................. 56
- Yolda təhlükə ...................................... 59
- Evdə təhlükə ....................................... 62
- Xilasedicilər......................................... 66

**3. SAĞLAM HƏYAT** ................................ **71**
- Gün rejimi ........................................... 72
- İdman.................................................. 77
- Gigiyena qaydaları ............................... 82
- Sağlam qida.......................................... 87

**4. TƏBİƏTİN SİRLƏRİ** ........................... **95**
- Göyqurşağı ........................................... 96
- İlbiz.................................................... 101
- Göbələk.............................................. 105
- Bozqulaq ............................................ 110

**5. NAĞILLAR ALƏMİNDƏ** ..................... **117**
- Nağılçılar ............................................ 118
- Xəyal dünyası ...................................... 122
- Biləndərin macəraları.......................... 126
- Heyvanlar haqqında nağıllar ............... 129

**6. VƏTƏNİM AZƏRBAYCAN**................. **133**
- Vətən nədir? ....................................... 134
- Vətənimizi tanıyaq .............................. 138
- Vətənimizi sevək ................................. 142
- Çağırır vətən! ...................................... 147

**7. YAXŞI NƏDİR, PİS NƏDİR** .................. **152**
- Ana məhəbbəti .................................... 153
- Qaragözün macərası ............................ 156
- Mərhəmət............................................ 160
- Dostluq................................................ 164

**8. DÜNYANI KƏŞF EDİRƏM** ................... **168**
- Keçmişə səyahət .................................. 169
- Çörək................................................... 172
- Cizgi filmləri........................................ 176
- Kosmos................................................ 180

# GİRİŞ

## 1. Dil və nitq

*Dil insanlar arasında ünsiyyətə xidmət edən fonetik, leksik, qrammatik vasitələr sistemidir. O, fikir, hiss ifadə etmək üçün əsas alətdir və təfəkkürlə sıx bağlıdır; belə ki, dil təfəkkürsüz, təfəkkür isə dilsiz mövcud deyil. Bu baxımdan nitq bacarıqlarından istifadəni idraki prosesdən ayrı təsəvvür etmək mümkün deyil.*

*Dil və nitq bir-biri ilə sıx bağlıdır: dil lazımdır ki, nitq aydın olsun və öz sosial funksiyasını yerinə yetirsin; nitq isə lazımdır ki, dil reallaşsın. İnsanın dilə nə dərəcədə yiyələndiyini onun nitqi vasitəsilə müəyyənləşdirmək olur.*

*Dil – ünsiyyət vasitəsidir.*
*Nitq – ünsiyyət prosesidir.*

Erkən yaş dövründə nitq bacarıqları

Uşaqlarda ilkin nitq bacarıqlarının formalaşması təbii (empirik) şəkildə, formal tədris prosesi olmadan baş verir. Nitq beyinə daxil olan linqvistik siqnalların (səslərin, sözlərin, cümlələrin) müqayisəsi və təhlili nəticəsində formalaşır. Alimlərin fikrincə, nitqin formalaşması aşağıdakı ardıcıllıqla baş verir:

| | |
|---|---|
| 0 – 6 ay | eşidilən səs və səs birləşmələrinin müvafiq hiss və duyğular doğurması; |
| 6 ay – 1 yaş | eşidilən sözlə onun ifadə etdiyi anlayış arasında assosiativ əlaqənin yaranması; |
| 1 yaş – 18 ay | ilkin danışma bacarığının formalaşması: əsasən, ad bildirən sözlərdən istifadə; |
| 18 ay – 2 yaş | ad, əlamət, hərəkət bildirən sözlərdən istifadə; fikrin qısa cümlələrlə ifadə olunması; |
| 2 yaş – 3 yaş | söz ehtiyatının sürətlə artması, fikrin aydın ifadə olunması. |

Sözsüz ki, bu bacarıqların səviyyəsi və inkişafın intensivliyi ailə ortamından və məktəböncəsi təlimdən xeyli dərəcədə asılı olur. Bu prosesdə iki amili xüsusi qeyd etmək lazımdır: 1) sosial amil: empirizm – xüsusi dil təlimi olmadan daimi və təbii ünsiyyət mühiti; 2) psixoloji amil: şüuraltı tələbat – fikir və duyğuları sözlə ifadə etmək istəyi.

*3 yaşa yaxın normal inkişafda olan uşaqda şifahi nitq bacarıqları formalaşır.*

Məktəbə hazırlıq dövründə oxu bacarıqlarının formalaşması

İnsanın nitq bacarıqlarına yiyələnməsi aşağıdakı ardıcıllıqla baş verir: dinləmə – danışma – oxu – yazı. Ailə və məişət şəraitində empirik yolla formalaşan şifahi nitq (dinləmə və danışma) sonradan xüsusi tədris şəraitində yazılı nitqin – oxu və yazı bacarıqlarının formalaşmasına zəmin yaradır. Şifahi nitq uşaqda abstrakt təfəkkürün inkişafına təkan verir, belə ki, o, ətrafda gördüklərini və fikirlərini şifahi formada sözlər və cümlələrlə ifadə etmiş olur.

Yazılı nitq daha mürəkkəb abstrakt təfəkkürün məhsuludur, çünki burada anlayışın səsli işarəsini (səslə ifadə olunmuş sözü) hərfi işarəyə çevirmək lazım gəlir. Bunun üçün insan eşitdiyi sözü səslərə ayıra bilməli, hər bir səsin yazıda işarəsini tanımalı, bu işarələri ardıcıl oxumağı, yazmağı bacarmalıdır. Nə qədər sadə görünsə də, bu, kifayət qədər mürəkkəb idraki prosesdir.

Təhsilin inkişaf etdiyi bir çox ölkələrdə belə hesab edilir ki, normal əqli inkişafa malik uşaq 4-5 yaşında oxu və yazı bacarıqlarını mənimsəməyə hazır olur. Buna görə də həmin ölkələrdə ilkin oxu və yazı bacarıqları məktəbəqədər təhsil dövründə formalaşdırılır. Bəzi ölkələrdə bu təlim bir il (5 yaşında), bəzilərində 2 il (4 və 5 yaşlarında) davam edir.

"Məktəbəqədər təhsilin kurikulumu"nda təsbit olunmuş standartlar uşaqların bu dövrdə ilkin oxu bacarıqlarına yiyələnməsini nəzərdə tutur. Məktəbə gələn uşaqların bu bacarıqları ehtiyat dərslikdə nəzərə alınır və oxu üzrə təlimə hərflərin xatırlanmasından, kiçik və böyük hərflərin uyğunlaşdırılmasından başlanılır.

4-5 yaş: 2.2.4. Danışıq səslərinin müxtəlif dil vahidlərində (heca, söz, cümlə) yerini müəyyən edir.

5-6 yaş: 2.2.4. Hərf və səsləri fərqləndirir: kəsmə əlifba vasitəsilə sözlər düzəldir.

*(Məktəbəqədər təhsilin kurikulumu)*

Dilin tədrisində kommunikativ yanaşma

Orta məktəbdə təhsilin əsas məqsədi cəmiyyətdə və təbiətdə mövcud olan varlıqların, baş verən hadisələrin mahiyyətini şagirdə izah etməkdir. Məhz buna görə də müasir dövrdə dil sosial hadisə – insanlar arasında ünsiyyət vasitəsi kimi tədris olunur. Ünsiyyət dedikdə informasiya almaq və informasiya ötürmək prosesi nəzərdə tutulur. Bu proses dörd nitq bacarığı əsasında reallaşır: dinləmə, oxu (informasiyanın qəbul edilməsi – reseptiv nitq), danışma, yazı (informasiyanın ötürülməsi – ekspressiv nitq). Bu bacarıqlardan ikisi (dinləmə və danışma) şifahi, digər ikisi (oxu və yazı) yazılı nitq bacarıqlarıdır. Beləliklə, dil tədrisinin əsasını təşkil edən ünsiyyət prosesini aşağıdakı sxem şəklində ifadə etmək olar.




Dil qaydaları

İstənilən sosial fenomen müəyyən qaydalar, normalar əsasında təzahür etməlidir. Nitqi tənzimləyən normalar dilin təbiətindən doğan və dilçilikdə təsbit olunan qaydalardır. Bu qaydalar nə dərəcədə dərindən öyrədilməlidir? Bu haqda pedaqogikada gedən polemikalar hələ də davam etməkdədir. Ümumi yanaşma isə belədir ki, dil qaydalarının tədrisi şagirdlərdə 1) ilk növbədə, ekspressiv nitq bacarıqlarının (xüsusilə: yazının) inkişafına xidmət etməlidir; 2) dilin ümumi qanunauyğunluqları haqqında təsəvvür yaratmalıdır (məsələn: ahəng qanunu, aqlütinativlik və s.); 2) dil duyumunu formalaşdırmalıdır (qaydalara riayət etməklə dilə sərbəst və yaradıcı yanaşma, özünəgüvənlik).

Sözsüz ki, dil dərsliyində dilçiliyə aid bir sıra akademik biliklərin verilməsi zəruridir; məsələn, kar və cingiltili samitlərin fərqi haqqında deklarativ məlumat verilirsə, nəzərə almaq lazımdır ki, sonradan bu bilik "Sözlərin sonunda bəzi cingiltili samitlər tələffüz zamanı özünün kar qarşılığı ilə əvəz olunur (kitab – kitap, bulud – bulut)" kimi praktik əhəmiyyətə malik dil qaydasının mənimsədilməsinə və tətbiqinə kömək edəcək.

Dil qaydalarının tədrisi zamanı nitq bacarıqlarının inkişafına xidmət edən biliklərə üstünlük verilməlidir.

## 2. Dərsliyin komponentləri

Bu dərslik komplektinə aşağıdakı komponentlər daxildir:
- Şagird kitabı (dərslik)
- Metodik vəsait
- İş dəftəri
- Valideyn üçün tövsiyələr




Şagird kitabında bilavasitə şagird üçün nəzərdə tutulan və kurikulumda təsbit olunmuş müvafiq məzmun standartlarını reallaşdıran tədris materialları əks olunur. Digər üç komponent şagird kitabının məzmunu ilə bağlıdır.

Dərsliyin 1-ci yarımil üçün nəzərdə tutulan hissəsi 4 bölmədən ibarətdir. Hər bir bölmə titul səhifəsi ilə başlayır və ümumiləşdirici təkrar üçün nəzərdə tutulmuş səhifə ilə bitir. Bölməyə daxil olan

mövzular yeni səhifədən başlayır. Hər bir dərsə aid olan sual və tapşırıqlar əlifba sırası ilə düzülmüşdür.

Hüsnxət, söz ehtiyatı, orfoqrafiya və dil qaydaları üzrə tədris materialları dərslikdə rubrikalar şəklində təqdim olunur:

***Söz ehtiyatı.*** *Bu rubrikada sözlərlə yanaşı, frazeoloji (ah çəkmək) və terminoloji (kosmik gəmi) ifadələr də verilir.*

• Söz boğçası •

- qida
- məhsul
- vitamin
- menyu

***Orfoqrafiya.*** *Burada şagirdlərin diqqəti sözlərin deyilişi ilə yazılışı arasındakı fərqə yönəldilir.*

• Sözlərin yazılışı •

| Doğru | Yanlış |
|---|---|
| mikrob | mikrop |
| mikroskop | mikraskop |

***Hüsnxət.*** *Hərflərin konfiqurasiyası və digər hərflərlə birləşməsinə aid nümunələr verilir.*




***Əsas anlayışlar.*** *Dil qaydaları və bəzi filoloji anlayışların açıqlaması verilir.*




İş dəftəri. Şagird kitabında verilmiş məzmunun şagirdlər tərəfindən daha dərindən mənimsənilməsi üçün iş dəftərində sual və tapşırıqlar verilir. Burada hər dərs üçün bir səhifə ayrılmışdır. Qazanılmış bilik və bacarıqların təkmilləşdirilməsi, praktik vərdişlərin formalaşdırılması üçün iş dəftəri xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə də yazı ilə bağlı məzmun standartlarının reallaşdırılmasında ağırlıq yükü iş dəftərinə düşür. İş dəftəri eyni zamanda formativ qiymətləndirməyə, təlim prosesinin monitorinqinə və şagirdin inkişaf dinamikasının izlənilməsinə imkan verir.




Müəllimlər üçün nəzərdə tutulan metodik vəsait ümumi (giriş) hissədən və dərslərin şərhindən ibarətdir. Ümumi hissədə dərsliyin məzmun-struktur və metodoloji konsepsiyası əks olunur.

Hər bir bölmənin girişində bölmədəki tədris materiallarının icmalı və dərslik komponentləri üzrə bölmənin məzmun xəritəsi verilir.

Hər bir dərsin şərhində aşağıdakı məqamlar öz əksini tapır:

- məzmun standartlarından çıxan təlim nəticələri;
- dərs üçün lazım olan əlavə resurslar və köməkçi vasitələr;
- dərsin qısa planı;
- mövzuya yönəltmə (motivasiya) üzrə tövsiyələr;
- təlim texnologiyaları üzrə tövsiyələr;
- tapşırıqların məqsədi və şərhi;
- formativ qiymətləndirmə üçün meyarlar və materiallar;
- növbəti dərsə hazırlıq.



Dərslərin şərhi məzmun xətlərinə əsaslanan struktura malikdir. Şərh olunan tapşırıq və fəaliyyətlər bu prinsipə əsasən qruplaşdırılır. Bundan əlavə, şərhlər müəyyən haşiyə-rubrikalarla müşayiət olunur. “Müəllimin nəzərinə!” rubrikasında bəzi tədris materialları ilə bağlı ümumi elmi-metodoloji məsələlər daha dərindən açıqlanır, eləcə də tədris prosesində ortaya çıxa bilən bəzi problemlərin həlli üçün yollar göstərilir. “Diferensial təlim” rubrikasında bilik və bacarıq səviyyəsi kəskin fərqlənən şagirdlərlə iş üsullarının tətbiqi üzrə tövsiyələr verilir.

Valideyn bələdçisi. Dərslik komplektində valideyn üçün vəsaitin yer alması Azərbaycanda ilk təcrübədir. Təqdim olunan vəsaitdə valideynlər üçün psixoloji və pedaqoji tövsiyələrə geniş yer verilmişdir:

– şagirdin məktəbə intellektual, fiziki, psixoloji hazırlığı (gigiyena, təhlükəsizlik, özünüidarə, ruhi və fiziki sağlamlıq məsələləri);

– şagirdin məktəb şəraitinə adaptasiyası;

– valideynlə müəllim arasında şagird barədə informasiya mübadiləsi və s.




Müasir dövrdə təhsilin məzmunu, təlim texnologiyaları sürətlə inkişaf edir, dəyişir və valideyn öz uşağının dərsliyində ona tanış olmayan məqamlarla rastlaşır. Sözsüz ki, bu, valideyndə narahatlıq, bəzən də etiraz doğurur (“Bunu heç mən də bilmirəm, uşaq haradan bilsin?!”) Bu problemləri aradan qaldırmaq məqsədilə vəsait valideynləri “Azərbaycan dili” və “Riyaziyyat” dərsliklərinin ümumi məzmunu, yeni metodikalar və çalışma modelləri ilə tanış edir.

## 3. Dərsliyin strukturu və təlim konsepsiyası

Bölmə-fəsil-dərs

Dərslik 8 bölmədən ibarətdir: 1. Ailə və məktəb. 2. Təhlükədən qorunaq. 3. Sağlam həyat. 4. Təbiətin sirləri. 5. Nağıllar aləmində. 6. Vətənim Azərbaycan. 7. Yaxşı nədir, pis nədir. 8. Dünyanı kəşf edirəm.




Hər yarımil üçün 4 bölmə nəzərdə tutulmuşdur. Hər bir bölmədə təqdim olunan tədris materialları vahid mövzu və ideya (konsept) ilə bağlıdır.

Bölmənin titul səhifəsi yalnız dizayn elementi olmayıb, həm də bölmənin ilk dərsi üçün tədris materiallarını ehtiva edir. Dinləmə və danışma üçün nəzərdə tutulan bu səhifə eyni zamanda bölməyə hazırlığa və diaqnostik qiymətləndirməyə xidmət edir. Bölmədə sonuncu dərs müvafiq tədris vahidi üzrə ümumiləşdirici təkrar üzərində qurulur.

Hər bir bölmə fəsillərə, fəsillər isə dərslərə bölünür.

Fəsildə bütün məzmun xətləri əhatə olunur. Əsas fəaliyyət oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır. Mətnlər mövzunun daha dərindən və hərtərəfli dərk edilməsinə, müqayisə və ümumiləşdirmələr aparmağa xidmət edir. Yaradıcılıq fəaliyyəti tələb edən sonuncu dərsdə şagirdlərə mövzu ilə bağlı layihə tapşırığı verilə bilər.

Dərslər bir qoşasaat (2 dərs saatı – 90 dəq) üçün nəzərdə tutulmuşdur. Hər bir dərs fəslin yalnız bir hissəsini əhatə etsə də, bitkin kompozisiyaya malikdir. Dərslikdə və iş dəftərində dərslər ərəb rəqəmləri ilə, hər bir dərsə aid tapşırıqlar isə əlifba ardıcıllığı ilə sıralanmışdır.

Tədris vahidinin konsepti: mövzu-bacarıq-bilik-kompetensiya vəhdəti

Müasir dərslik müvafiq fənn kurikulumunda təsbit edilmiş məzmun standartlarını reallaşdırmaqla yanaşı, şagirddə müəyyən kompetensiyalar (dəyər, münasibət) formalaşdırmalıdır. Bu baxımdan hər

hansı tədris vahidi (bölmə və ya fəsil) üçün mövzu seçilərkən müəlliflər həmin vahidin konseptini (ümumi ideyasını), yəni tədris ediləcək nitq bacarıqları və dil qaydaları ilə yanaşı, şagirdlərdə formalaşdırılacaq kompetensiyaları müəyyənləşdirməyə çalışmışlar.




Bu yanaşmanı 2-ci bölmənin nümunəsində nəzərdən keçirək:

| Mövzu | | **Təhlükədən qorunaq** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | Şəkil üzrə danışma, nitq etiketləri |
| | Söz ehtiyatı | təhlükə, zəlzələ, xilasedici, məişət, təmir, işarə, qadağa, göstəriş, məlumat, xəbərdarlıq, dəbilqə, respirator, şlanq, hava balonu, yanğınsöndürən, işıqfor, yeraltı keçid, yerüstü keçid, piyada zolağı, səki, kəsici alət, elektrik cihazı, çoban, sürü, halqa, qolçaq |
| | Oxu | • Komiksləri müşayiət edən söz birləşmələri və qısa cümlələrin oxunması<br>• Kitabın başlıq, illüstrasiya və s. elementlərindən çıxış edərək məzmununun təxmin edilməsi |
| | Yazı | D, Y, O, Ö, S, Ş, U, Ü, K, P, V, E, G, Ğ hərflərinin hüsnxət normalarına uyğun yazılışı |
| Akademik biliklər | Dil qaydaları | • Cümlənin əlamətləri<br>• Cümlənin məqsəd və intonasiyaya görə növləri |
| | Filoloji anlayışlar | müəllif, başlıq, mövzu, cild, nöqtə, sual işarəsi, nəqli cümlə, sual cümləsi |
| Kompetensiyalar | | • Oxu mədəniyyəti, kitaba maraq və sevgi<br>• Təhlükəni qabaqlamaq, özünü və başqalarını qorumaq |

Təlim materiallarının saatlar üzrə bölgüsü

1-ci sinifdə Azərbaycan dili üzrə dərs saatlarının sayı həftədə 9 saat olmaqla 33 həftə üçün 297 saat təşkil edir. Qeyd edildiyi kimi, dərslikdə təqdim olunan hər dərs bir qoşasaat üçün nəzərdə tutulmuşdur. Hər tədris ili üçün təqvim planı fərqli olduğundan birsaatlıq dərslərin təlim materiallarının ardıcıllığındakı yerini qabaqcadan təyin etmək mümkün deyil. Ona görə də dərslikdə birsaatlıq dərslər üçün xüsusi tədris materialları nəzərdə tutulmamışdır. (Yalnız iş dəftərlərində verilmiş I və II yarımil üzrə təkrar materiallar sonuncu birsaatlıq dərslər üçün nəzərdə tutulub.) İl ərzində bu dərslərin sayı 33 dərs-saat təşkil edir. Müəllimlərə həmin saatlarda dərsi aşağıdakı fəaliyyətlər üzrə qurmaq tövsiyə olunur:

1) həftə ərzində gözlənilən səviyyədə reallaşmamış təlim nəticələri üzrə iş;
2) dərslərdə aşağı nəticələr göstərən şagirdlərlə diferensial təlimin təşkili;
3) müxtəlif tipli imla mətnlərinin yazılması;

4) “Söz boğçası” ilə iş;
5) rollu oyun;
6) sinifdənxaric oxu;
7) həftə ərzində keçilmiş materiallar üzrə formativ qiymətləndirmə və özünüqiymətləndirmənin təşkili.

Bölmə və fəsillərin saatlar üzrə bölgüsü aşağıdakı kimidir.

**1-ci yarımil**

| | Fəsil | Dərs | Saat |
|---|---|---|---|
| 1-ci bölmə. AİLƏ VƏ MƏKTƏB | | | |
| 1 | Mənim ailəm | 4 | 8 |
| 2 | Məktəb bazarlığı | 4 | 8 |
| 3 | Babanın hədiyyəsi | 3 | 6 |
| 4 | Ramin və dostları | 3 | 6 |
| 5 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| | 1-ci bölmə üzrə cəmi | 15 | 30 |
| 2-ci bölmə. TƏHLÜKƏDƏN QORUNAQ | | | |
| 1 | Diqqət! Təhlükə! | 4 | 8 |
| 2 | Yanğın | 3 | 6 |
| 3 | Yolda təhlükə | 3 | 6 |
| 4 | Evdə təhlükə | 3 | 6 |
| 5 | Xilasedicilər | 3 | 6 |
| 6 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| 2-ci bölmə üzrə cəmi | | 17 | 34 |
| 3-cü bölmə. SAĞLAM HƏYAT | | | |
| 1 | Gün rejimi | 4 | 8 |
| 2 | İdman | 4 | 8 |
| 3 | Gigiyena qaydaları | 4 | 8 |
| 4 | Sağlam qida | 5 | 10 |
| 5 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| 3-cü bölmə üzrə cəmi | | 18 | 36 |
| 4-cü bölmə. TƏBİƏTİN SİRLƏRİ | | | |
| 1 | Göyqurşağı | 4 | 8 |
| 2 | İlbiz | 4 | 8 |
| 3 | Göbələk | 4 | 8 |
| 4 | Bozqulaq | 5 | 10 |
| 5 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| 4-cü bölmə üzrə cəmi | | 18 | 36 |
| CƏMİ | | 68 | 136 |

**2-ci yarımil**

| | Fəsil | Dərs | Saat |
|---|---|---|---|
| 5-ci bölmə. NAĞILLAR ALƏMİNDƏ | | | |
| 1 | Nağılçılar | 5 | 10 |
| 2 | Xəyal dünyası | 4 | 8 |
| 3 | Biləndərin macəraları | 4 | 8 |
| 4 | Heyvanlar haqqında nağıllar | 3 | 6 |
| 5 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| | 5-ci bölmə üzrə cəmi | 17 | 34 |
| 6-cı bölmə. VƏTƏNİM AZƏRBAYCAN | | | |
| 1 | Vətən nədir? | 4 | 8 |
| 2 | Vətənimizi tanıyaq | 4 | 4 |
| 3 | Vətənimizi sevək | 4 | 8 |
| 4 | Çağırır vətən! | 3 | 6 |
| 5 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| 6-cı bölmə üzrə cəmi | | 16 | 32 |
| 7-ci bölmə. YAXŞI NƏDİR, PİS NƏDİR | | | |
| 1 | Ana məhəbbəti | 4 | 8 |
| 2 | Qaragözün macərası | 4 | 8 |
| 3 | Mərhəmət | 4 | 8 |
| 4 | Dostluq | 3 | 6 |
| 5 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| 7-ci bölmə üzrə cəmi | | 16 | 32 |
| 8-ci bölmə. DÜNYANI KƏŞF EDİRƏM | | | |
| 1 | Keçmişə səyahət | 4 | 8 |
| 2 | Çörək | 4 | 8 |
| 3 | Cizgi filmləri | 4 | 8 |
| 4 | Kosmos | 3 | 6 |
| 5 | Ümumiləşdirici təkrar | 1 | 2 |
| 8-ci bölmə üzrə cəmi | | 16 | 32 |
| CƏMİ | | 65 | 130 |

Beləliklə, dərslik komplektində 1-ci yarımil üçün 68 dərsin materialları öz əksini tapmışdır. 17 həftə üçün nəzərdə tutulmuş bu təhsil mərhələsində dərslərin ümumi sayı isə 85-dir (68 qoşasaat + 17 tək saat).

2-ci yarımildə verilən materiallar isə 65 dərs üçün nəzərdə tutulmuşdur. Bu yarımildə dərslərin ümumi sayı (sərbəst dərslərlə birlikdə) 81-dir (65 qoşasaat + 16 tək saat)

## 4. 1-ci sinifdə Azərbaycan dilinin tədrisi
**(məzmun standartları və onların şərhi)**

### Dinləmə

Dinləmə şifahi nitqin qavranılması, beyində mənalandırılmasıdır. Məktəbə gedənə qədər şagirddə fiziki vərdiş şəklində formalaşan bu bacarıq dərs şəraitində sistemli şəkildə inkişaf etdirilir. Şagirdlərdə sürətli oxu vərdişi formalaşana qədər istənilən verbal məlumat onlara, əsasən, şifahi nitq vasitəsilə çatdırılır. Odur ki 1-ci sinif şagirdinin dinləmə bacarığının inkişafı xüsusi əhəmiyyət kəsb edir. İlk dərslərdən uşaqlar anlamalıdırlar ki, sinifdə səslənən istənilən fikrə onların bu və ya digər şəkildə reaksiyası vacibdir, ona görə də onlar müəllimi və sinif yoldaşlarını diqqətlə dinləməlidirlər.

Dinləmə və oxu informasiya qəbul etməyə yönəlmiş reseptiv bacarıqlardır. Oxu bacarığının tam formalaşmadığı dövrdə oxuyub-qavrama üzrə bir çox təlim nəticələri (mətndə zaman, məkan, şəxs, hadisə ilə bağlı məqamların aydınlaşdırılması, mətndəki əsas fikrin müəyyən edilməsi, hadisələrin ardıcıllığının müəyyənləşdirilməsi və s.) dinləmə bacarığının köməyi ilə reallaşır. Belə ki, dərslikdə maksimum qrafik, minimum verbal şəkildə təqdim olunan informasiya müəllimin səsləndirdiyi dinləmə mətnləri vasitəsilə zənginləşdirilərək şagirdə çatdırılır.

**1.1.1. Dinlədiyi sadə fikrin mahiyyətini şərh edir.**
*• Dinlədiyi suallara adekvat cavab verir.*
*• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir.*
*• Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır.*
*• Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını şəkillərin köməyi ilə müəyyən edir.*
*• Şəklə baxaraq dinlədiyi mətni genişləndirir və şərh edir.*

**1.1.2. Dinlədiyi fikrə münasibətini bildirir.**
*• Dinlədiyi fikirlə razılaşıb-razılaşmadığını bildirir.*
*• Dinlədiyi mətndəki obraza və ya onun hərəkətinə münasibət bildirir.*
*• Bildiyi faktlara əsaslanaraq dinlədiyi məlumata münasibət bildirir.*
*• Dinlədiyi ilə bildiyi məlumatları müqayisə edib nəticə çıxarır.*

### Danışma

Danışma da dinləmə kimi şifahi nitq bacarığıdır. Lakin dinləmədən fərqli olaraq danışma reseptiv deyil, ekspressiv bacarıqdır və onun mahiyyəti bildiklərini, düşündüklərini və hiss etdiklərini şifahi nitq vasitəsilə ifadə etməkdir.

Danışma bacarığının inkişafına şəkillərin təsvirindən başlamaq məqsədəuyğundur. Bunun üçün dərslikdə müxtəlif kompozisiyalı şəkillər verilmişdir. İlkin mərhələdə şagirdlər bu şəkillər üzrə konkret suallara cavab verirlər. Daha sonra onlar rabitəli nitq quraraq şəkli bütövlükdə təsvir edirlər.

Danışma bacarığının inkişafında üç mərhələni qeyd etmək olar:

1) gördüyünü (şəkli, hadisəni) sözlə təsvir etmək və ya nəql etmək;

2) aldığı məlumatı (dinlədiyini, oxuduğunu) şərh edərək danışmaq;

3) düşündüyünü danışmaq.

Düşündüyünü danışmaq şifahi nitq bacarığının inkişafında daha ali mərhələdir. Bunun üçün şagirdin mənəvi dəyərlər haqqında təsəvvürləri, müəyyən məlumat dairəsi və kifayət qədər söz ehtiyatı olmalıdır. Bununla belə, bu bacarıq da ilk günlərdən formalaşdırılmalı və inkişaf etdirilməlidir.

Danışma bacarığını inkişaf etdirmək üçün sinifdə müzakirələr zamanı hər bir şagirdin özünüifadəsi üçün dəstəkləyici şərait yaradılmalıdır. Bunun üçün aşağıdakılar tövsiyə olunur:

**1.2.1. Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.**
*• Şahidi olduğu hadisə haqqında danışır.*
*• Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir.*
*• Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır.*
*• Qrafik işarələri (yol nişanları və s.) cümlə şəklində ifadə edir.*
*• Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır.*
*• Həyatda gördükləri və təəssüratları haqqında danışır.*

**1.2.2. Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir.**
*• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir.*
*• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.*
*• Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir.*
*• Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır.*

• Obrazların hərəkəti və hadisələrlə bağlı uşaqlara tez-tez "Sən olsaydın, nə edərdin?" sualı verilir. Belə olduqda problem uşağın şəxsi müstəvisinə keçir və onda danışmaq həvəsi yaranır.

• Daha çox açıqtipli düşündürücü suallar verilir. Bu suallar "Səncə, ..." ifadəsi ilə başlasa, daha yaxşı olar. Hər bir uşaq hiss etməlidir ki, onun fikri ətrafdakılar üçün əhəmiyyətlidir.

• Hər bir şagirdin fikrinə, yanlış olsa belə, hörmətlə yanaşılmalıdır. Yanlış danışmaq yox, heç danışmamaq pislənməlidir.

• Verilən suallar müvafiq yaş qrupunun maraq dairəsinə yaxın olmalıdır.

• Suala cavab vermək üçün şagirdə fürsət, cəsarət və kifayət qədər vaxt verilməlidir.

**Söz ehtiyatı**

Şagirdlərin söz ehtiyatının zənginləşməsi, ilk növbədə, mətnlərin oxusu və həmin mətnlərlə iş prosesində baş verir. Belə ki, mətnin tam qavranılması üçün oradakı söz ehtiyatının mənimsənilməsi vacibdir. Məhz buna görə də Azərbaycan dili fənn kurikulumunda "Söz ehtiyatı" standartı "Oxu" məzmun xətti daxilində verilmişdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, söz ehtiyatı digər nitq bacarıqlarında, xüsusilə danışma və yazıda da böyük əhəmiyyət kəsb edir. Şagirdin söz ehtiyatının zənginliyi onun ekspressiv bacarıqlarının, eləcə də ümumi intellektinin təzahürü və qiymətləndirilməsi üçün əsas göstəricidir.

Dərslikdə yeni sözlər "Söz ehtiyatı" rubrikasında təqdim olunur. Şagirdlərin oxu və intellektual bacarıqlarının lazımi səviyyədə inkişaf etmədiyini nəzərə alaraq dərslikdə bu sözlərin leksikoqrafik izahı verilmir. Müəllim bu sözlərin izahı üçün sinfin səviyyəsinə uyğun forma seçməlidir:

– sözə uyğun şəkil nümayiş etdirmək;
– şagirdlərin leksikonuna daxil olan yaxınmənalı sözlərdən istifadə etmək;
– sözü cümlədə işlətməklə izah etmək;
– anlayışın əlamətlərini sadalamaq;
– anlayışın aid olduğu ümumi məna qrupunun adını çəkmək (kenquru – heyvan);
– izah üçün situasiyalar xatırlatmaq, nümunələr gətirmək və s.

"Söz boğçası". Sinifdə "Söz xəzinəsi" adlı bir guşə yaratmaq tövsiyə olunur. Bu guşədə valideynlərin köməyi ilə hazırlanmış qutu, kiçik sandıq və ya boğça yerləşdirilir. Hər bir mövzu ilə bağlı mənimsədilmiş yeni sözlər kartlara yazılaraq "Söz boğçası"na atılır. Lakin bundan əvvəl sözün yalnız leksik mənası deyil, orfoqrafiyası, qrammatik mənası (ad, əlamət, say, hərəkət bildirməsi) şagirdlərə mənimsədilir. Yaxşı olar ki, "Söz boğçası" guşəsi qırmızı və yaşıl rəngli iki boğçadan ibarət olsun. Sözlər şagirdlər tərəfindən tam mənimsənilməyibsə, qırmızı boğçaya, hamı tərəfindən kompleks təhlil olunursa, yaşıl boğçaya yerləşdirilir.

**1.2.3. Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır.**
*• Sualı cavablandırarkən fikrini əsaslandırır.*
*• Şəkillər üzrə təxəyyülünə uyğun kiçik dialoq qurub danışır.*
*• Dialoq zamanı mövzuya uyğun fikir yürüdür.*
*• Dialoqlarda situasiyaya uyğun sadə nitq etiketlərindən istifadə edir.*
*• Dialoqlarda situasiyaya uyğun mimika və jestlərdən istifadə edir.*
*• Rollu oyun zamanı obrazın xarakterinə uyğun mimika və jestlərdən istifadə edir.*
*• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür.*

**2.1.1. Sözləri müvafiq anlayışla əlaqələndirir.**
*• Mətndən tanış olmadığı sözləri seçir.*
*• Sözün ifadə etdiyi şəkli müəyyən edir.*
*• Sözün aid olduğu ümumi məna qrupunu müəyyən edir.*
*• Eyni məna qrupuna aid olan sözləri müəyyən edir.*
*• Sözün ifadə etdiyi anlayışın əsas əlamətlərini sadalayır.*
*• Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir.*
*• Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır.*

**2.1.2. Sözü cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir.**
*• Sözü cümlədə mənasına uyğun işlədir.*
*• Cümlədə buraxılmış sözü müəyyən edir.*
*• Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir.*

**2.1.3. Yaxınmənalı və əksmənalı sözləri müəyyənləşdirir.**
*• Yaxınmənalı sözləri müəyyənləşdirir.*
*• Cümlədəki sözü yaxınmənalı analoqu ilə əvəz edir.*
*• Sözlərdə əks məna yaradan əlamətləri müəyyən edir.*
*• Sözün əksmənalı qarşılığını müəyyən edir.*

**2.1.4. Mətndən seçilmiş sadə bədii ifadələri (bənzətmə, mübaliğə) izah edir.**
- *Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır.*
- *Mübaliğədə şişirdilmiş əlamətin mahiyyətini izah edir.*
- *Bədii ifadənin yaxınmənalı qarşılığını müəyyən edir.*

Hər gün söz ehtiyatı üzrə işə 5-10 dəqiqə vaxt ayırmaqla keçilmiş sözlərin kompleks təhlilini həyata keçirmək tövsiyə olunur. Bunun üçün müxtəlif çalışma modellərindən istifadə etmək olar.

***Cümlədə işlət***. Şagirdlər söz boğçasından bir söz seçir və onu cümlədə işlətməklə mənasını anladıqlarını nümayiş etdirirlər.

***İmla yazı***. Müəllim söz boğçasındakı sözləri tələffüz edir. Şagirdlər isə həmin sözləri orfoqrafiya qaydalarına uyğun yazırlar. Beləliklə, yeni sözlərin düzgün yazılışı mənimsədilir.

***Nə bildirir?*** Söz boğçasından seçilən sözlər ad, əlamət, say, hərəkət bildirməsinə görə qruplaşdırılır.

***Hecalara ayır.*** Şagirdlər sözdəki hecaların sayını müəyyən edirlər.

Sonuncu iki göstəricini müəyyənləşdirmək üçün yazı lövhəsində çəkilmiş belə bir cədvəldən istifadə etmək olar. Şagirdlər heca sayına və qrammatik mənasına görə sözü müvafiq xanada yazırlar.

| | 1 hecalı | 2 hecalı | 3 hecalı | 4 hecalı |
|---|---|---|---|---|
| Ad bildirir | | | | |
| Əlamət bildirir | | | | |
| Hərəkət bildirir | | | | |
| Say bildirir | | | | |

***Tapın görək.*** Şagirdlərdən biri söz boğçasından bir söz çıxararaq həmin sözü izah etməyə çalışır:
- ➢ Xəstəliyə səbəb olur;
- ➢ Yuyunmadıqda bədənimizdə yaranır.
- ➢ Daha çox dırnaqlarımızda ola bilər.
- ➢ İkihecalı sözdür.
- ➢ Ad bildirir.

Digər şagirdlər isə həmin sözü (mikrob) tapmağa çalışırlar. İlk günlər müəllim bu izahlara düzəlişlər edə, şagirdlərə fikirlərini ifadə etməkdə yardımçı ola bilər.

***Söz çarxı.*** “Söz xəzinəsi” guşəsinə söz boğçaları ilə yanaşı, “Söz çarxı” deyilən fırlanan dairəvi lövhə yerləşdirilə bilər. Belə bir çarx ilə söz ehtiyatı üzrə fəaliyyəti daha maraqlı və əyləncəli etmək mümkündür. Bu fəaliyyəti qruplar arasında yarışma şəklində təşkil etmək olar. Söz boğçasından bir söz seçilir. Yarış iştirakçılarından biri çarxı hərəkətə gətirir və qrup üzvlərindən hər biri adına tuşlanan fəalliyyəti yerinə yetirir.



## Oxu

1-ci sinifdə oxu bacarığının inkişafı iki istiqamətdə baş verir:

1. İlkin oxu bacarıqlarının formalaşdırılması – yazılı şəkildə təqdim olunmuş verbal materialın (sözün, cümlənin, mətnin) səsləndirilməsi. Bu prosesin mahiyyəti hərf-səs eyniləşdirilməsindən ibarətdir.

2. Oxuyub-qavrama – səsli və ya səssiz şəkildə oxunmuş verbal materialın beyində mənalandırılması. Oxuyub-qavrama yalnız məzmunu anlamağı deyil, həm də faktlardan nəticə çıxarmağı, verbal təsviri beyində canlandırmağı, mətni təhlil etməyi və s. nəzərdə tutur. Məhz buna görə də bu bacarıq sadəcə anlama deyil, qavrama adlanır. Sözsüz ki, ilkin oxu bacarıqları olmadan qavrama baş verə bilməz. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, verbal materialın səsləndirilməsi heç də həmişə qavrama ilə nəticələnmir. Oxuyub-qavrama verbal materialın şərhi – məzmunun izah olunması və ona münasibət bildirilməsi ilə sona çatır. Bu mərhələ yazı və danışma bacarıqları ilə inteqrasiyada baş verir.

***İlkin oxu bacarıqlarının formalaşdırılması*** məktəbəqədər hazırlıq dövründə başlayır (sözün səslərə ayrılması, səslərin müvafiq hərflərlə işarə olunması). 1-ci sinifdə bu proses böyük və kiçik hərflərin uyğunlaşdırılması ilə davam etdirilir. Sonrakı addım sözlərin hecalarla oxusudur. Bunun üçün ilkin mərhələdə şəkillə ifadə oluna bilən birhecalı sözlərin (*at, it, şar, qar* və s.) seçilməsi məqsədəuyğundur. Belə olduqda şagird məna ifadə edən hərf birləşməsini – sözü oxumaqdan fərəh duyur və daha çox söz oxumağa həvəslənir.

Birhecalı sözü oxumaq 2-4 hərfi ayrı-ayrı səsləndirdikdən sonra onları birləşdirib bütöv sözü oxumaq deməkdir. Bu, kifayət qədər mürəkkəb idraki prosesdir, çünki hərf-səs eyniləşdirilməsindən başqa, həm də yaddaş tələb edir. Çoxhecalı sözlərdə bu proses bir neçə dəfə təkrar olunur. Sözsüz ki, ilkin mərhələdə oxu texnikası zəif olduğundan şagirdlər çoxhecalı sözləri hecalara ayırmaqda çətinlik çəkirlər. Ona görə də *dərsliyin birinci bölməsində oxu üçün nəzərdə tutulan tapşırıqlarda sözlər hecalara ayrılmışdır.* Bu, sözlərin oxunması (səsləndirilməsi) prosesini asanlaşdırır.

İlkin oxu bacarıqlarının formalaşdırılmasına 2.2.1 standartına aid təlim nəticələri daxildir. Bu standartın tələbinə görə, şagird söz və cümlələri düzgün oxumalıdır.

<u>Düzgün oxu</u> dedikdə aşağıdakılar nəzərdə tutulur:

✓ sözləri aydın, səlis tələffüz etmək;

✓ cümlədə sözü qrammatik cəhətdən təhrif etməmək, başqa bir sözlə əvəz etməmək;

✓ sözü, cümləni düzgün oxumadıqda öz səhvini düzəltməklə yenidən oxumaq;

✓ mətni sözlərlə deyil, rabitəli şəkildə, cümələlərin sonunda fasilə verməklə oxumaq;

✓ mətndə durğu işarələrinin tələblərinə əməl etmək.

Hərfləri yenicə mənimsəmiş şagirdin beyni hərf-səs assosiasiyasına cəlb olunur. O, hələ ki bir baxışla sözü qavramır və onu dərhal referentlə (anlayışla) əlaqələndirə bilmir. Bu mərhələdə <u>şagirdlər bilməlidirlər</u>:

– sətirlərdə sözlər soldan-sağa yazılır;

– səhifədə sətirlər yuxarıdan aşağı düzülür;

– sözlər arasında məsafə olur;

– nöqtə, sual və ya nida işarəsi cümlənin bitdiyini göstərir;

– cümlədə ilk söz böyük hərflə başlanır.

***Oxuyub-qavrama***. Hərfləri mənimsədikdən sonra təxminən 3-5 ay intensiv oxu tələb olunur ki, şagird bir baxışla sözü müəyyən anlayışın işarəsi kimi qəbul etsin. Bununla da artıq oxuyub-qavrama prosesi başlayır.

Məlumdur ki, bəşər tarixində fonoqrafik yazı – əlifba kəşf olunmamışdan əvvəl insanlar piktoqrafiyadan (şəkillər) və

**2.2.1. Oxu qaydalarına riayət etməklə düzgün oxuyur.**

*• Sözdəki səsləri müəyyənləşdirir;*

*• Sözləri hecalarla oxuyur.*

*• Oxunan mətni kitabda izləyir.*

*• Sözləri hecalamadan, bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur.*

*• Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur.*

*• Durğu işarələrini nəzərə almaqla oxuyur.*

*• Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur.*

Qeyd etmək lazımdır ki, ilk iki təlim nəticəsi "Məktəbəqədər təhsilin kurikulumu"nda öz əksini tapmışdır: uşaqlar kəsmə hərflərdən sözlər düzəldərkən bu bacarıqları nümayiş etdirirlər. 1-ci sinifdə oxu texnikası möhkəmləndirilir: şagirdlər sözün əvvəlində, sonunda və ortasında gələn səsləri fərqləndirir, bu səsləri işarə edən hərfləri göstərirlər.

ideoqrafik yazıdan (məna bildirən simvolik işarələrdən) istifadə etmişlər. Ona görə də şagirdlərdə oxu və yazı bacarıqları tam formalaşana qədər (ondan sonra da) vizual nitqin digər formalarından (qrafik informasiyadan) istifadə vacib mərhələdir. Bura aşağıdakılar daxildir:

- ətrafda gördüyü simvol və işarələri (yol hərəkəti nişanları, geyimlərdəki yarlıqlar və s.) şərh etmək;
- ictimai yerlərdə (binalarda, liftdə, ictimai nəqliyyatda) vurulmuş təhlükə və qadağa haqqında söz və işarələrin mənasını izah etmək;
- rəngləri təbiətdəki varlıqlarla (mavi – dəniz, yaşıl – ot) və ətraf aləmlə (qırmızı – qadağan, yaşıl – icazə) assosiasiya etmək;
- uşaq kitablarının cildinə və içindəki şəkillərə baxaraq kitabın məzmununu təxmin etmək;
- müxtəlif əşyalardakı (cihazlarda, oyunlarda) təlimat xarakterli sxematik məlumatları araşdırmaq;
- kompüterdəki simgə və nişanların funksiyasına bələd olmaq;
- mətnlə şəkil arasında uyğunluğu müəyyən etmək;
- mətnlə bağlı şəkil çəkmək;
- komikslərdəki şəkillərə baxmaqla qısa cümlələri genişləndirərək nəql etmək və s.

Bütün bunlar yazılı nitqin – oxunun və yazının inkişafına kömək edən amillərdir.

İlkin oxu bacarığının formalaşması mövzu üzrə iş kontekstində baş verməlidir. Bu mərhələdə dərslikdə mövzu üzrə maksimum piktoqrafik (şəkli), minimum verbal (sözlü) informasiya təqdim edilir. Beləliklə, oxu texnikası ilə (hərflərlə tanışlıq, hərf-səs eyniləşdirilməsi, hərfbəhərf oxu, hecalarla oxu və s.) oxuyub-qavrama bacarıqlarının paralel şəkildə formalaşması təmin olunur:

– şagirdlər müəyyən mövzu ətrafında söhbətə cəlb olunurlar, mövzu ilə bağlı şəkillər təqdim olunur, şagirdlər şəkil adlarını oxuyur, onunla bağlı bildiklərini danışırlar;
– məlumat şəkillər və dinləmə mətni vasitəsilə təqdim olunur, bəzi açar sözlər yazılır və onların leksik mənası və fonematik tərkibi izah olunur; şagirdlər süjetli şəkillər üzrə hekayə qurub danışır, müxtəlif maraqlı tapşırıqlarla dinlədikləri və qismən oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər;
– komikslər verilir və hər bir şəklin mahiyyətini ifadə edən qısa cümlələr təqdim olunur; şagirdlər cümlələri oxuyur, şəkillər və yönəldici suallar əsasında bu cümlələri genişləndirirlər.

**2.2.2. Nəzm və nəsri fərqləndirir.**
- *Şeirin əsas struktur elementlərini (başlıq, bənd, misra) fərqləndirir.*
- *Şeirdə qafiyələnən sözləri seçir.*
- *Şeiri nəsrə çevirərək nəql edir.*
- *Eyni məzmunda olan nəzm və nəsrlə yazılmış mətnləri müəyyənləşdirir*
- *Heca vəznli şeirdə misralardakı hecaların sayını müəyyənləşdirir.*

**2.2.3. Mətndə zaman, məkan, şəxs və hadisə ilə bağlı məqamları aydınlaşdırır.**
- *Mətn üzrə faktoloji suallara cavab verir.*
- *Əsərdəki obrazları, zaman və məkanı müəyyənləşdirir.*
- *Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir.*
- *Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir.*
- *Mətni şəkillər əsasında nəql edir.*
- *İllüstrasiya əsasında mətni genişləndirir.*
- *Bədii mətnlərdə təxəyyülü real faktlardan fərqləndirir.*
- *Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir.*

**2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir.**
- *Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir.*
- *Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir.*
- *Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir.*
- *Öz biliklərindən və mənəvi dəyərlər haqqında təsəvvürlərindən çıxış edərək mətndəki əsas fikri şərh edir.*

Beləliklə, məzmunu qavrama prosesində oxu texnikasının formalaşdırılması daha effektiv üsul hesab olunur. Bunun üçün isə şagirdlərə şifahi nitq vasitəsilə maraq dairələrinə uyğun mövzu təqdim olunmalı, verbal (sözlü) və piktorial (şəkilli) materiallarla iş zamanı yeri gəldikcə mövzu ilə bağlı sözlər, qısa cümlələr oxunmalıdır.

Oxuyub-qavramanın inkişafında aşağıdakı beş istiqaməti xüsusi olaraq qeyd etmək lazımdır:

1. Mətndəki faktoloji materialın təfərrüatı ilə qavranılması: açıq şəkildə ifadə olunan məlumatların yadda saxlanılması, əsas fikrin açılmasına xidmət edən detallara diqqət yetirilməsi və s.

2. Məntiqi oxu (nəticəçıxarma) – birbaşa ifadə olunmayan məlumatın əldə edilməsi üçün faktların tutuşdurulması, faktlar arasında səbəb-nəticə əlaqəsinin müəyyən edilməsi.
3. Müxtəlif oxu standartlarının reallaşdırılmasında mətn növlərinin (şeir, nağıl, informativ mətnlər və s.) özəllikləri.
4. Mətnin qavranılmasında struktur elementlərin (başlıq, epiqraf, yarımbaşlıq, illüstrasiya və s.) vacibliyi.
5. Oxu bacarığının formalaşmasında vizual nitqin rolu: verbal təsvirin beyində canlandırılması və qrafik informasiya şəklində təqdimatı.

**2.2.5. Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir.**

*• Mətndəki əsas hadisələri (faktları) müəyyən edir.*

*• Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir.*

*• Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir.*

*• Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir.*

*• Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir.*

*• Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir.*

*• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir.*

*• Verilmiş plan əsasında mətni hadisələrin ardıcıllığına uyğun nəql edir.*

Oxuyub-qavramaya nail olmaq üçün müəllim hər bir mətnə uyğun düzgün oxu strategiyası seçməlidir:

1. **Oxudan əvvəl**. Bu mərhələdə əsas məqsəd mətnin mövzusuna və məzmununa maraq oyatmaq, mövzu ilə bağlı təsəvvürləri fəallaşdırmaqdır.
   – Təxminetmə. Müəllim şagirdlərin diqqətini mətnin başlığına, illüstrasiyalara yönəldir və ya mətndən bir hissə oxuyur, bununla da şagirdlərdə mətnin məzmunu ilə bağlı assosiasiyalar yaratmağa çalışır, onları fərziyyələr irəli sürməyə həvəsləndirir.
   – İstiqamətləndirmə. Müəllim lövhədə suallar yazır və şagirdlərə tapşırır ki, mətni oxuyarkən bu sualları cavablandırsınlar.
   – BİBÖ. Daha çox informativ mətnlərin oxusu zamanı istifadə olunur. Müəllim mövzu ilə bağlı suallar verir, şagirdlərin cavablarını lövhədə yazır. Bilmədiklərini onların nəzərinə çatdırır və mətni oxumaqla bu suallara cavab tapacaqlarını bildirir.
   – Yeni sözlərlə tanışlıq. Mətndəki açar sözlər şagirdlərə tanış deyilsə, həmin sözlər bu və ya digər şəkildə izah olunur.
2. **Oxu zamanı.** Oxu prosesi elə təşkil olunmalıdır ki, hər bir şagird: a) prosesə cəlb olunsun, b) oxunun məqsədini dərk etsin, c) oxudan sonra nə edəcəyini dəqiq bilsin.
   – Növbəli oxu. Şagirdlər mətnin hissələrini növbə ilə səsli oxuyurlar.
   – İnteraktiv (qruplarla) oxu. Hər qrup mətnin bir hissəsini oxuyur və təqdim edir, bütövlükdə mətnin qavranılması üçün müxtəlif tapşırıqlar yerinə yetirilir.
   – Rollu oxu. Daha çox dialoji mətnlərin oxusu zamanı istifadə olunur. Obrazların nitqi şagirdlər arasında bölüşdürülür. Bu fəaliyyətdə hər kəs oxuyacağı hissəni gözlədiyi üçün yoldaşları oxuyarkən onları daha diqqətlə izləyir.
   – Proqnozlaşdırma. Daha çox süjetli mətnlərin oxusu zamanı istifadə olunur. Mətnin düyün və ya kulminasiya nöqtəsində oxu prosesi dayandırılır və müəllim: "Sizcə, bundan sonra hadisələr necə davam edəcək?" – deyə şagirdlərə müraciət edir. Şagirdlərin cavabları dinlənildikdən sonra oxu davam etdirilir və şagirdlərin versiyaları mətnlə müqayisə olunur.
   – Xəyalında canlandırma. Mətni əvvəlcə müəllim səsləndirir. Oxumazdan öncə şagirdlərə gözlərini yummağı və oxunacaq mətni xəyallarında canlandırmağı tapşırır. Mətn oxunduqdan sonra müəllim soruşur: "Xəyalınızda nə canlandırdınız? Hansı səsləri eşitdiniz? Yoldaşınızla müzakirə edin".
2. **Oxudan sonra.** Oxu prosesi bitdikdən sonra müxtəlif çalışma modelləri vasitəsilə mətnin qavranılması yoxlanılır. Oxuyub-qavramanı nümayiş etdirən fəaliyyət danışma və yazı bacarıqları ilə inteqrasiyada baş verir.
   – Hekayə xəritəsi. Mətndəki obrazlar, əsas fikir, hadisələrin baş verdiyi zaman, məkan və s. müəyyənləşdirilir.
   – Nəqletmə. Şagirdlər mətnin məzmununu nəql edirlər. (Əsasən, bədii-süjetli mətnlərə aiddir.)

– Vizuallaşdırma. Şagirdlər mətndə təsvir olunmuş varlığın şəklini çəkir və ya illüstrasiyalar arasından verbal təsvirə uyğun olanını tapırlar.
– Rollu oyun. Rollu oxu ilə rollu oyun fəaliyyətlərini qarışdırmaq olmaz. Rollu oyun oxu prosesi bitdikdən, mətnin məzmunu qavranıldıqdan sonra ssenari üzrə keçirilir. Bu zaman şagirdlər mətni oxumur, yalnız öyrəndiklərini ifa edirlər.
– Mövzu ilə bağlı esse. 1-ci sinifdə essenin həcmi çox kiçik olmalı, burada şagirdin konkret bir məsələ ilə bağlı fikri ifadə edilməlidir.
– Təqdimat. Verilmiş tapşırığa uyğun yazılı, şəkilli və ya şifahi təqdimatın hazırlanması. Tapşırıqlar müxtəlif ola bilər, lakin şagirdin yaş səviyyəsinə və maraq dairəsinə uyğunluq gözlənilməlidir:
- Obraz və hadisələrə münasibət
- “Mən olsa idim, nə edərdim?”
- Mövzu ilə bağlı araşdırma; əlavə faktların təqdimatı
- Müəllifə və ya baş qəhrəmana məktub
- Yaradıcı iş (şəkil çəkmək, plakat hazırlamaq və s.)

**Yazı**

Hüsnxət (yazı texnikası). Yazı məzmun xəttində son məqsəd şagirdlərin yazılı şəkildə informasiya təqdim etmək, öz fikir və duyğularını ifadə etmək bacarığını formalaşdırmaqdır. Hüsnxət qaydalarının öyrədilməsi son məqsəd deyil, yazıda özünüifadə bacarığının inkişafı üçün bir vasitədir. Tədris prosesində hüsnxət məşğələlərinə məhz bu aspektdən yanaşılmalıdır; şagirdlərdə ideal hüsnxət normalarının tətbiqinə yox, əlyazısının aydın, oxunaqlı və sürətli olmasına çalışmaq lazımdır.

Bununla yanaşı, nəzərə almaq lazımdır ki, hüsnxət şagirdlərdə yazı bacarığını formalaşdırmaq üçün ilk addımdır və onun müəyyən normaları olmalıdır. Aydındır ki, gələcəkdə əksər şagirdlər bu normalardan xeyli dərəcədə uzaqlaşacaqlar. Lakin ilkin dövrdə onlara yazı texnikası müəyyən standartlar əsasında öyrədilməlidir. Müasir dövrdə bu standartlar müəyyənləşdirilərkən aşağıdakı meyarlar əsas götürülür:




1. Estetik görünüş. Hərflərin konfiqurasiyası və birləşməsi əlyazısının estetik görünüşünü təmin etməlidir.
2. Funksionallıq. Hərflərin konfiqurasiyası və birləşməsi qaydaları sürətli yazıya imkan yaratmalıdır.
3. Oxunaqlılıq. Əlyazısı ilə yazılmış mətnlər anlaşıqlı olmalıdır.

Məktəbə hazırlıq dövründə şagirdlər müxtəlif şəkillər çəkir və cizgi çalışmaları icra edirlər ki, bu da onların estetik inkişafı ilə yanaşı, əl motorikasını inkişaf etdirir. Bu cür məşğələlər həm də uşaqların əlini qələmə alışdırmaq və yazı vərdişi yaratmaq məqsədi daşıyır.

Hərflərin konfiqurasiyası. Dərslikdə təklif olunan hərf konfiqurasiyalarında əvvəlki hüsnxət hərfləri ilə müqayisədə bir sıra dəyişikliklər edilmişdir ki, bu da yazının funksionallığı ilə bağlıdır. Belə bir fikir mövcuddur ki, yazıda sürəti təmin etmək üçün hərfi yazarkən qələm kağızdan ayrılmamalıdır. Təcrübə və müşahidələr göstərir ki, qələmi kağızdan ayırmadan hərfin konfiqurasiyasını tamamlamaq heç də, əvvəllər düşünüldüyü kimi, yazı sürətini artırmır, çünki 1) bu məqsədə uyğunlaşdırılan hərf konfiqurasiyaları kifayət qədər mürəkkəbdir və əksinə, yazı sürətini azaldır, 2) bütün hərfləri bu məqsədə uyğunlaşdırmaq mümkün deyil, belə ki, əlifbamızda bir çox hərflər diakritik işarələrlə (*Çç, Şş, Ğğ*), üfüqi qoşa nöqtələrlə (*Üü, Öö*) müşayiət

olunur və ya perpendikulyar xətlərdən ibarətdir (*Tt, Ff*). Bu isə istənilən halda qələmi kağızdan ayırmağa səbəb olur və yazı sürətini aşağı salır. Bu səbəbdən bir sıra hərflərin elementlərində dəyişiklik edilmiş və onlar sadələşdirilmişdir.



Estetik və funksionallıq baxımından əlyazısında problem yaradan hərflərdən biri də **v** hərfi və onun özündən sonrakı hərflə birləşməsidir. Odur ki bu hərfin konfiqurasiyasında da dəyişiklik edilmişdir.




<u>Hərflərin mailliyi</u>. Latın əlifbasından istifadə edən bir çox Qərb ölkələrinin təcrübəsi göstərir ki, hüsnxət şriftlərinin müəyyən bucaq altında maili olması vacib şərt deyil. Lakin Azərbaycanda formalaşmış hüsnxət ənənəsinə görə, əlyazısı hərfləri təxminən 20 dərəcə bucaq altında yazılır. Ölkəmizdə ibtidai sinif şagirdlərinə təklif olunan hüsnxət dəftərlərində də oriyentir şaquli xətlərin mailliyi 20-25 dərəcə arasında dəyişir. Məhz bu səbəblərdən dərslikdə təklif olunan hüsnxət normalarına görə hərflər 20 dərəcə bucaq altında yazılmalıdır.

<u>Hərflərin birləşməsi</u>. "Çap şriftlərindən fərqli olaraq əlyazısında hərflərin birləşməsi sürətli yazını təmin edir" fikri də hüsnxət haqqında formalaşmış miflərdən biridir. Sürətlə yazan bir çox yaşlı insanların əlyazısı üzərində aparılan müşahidələr göstərir ki, onlar bir çox hərfləri birləşdirmirlər. Dünya təcrübəsinə nəzər salsaq, görərik ki, ingilis pedaqoqlarının hazırladığı əlyazısı (*handwriting*) normalarına görə böyük hərflər özündən sonra gələn hərflərlə birləşmir. Türkiyə Təhsil Nazirliyinin təsbit etdiyi normalara görə isə böyük T, F, V, D, N, P hərfləri özündən sonra gələn hərflərlə birləşmir. Lakin nəzərə almaq lazımdır ki, qayda və ya normalarda istənilən istisna tədris prosesində çətinlik yaradır. Odur ki yeni hüsnxət normalarında aşağıdakı qayda tətbiq olunur:

1. Aşağıdan sağa doğru çıxıntısı olan böyük hərflər özündən sonra gələn hərflərlə birləşir:




2. Aşağıdan sağa tərəf qapalı olan böyük hərflər özündən

**3.1.1. Hərflərin elementlərini və konfiqurasiyasını müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir.**

- *Hərf elementlərini hüsnxət normalarına uyğun yazır.*
- *Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir.*
- *Cümlə yazarkən sözlər arasında ara məsafəsi saxlayır.*
- *Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür.*
- *Əlyazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür.*
- *Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür.*
- *Səslə hərfi uyğunlaşdıraraq eşitdiyi sözü yazır.*

Şagird hüsnxət normalarına yiyələndikdən sonra yazı bacarıqlarının inkişafı digər ekspressiv bacarıq olan danışmada olduğu kimi davam edir:
– alınan məlumatların yazıda ifadəsi;
– öz fikir və duyğularının yazıda ifadəsi.
Dərslikdə bu bacarıqlar 32 hərfin konfiqurasiyaları öyrədildikdən sonra (3-cü bölmədən etibarən) formalaşdırılır. Bu məqsədlə aşağıdakı məzmun standartları üzrə təlim nəticələri reallaşdırılmalıdır:

**3.1.2. Tanış olduğu məlumatları yazıda əks etdirir.**

- *Verilmiş şəklə uyğun söz və cümlələr yazır.*
- *Əzbər bildiyi nəzm nümunələri yazır.*
- *Dinlədiyi söz və cümlələri yazır.*
- *Oxuduğu mətnin qısa məzmununu yazır.*

**3.1.3. Öz fikir və duyğularını yazıda əks etdirir.**

- *Açıqca yazaraq öz arzu və hisslərini ifadə edir.*
- *Əsərin qəhrəmanına münasibətini rabitəli cümlələrlə yazıda ifadə edir.*
- *Mövzu ilə bağlı bir neçə cümlədən ibarət esse yazır.*
- *Təxəyyülünə uyğun bədii mətn yazır.*
- *Süjetli şəkillər üzrə mətn qurub yazır.*

sonra gələn hərflərlə birləşmir:

Bir, Dur, Əl, Fon, Gəl, İç, Jele, Qar, Nur
On, Öz, Pul, Sil, Şal, Tir, Var, Yön

<u>Hüsnxətdə hərflərin ardıcıllığı</u>**.** Bu ardıcıllığı müəyyən edərkən iki prinsip əsas götürülür:

1. Hərflərin işlənmə tezliyi. İlk hərflər elə seçilməlidir ki, onlardan çox söz düzəltmək mümkün olsun və beləliklə, həm keçilmiş hərflər təkrar olunsun, həm də hərflərin birləşmə qaydaları öyrədilsin.

2. Oxşar konfiqurasiyalı hərflərin yanaşı verilməsi. Bəzi hərflər bir-birindən yalnız diakritik işarəyə görə fərqlənir: **c–ç, ı–i, s–ş** və s. Onların müqayisəli şəkildə yanaşı öyrədilməsi aralarındakı fərqin daha bariz nəzərə çarpdırılmasına xidmət edir.

<u>Hüsnxət normalarının öyrədilməsi</u> aşağıdakı ardıcıllıqla baş verir:

• şagirdlərin əl motorikasını yoxlamaq və inkişaf etdirmək məqsədilə sərbəst cizgilərin çəkilməsi (nöqtələri birləşdirməklə cizgiləri tamamlamaq və s.);

• bir neçə hərfdə təkrar olunan elementlərin çəkilməsi;

• hər bir hərfin yazılışını öyrədərkən əvvəlcə kiçik, sonra böyük hərflərin yazılması (bu zaman əvvəldə nöqtələri birləşdirməklə cizgiləri tamamlamaq tapşırılır);

• əlyazısı şəklində verilmiş söz və cümlələrin köçürülməsi;

• çap hərfləri ilə verilmiş söz və cümlələrin köçürülməsi.

**3.1.4. Oxuduğu, dinlədiyi bədii və informativ mətnlərlə bağlı təqdimat edir.**

*• Bədii mətndəki obraz və hadisələr haqqında yazılı təqdimat hazırlayır.*

*• İnformativ mətndəki məlumatlar haqqında yazılı təqdimat hazırlayır.*

*• Təqdimat üçün müvafiq vizual materiallar seçir.*

*• Təqdimat zamanı verbal və qrafik informasiyadan istifadə edir.*

*• Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir.*

**3.1.5. Özünün və başqasının yazısını dəyərləndirir.**

*• Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir.*

*• Yazısına bir daha nəzər salmaqla onu təkmilləşdirir.*

*• Öz yazısı ilə bağlı başqalarının təkliflərini nəzərə alır.*

*• Başqasının yazısı ilə bağlı təkliflər edir.*

Dərslikdə hüsnxət rubrikası hərfin konfiqurasiyası ilə tanışlıq məqsədi daşıyır. Burada hərfi təşkil edən cizgiləri çəkərkən qələmin hərəkət istiqaməti oxlarla göstərilmişdir. Daha sonra müvafiq hərfin əvvəldə, ortada, sonda işləndiyi sözlərin hüsnxətlə yazılışı verilmişdir. İlk dərslərdə bu sözlər sadəcə göz yaddaşına xidmət edir və onların dəftərə köçürülməsi tələb olunmur. Müəllim şagirdlərin diqqətini yalnız əlyazısı şəklində verilən sözlərdəki müvafiq hərfə yönəldir. "D" hərfindən (2-ci bölmə) başlayaraq sözləri köçürmək tapşırığı verilə bilər. Hüsnxətlə bağlı çalışmalar, əsasən, iş dəftərində verilir.

1-ci yarımildə hüsnxət bacarıqlarının mənimsədilməsi yalnız üzündən köçürmə tapşırıqları ilə məhdudlaşmır. Bir sıra hallarda hüsnxət üzrə çalışmalar orfoqrafiya, oxuyub-anlama, söz ehtiyatı, dil qaydaları üzrə bacarıqlarla inteqrasiya olunur:

– verilmiş şəklin adını yazmaq;

– verilmiş sözlərdən uyğun gələnini seçib cümlədəki boşluğa yazmaq;

– nöqtələrin yerinə əlamət (ad, hərəkət) bildirən sözlər yazmaqla cümlələri köçürmək;

– verilmiş sözləri cümlələrdə işlədərək yazmaq və s.

Şagirdlər məktəbəqədər təhsil dövründə çap hərfləri ilə tanış olurlar və onlarda ilkin oxu bacarıqları formalaşır. Bu, 1-ci sinifdə hüsnxət normaları ilə tanışlıq prosesini daha sürətlə həyata keçirməyə imkan verir. Hərflərin konfiqurasiyalarının mənimsədilməsi 3-cü bölmənin ortalarında başa çatır. Bundan sonra hüsnxətlə yanaşı, şagirdlərin yazılı şəkildə öz fikirlərini ifadə etməsi üçün tapşırıqlar verilir. Bu mərhələyə qədər isə müəyyən tapşırıqlarda kəsmə hərflərdən istifadə edilməsi tövsiyə olunur.

## Dil qaydaları

Linqvistik qaydalar nitq bacarıqlarının ədəbi dilin normalarına uyğun inkişafına kömək edir. Ənənəvi olaraq orta məktəbdə ibtidai təhsildən başlayaraq tədris olunan dil qaydalarının istiqamətləri dilçiliyin əsas sahələrinə görə müəyyənləşdirilir:

1. Fonetika (orfoqrafiya və orfoepiya).
2. Leksikologiya (sözlərin leksik mənası).
3. Qrammatika: morfologiya və sintaksis.

Kurikulumda söz ehtiyatı "Oxu" məzmun xətti daxilində əsas standartlardan biri kimi nəzərdə tutulduğundan "Dil qaydaları" məzmun xəttində leksikologiya məsələlərinə toxunulmur.

Beləliklə, dil qaydaları ilə bağlı standartlar fonetika (orfoqrafiya, orfoepiya), morfologiya (sözün qrammatik mənası) və sintaksisə (söz birləşməsi və cümlə) dair məsələləri əhatə edir. Punktuasiya – cümlədə durğu işarələrinin işlənmə qaydaları da sintaksis bəhsində tədris olunur. Sözsüz ki, 1-ci sinifdə dilçiliyin bu sahələri üzrə yalnız ilkin anlayışlar öyrədilir.

Qeyd etmək lazımdır ki, dil qaydalarında öyrədilən bir sıra anlayışlar nitq bacarıqlarını ehtiva edən digər məzmun xətlərində tətbiq olunur; məsələn, dil qaydalarında böyük və kiçik hərfləri fərqləndirmək nəzərdə tutulursa, "Oxu" məzmun xəttində böyük və kiçik hərflərlə yazılmış sözləri hecalarla oxumaq bacarığı formalaşdırılır.

**Fonetika**. "Məktəbəqədər təhsilin kurikulumu"na görə uşaqlar məktəbə hazırlıq dövründə <u>səs və hərfi fərqləndirməyi</u> öyrənirlər. 1-ci sinifdə ilk dərslərdə bu biliklər təkrarlanır. Şagirdlər nümunələr əsasında öyrənirlər ki:

– söz səslərdən ibarətdir;

– səslər yazıda hərflərlə işarə olunur.

Şagirdlərin bir çoxu məktəbə hazırlıq dövründə böyük hərflərlə tanış olmuşlar. Ona görə ilk dərslərdə böyük hərflər təkrarlanmaqla yanaşı, kiçik hərflər də öyrədilir.

Növbəti addım heca ilə tanışlıq olmalıdır, bunun üçün isə şagirdlər <u>sait və samit səsləri fərqləndirməyi</u> bacarmalıdırlar.

1-ci sinifdə sait və samitlərlə tanışlıq empirik şəkildə, bu səs növlərinin fizioloji xüsusiyyətləri bəsit şəkildə izah olunmaqla baş verir: "Samitlərdən fərqli olaraq sait səsləri tələffüz zamanı uzatmaq olur". Doğrudur, bu izah da yetərli deyil, çünki şagirdlər bəzən "s", "ş", "z" kimi samitləri tələffüz zamanı uzatmağın mümkün olduğunu deyirlər. Ona görə də ən doğru yol 9 saitin əzbərlədilməsidir.

Sözlərin səs tərkibinə ayrılmasında digər çətinlik "ı" səsi ilə bağlıdır. Şagirdlər sözü səslərə ayırarkən samitləri "ı" səsi ilə birgə tələffüz edirlər; məsələn: ata – "a", "tı", "a". Ona görə də "arı" kimi sözlərdə "ı" səsini ayrıca vurğulamaqda çətinlik çəkirlər: "a", "rı". Bu məqamı nəzərə alaraq müəllimlər tərkibində "ı" saiti olan sözlərin səslərə ayrılmasına xüsusi diqqət yetirməlidirlər.

**4.1.1. Sait və samit səsləri fərqləndirir.**
*• Eşitdiyi sözdəki səsləri və onları işarə edən hərfləri müəyyən edir.*
*• Sait və samit səsləri sadalayır və onların yazıda hansı hərflə işarə olunduğunu müəyyən edir.*
*• Verilmiş sözdə sait və samit bildirən hərfləri fərqləndirir.*
*• "K" hərfinin işarə etdiyi [k`] və [k] samitlərini fərqləndirir.*

**4.1.2. Sözləri hecalara ayırır.**
*• Sözdəki saitlərə əsasən hecaların sayını müəyyən edir.*
*• Sözü təşkil edən hecaları müəyyən edir.*

**4.1.3. Yazıda sadə orfoqrafik qaydalara əməl edir.**
*• Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir.*
*• Sözdəki orfoqramı (deyilişi və yazılışı fərqlənən hərfi) müəyyənləşdirir.*
*• Cümlədə ilk sözü böyük hərflə yazır.*
*• Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır.*
*• Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir.*

**4.1.4. Hərfləri əlifba sırası ilə sadalayır.**
*• Hərfləri öz adı ilə (be, ke, ka, el, em və s.) adlandırır.*
*• Hərfin əlifba sırasındakı yerini müəyyən edir.*
*• Sözləri əlifba sırası ilə düzür.*

Şagirdlər orfoqrafiya biliklərini yazı vasitəsilə nümayiş etdirirlər. Lakin ilk bölmələrdə bunu kəsmə hərflər vasitəsilə də etmək olar.

Sait və samitlər haqqında məlumat verildikdən sonra şagirdlərdə heca haqqında təsəvvür yaradılır. Bu terminin tərifi 1-ci sinif şagirdləri üçün də kifayət qədər anlaşılandır: "Heca – tələffüz zamanı sözün asanlıqla bölünən hissəsidir".

"Heca" anlayışının mənimsədilməsinin "Oxu" və "Yazı" məzmun xətləri üçün praktik əhəmiyyəti var:

1) "Oxu"da – səs-hərf eyniləşdirilməsi mərhələsində sözün hecalarla oxunması;

2) "Yazı"da – cümlə və mətnlər yazarkən sözün sətirdən sətrə keçirilməsi.

Sözün sətirdən-sətrə keçirilməsi növbəti siniflərin tədris mövzusu olsa da, hecalarla oxunun 1-ci sinif üçün böyük əhəmiyyəti var.

**Sintaksis.** Dərslikdə 2-ci bölmədən etibarən oxumaq üçün kiçik mətnlər verilir. Bu mərhələdən başlayaraq şagirdlərə cümlə haqqında bir sıra qaydaların mənimsədilməsi vacibdir. Şagirdlər cümlənin bir sıra formal əlamətlərini tanımalıdırlar ki, mətnin oxusu zamanı çətinlik çəkməsinlər:

– cümlədə ilk söz böyük hərflə başlanır;

– cümlənin sonunda nöqtə, sual və ya nida işarəsi qoyulur.

**Morfologiya**. Ənənəvi olaraq ibtidai təhsilin ilk pillələrində morfoloji terminlərin (isim, sifət, feil və s.) adı çəkilmədən ad, əlamət, hərəkət bildirən sözlər haqqında məlumat verilir. Lakin say bildirən sözlər riyaziyyat fənnində də keçildiyinə və şagirdlər tərəfindən asan mənimsənildiyinə görə bu nitq hissəsi də təqdim olunan dərslikdə öz əksini tapmışdır.

Adıçəkilən nitq hissələrinin mahiyyəti müvafiq sözlərə sual verməklə (*kim? nə? hara? necə? neçə? nə qədər? nə etdi?* və s.), əsasən, kontekstdə (cümlə daxilində) açıqlanır.

Beləliklə, dərslikdə ilk 3 bölmədə dil qaydaları üzrə aşağıdakı terminlər haqqında ilkin təsəvvür yaradılır:

| 1-ci bölmə | 2-ci bölmə | 3-cü bölmə |
|---|---|---|
| • Səs, hərf<br>• Söz<br>• Sait, samit<br>• Heca | • Cümlə<br>• Nəqli cümlə<br>• Sual cümləsi<br>• Nöqtə<br>• Sual işarəsi | • Ad bildirən sözlər<br>• Əlamət bildirən sözlər<br>• Hərəkət bildirən sözlər<br>• Say bildirən sözlər |

**4.1.5. Ad, əlamət, say və hərəkət bildirən sözləri tanıyır və fərqləndirir.**

*• Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır.*

*• Verilmiş əlamət və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir.*

*• Varlığı səciyyələndirmək üçün əlamət, say və hərəkət bildirən sözlərdən istifadə edir.*

*• Adıçəkilən varlıqlara xas olan hərəkətləri sadalayır.*

*• Mətndən çıxış edərək eyni sözün ad, əlamət bildirən mənalarını fərqləndirir.*

**4.1.6. Cümləni tanıyır və əsas əlamətlərini sadalayır.**

*• Cümləni formal əlamətlərinə görə (ilk sözün böyük hərflə yazılması, sonda müvafiq durğu işarəsinin qoyulması) tanıyır.*

*• Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur.*

*• Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir.*

**4.1.7. Cümlə sonunda müvafiq durğu işarələrindən istifadə edir.**

*• Nəqli və sual cümlələrini fərqləndirir.*

*• Cümlənin məqsəd və intonasiyasından asılı olaraq onu müvafiq durğu işarəsi ilə tamamlayır.*

# BÖLMƏLƏR ÜZRƏ NƏZƏRDƏ TUTULAN

| Bölmə/fəsil | Dinləmə | Danışma | Söz ehtiyatı |
|---|---|---|---|
| **1. AİLƏ VƏ MƏKTƏB**<br>• Mənim ailəm<br>• Məktəb bazarlığı<br>• Babanın hədiyyəsi<br>• Raminin dostları | • Dinlənilən sualın adekvat cavablandırılması<br>• Dinlənilən mətn üzrə faktoloji sualların cavablandırılması | • Şəklin sözlə təsviri<br>• Vizual informasiyanın şəxsi həyatla əlaqələndirilməsi<br>• Situasiyaya uyğun nitq etiketinin seçilməsi<br>• Süjetli şəkil kompozisiyası üzrə mətnin qurulması<br>• Sualı cavablandırarkən fikrin əsaslandırılması | • Sözün ifadə etdiyi şəklin müəyyənləşdirilməsi<br>• Şəkildəki yeni əşya və hadisələrin adlandırılması<br>• Qohumluq bildirən sözlər<br>• Məktəb əşyalarının adları<br>• Məşğuliyyətlə (hobbi) bağlı sözlər |
| **2. TƏHLÜKƏDƏN QORUNAQ**<br>• Diqqət! Təhlükə!<br>• Yanğın<br>• Yolda təhlükə<br>• Evdə təhlükə<br>• Zəlzələ | • Dinlənilən fikirdəki əsas məqamların şərh edilməsi<br>• Faktlara əsaslanmaqla dinlənilən məlumata münasibətin bildirilməsi | • Həyatda gördükləri və təəssüratları haqqında danışma<br>• Sualları cavablandırarkən fikrin əsaslandırılması<br>• Alınan məlumatların rabitəli mətn şəklində şifahi təqdim edilməsi<br>• Qrafik işarələrin cümlə şəklində ifadə edilməsi<br>• Dialoqlarda situasiyaya uyğun sadə nitq etiketlərindən istifadə edilməsi | • Mövzu ilə bağlı açar sözlərin seçilməsi<br>• Cümlədə buraxılmış sözün müəyyən edilməsi<br>• Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışma<br>• yol hərəkəti qaydaları ilə bağlı sözlər<br>• Yanğın, zəlzələ, məişət təhlükəsizliyi ilə bağlı sözlər |
| **3. SAĞLAM HƏYAT**<br>•Gün rejimi<br>•İdman<br>•Gigiyena qaydaları<br>•Sağlam qida | • Dinlənilən mətn üzrə faktoloji sualların cavablandırılması<br>• Şəkillərin köməyi ilə dinlənilən mətnin genişləndirilməsi və şərh edilməsi | • Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışma<br>• Əsərdəki obrazların sadə formada təhlil edilməsi və onlara münasibət bildirilməsi<br>• Verilmiş mövzu ilə bağlı şifahi təqdimatın hazırlanması<br>• Dialoq zamanı mövzuya uyğun fikrin yürüdülməsi<br>• Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışma | • Şifahi nitqdə yeni öyrənilən sözlərdən istifadə olunması<br>• Yeni öyrənilən sözlərlə onların izahlarının uyğunlaşdırılması<br>• Yeni öyrənilən sözlərin şəxsi həyatla əlaqələndirilərək cümlədə işlədilməsi (sağlamlıq, gigiyena, idman və s.) |
| **4. TƏBİƏTİN SİRLƏRİ**<br>• Göyqurşağı<br>• İlbiz<br>• Göbələk<br>• Bozqulaq | • Dinlənilən mətn üzrə faktoloji sualların cavablandırılması<br>• Dinlənilən fikirdəki əsas məqamların şərh edilməsi | • Dinlənilən və ya oxunan mətnin təxəyyülə uyğun davam etdirilməsi<br>• Şəkillər üzrə təxəyyülə uyğun kiçik dialoq qurub danışma<br>• Oxunan mətnin təxəyyülə uyğun dəyişdirilməsi | • Yaxınmənalı və əksmənalı sözlərin müəyyənləşdirilməsi<br>• Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətlərin sadalanması<br>• Bədii ifadənin yaxınmənalı qarşılığının müəyyən edilməsi |

# ƏSAS TƏLİM MƏQSƏDLƏRİ (**1-ci YARIMİL**)

| Oxu | Yazı | Dil qaydaları |
|---|---|---|
| • Sözdəki hərflərin düzgün ardıcıllığının müəyyənləşdirilməsi<br>• Sözün hecalarla oxunması<br>• Sözlərin müvafiq anlayışla əlaqələndirilməsi<br>• Həqiqi və xəyali hadisələrin fərqləndirilməsi<br>• Cədvəl şəklində təqdim olunmuş mətn üzrə faktoloji sualların cavablandırılması | • Hərf elementlərinin hüsnxət normalarına uyğun yazılması<br>• Hərf konfiqurasiyalarının hüsnxət normalarına uyğun yazılması və bitişdirilməsi<br>• Verilmiş şəkil adlarının yazılması | • Sözün səslərə ayrılması<br>• Eyni səsi işarə edən böyük və kiçik hərflərin uyğunlaşdırılması<br>• Səslərin hərflərlə işarə olunması<br>• "K" hərfinin işarə etdiyi səslərin fərqləndirilməsi<br>• Sait və samitlərin fərqləndirilməsi<br>• Sözü təşkil edən hecaların müəyyən edilməsi<br>• Hərflərin çap və əlyazısı formalarının uyğunlaşdırılması |
| • Sözləri bütöv və düzgün tələffüz etməklə qısa cümlələrin oxunması<br>• Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununun təxmin edilməsi<br>• Cümlənin ifadə etdiyi fikrin müəyyənləşdirilməsi<br>• Mətnin müxtəlif hissələrinə aid olan illüstrasiyaların müəyyən edilməsi<br>• Hadisənin və ya hərəkətin səbəbinin müəyyənləşdirilməsi<br>• Mətnin hadisələrin ardıcıllığına uyğun nəql edilməsi | • Hərf konfiqurasiyalarının hüsnxət normalarına uyğun yazılması və bitişdirilməsi<br>• Əlyazısı ilə verilmiş sözlərin və qısa cümlələrin üzündən köçürülməsi | • Formal əlamətlərinə görə cümlənin müəyyən edilməsi:<br>• böyük hərflə başlanması<br>• müvafiq durğu işarəsi ilə tamamlanması<br>• Cümlələrin məqsəd və intonasiyaya görə fərqləndirilməsi<br>• Sözdəki orfoqramın (deyilişi və yazılışı fərqlənən hərfin) hansı hərflə işarə olunduğunun müəyyənləşdirilməsi<br>• Cümlənin sonunda müvafiq durğu işarələrindən istifadə edilməsi |
| • Durğu işarələrini nəzərə almaqla cümlələrin oxunması<br>• Məzmunun açılmasına xidmət edən açar sözlərin müəyyənləşdirilməsi<br>• Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğun müəyyən edilməsi<br>• Hadisənin və ya hərəkətin səbəbini izah etmək üçün mətndən faktların seçilməsi<br>• Mətni yazmaqda müəllifin məqsədinin müəyyən edilməsi | • Hərf konfiqurasiyalarının hüsnxət normalarına uyğun yazılması və bitişdirilməsi<br>• Əlyazısı və çap şəklində olan sözlərin və kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Mətndəki məlumatların yazıda əks etdirilməsi<br>• Buraxılmış sözləri yerinə qoymaqla cümlələrin köçürülməsi | • Ad bildirən sözlərin qruplaşdırılması<br>• Ad, əlamət, say, hərəkət bildirən sözlərin aid olduğu varlıqların müəyyən edilməsi<br>• Varlığı səciyyələndirmək üçün əlamət bildirən sözlərin seçilməsi<br>• Sözdəki orfoqramın (deyilişi və yazılışı fərqlənən hərfin) hansı hərflə işarə olunduğunun müəyyənləşdirilməsi |
| • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Nəzm və nəsrlə yazılmış mətnlərin fərqləndirilməsi<br>• Şeirin əsas struktur elementlərinin (başlıq, bənd, misra) fərqləndirilməsi<br>• Şeirdə qafiyəli sözlərin seçilməsi<br>• Heca vəznli şeirdə misralardakı hecaların sayının müəyyənləşdirilməsi<br>• Şeirin nəsrə çevrilərək nəql edilməsi<br>• Müxtəlif mətnlərdən əldə edilmiş məlumatların ümumiləşdirilməsi | • Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvlərin düzəldilməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Oxunan mətnin qısa məzmununun yazılması | • Adıçəkilən varlıqlara xas olan hərəkətlərin sadalanması<br>• Cümlənin sonunda müvafiq durğu işarələrinin qoyulması<br>• Sözü təşkil edən hecaların müəyyən edilməsi<br>• Verilmiş sözlərin düzgün ardıcıllığını müəyyən edərək bitmiş fikir ifadə edən cümlənin qurulması<br>• Ad, əlamət, say, hərəkət bildirən sözlərin aid olduğu varlıqların müəyyən edilməsi |

## BÖLMƏLƏR ÜZRƏ NƏZƏRDƏ TUTULAN

| Bölmə/fəsil | Dinləmə | Danışma | Söz ehtiyatı |
|---|---|---|---|
| **5. NAĞILLAR ALƏMİNDƏ**<br>• Nağılçılar<br>• Xəyal dünyası<br>• Biləndərin macəraları<br>• Heyvanlar haqqında nağıllar | • Dinlənilən mətn üzrə faktoloji sualların cavablandırılması | • Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışma<br>• Mövzu üzrə şifahi təqdimat<br>• Şəklin verbal təsviri və onun şəxsi həyatla əlaqələndirilməsi | • Sözün cümlədə mənasına uyğun işlədilməsi<br>• Yeni öyrəndiyi sözlərlə onların izahının uyğunlaşdırılması |
| **6. VƏTƏNİM AZƏRBAYCAN**<br>• Vətən nədir?<br>• Vətənimizi tanıyaq<br>• Vətənimizi sevək<br>• Çağırır vətən! | • Şəkildəki təsvirlərdən istifadə etməklə dinlənilən mətnin genişləndirilməsi<br>• Dinlənilən fikirdəki əsas məqamların şərh edilməsi<br>• Dinlənilmiş və oxunmuş məlumatların müqayisəsi və nəticə çıxarılması | • Oxunan mətnin təxəyyülə uyğun dəyişdirilməsi və ya davam etdirilməsi<br>• Alınan məlumatların rabitəli mətn şəklində şifahi təqdimatı<br>• Dialoq zamanı mövzuya uyğun fikir yürüdülməsi | • Mətndən tanış olmayan sözlərin seçilməsi<br>• Yeni öyrəndiyi sözlərlə onların izahının uyğunlaşdırılması<br>• Eyni məna qrupuna aid olan sözlərin müəyyən edilməsi<br>• Sözün ifadə etdiyi anlayışın əsas əlamətlərinin sadalanması<br>• Sözün əksmənalı qarşılığının müəyyən edilməsi |
| **7. YAXŞI NƏDİR, PİS NƏDİR**<br>• Ana məhəbbəti<br>• Qaragözün macərası<br>• Mərhəmət<br>• Dostluq | • Dinlənilən və ya oxunan mətnin təxəyyülə uyğun təxmin və ya davam etdirilməsi<br>• Dinlənilən məlumatların müqayisəsi və nəticə çıxarılması | • Şəkillər üzrə kiçikhəcmli mətnin qurulması<br>• Şahidi olduğu hadisələr və təəssüratlar haqqında danışma<br>• Dialoq zamanı mövzuya uyğun fikir yürüdülməsi<br>• Mövzu ilə bağlı şifahi təqdimat | • Yaxınmənalı sözlərin müəyyən edilməsi<br>• Sözlərlə izahların uyğunlaşdırılması<br>• Kontekstdən çıxış edərək sözün ifadə etdiyi şəklin müəyyənləşdirilməsi<br>• Nitqdə yeni öyrənilmiş sözlərdən kontekstə uyğun istifadə edilməsi |
| **8. DÜNYANI KƏŞF EDİRƏM**<br>• Keçmişə səyahət<br>• Çörək<br>• Cizgi filmləri<br>• Kosmos | • Dinlənilən mətnin şəkil əsasında genişləndirilməsi və şərh edilməsi<br>• Dinlənilən fikirdəki əsas məqamların şərh edilməsi | • Şəkillər üzrə kiçik dialoqun qurulması<br>• Dialoq zamanı mövzuya uyğun fikir yürüdülməsi<br>• Yeni öyrənilmiş sözlərdən istifadə etməklə şəkillər üzrə danışma<br>• Rollu oyun zamanı obrazın xarakterinə uyğun mimika və jestlərdən istifadə edilməsi | • Mətndəki tanış olmayan sözlərin seçilməsi<br>• Sözlərlə izahların uyğunlaşdırılması<br>• Kontekstdən çıxış edərək sözün ifadə etdiyi şəklin müəyyənləşdirilməsi |

# ƏSAS TƏLİM MƏQSƏDLƏRİ (**2-ci YARIMİL**)

| Oxu | Yazı | Dil qaydaları |
|---|---|---|
| • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Mətndə məkan, şəxs, hadisələrin ardıcıllığı ilə bağlı məqamların müəyyən edilməsi<br>• Obrazların sadə şəkildə təhlil edilməsi | • Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Mövzu ilə bağlı bir neçə cümlədən ibarət essenin yazılması | • Ad, əlamət, say, hərəkət bildirən sözlərin fərqləndirilməsi<br>• Durğu işarələri üzrə biliklərin möhkəmləndirilməsi<br>• Şəxs adlarının böyük hərflə yazılması<br>• Hərflərin əlifba sırasının əzbərlənməsi |
| • İllüstrasiya əsasında mətnin genişləndirilməsi<br>• Mətnin məzmununun plan əsasında nəql edilməsi<br>• Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsinin müəyyən edilməsi<br>• Mətni yazmaqda müəllifin məqsədinin müəyyən edilməsi<br>• Şeirin əsas struktur elementlərinin (misra, qafiyə) fərqləndirilməsi<br>• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamların seçilməsi | • Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Mətnin planı üzrə məzmunun yazılması<br>• Təlimat formasında mətnin yazılması<br>• Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvlərin düzəldilməsi | • Yer adlarının böyük hərflə yazılışı<br>• Nəqli və sual cümləIəri üzrə biliklərin təkrarı və tətbiqi<br>• Sual sözlərindən istifadə etməklə mətndəki faktlara dair sual cümlələrinin qurulması<br>• Sözlərin əlifba sırası ilə düzülməsi<br>• Cümlə ortasında gələn xüsusi adların böyük hərflə yazılması |
| • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Nəzm və nəsrlə yazılmış mətnlərin fərqləndirilməsi<br>• Şeirin əsas struktur elementlərinin (başlıq, bənd, misra) fərqləndirilməsi<br>• Şeirin nəsrə çevrilərək nəql edilməsi<br>• Əsərdəki obrazların sadə təhlili<br>• Hekayə xəritəsinin tərtib edilməsi | • Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Oxunan mətnin qısa məzmununun yazılması<br>• Şəkil üzrə mətnin qurulub yazılması | • Varlığı səciyyələndirmək üçün əlamət, say və hərəkət bildirən sözlərdən istifadə edilməsi<br>• Məqsəd və intonasiyadan istifadə edərək cümlə sonunda durğu işarələrindən istifadə (təkrar)<br>• sözün hecalara bölünməsi (təkrar)<br>• cümlənin digər nitq vahidlərindən fərqləndirilməsi<br>• “Abzas” anlayışının mənimsənilməsi |
| • Dialoji mətni səsləndirərkən obrazların nitqinin fərqli səs tonu ilə oxunması<br>• Nəzm və nəsrlə yazılmış mətnlərin fərqləndirilməsi<br>• Şeirin əsas struktur elementlərinin (başlıq, bənd, misra) fərqləndirilməsi<br>• Şeirin nəsrə çevrilərək nəql edilməsi<br>• Mətnlə illüstrasiya arasında uyğunluğun müəyyənləşdirilməsi<br>• Mətndəki hadisələrin məntiqi ardıcıllığının müəyyən edilməsi | • Sözlərdəki orfoqrafik səhvlərin düzəldilməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Oxunan mətnin qısa məzmununun yazılması<br>• Şəkil əsasında mətnin yazılması<br>• İnformativ mətndəki məlumatlar haqqında yazılı təqdimatın hazırlanması | • Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışının müəyyən edilməsi<br>• Adıçəkilən varlıqlara xas olan hərəkətlərin sadalanması<br>• Cümlə ortasında gələn xüsusi adların böyük hərflə yazılması<br>• Məqsəd və intonasiyasından asılı olaraq cümlənin müvafiq durğu işarəsi ilə tamamlanması<br>• Sözlərin əlifba sırası ilə düzülməsi |

## 5. Bilik və bacarıqların qiymətləndirilməsi

**Niyə qiymətləndiririk?**

Məktəbdaxili qiymətləndirmə təhsilin keyfiyyətini yüksəltmək məqsədi daşıyır. Hər bir dərsdə təlim nəticələrinin reallaşma səviyyəsini yoxlamaq üçün formativ qiymətləndirmədən istifadə olunur. Bu yolla müəllim şagird nailiyyətlərinin inkişaf dinamikasını izləyir və bunun əsasında təlim strategiyasını qurur.

Dərslikdə məzmun vahidləri (dərs, fəsil, bölmə) müəyyən təlim nəticələrinin reallaşmasını nəzərdə tutur. Formativ qiymətləndirmə hər bir şagird üzrə bu təlim nəticələrinin reallaşma səviyyəsini öyrənmək üçün aparılır. Bunu bilmədən növbəti məzmun vahidinə keçmək, sonrakı təlim fəaliyyətini düzgün qurmaq mümkün deyil.

Qiymətləndirmə şagirdi pozitiv ruha kökləməli (hətta zəif nəticələr aşkar etdikdə belə), onu bilik və bacarıqlarındakı boşluqları aradan qaldırmağa həvəsləndirməlidir. *“BİLMƏMƏK EYİB DEYİL, ÖYRƏNMƏMƏK EYİBDİR”* formativ qiymətləndirmədə aparıcı xətlərdən biri olmalıdır.

**Necə qiymətləndiririk?**

Müəllim üçün vəsaitdə hər bir dərsin şərhində ikisütunlu formativ qiymətləndirmə cədvəli verilir.

| Qiymətləndirmə meyarları | Qiymətləndirmə materialları |
|---|---|
| | |

Cədvəlin 1-ci sütununda təlim nəticəsi ya olduğu kimi təkrar olunur, ya da konkretləşdirilir; məsələn, “Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3)” təlim nəticəsi ilkin səviyyədə daha sadə şəkildə reallaşdırılır: ayrı-ayrı cümlələr verilir və onlara uyğun illüstrasiyalar qarışıq şəkildə təqdim olunur; şagird hər bir cümlədəki fikri dərk edib ona uyğun şəkli müəyyənləşdirməlidir. Ona görə də qiymətləndirmə cədvəlində meyar belə ifadə olunur: “Cümlələrlə illüstrasiyaların uyğunluğunu müəyyənləşdirir”.

İkinci sütunda isə müvafiq meyar üzrə qiymətləndirməni həyata keçirmək üçün tədris materialları yer alır.

Qeyd etmək lazımdır ki, bu cədvəl sinifdə formativ qiymətləndirməni aparmaq üçün müəllimə təqdim olunan ən zəruri və sxematik yardımçı materialdır ki, müəllim onun əsasında rəngarəng üsullar, formalar, müxtəlif qiymətləndirmə materialları (iş vərəqləri, intellektual oyunlar və s.) işləyib-hazırlaya bilər. Burada dəyişməz olan yeganə məqam qiymətləndirmə meyarlarıdır, çünki onlar məzmun standartları ilə bağlıdır.

Formativ qiymətləndirmənin nəticələrini müxtəlif yollarla təqdim etmək olar: müşahidə əsasında şagirdlərin smaylik və ya ulduzlarla qiymətləndirilməsindən tutmuş iş vərəqlərinin, imla, hüsnxət tapşırıqlarının cədvəllər əsasında səviyyələr üzrə qiymətləndirilməsinə qədər.

Formativ qiymətləndirmənin nəticələrini daha konkret təsvir etmək üçün, əsasən, rubriklərdən istifadə olunur. <u>Rubrik</u> şagird nailiyyətlərinin qiymətləndirilməsi zamanı onun səviyyəsinin (balının, qiymətinin) sözlü təsvirini nəzərdə tutur. Bunun üçün müəllim hər bir dərsdə özü üçün təlim nəticəsinin narrativ deskriptorlarını (sözlü təsvirlərini) – mahiyyətini müəyyənləşdirməlidir; məsələn, əgər müəllim şagirdin oxuduğu mətni nəql etmək bacarığını (2.2.5. *Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir*) səviyyələr (ballar) üzrə qiymətləndirirsə, hər bir səviyyənin mahiyyətini ən azı özü üçün aydınlaşdırmalıdır. Bunun üçün isə mətni nəql etmək bacarığının nədən ibarət olduğunu bilməlidir; məsələn:

- Əsərdə baş verən əsas hadisələri qeyd edir.
- Hadisələrin əsas iştirakçılarının adlarını çəkir.
- Obrazların adında səhvə yol vermir.
- Səbəb-nəticə əlaqəsini pozmur.
- Mətni nəql edərkən jest və mimikalardan istifadə edir.
- Mətndəki situasiyadan asılı olaraq səs tonunu dəyişir.
- Dinləyicilərlə göz təması qurur.
- Dialoqları nəql edərkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.
- Mətndəki vacib detalları qeyd edir.

• Hadisələrin baş verdiyi zaman və məkanla bağlı əsas məqamları vurğulayır.

• Hadisələri və obrazların hərəkətlərini şərhlərlə nəql edir.

Müəllim şagirdin müvafiq meyar üzrə səviyyəsini bu deskriptorlar əsasında müəyyən edə bilər. Yaxşı olar ki, bu sözlü təsvirlər, yəni meyarın mahiyyəti şagirdlərə əvvəlcədən elan olunsun. Bu deskriptorlardan özünüqiymətləndirmədə və şagirdlərin bir-birini qiymətləndirməsində də istifadə etmək olar.

Beləliklə, müəllim müvafiq meyar üzrə deskriptorları qruplaşdıraraq belə bir yardımçı cədvəldə müşahidələrini apara bilər:

| *Meyar: "Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir".* | | | | | |
|---|---|---|---|---|---|
| | *Deskriptorlar* | *Bəli* | *Qismən* | *Xeyr* | *Müəllimin qeydləri* |
| | Məzmunu təhrif etmir. | + | | | |
| | Mətni təfərrüatı ilə nəql edir. | | + | | *Bəzi vacib detalları qeyd etmir.* |
| | Hadisələri ardıcıllıqla nəql edir. | + | | | |
| | Mətni canlı nəql edir. | | | + | *Monoton nitqlə nəql edir. Göz təması qurmur.* |
| | Mətni öz sözləri ilə nəql edir | | + | | *Bəzən mətndəki cümlələri olduğu kimi təkrar edir.* |

Bu qeydlər əsasında müəllim şagirdin müvafiq meyar üzrə səviyyəsini müəyyən edə bilər:

III səviyyə: "Mətnin məzmununu, əsasən, əhatə edir, lakin nitqi monotondur".

**Nəyi qiymətləndiririk?**

Yuxarıda qeyd edildiyi kimi, qiymətləndirmə meyarları təlim nəticələri əsasında, təlim nəticələri isə məzmun standartları əsasında formalaşır. Əsas məqsəd şagirdin dinləmə, danışma, oxu, yazı və dil qaydaları üzrə bilik və bacarıqlarının səviyyəsini müəyyənləşdirməkdir. Qeyd etmək lazımdır ki, şagirdin nitq bacarıqları üzrə səviyyəsinin müəyyənləşdirilməsi yalnız Azərbaycan dili deyil, digər fənlər üzrə təlimin düzgün qurulmasına kömək edən vacib məqamlardan biridir. Çünki istənilən fəndə şagird informasiyanı dinləmə və oxu vasitəsilə əldə edir, danışma və yazı yolu ilə biliklərini nümayiş etdirir; məsələn, riyazi məsələlərin həlli zamanı ilkin mərhələ oxuyub-anlamadır ki, bunsuz uyğun misalın yazılması və həll edilməsi mümkün deyil. Məhz buna görə də nitq bacarıqları arasında oxunun xüsusi yeri var.

***Sürətli oxu.*** Şagirdin oxu sürətini onun intellektual potensialının göstəricilərindən biri kimi qəbul etmək olar: oxu sürəti yüksək olan şagirdin müəyyən zaman çərçivəsində qəbul etdiyi yazılı verbal informasiyanın çəkisi daha çox olur və beləliklə, o, digərləri ilə müqayisədə üstünlük qazanır. Məhz buna görə də şagirdlərdə oxu sürətinin inkişafını daim izləmək və müxtəlif üsullarla yüksəlməsinə nail olmaq müəllimin əsas məqsədlərindən biri olmalıdır.

1-ci sinifdə şagirdlərdə oxu sürətinin qiymətləndirilməsi oxu bacarıqlarının inkişaf mərhələlərinə uyğun şəkildə baş verir:

1. İlkin oxu bacarıqlarının formalaşdırılması mərhələsində sürətli oxu: *müəyyən müddət ərzində səsli (ucadan) oxunan sözlərin sayı.*

Bu mərhələdə oxu üçün seçilmiş materialın göstəricilərinə diqqət yetirmək lazımdır. Belə ki, ilkin mərhələdə 1-2 hecalı, daha sonra 2-3, 3-5 hecalı sözlər seçmək olar (Azərbaycan dilində söz kökünə artırılan şəkilçilər bir çox ümumişlək sözlərin çoxhecalı olmasına gətirib çıxarır; məsələn: təhlükəsizlik).

Müəllim sinfin səviyyəsindən çıxış edərək qiymətləndirmə şablonu hazırlaya bilər. Bu şablon sinfin oxu sürəti üzrə diaqnostik qiymətləndirilməsindən sonra hazırlanmalıdır. Müəllim sinifdə ən yüksək və ən aşağı səviyyəni nəzərə almalı, ortadan yuxarı səviyyəni hədəf kimi seçməlidir; məsələn:

Oxu sürəti üzrə qiymətləndirmə şablonu (1-2 hecalı sözlər)

| I səviyyə (başlanğıc mərhələdədir) | II səviyyə (hədəfə yaxındır) | III səviyyə (hədəfə çatıb) | IV səviyyə (hədəfi keçib) |
|---|---|---|---|
| 0-14 söz/dəq. | 15-22 söz/dəq. | 22-27 söz/dəq. | 28-dən çox söz/dəq. |

Bu göstərici üzrə şagirdlərin səviyyəsini müəyyənləşdirmək və dinamikanı izləmək üçün aşağıdakı cədvəldən istifadə etmək olar:

| | | | | |
|---|---|---|---|---|
| Tarix | 20.11.2020 | | | |
| Heca sayı | 1-2 hecalı sözlər | | | |
| Hədəf | 22-27 söz/dəq. | | | |
| Ağayev S. | 19 (2-ci səviyyə) | | | |
| Səmədova N. | 30 (4-cü səviyyə) | | | |

Şagirdlərdə ilkin oxu bacarığı kifayət qədər formalaşdıqdan sonra səsli oxu sürətinin qiymətləndirilməsini mətnlər əsasında da aparmaq olar. Bu mətnlərin həcmi və oxu üçün ayrılmış vaxt sinifdə ən yüksək oxu sürətinə görə müəyyənləşdirilir. Mətn əsasında oxu sürəti qiymətləndirilərkən düzgün oxu meyarı da nəzərə alınmalıdır.

2. Oxuyub-qavrama mərhələsində sürətli oxu: təyin olunmuş zaman çərçivəsində müəyyən həcmli mətnin səssiz oxunması və məzmunun qavranılmasının nümayiş etdirilməsi.

Oxuyub-qavrama sürətinin müəyyənləşdirilməsi daha mürəkkəb mexanizmdir, çünki bu qiymətləndirmə zamanı bir çox amillər nəzərə alınmalıdır:

• mətnin çətinlik dərəcəsi (mətnin həcmi, mətnin növü – bədii, elmi, mühakimə tipli, söz ehtiyatı – ümumişlək olmayan sözlərin çoxluğu, sintaksis – söz birləşmələri və cümlələrin uzunluğu və s.);

• sualların çətinlik dərəcəsi (sualların sayı, açıq və qapalı sualların say nisbəti, faktoloji sualların sayı, vizuallaşdırma – təsviri xarakterli verbal informasiyanın beyində canlandırılmasını tələb edən sualların sayı, nəticəçıxarma – bir neçə informasiyadan yeni informasiyanın əldə edilməsi tipli sualların sayı).

Bütün bu parametrlərdən çıxış edərək testin icra müddəti (əvvəlki parametrlərlə korrelyasiya) müəyyən edilməlidir.

## 6. Diferensial təlim

Şagirdlərin məktəbə hazırlıq səviyyəsi fərqli olur və bu fərq məktəb təhsilinin ilk günlərində özünü bariz göstərir. Buna görə də ilk dərslərdə ümumilikdə sinfin və ayrılıqda hər bir şagirdin diaqnostik qiymətləndirilməsi aparılmalıdır. Bu, xüsusilə də oxu bacarığına aiddir. Bunun üçün oxu texnikası üzrə aşağıdakı səviyyə deskriptorlarından istifadə etmək olar:

I səviyyə. Sözdəki səsləri ayırd edir və ayrı-ayrılıqda səsləndirir.

II səviyyə. Gördüyü hərfin ifadə etdiyi səsi və eşitdiyi səsi işarə edən hərfi müəyyən edir.

III səviyyə. Sözü hecalarla oxuyur.

IV səviyyə. Sözü bütöv oxuyur.

Bu səviyyələr əsasında müəllim aşağıdakı cədvəl üzrə diaqnostik qiymətləndirmə apara bilər:

| Şagirdlər | Səviyyələr | | | |
|---|---|---|---|---|
| | I | II | III | IV |
| *Soyadı, adı, atasının adı* | | | | |

Dərs ilinin əvvəlində bu bacarıq üzrə hədəf kimi III səviyyə ("Sözü hecalarla oxuyur") müəyyən oluna bilər. 1-2-ci səviyyəyə uyğun olanları aşağı səviyyəyə aid etmək olar. Lakin nəzərə almaq lazımdır ki, sinifdə cümlələri və kiçikhəcmli mətnləri sərbəst oxuyan şagirdlər də ola bilər.

Diaqnostik qiymətləndirmə üçün digər nitq bacarıqları üzrə də səviyyə deskriptorları hazırlamaq tövsiyə olunur; məsələn, dinləmə üzrə: şagirdin diqqətli olması, yazı üzrə: əl motorikası, danışma üzrə: fikrini sərbəst ifadə etməsi səviyyələri müəyyənləşdirilməlidir.

Sonrakı təlim prosesində uşaqlarla iş zamanı müəllim bu göstəriciləri nəzərə almalı, şagirdlərə fərdi yanaşma tətbiq etməlidir. Sinifdə müxtəlif bacarıqlar üzrə ən yüksək və ən aşağı səviyyəli şagirdlər müəyyən olunmalıdır. Dərslərin şərhində diferensial təlim üzrə müəyyən tövsiyələr yer almışdır. Lakin sinifdən asılı olaraq müəllim özü səviyyələri kəskin fərqlənən şagirdlər üçün fərdi tapşırıqlar hazırlaya bilər.

bölmə **1** # AİLƏ VƏ MƏKTƏB

| Mövzu | | **Ailə və məktəb** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | Şəkil üzrə danışma, situasiyaya uyğun nitq etiketlərindən istifadə, şagirdlərin özü, ailəsi və dostları haqqında təqdimatı |
| | Söz ehtiyatı | Qohumluq bildirən sözlər, məktəb əşyalarının adları, məşğuliyyətlə bağlı sözlər |
| | Oxu | • Hecalara bölünmüş sözlərin və komiksləri müşayiət edən qısa cümlələrin oxunması |
| | Yazı | Aa, Nn, Ll, Əə, Mm, İi, Iı, Tt, Bb, Rr hərflərinin hüsnxət normalarına uyğun yazılışı |
| Akademik biliklər | Dil qaydaları | • Böyük və kiçik hərflər<br>• Sait və samit səslər<br>• "K" hərfinin iki səsi ifadə etməsi<br>• Heca |
| | Filoloji anlayışlar | Söz, səs, böyük hərf, kiçik hərf, sait, samit, heca |
| Kompetensiyalar | | • Ailə üzvlərinə sevgi, hörmət<br>• Məktəbə maraq, sevgi<br>• Asudə vaxtdan səmərəli istifadə |

*1-ci bölmə şagirdlərin məktəb mühitinə adaptasiya dövrünə təsadüf etdiyindən bu bölmənin əvvəlində onların nitq bacarıqları üzrə diaqnostik qiymətləndirilməsi aparılır.*

*Başlanğıc mərhələdə əsas məqsəd sinifdə səslənən hər bir fikrin, o cümlədən şagirdin öz fikrinin ətrafdakılar üçün vacib olduğunu diqqətə çatdırmaqdır. Bu mərhələdə müəllim şagirdlərin nitqindəki qüsurları (şivə, sözlərin yanlış tələffüzü, rabitəsiz cümlələr, loqopedik qüsurlar) vurğulamamalı, yalnız özü üçün qeydlər etməlidir. Şagirdin nitqi məzmunundan asılı olmayaraq daim təqdir olunmalı, ona müsbət reaksiya verilməlidir.*

**Öncədən vacib olan bilik və bacarıqlar:**

– özü haqqında (ad, yaş, ailə üzvləri) konkret suallara cavab verir;

– böyük və kiçik hərfləri tanıyır;

– nöqtələri birləşdirməklə cizgilər çəkir, natamam simmetrik şəkli tamamlayır;

– "səs", "hərf", "söz" anlayışları ilə bağlı ümumi təsəvvürə malikdir;

– şəkillər üzrə danışır.

**Diferensial təlim**

Şagirdlərin bilik və bacarıq səviyyələrindəki ən böyük fərq oxu və yazı üzrə məzmun standartlarının reallaşmasında özünü göstərə bilər. İlk dərslərdə aparılan diaqnostik qiymətləndirmə tədris prosesində diferensial təlimi düzgün qurmağa, fərqdəki kəskinliyi aradan qaldırmağa kömək edə bilər.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

– sözü səslərə ayırıb uyğun hərfləri müəyyən etmək;

– oxşar konfiqurasiyalı (u–ü; ı–i; o–ö və s.) hərfləri fərqləndirmək;

– yaxınməxrəcli səsləri işarə edən (s–ş; k–ç; d–t; j–ş; x–ğ; h–x və s.) hərfləri fərqləndirmək;

– "k" hərfinin ifadə etdiyi səsləri fərqləndirmək.

Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**1-ci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** iş vərəqləri, kəsmə hərflər, plastik qapaqlar, şar, rəngli kağızlar, hədiyyə qutusu.

fəsil **1** MƏNİM AİLƏM

## 1-ci dərs. Tanışlıq

• Dərslik: səh. 7 • İş dəftəri: səh. 2

**Qeyd.** Bu dərsdə şagirdlərin diaqnostik qiymətləndirilməsi aparılır.

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Azərbaycan dili" dərsliyi ilə ümumi tanışlıq |
| 2 | **Dinləmə-danışma** | Dərslikdəki şəkillər üzrə Ramin və onun ailəsi ilə tanışlıq; şagirdlərin özü və ailəsi haqqında kiçik təqdimatı |
| 3 | **Oxu** | Şagirdlərin kəsmə hərflərdən öz adlarını düzəltməsi |
| 4 | **Yazı** | İş dəftəri və əlavə vasitələrdə cizgilərin çəkilməsi |

### Mövzuya yönəltmə

İlk dərsdə şagirdləri "Azərbaycan dili" dərsliyi və digər resurslarla tanış etmək, onlara fənnin məqsədini sadə formada izah etmək tövsiyə olunur.

**Dərslik və ondan istifadə qaydaları.** Kitabla davranış, kitabdan istifadə qaydalarını mənimsətmək şagirdlərin dərs prosesində dərslik və iş dəftərində müvafiq səhifəni və tədris olunan materialı tez bir zamanda tapmasına kömək edəcəkdir. Bu məqsədlə şagirdlərə səhifənin nömrəsini, tapşırıqların sırasını işarə edən hərfləri göstərmək lazımdır.

Azərbaycan dili fənninin məqsədini şagirdlərə sadə formada belə izah etmək olar:

*– Bu dərslərdə siz yaxşı danışmağı, diqqətlə dinləməyi, sürətlə oxumağı, savadlı yazmağı öyrənəcəksiniz.*

**Dinləmə və danışma qaydaları.** İlk günlərdə dinləmə-danışma məzmun xətti və vizual oxu (şəkillərlə iş) aparıcı yer tutur. Buna görə də şagirdlərə dinləmə və danışma qaydaları ilə bağlı müvafiq təlimatlar verilməlidir (təlimatları əmr şəklində ifadə etmək tövsiyə olunmur):

*– dərsdə söylənilən fikirlərə və suallara diqqətlə qulaq asmalıyıq. Çünki dinlədikdən sonra bu suallarla bağlı öz fikrimizi bildirməliyik;*

*– danışmaq istəyərkən gözləmək lazımdır ki, müəllim və ya yoldaşınız fikrini bitirsin* və s.

### Dinləmə və danışma

**Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti bölmənin titul səhifəsində verilmiş şəkillər əsasında yerinə yetirilir. Müəllim şagirdləri danışmağa həvəsləndirmək üçün yönəldici suallarla yanaşı, şərhlərdən də istifadə edə bilər. Məsələn, şagirdlərin diqqəti şəkildə Raminin bacısına yönəldilən zaman onunla bağlı kiçik məlumat verilir:

*– Bu, Raminin bacısıdır. Onun adı Zəhradır. Zəhra da qardaşı kimi məktəbə getmək istəyir. Ancaq o, hələ balacadır. Onun dörd yaşı var.*

Suallar verməklə şagirdlərin şərhləri nə dərəcədə diqqətlə dinlədikləri yoxlanılır.

Əlavə suallar vasitəsilə mövzu şagirdlərin həyatı ilə əlaqələndirilir:

*– Sizin neçə yaşınız var? Ailənizdə kimlər var? Sizin də qardaşınız, ya bacınız varmı? Sizi şagird olmağınız münasibətilə kimlər təbrik etdilər?*

Şagirdlər öz ailələri və ilk dərs gününə necə hazırlaşmaqları barədə danışmaqla kiçik təqdimat edirlər.

**Müəllimin nəzərinə!** Bu dərsdə şagirdlərin öz ailələri haqqında danışmalarına xeyli vaxt ayrılmalıdır. Müəllim çalışmalıdır ki, hər bir şagird özü haqda danışmağa cəhd etsin. Şagirdlərin sualları cavablandırarkən bütöv cümlələrdən istifadə etməsinə də diqqət edilməlidir. Məsələn, şagird *"Sənin neçə yaşın var?"* sualına "altı" deyil, *"Mənim altı yaşım var"*, – deyə cavab verməlidir.

### Söz ehtiyatı

Şagirdlər şəkillər üzrə danışarkən onların söz ehtiyatı üzərində müşahidə aparılır. Şəkillərdə təsvir edilən predmetlərin adlarının şagirdlərin şifahi nitqində nə dərəcədə yer aldığına diqqət yetirilir: *saat, çanta, qələm, suqabı, xətkeş, dəftər, gəlincik, təqvim, çətir, hədiyyə* və s.

Müəllim şagirdlərin nitqində qohumluq bildirən sözlərin (*ata, ana, bacı, qardaş, nənə, baba*) istifadəsinə diqqət etməli, onlardan bacı və qardaşlarının, nənə və babalarının adlarını soruşmaqla qohumluq bildirən sözlərin düzgün qavranılmasına çalışmalıdır. Çünki bu yaşda olan uşaqlar nənənin adını "Nənə", babanın adını "Baba" kimi bilirlər və s.

**Tapşırıq A (iş dəftəri).** Sözlərin mənasını anlamaqda və izah etməkdə ilk addım müvafiq anlayışın təyinatını, aid olduğu məna qrupunu müəyyənləşdirmək, bu əlamətə görə onu digərlərindən fərqləndirməkdir. Tapşırıq şagirdlərin həmin bacarıqlarını yoxlamağa xidmət edir.

### Oxu. Dil qaydaları

**Tapşırıq B (iş dəftəri).** Oxu bacarığı sözdəki səs-

ləri fərqləndirməkdən başlayır. (Daha ətraflı bax: səh. 12.) Şagirdlərin ilkin oxu bacarığını yoxlamaq üçün tapşırıqda eyni səslə başlayan sözləri (şəkildəki varlıqların adlarını) müəyyən etmək tələb olunur.

Sonrakı mərhələ danışıq səslərini işarə edən hərfləri tanımaqdır. Şagirdlərin məktəbəqədər təhsildən əldə etdiyi hərfləri tanımaq və oxumaq bacarıqlarını yoxlamaq üçün bölmə titulunda Raminin atası ilə kəsmə hərflərdən düzəltdiyi sözə diqqət yetirilir. Şagirdlər həmin kəsmə hərflərdən alınan sözü oxuyub oğlanın adını (Ramin) öyrənirlər. Sonra şagirdlərə kəsmə hərflərdən öz adlarını düzəltmək tapşırığı verilir.

**Müəllimin nəzərinə!** Şagirdlər məktəbəhazırlıq dövründə kəsmə hərflərdən sözlər düzəltmək bacarığına yiyələnmişlər. Şagirdlərin yazı bacarıqlarının tam formalaşmasına qədər kəsmə hərflərdən istifadə edilməsi tövsiyə olunur.

### Yazı

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqla şagirdlərdə əl motorikasının nə dərəcədə inkişaf etdiyi yoxlanılır. Şagirdlər nöqtələri birləşdirməklə cizgilər çəkir və şəkillərə uyğun rəngləyirlər.

Müxtəlif məzmun xətləri üzrə aparılan diaqnostik qiymətləndirmə müəllimə növbəti dərsləri sinfin səviyyəsinə uyğun qurmağa və diferensial təlimi həyata keçirməyə kömək edəcək.

**Növbəti dərsə hazırlıq.** Dərsliyin 8-ci səhifəsindəki C tapşırığının yerinə yetirilməsi üçün üzərinə heca yazılmış kartların hazırlanması tövsiyə olunur. Oxu üçün nəzərdə tutulan sözlərdə təkrarlanan hecalar bunlardır:
– ikihərfli hecalar: na, ba, za, ra, ar, az, an;
– üçhərfli hecalar: zar, bar, nar, nan, naz.

## 2-ci dərs. Raminin ailəsi. Aa, Nn, Bb, Zz, Rr hərfləri

• Dərslik: səh. 8 • İş dəftəri: səh. 3

### Təlim məqsədləri

- Eşitdiyi sözdəki səsləri və onları işarə edən hərfləri müəyyən edir (st. 4.1.1).
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Hərf elementlərini hüsnxət normalarına uyğun yazır (st. 3.1.1).

• **Köməkçi vasitələr (təchizat):** kəsmə hərflər, üzərində kiçik hərflər yazılmış plastik qapaqlar, üzərinə hecalar yazılmış kartlar.

### • Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ötən dərsin xatırlanması. "Ailə" anlayışı |
| 2 | **Danışma** | Şəkil üzrə danışma: Raminin ailə üzvləri |
| 3 | **Dil qaydaları** | Sözün səs və hərf tərkibi; Aa, Nn, Bb, Zz, Rr hərflərinin mənimsədilməsi |
| 4 | **Oxu** | Öyrədilən hərflərdən ibarət sözlərin hecalarla oxusu |
| 5 | **Yazı** | Hərf elementlərinin yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Anlayışın çıxarılması.** 1-ci dərsin mövzusu xatırlanır. Müəllim lövhədə dairə çəkir, şagirdlər ötən dərsdə tanış olduqları Ramin və onun ailə üzvlərini söylədikcə müəllim həmin sözləri dairənin ətrafına yazır. Mərkəzdə hansı sözün ("Ailə") yazıla biləcəyini şagirdlərdən soruşur. Bu üsul həyat bilgisi fənni ilə inteqrasiyanı da təmin edir.

### Danışma. Söz ehtiyatı

Danışma fəaliyyəti Raminin ailəsi təsvir olunan şəkil üzrə yerinə yetirilir. Şəkil üzrə danışma şagirdlərin söz ehtiyatını inkişaf etdirir. Şagirdlərə *"Şəkildə kimləri görürsünüz?", "Biz kimlərə "nənə" və "baba" deyirik?"* kimi suallar verməklə qohumluq bildirən "nənə" ilə "baba" sözlərinin mahiyyəti və nitqdə işlədilmə məqamları (qohum olmayan adamlara da deyilə bilir) üzrə müzakirə aparılır.

Şagirdlər şəkildəki təsvirlərin adlarını düzgün səsləndirmədikdə müəllim müvafiq düzəlişlər etməli, onların nitqinin təmizliyini nəzarətdə saxlamalıdır.

**Müəllimin nəzərinə!** Hər hansı bir şagird nitqində yanlış söz işlətdikdə müəllim şagirdin sözünü kəsməməli, irad bildirməməlidir. Şagird nitqini tamamlayandan sonra müəllim həmin sözlə bağlı düzəliş verə bilər.

### Dil qaydaları

4.1.1 **"Bunları bilməliyik" rubrikası.** Şagirdlərə məktəbəhazırlıq dövründən "səs" və "hərf" anlayışları tanışdır. Həmin anlayışların xatırlanması üçün müəllim "Ramin" sözünü lövhədə çap hərfləri ilə yazır. Şagirdlərə bu sözün tərkibindəki hərfləri ayrı-ayrılıqda səsləndirməyi tapşırır. Sonra onların diqqətini dərslikdəki "Söz-hərf" sxeminə yönəldir. Deyiliş zamanı sözün səslərdən, yazılış zamanı isə hərflərdən ibarət olduğunu şagirdlərə xatırladır.

**Tapşırıq A (dərslik).** Müəllimin tapşırığı ilə şagirdlər:

– şəkillərə əsasən Raminin ailə üzvlərini (ata, ana, baba, nənə, Zəhra, Ramin) bir-bir sadalayırlar;

– hər bir sözün ilk səsini ayrılıqda tələffüz edirlər;

– hər bir şəklin yuxarısındakı hərfin həmin səsi işarə etdiyini bildirirlər.

4.1.3 **Böyük və kiçik hərflər cədvəli.** Müəllim birinci şəkildəki varlıq adının ilk səsini bildirən kəsmə böyük "A" hərfini lövhədə yerləşdirir. Böyük "A" hərfinin qarşısına kiçik "a" hərfini qoyaraq eyni səsi işarə edən böyük və kiçik hərfləri yerləşdirdiyini bildirir. Qalan hərfləri eyni qaydada uyğunlaşdırmağı şagirdlərə tapşırır.

**Cütlərlə iş.** Cədvəl üzərində işləmək üçün şagirdlərə təlimat verilir. İşin aşağıdakı ardıcıllıqla davam etdirilməsi tövsiyə olunur:

1. Müəllim əlini növbə ilə böyük və kiçik hərflərin üzərinə qoymaqla hərfləri səsləndirir, şagirdlər dinləyir.
2. Müəllim və şagirdlər birlikdə səsləndirirlər.
3. Şagirdlərə bir neçə dəqiqə ərzində həmin cədvələ baxıb böyük və kiçik hərf uyğunluğunu yadda saxlamaq tapşırılır.
4. Sonra cütlər işə başlayır. Birinci şagird əli ilə cədvəldə böyük hərflər yazılan sol sütunun üstünü örtür, digər əli ilə sağ sütundakı kiçik hərfləri bir-bir işarə edərək yoldaşından hansı hərf olduğunu soruşur. O hər dəfə əlini sol sütunun üzərindən götürməklə yoldaşının doğru cavab verdiyini yoxlaya bilər. Sonra cütlər yerlərini dəyişirlər. Bu üsulun əsas məqsədi şagirdlərin hərfləri əməkdaşlıq şəraitində birgə mənimsəməsidir. Sonda müəllim cütlərin nəticələrini sual-cavab əsasında yoxlayır.

**Tapşırıq B (dərslik).** Tapşırıqda hər bir şəkil adının ilk səsini müəyyən edib həmin səsi kiçik hərflə göstərmək tələb olunur. Müəllim "R" hərfinin böyük, digərlərinin kiçik yazılma səbəbini də izah edə bilər.

**Tapşırıq A (iş dəftəri).** Kiçik hərflərin daha dərindən mənimsədilməsi məqsədi daşıyan bu tapşırıq həmçinin təsviri incəsənət fənni ilə inteqrasiya yaradır.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən kiçik hərflərlə yazılmış sözləri oxumaq deyil, yalnız göstərilən böyük hərfə baxaraq uyğun kiçik hərfləri seçmək və dairəyə almaq tələb olunur.

**Müəllimin nəzərinə!** Bu tapşırıq modelindən növbəti hərflərin mənimsədilməsində də istifadə etmək arzuolunandır.

**Köməkçi vasitələrdən istifadə.** Bu yaş dövründə uşaqların hərfləri kağız üzərində deyil, toxuna biləcəyi bir predmet vasitəsilə öyrənməsi onlar üçün cəlbedici və maraqlı olur və qavrama prosesini sürətləndirir. Bu baxımdan üzərinə böyük və kiçik hərflər yazılmış plastik qapaqlar (buna bənzər digər vasitələr) hərflərin öyrədilməsində (xüsusən kiçik hərflərin mənimsədilməsində) effektiv vasitə ola bilər. Köməkçi vasitələrin hazırlanmasında şagirdlərin özlərinin iştirakı tövsiyə olunur. Plastik və ya kartondan düzəldilmiş hərflər müəllimin köməyi ilə texnologiya dərsində, valideynin köməyi ilə evdə hazırlana bilər.

Kiçik dairəvi kağızlar kəsilərək üzərində bir hərf yazılır və qapaqların üstünə yapışdırılır.

**Cütlərlə iş.** Şagirdlər qapaq-hərflərdən istifadə edərək parta yoldaşları ilə oyun keçirə bilərlər. Bir şagird böyük hərf yazılmış qapağı partanın üzərinə qoyur, yoldaşı kiçik tayını tapıb həmin böyük hərfin qarşısına qoyur.

**Əlavə tapşırıq.** Kiçik hərflərin mənimsədilməsi üçün aşağıdakı tapşırıqdan istifadə oluna bilər.

İş vərəqlərində şagirdlərin tanıdığı hərflərdən ibarət sözlər böyük hərflərlə (*BAZAR, ANBAR* və s.) yazılır və altından sözdəki hərf sayı qədər dairələr çəkilir. Şagirdlər həmin dairədə uyğun kiçik qapaq-hərfi yerləşdirirlər.




**Diferensial təlim.** Hərfli qapaqlarla iş zamanı çətinlik çəkən şagirdlərə iki, üç hərfin iştirak etdiyi sözlər (*nar, ana, baba*) verilə bilər.

### Oxu

2.2.1 **Tapşırıq C (dərslik).** Bu tapşırığın məqsədi şagirdlərin oxu bacarığını formalaşdırmaqdır.

C tapşırığında kiçik hərflərlə verilmiş sözlərin oxusuna başlanmazdan öncə müəllimin hazırladığı hecalı kartlar şagirdlər tərəfindən oxunur. Şagirdlər əvvəlcə ikihərfli hecaları (*na, ba, za, ra, ar, az, an*), sonra üçhərfli hecaları (*zar, bar, nar, nan, naz*), daha sonra isə tapşırıqdakı sözləri oxuyurlar.

### Yazı

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Bu dərsdən etibarən şagirdlərdə hüsnxət normaları əsasında düzgün yazı vərdişlərinin formalaşdırılması başlanır. Şagirdlər iş dəftərində hüsnxət normalarına əsasən düz xətt boyunca təkrarlanan hərf elementləri və sərbəst cizgilər yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar

və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Səslə hərfin fərqini izah edir. | "Bunları bilməliyik" rubrikası. |
| Böyük və kiçik Aa, Nn, Bb, Zz, Rr hərflərini uyğunlaşdırır. | Tap. A, B (dərslik). "Böyük və kiçik hərflər" cədvəli. Tap. A, B (iş dəftəri). |
| Öyrəndiyi hərflərdən ibarət sözləri hecalarla oxuyur. | Tap. C (dərslik) |
| Hərf elementlərini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə dərslikdəki C tapşırığının yerinə yetirilməsi üçün hecalı kartların hazırlanması tövsiyə olunur. Tapşırıqda oxu üçün təqdim olunan sözlərdə təkrarlanan hecalar bunlardır: ikihərfli hecalar – *bi, şi, rə, fə, sə, bə, nə, sı;* üçhərfli hecalar – *zar, bar, nar, nan, bab, naz.*

## 3-cü dərs. Ee, Əə, Ss, Şş, Iı, İi, Ff hərfləri. Hüsnxət: "Aa" hərfi

• Dərslik: səh. 9 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**
- Eşitdiyi sözdəki səsləri və onları işarə edən hərfləri müəyyən edir (st. 4.1.1).
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Köməkçi vasitələr (təchizat):** kəsmə hərflər, üzərində kiçik hərflər yazılmış plastik qapaqlar, üzərinə hecalar yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ötən dərsin xatırlanması |
| 2 | **Dil qaydaları** | Ee, Əə, Ss, Şş, Iı, İi, Ff hərflərinin mənimsədilməsi |
| 3 | **Oxu** | Öyrədilən hərflərdən ibarət sözlərin hecalarla oxusu |
| 4 | **Yazı** | "Aa" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Ötən dərsdə keçilmiş hərflər xatırladılır. Bunun üçün şagirdlərin qarşısında kiçik *a, n, b, z, r* kəsmə hərfləri olmalıdır. Müəllim bu hərflərin böyük variantlarını göstərdikcə şagirdlər onların kiçik analoqlarını tapıb nümayiş etdirməlidirlər. Müəllim yeni dərsə keçid etmək üçün suallar verə bilər:

– *Keçən dərslərdə tanış olduğunuz Raminin bacısının adı nə idi? Bu ad hansı hərflə başlayır? Sinfimizdə kimin adı bu hərflə başlayır?*

Şagirdlərin cavablarından sonra müəllim bu dərsdə keçiləcək hərflərə maraq oyadır. Bunun üçün adı həmin hərflərlə başlanan şagirdlər seçilir, məsələn: – *Samir, bəs sənin adın hansı hərflə başlanır? Fidan, bəs səninki?* və s.

### Dil qaydaları

**4.1.1** **Tapşırıq A (dərslik).** Növbəti böyük hərflərin (E, Ə, S, Ş, I, İ, F) təkrarına başlanır. Müəllim şagirdlərin diqqətini şəkil adlarının ilk səsini işarə edən hərfə yönəldir. Sonra şagirdlərə həmin hərflə (səslə) başlanan başqa sözlər deməyi tapşırır. Sonuncu olaraq "ı" hərfi üzərində iş gedir. Şagirdlər "ı" ilə başlayan söz tapa bilmədikdə müəllim "ı" hərfinin yalnız sözün ortasında və sonunda işləndiyini bildirir və bir neçə söz səsləndirir: *ayı, bacı* və s.

Hər bir şəkil və hərf üzərində iş yerinə yetirilərkən müəllimin kəsmə hərfləri lövhədə yerləşdirib nümayiş etdirməsi tövsiyə olunur.

**Diferensial təlim**
Sinifdə oxuya bilən şagirdlər olarsa, onlara şəkil adlarının ilk səsini deyil, bütövlükdə sözü oxumaq tapşırıla bilər.

**Müəllimin nəzərinə!** Böyük Ə, S, Ş, I, İ, F və kiçik ə, s, ş, ı, i, f hərf konfiqurasiyalarının oxşarlığı bu hərflərin şagirdlər tərəfindən asanlıqla mənimsənilməsinə imkan verir. Böyük "E" və "F", həmçinin kiçik "e" və kiçik "ə" hərflərinə daha çox diqqət yönəldilməlidir.

**Tapşırıq B (dərslik).** Tapşırıqda şagirdlərdən şəkil adlarının ilk səsini müəyyənləşdirmək tələb olunur. Şagirdlər boşluqdakı səsləri müəyyən etməklə yanaşı, həmin səsləri işarə edən hərfləri kəsmə və ya üzərində hərf yazılmış qapaqlarla göstərməlidirlər.

**Tapşırıq B (iş dəftəri).** Yaxın səsləri ifadə edən oxşar konfiqurasiyalı hərfləri fərqləndirmək bəzi şagirdlər tərəfindən çətin mənimsənilir. Tapşırıq bu bacarığın inkişafına yönəlmişdir. Müəllim tapşırığın köməyi ilə "s"–"ş" səs və hərflərini ayırmaqda çətinlik çəkən şagirdləri müəyyənləşdirib sonrakı dərslərdə həmin şagirdlərə nəzarəti gücləndirə bilər.

**4.1.3** **Böyük və kiçik hərflər cədvəli**

**Cütlərlə iş.** Şagirdlərə böyük və kiçik hərflərin qoşa verildiyi cədvəli diqqətlə nəzərdən keçirmək və dərslikləri örtmək tapşırılır. Müəllim bir-bir hərfləri səsləndirir. Cütlər birlikdə parta üzərində həmin hərfləri qoşa yerləşdirirlər. Sonra müəllim cütlərin işini yoxlayır.

**Tapşırıq A (iş dəftəri). İnformatika fənni ilə inteqrasiya**. Şagirdlər məqsədə çatmaq üçün təlimata uyğun düzgün hərəkət variantını seçirlər.

Müəllim şagirdlərə tapşırıqla bağlı təlimat verir:
– *Eyni səsi bildirən böyük və kiçik hərfləri birləşdirmək üçün nöqtələrin üzəri ilə hərəkət etməlisiniz, unutmayın ki, hərflər arasındakı xətlər kəsişməməlidir.*

### Oxu

**2.2.1** **Tapşırıq C (dərslik).** Bu tapşırığın məqsədi şagirdlərin oxu bacarığını formalaşdırmaqdır. Sözlərin oxusuna başlamazdan öncə şagirdlər əvvəlcə ikihərfli hecalar (*bi, şi, rə, fə sə, bə, nə, sı*), sonra üçhərfli hecalar (*bir, nər, rin, fır,*) yazılmış kartları oxuyurlar, sonra tapşırıqda verilmiş sözlərin oxusuna keçirlər.

### Yazı

**3.1.1** **“Hüsnxət” rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik “Aa” hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Diferensial təlim**

Əgər sinifdə oxu və yazı bacarığı tam formalaşmış şagirdlər varsa, həmin şagirdlər dərslikdəki hüsnxət rubrikasında verilmiş sözləri oxuya və yaza bilərlər.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlərin sözü səslərə ayırıb hərflərlə eyniləşdirmə bacarığı da inkişaf etdirilir. Şagirdlər şəkildə verilmiş varlıqların adlarındakı "a" səslərini digər səslərdən fərqləndirib sayını müəyyənləşdirməli və həmin səsi işarə edən hərfi tanıdığını yazısı ilə nümayiş etdirməlidir.

**Diferensial təlim**

Bəzi şagirdlər şəkildə verilmiş varlıqların adlarındakı səsləri ayırıb saymaqda çətinlik çəkə bilər. Tapşırığın yerinə yetirilməsi zamanı müəllim bütün şagirdlərə növbə ilə yaxınlaşıb onlara nəzarət etməli, şəkil üzrə "a" səsini ayıra bilməyən şagirdlərə kömək etməlidir. Bunun üçün müəllim həmin şagirdin iş dəftərində uyğun şəklin altında sözü bütöv yazıb şagirddən “a” hərfinin sayını soruşa bilər.

Bu tapşırıq müəllimə sözü səslərə ayırmaq və hərflərlə işarə etməkdə çətinlik çəkən uşaqları müəyyənləşdirməyə və bu istiqamətdə nəzarəti gücləndirməyə kömək edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözdəki səsi müvafiq hərflə uyğunlaşdırır. | Tap. A, B (dərslik), Tap. B (iş dəftəri) |
| Böyük və kiçik Ee, Əə, Ss, Şş, Iı, İi, Ff hərflərini uyğunlaşdırır. | Tap. A (iş dəftəri) |
| Öyrəndiyi hərflərdən ibarət sözləri hecalarla oxuyur. | Tap. C (dərslik) |
| “Aa” hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət (iş dəftəri), Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** 1. Növbəti dərsə başlamaq üçün üzərində çap hərflərlə *ŞAR, ŞƏRF, ŞİRƏ*; *şar, şərf, şirə* yazılmış kiçik rəngli kartlar hazırlana bilər. Şagirdlər müxtəlif rənglərdə olan, lakin üzərinə eyni söz yazılmış kartları seçməlidirlər.
2. Dərsliyin 10-cu səhifəsindəki C tapşırığının yerinə yetirilməsi üçün üzərinə müvafiq hecalar yazılmış kartların hazırlanması tövsiyə olunur. Kartların üzərinə aşağıdakı hecaları yazmaq olar:
ikihərfli hecalar – *te, le, ba, lə, hə, co, cə, la;*
üçhərfli hecalar – *tar, tor, fon, lal, rab, sən.*

## 4-cü dərs. Ll, Oo, Öö, Tt, Cc, Hh hərfləri. Hüsnxət: “Nn” hərfi

• Dərslik: səh. 10 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözləri hecalarla oxuyur (St. 2.2.1).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ötən dərsin xatırlanması üçün sözlərin oxusu |
| 2 | **Dil qaydaları** | Ll, Oo, Öö, Tt, Cc, Hh hərflərinin mənimsədilməsi |
| 3 | **Oxu** | Öyrədilən hərflərdən ibarət sözlərin hecalarla oxusu |
| 4 | **Yazı** | “Nn” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim ötən dərslərdə keçilən böyük və kiçik hərflərin şagirdlər tərəfindən tam mənimsənildi-

yini yoxlamaq üçün çap hərflərlə *ŞAR, ŞƏRF, ŞİRƏ; şar, şərf, şirə* yazılmış kiçik rəngli kağızları göstərərək eyni sözlərin seçilməsini tapşırır. Müəllim lövhədə ŞAR sözü yazır, sonra isə bu sözdəki **Ş** hərfini pozub yerində **T** yazır (TAR) və bu sözü oxumağı tapşırır. Daha sonra **A** hərfini pozub yerində **O** yazır (TOR). Beləliklə, sözdə bir hərf dəyişməklə yeni söz yaratmaq mümkün olması şagirdlərin diqqətinə çatdırılır. Eyni zamanda müəllim yeni dərsin mövzusuna (Ll, Oo, Öö, Tt, Cc, Hh hərfləri) keçid edir.

### Dil qaydaları

4.1.3 **Tapşırıq A (dərslik).** Növbəti 6 böyük hərfin (L, O, Ö, T, C, H) xatırlanmasına başlanır. Müəllim *"Bu şəkildə nə görürsünüz? Bu sözün ilk səsi hansıdır?"* sualları ilə şagirdlərin diqqətini həmin səsin işarə olunduğu hərfə yönəldir. Hər bir şəkil və hərf üzərində iş yerinə yetirilən zaman müvafiq böyük və kiçik hərflər lövhədə yerləşdirilir.

**Müəllimin nəzərinə!**
Böyük və kiçik Oo, Öö, Cc hərf konfiqurasiyalarının oxşarlığı bu hərflərin şagirdlər tərəfindən asan mənimsənilməsinə imkan verir. Onların diqqəti daha çox Tt, Hh, Ll hərflərinə yönəldilməlidir.

**Diferensial təlim.** Sinifdə oxuya bilən şagirdlər olarsa, onlara şəkildəki varlıqların ilk səsini deyil, bütövlükdə sözü oxumaq tapşırıla bilər.

**Böyük və kiçik hərflər cədvəli.** Şagirdlərə cədvələ baxaraq partalarının üzərində həmin hərfləri qoşalaşdırmaq tapşırılır.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər şəkillərin altındakı sözləri oxuyub eyni səslə başlayan varlıq adlarını müəyyən edirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər əvvəlcə üzərinə ikihərfli hecalar (*te, le, ba, lə, hə, co, cə, la, nə, na*), sonra üçhərfli hecalar (*tar, tor, fon, lal, rab, sən*) yazılmış kartları oxuyurlar, sonra tapşırıqda verilmiş sözlərin oxusuna keçirlər.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər böyük və kiçik hərflərlə verilmiş eyni sözü tapıb müvafiq şəkillə uyğunlaşdırmaqla oxuyub-anladıqlarını nümayiş etdirirlər.

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "Nn" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin həm də çap hərfləri ilə verilmiş sözləri əlyazısı şəklində yazmaq bacarığını formalaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Böyük və kiçik Ll, Oo, Öö, Tt, Cc, Hh hərflərini uyğunlaşdırır. | Tap. A (dərslik), Böyük və kiçik hərflər cədvəli |
| Öyrəndiyi hərflərdən ibarət sözləri hecalarla oxuyur. | Tap. B, C (dərslik) |
| Oxuduğu sözün aid olduğu şəkli müəyyən edir. | Tap. A (iş dəftəri) |
| "Nn" hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət (iş dəftəri), Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** 1-ci fəsildə keçilmiş hərflərin iştirak etdiyi sözlərdən ibarət kartların hazırlanması tövsiyə olunur.

## fəsil 2 MƏKTƏB BAZARLIĞI

## 1-ci dərs. Məktəb bazarlığı. Qq, Dd, Kk, Çç, Mm, Pp, Xx hərfləri.

- Dərslik: səh. 11-12
- İş dəftəri: səh. 6

### Təlim məqsədləri

- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 1.2.1).
- Dinlədiyi suallara adekvat cavab verir (st.1.1.1).
- Eşitdiyi sözdəki səsləri və onları işarə edən hərfləri müəyyən edir (st. 4.1.1).
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Keçilmiş hərflərin təkrarı |
| 2 | **Dinləmə-danışma** | Məktəb bazarlığı mövzusunda söhbət |
| 3 | **Dil qaydaları** | Qq, Dd, Kk, Çç, Mm, Pp, Xx hərfləri |
| 4 | **Oxu** | Öyrədilən hərflərdən ibarət sözlərin hecalarla oxusu |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

1-ci fəslin tədrisi ərzində keçilmiş hərflərin mənimsənildiyini yoxlamaq üçün müəllim şagirdlərə söz kartları paylayır. Hər bir şagird ona verilən sözü oxuyur və müəllimin suallarına cavab verməklə sözü anladığını nümayiş etdirir. Yaxud şagirdlərə partalarının üzərində plastik qapaqlarla *Aa, Bb, Ee, Ff, Ll, Hh, Tt, Rr* hərflərini uyğunlaşdırmaq tapşırılır. Müəllim sinifdə gəzərək bütün uşaqların yığdığı böyük və kiçik hərf uyğunluğunu yoxlayır.

### Dinləmə-danışma

1.2.1 1.1.1 **Tapşırıq A (dərslik).** Uşaqların ilk dərs gününə hazırlığı bu yaş dövrü üçün ən mühüm hadisələrdən biri sayılır. Odur ki bu mövzu şagirdlərin daha həvəsli, inamlı danışması üçün imkanlar verir.

Dərslikdəki məktəb bazarlığına dair şəkillər əsasında şagirdlər yaxın zamanda yaşadıqları yaddaqalan bir günə dair təəssüratlarını bölüşürlər.

**Müəllimin nəzərinə!:** Müəllim şagirdlərin öz məktəb bazarlığı ilə bağlı səmimi cavablar verməsinə, çəkinmədən danışmasına şərait yaratmalıdır. Şagirdlər hiss etməlidirlər ki, onların fikirləri müəllimi və yoldaşları üçün önəmlidir.

Müəllim yönəldici suallardan istifadə edə bilər:

*– Şəkildə nə görürsünüz? Bura haradır? Raminlə anası nə edirlər? Ananın əlindəki nədir? O nə üçündür? Bazarlığa kimlə getmişdiniz? Nəyi alarkən seçim etməkdə çətinlik çəkdiniz? Nəyə görə məhz bu çantanı seçdiniz? Bazarlıqdan qayıdandan sonra evdə nə etdiniz? Alış-veriş üçün valideynlərinizə necə təşəkkür etdiniz?*

**Müəllimin nəzərinə!** Çalışmaq lazımdır ki, şagirdlər suallara cavab verərkən fikirlərini əsaslandırsınlar. Məsələn, müəllim bir şagirdin çantasını göstərib ondan soruşa bilər: – *Nəyə görə məhz bu çantanı seçdin?* Həmin şagird öz çantası ilə bağlı hər hansı bir detalı göstərməklə fikrini əsaslandırmalıdır.

*Alış-veriş üçün valideynlərinizə necə təşəkkür etdiniz?* sualı şagirdlərə böyüklərə qarşı sevgi, hörmət və s. mənəvi dəyərlər aşılamağa, həmçinin təşəkkür bildirən nitq etiketi ilə bağlı ilkin bilikləri yoxlamağa xidmət edir. Ola bilsin ki, bunu etməyən uşaqlar olub. Ona görə də müəllim onlara belə bir tövsiyə verə bilər:

*– Gəlin valideynlərimizə qarşı diqqətli olaq, onları sevdiyimizi göstərmək üçün lazım gələndə təşəkkür edək.*

Müəllim Raminlə bağlı kiçik bir mətn də təqdim edə bilər:

*Ramin marketdən qayıdan kimi zənbilləri açıb tökdü. Məktəb əşyalarını stolun üstünə yığdı. O, çox sevinirdi. Artıq məktəbə getmək üçün lazım olan hər şeyi var idi. Ramin anasının üzündən öpüb təşəkkür etdi: “Çox sağ ol, anacan!” – dedi.*

### Dil qaydaları

4.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər Raminin aldığı məktəb əşyalarının adlarını bir-bir söyləyirlər. Hər bir sözün ilk səsini fərqləndirib həmin səsi bildirən kəsmə hərfi lövhədə yerləşdirirlər. Şagirdlərə dərslikdəki şəkilaltı sözlər də oxudula bilər.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq [k] və [ç] səslərini qarışıq tələffüz edən və həmin səsləri işarə edən hərfləri seçməkdə çətinlik çəkən şagirdlərin müəyyən edilməsi və onlar üzərində nəzarətin gücləndirilməsi üçün müəllimə istiqamət verir.

4.1.3 **Böyük və kiçik hərflər cədvəli.**

**Cütlərlə iş.** Şagirdlərə böyük və kiçik hərflərin qoşa verildiyi cədvəli diqqətlə nəzərdən keçirmək və dərslikləri örtmək tapşırılır. Şagirdlər "hərf oyunu"na başlayırlar. Birinci şagird kəsmə böyük hərflərdən birini partanın üzərinə qoyur və yoldaşından həmin hərfin kiçik tayını tapmağı tələb edir. Sonra cütlər yerini dəyişirlər. Eyni qayda ilə "oyun" davam etdirilir. Müəllim sinifdə gəzərək cütləri müşahidə edir.

**Müəllimin nəzərinə!** Şagirdlər Çç, Kk, Pp, Xx hərflərinin böyük və kiçik forması eyni olduğuna görə mənimsəməkdə çətinlik çəkmirlər. Onların diqqəti Qq, Dd, Mm hərflərinə daha çox yönəldilməlidir.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər keçilən hərfləri mənimsədiklərini nümayiş etdirirlər.

### Oxu

2.1.1 **Tapşırıq C (dərslik).** Oxuyub-qavrama bacarığının formalaşması oxunulan sözün dərk edilməsi ilə başlanır. Tapşırığa görə şagirdlər kiçik hərflərlə verilmiş sözləri oxuyub-anladıqlarını bildirmək üçün sözə uyğun şəkil tapmalıdırlar. Şagirdlər uyğun şəkli rəqəmlə söyləyirlər.

**Tapşırıq C (iş dəftəri). Riyaziyyatla inteqrasiya**. Bu tapşırıq şagirdlərin oxuyub-anlama və riyazi bacarıqlarını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir. | Tap. A (dərslik) |

| | |
|---|---|
| Sözdəki səsləri fərqləndirir və onları işarə edən hərfləri göstərir. | Tap. B (dərslik).<br>Tap. B (iş dəftəri) |
| Eyni səsi işarə edən böyük və kiçik hərfləri uyğunlaşdırır. | Böyük və kiçik hərflər cədvəli. Tap. A (iş dəftəri) |
| Oxuduğu sözün aid olduğu şəkli müəyyən edir. | Tap. C (dərslik).<br>Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Üzərində kiçik hərflərlə məktəb əşyalarının adları (*qələm, çanta, dəftər, kitab, karandaş, marker, pozan, xətkeş*) yazılmış kartların hazırlanması tövsiyə olunur.

## 2-ci dərs. Məktəb ləvazimatı. "K" hərfinin ifadə etdiyi səslər. Hüsnxət: "Əə" hərfi

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 7

### Təlim məqsədləri

- "K" hərfinin işarə etdiyi [k`] və [k] samitlərini fərqləndirir (st. 4.1.1).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1)
- Sözdəki səsləri müəyyənləşdirir (st. 2.2.1).
- Sözün ifadə etdiyi anlayışın əsas əlamətlərini sadalayır (st. 2.1.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**Köməkçi vasitələr (təchizat):** kəsmə hərflər, üzərində məktəb ləvazimatlarının adları (*qələm, çanta, dəftər, kitab, marker, pozan, xətkeş*) yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Üzərində məktəb əşyalarının adları yazılmış kartların oxusu |
| 2 | **Dil qaydaları** | "K" hərfinin ifadə etdiyi səslərin mənimsədilməsi |
| 3 | **Oxu** | Öyrədilən hərflərdən ibarət sözlərin hecalarla oxusu |
| 4 | **Söz ehtiyatı** | Məktəb əşyalarının təyinatı |
| 5 | **Yazı** | "Əə" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərə dərsliyin 11-ci səhifəsində verilmiş B tapşırığındakı şəklə baxaraq həmin əşyaları partada düzmək tapşırılır. Müəllimin hazırladığı kiçik kağızlar şagirdlərə paylanır. Hər bir şagird kağızdakı sözləri oxuyaraq uyğun əşyaların üstünə qoyur.

### Dil qaydaları

**4.1.1** **Tapşırıq A (dərslik).** Müəllim: "Gəlin görək Raminin və sizin partanızın üzərində hansı məktəb əşyası yoxdur?" – deyə şagirdlərdən soruşur. Şagirdlərdən "karandaş" cavabı alındıqdan sonra A tapşırığına keçid edilir.

Şagirdlər "kitab" və "karandaş" sözlərinin ilk hərf və ilk səsini müqayisə edərək "k" hərfinin [k`] və [k] səslərini ifadə etdiyini anlayırlar.

**"Bunları bilməliyik" rubrikası.** Bu rubrikada verilmiş sözləri oxuyan şagirdlər sözlərin ilk səsini müqayisə edib "k" hərfinin ifadə etdiyi [k`] və [k] səslərini sxem əsasında mənimsəyirlər.

**Tapşırıq B (dərslik).** Bu tapşırıq dil qaydası üzrə möhkəmləndirmə məqsədi daşıyır. Şagirdlər şəkil adlarını oxuyaraq "k" hərfinin [k`] kimi tələffüz edildiyi sözü ("konfet") müəyyən edirlər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırqda şagirdlərdən varlıq adlarının ilk səsini ([k], yoxsa [k`]) fərqləndirmək tələb olunur. Bunun üçün müəllim əvvəlcə şagirdlərdən şəkildəki varlıqların adlarını soruşmalı və adının ilk səsi eyni olan şəkilləri xətlərlə birləşdirməyi tapşırmalıdır.

### Oxu

**2.2.1** **Tapşırıq C (dərslik).** Şagirdlərin oxu zamanı "k" hərfinin sözə müvafiq [k`] və [k] kimi səsləndirmək bacarığı inkişaf etdirilir. Sözlər əvvəlcə müəllim tərəfindən oxunmalı, şagirdlərə tanış olmayan sözlərin mənası və onların düzgün tələffüz qaydası izah edilməlidir. "Ka" hərfinin iştirak etdiyi sözlər bunlardır: kart, karton, karate, keks, aptek, kassa, kral, konki.

### Söz ehtiyatı

**2.1.1** **Tapşırıq Ç (dərslik).** Danışma fəaliyyəti şagirdlərin ümumilikdə bələd olduqları məktəb əşyalarının təyinatı mövzusu ilə bağlıdır. Bu tapşırıq üzrə şagirdlər məktəb əşyalarının istifadə məqsədi və qaydası barədə danışırlar. Müəllim əşyaların sayını artıra bilər: qələmdan, qayçı, yapışqan, rəngli kağız, xətkeş, plastilin və s. Bu əşyaların adlarının öyrənilməsi və istifadə edilməsi şagirdlərin söz ehtiyatının düzgün istiqamətdə inkişafına kömək edir. Müəllim şagirdlərin nitqinin təmizliyinə çalışmalı, *ruçka, kley, lineyka, penal* və bu kimi varvarizmlər işlədilərsə, düzəliş etməlidir.

**Müəllimin nəzərinə!** Dərsboyu şagirdlərin

söz ehtiyatı nəzarətdə saxlanılmalıdır. Bəzi şagirdlər üçün yeni olan sözlər "Söz boğçası"na əlavə edilməli, növbəti dərslərdə həmin sözlərin yenidən oxusu təşkil edilməli, mənası və tələffüzü üzrə iş aparılmalıdır.

**Cütlərlə iş.** Müəllim lövhə qarşısına iki şagird çıxarır. Onlardan biri gözünü yumur. Digəri istədiyi bir məktəb əşyasının təyinatı ilə bağlı bir neçə cümlə ilə "ipucu" verir. Qarşı tərəf gizlədilən əşyanın nə olduğunu tapır. Bu "oyun"un əsas məqsədi şagirdlərdə hər hansı bir əşyanı tanıtmaq üçün dəqiq detallar söyləmək, onlarda anlayışı izah etmək bacarığı formalaşdırmaqdır.

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "Əə" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri).** Müəllim əvvəlcə *xətkeş, dəftər, kəpənək* və *kərtənkələ* sözlərini sıra ilə səsləndirib neçə *[ə]* səsinin olduğunu soruşur. Sonra tapşırıq yerinə yetirilir. Sözü səslərə ayırmaqda çətinlik çəkən şagirdlər şəkilaltı sözləri oxuyaraq "ə" hərfinin sayını müəyyən edib həmin sayda "ə" hərfi yazırlar.

**Müəllimin nəzərinə!** Müəllim sözü tələffüz edərək səslərə ayırmaqda çətinlik çəkən şagirdlərə nəzarəti gücləndirməlidir. Sözü səslərə ayıra bilməmək şagirdin oxu və yazı bacarıqlarının inkişafına mənfi təsir göstərə bilər.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq şagirdlərin həm yazı, həm də oxuyub-anlama bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| "K" hərfinin işarə etdiyi [k`] və [k] samitləri fərqləndirir. | Tap. A, B (dərslik).<br>Tap. A (iş dəftəri) |
| Sözləri hecalarla oxuyur. | Tap. C (dərslik) |
| "K" hərfinin iştirak etdiyi sözləri oxuyarkən [k`] və [k] samitlərini fərqli tələffüz edir. | Tap. C (dərslik) |
| Məktəb əşyalarının əsas əlamətlərini sadalayır. | Tap. Ç (dərslik) |
| "Əə" hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət (iş dəftəri).<br>Tap. B, C (iş dəftəri) |

## 3-cü dərs. Uu, Üü, Vv, Yy, Jj, Gg, Ğğ hərfləri. Hüsnxət: "Ll" hərfi

- Dərslik: səh. 13
- İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

- Eşitdiyi sözdəki səsləri və onları işarə edən hərfləri müəyyən edir (st. 4.1.1).
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

- **Köməkçi vasitələr (təchizat):** kəsmə hərflər, üzərində hərf yazılmış qapaqlar.

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ötən dərsdə mənimsədilən hərflərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Böyük və kiçik Uu, Üü, Vv, Yy, Jj, Gg, Ğğ hərflərinin uyğunlaşdırılması |
| 3 | **Oxu** | Öyrədilən hərflərdən ibarət sözlərin hecalarla oxusu |
| 4 | **Yazı** | "L l" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Ötən dərsdə keçilmiş hərflər xatırladılır. Bunun üçün müəllim q, d, k, ç, m, p, x kəsmə hərflərini göstərərək şagirdlərə həmin hərflərlə başlayan sözlər deməyi tapşırır.

### Dil qaydaları

4.1.1 **Tapşırıq A (dərslik).** Bu tapşırıq vasitəsilə sonuncu 7 hərfin (Uu, Üü, Vv, Yy, Jj, Gg, Ğğ) mənimsədilməsinə başlanır. Şagirdlər şəkil adlarını səsləndirib ilk hərflərə diqqət edirlər. Sonuncu şəkil adını səsləndirməyə keçməzdən öncə müəllim: *"Ğ" hərfi ilə başlayan sözlər deyə bilərsinizmi? Hansı hərflə söz başlamırdı?"* – sualları ilə şagirdləri düşünməyə, keçilmişləri xatırlamağa sövq edir. Şagirdlərlə birlikdə müəyyən olunur ki, Azərbaycan dilində "Ğ" və "I" hərfləri ilə söz başlamır, bu səslər söz ortasında və ya söz sonunda (*qoğal, dağ, qatıq, arı* və s.) işlənir.

**Tapşırıq B (dərslik).** Şagirdlər bu tapşırığı yerinə yetirməklə ana dilimizin "ı" və "ğ" ilə söz başlaya bilməməsi xüsusiyyətinə bələd olduqlarını nümayiş etdirirlər.

4.1.3 **Böyük və kiçik hərflər cədvəli.** Şagirdlər dərslikdə böyük və kiçik Uu, Üü, Vv, Yy, Jj, Gg, Ğğ hərflərinin qoşa verildiyi cədvələ baxaraq partalarının üzərində həmin hərfləri qoşalaşdırırlar. Müəllim sinifdə gəzərək hər bir şagirdin böyük və kiçik hərfləri düzgün uyğunlaşdırdığını yoxlayır.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda şagirdlərdən eyni səsi bildirən böyük və kiçik hərfləri eyni fiqur daxilində yerləşdirmək tələb olunur.

**Tapşırıq C (dərslik) və tapşırıq A (iş dəftəri).** Hər iki tapşırıq hərflərin mənimsədilməsinə xidmət edir. Şagirdlər şəkildəki varlıqların adının birinci səsini işarə edən hərfi seçməklə oxşar konfiqurasiyalı kiçik hərfləri fərqləndirdiklərini nümayiş etdirirlər.

2.2.1 **Tapşırıq Ç (dərslik).** Bütün hərfləri mənimsəyən şagirdlər kiçik hərflərlə verilmiş sözləri oxuyurlar. Bəzi şagirdlər çoxhecalı sözləri (*qarğıdalı, qurbağa* və s.) oxuyub-anlamaqda çətinlik çəkə bilər. Bu zaman müəllim oxunulan sözün qavranılması üçün ipucu verə bilər. Müəllim şagirdlərin sözü mexaniki oxuyub keçməsinə yol verməməli, şagirdin oxuyub-anladığını sual-cavab əsasında müəyyən etməlidir.

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "Ll" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq C şagirdlərin çap hərfləri ilə sözləri oxuyub hüsnxət normalarına uyğun yazmaq bacarığını da inkişaf etdirir. Sözlərin şəkillərlə müşayiət olunması şagirdlərin oxuyub-anlamasını asanlaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözdəki səsi müvafiq hərflə uyğunlaşdırır. | Tap. A, B, C (dərslik). Tap. A (iş dəftəri) |
| Böyük və kiçik Uu, Üü, Vv, Yy, Jj, Gg, Ğğ hərflərini uyğunlaşdırır. | Böyük və kiçik hərflər cədvəli. Tap. B (iş dəftəri) |
| Sözləri hecalarla oxuyur. | Tap. Ç (dərslik) |
| "Ll" hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət (iş dəftəri). Tap. C (iş dəftəri) |

## 4-cü dərs. Sözlərin oxunması. Hüsnxət: "Mm" hərfi

- Dərslik: səh. 14–15
- İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

- Eşitdiyi sözdəki səsləri və onları işarə edən hərfləri müəyyən edir (st. 4.1.1).
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**Köməkçi vasitələr (təchizat):** kəsmə hərflər, üzərinə hərf yazılmış qapaqlar.

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Hərflərdən söz düzəltmə |
| 2 | **Dil qaydaları** | Böyük və kiçik hərflərin uyğunlaşdırılması |
| 3 | **Oxu** | Sözlərin hecalarla oxusu |
| 4 | **Yazı** | "Mm" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Bu dərs hərflərin möhkəmləndirilməsinə və oxu bacarığının formalaşdırılmasına həsr edilir. Bunun üçün şagirdlər kəsmə hərf və rəqəmləri partalarının üzərinə qoyurlar.

### Dil qaydaları

4.1.1 **Tapşırıq A (dərslik).** Tapşırıq vasitəsilə əvvəlki dərslərdə keçilmiş 14 kiçik hərf təkrar edilir. Şagirdlərdən şəkillərin üzərində dağınıq halda verilən hərflərin ardıcıllığını müəyyən etmək tələb olunur. Bunun üçün şagirdlər şəkildəki varlıqların adının 1-ci, 2-ci, 3-cü və ya 4-cü hərflərinin hansı rənglə göstərildiyini söyləməli və yaxud kəsmə hərflər və üzərində hərf yazılmış qapaqlarla həmin şəkli ifadə edən sözləri yığmalıdırlar.

**Tapşırıq B (dərslik).** Sözlərdə hər bir səsin və ya hər bir hərfin rolunun dərk olunması şagirdlərin nitq bacarıqlarının inkişafında mühüm rol oynayır. Bu tapşırıqda şagirdlər *şar, nar, tar, qar* sözlərində *ş, n, t, q* hərflərinin dəyişilməsi ilə müxtəlif mənalı sözlərin yarandığının şahidi olurlar.

**Diferensial təlim**
Dərinləşdirmə. Müəllim sinfin daha fəal şagirdlərinə bir hərf dəyişməklə müxtəlif sözlər düzəltməyi tapşıra bilər.

**Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərin yaxınməxrəcli səsləri işarə edən hərfləri fərqləndirmək bacarığını da inkişaf etdirir. Şagirdlər şəkli ifadə edən sözləri səsləndirib buraxılmış hərfləri müəyyən edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər sözləri səsləndirən zaman onların tələffüzünə diqqət etmək lazımdır. Müəllim həmin şəkli ifadə edən sözdəki *[r]* səsini buraxmaqla lövhədə yaza və şagirdlərə həmin boşluğa uyğun gələn kəsmə hərfi göstərməyi tapşıra bilər.

**Diferensial təlim**
Bu tapşırıq disleksiya və disqrafiya problemi yaşayan uşaqların aşkara çıxarılması və problemin aradan qaldırılması üçün imkanlar yaradır. Bəzi uşaqlar "r" hərfli sözlərdə "r" hərfinin əvəzinə "l" və "y" deyirlər. Bu problem yazı bacarığının inkişafına da mənfi təsir göstərir. Uşaq necə deyirsə, elə də yazmağa başlayır. Müəllim bu tapşırığı yerinə yetirməkdə çətinlik çəkən şagirdləri müəyyənləşdirməklə bu istiqamətdə iş aparmalı, problemin aradan qaldırılmasına valideynləri də cəlb etməlidir.

4.1.3 **Tapşırıq A (iş dəftəri).** Əsas məqsəd şagirdlərin eyni səsi işarə edən fərqli konfiqurasiyalı böyük və kiçik hərfləri mənimsəmə səviyyəsini yoxlamaqdır.

### Oxu

2.2.1 2.1.1 **Tapşırıq Ç (dərslik) və tapşırıq C (iş dəftəri). Təsviri incəsənət fənni ilə inteqrasiya.** Tapşırıqlara əsasən şagirdlər rəng adlarını oxuyub uyğun rəngi seçməklə oxuyub-anladıqlarını nümayiş etdirirlər. Məsələn, şagird "yaşıl" sözünü oxuyur, yaşıl rəngli karandaşın neçənci olduğunu deyir. Yaxud da həmin rəngdə olan karandaşı göstərir.

Digər tapşırığa əsasən şagird çanta şəklini istəyinə uyğun rəngləməklə zövqünü, istifadə etdiyi rənglərin adlarını göstərməklə isə oxuyub-anlama bacarığını nümayiş etdirir.

**Tapşırıq D (dərslik). Riyaziyyat fənni ilə inteqrasiya.** Şagirdlər sol sütundakı rəqəm adlarını sıra ilə oxuyur, sonra sağ sütunda həmin saydakı məktəb əşyasını tapır. Məsələn, şagirdlərdən biri "beş" sözünü oxuyur və müəyyən edir ki, şəkildə 5 ədəd marker var. Müəllim çalışmalıdır ki, hər bir şagird tapşırığın yerinə yetirilməsində iştirak etsin.

**Diferensial təlim**
Dəstək. Rəqəmlərin sözlə təsvirini tanımaqda çətinlik çəkən bəzi şagirdlərə oxuduğu sözə uyğun rəqəmi lövhədə yazmaq və ya kəsmə rəqəmlə göstərmək tapşırıla bilər.

### Yazı

3.1.1 **Hüsnxət rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "Mm" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlərin çap hərfləri ilə sözləri oxuyub hüsnxət normalarına uyğun yazmaq bacarığı da inkişaf etdirilir. Sözlərin şəkillərlə müşayiət olunması şagirdlərin oxuyub-qavramasını asanlaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözdəki səsləri fərqləndirir və onları işarə edən hərfləri göstərir. | Tap. A, B, C (dərslik) |
| Böyük və kiçik hərfləri uyğunlaşdırır. | Tap. A (iş dəftəri) |
| Sözləri hecalarla oxuyur. | Tap. Ç, D (dərslik).<br>Tap. B (iş dəftəri) |
| Oxuduğu sözü müvafiq anlayışla əlaqələndirir. | Tap. Ç, D (dərslik).<br>Tap. B (iş dəftəri) |
| "Mm" hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət (iş dəftəri).<br>Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsin mövzusu hədiyyə ilə bağlı olduğu üçün müəllimə əvvəlcədən hədiyyə qutusu hazırlamaq tövsiyə edilir. Hədiyyə qutusunun üzərində yaxın zamanlarda ad günü olacaq bir şagirdin adı və ona ünvanlanmış bir neçə söz yazılır (məsələn: "Ülkər, 7 yaşın mübarək! Biz səni çox sevirik!").

fəsil 3 BABANIN HƏDİYYƏSİ

## 1-ci dərs. Təbrik və təşəkkür. Hüsnxət: “Iı” hərfi

• Dərslik: səh. 16 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**
- Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 1.2.3).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını şəkillərin köməyi ilə müəyyən edir (st. 1.1.1).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Dialoqlarda situasiyaya uyğun sadə nitq etiketlərindən istifadə edir (st. 1.2.3).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**Köməkçi vasitələr (təchizat):** hədiyyə qutusu, kəsmə hərflər.

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Hədiyyə qutusunun üzərində yazılan təbrikin oxusu |
| 2 | **Dinləmə-danışma** | Hədiyyə haqqında sual-cavab |
| 3 | **Oxu** | Hədiyyə qutularının üzərindəki sözlərin oxusu |
| 4 | **Dinləmə** | Süjetli şəkilləri müşayiət edən dinləmə mətninin təqdimi |
| 5 | **Danışma. Söz ehtiyatı** | Rollu oyun. Situasiyaya uyğun nitq etiketlərinin mənimsədilməsi |
| 6 | **Yazı** | “Iı” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər müəllimin gətirdiyi “hədiyyə” qutusunun üzərində yazılmış sözləri oxuyur və hədiyyənin sahibinin kim olduğunu tapırlar. Bununla şagirdlərdə dərsin mövzusuna maraq yaranır və müəllimin suallarını həvəslə cavablandırırlar.

### Danışma

1.2.3 **Tapşırıq A (dərslik).** Müəllim çalışmalıdır ki, şagirdlər sualları cavablandırarkən fikirlərini əsaslandırsınlar. Məsələn: “Hədiyyə vermək xoşunuza gəlir, yoxsa hədiyyə almaq?” sualına şagirdlər bir cavab variantı seçdikdə müəllim “nə üçün?” sualını əlavə etməlidir.

Şagirdlər təxminən belə cavablar verməlidirlər:

*– Mən hədiyyə verməyi xoşlayıram. Çünki başqasını sevindirməkdən, təəccübləndirməkdən xoşum gəlir.*

*– Hədiyyə verməyi xoşlamıram. İstəyirəm ki, o da mənim olsun.*

*– Hədiyyə almaqdan xoşum gəlir. Tez fikirləşirəm ki, hədiyyə qutusunun içindəki nədir?*

Müəllimin əlavə sualları: – *Sizə verilən hədiyyənin necə olmasını istəyərdiniz? Açıq, yoxsa hədiyyə qutusunda? Kim üçün hədiyyə hazırlamısınız? Bu işdə sizə kim kömək edib?*

**Müəllimin nəzərinə!** Texnologiya dərsində hədiyyə qutularının hazırlanması tövsiyə edilir.

### Oxu

2.1.1 **Tapşırıq B (dərslik).** Bu tapşırığı yerinə yetirməklə şagirdlərin hədiyyə ilə bağlı təsəvvürləri əyaniləşir. Həmçinin şagirdlərin oxuduğu sözü müvafiq anlayışla əlaqələndirmə bacarığı inkişaf edir. Şagirdlər hədiyyə qutularının üzərində yazılmış sözləri oxuyaraq uyğun oyuncağı rəqəmlə söyləyirlər. Bu tapşırıq üzərində sözlər yazılmış hədiyyə qutuları, oyuncaq və ya digər əşyalardan (yaxud müvafiq şəkilli kartlardan) istifadə edilməklə də yerinə yetirilə bilər.

### Dinləmə

1.1.1 **Tapşırıq C (dərslik).** Dərslikdəki süjetli şəkillər üzrə fəaliyyətə başlamazdan öncə müəllim dərsliyin 7-ci səhifəsindəki sonuncu şəkli göstərərək ilk dərsi xatırladır. Müəllimin: "Sizcə, nənə ilə babanın Raminə gətirdiyi hədiyyə nə idi?” sualı şagirdləri həm düşündürür, həm də süjetli şəkillərə maraq yaradır.

Müəllim şagirdlərin şəkil üzrə informasiyanı daha dəqiq qavramaları üçün dinləmə mətni təqdim edir.

**Dinləmə mətni:**

*Ramin 1-ci sinfə hazırlaşırdı. Babası sevimli nəvəsini təbrik etmək üçün ona maraqlı bir hədiyyə gətirdi. O, hədiyyəni alıb babasına təşəkkür etdi. Sonra tez-tələsik hədiyyə qutusunu açdı. Hərflərdən ibarət pazlı görüb çox sevindi. Babası bilirdi ki, Ramin pazl yığmağı çox sevir. Ona görə də Raminə sevdiyi hədiyyəni alıb gətirmişdi.*

*Ramin dedi:*

*– Baba, bunlar hərfli pazllardır. Mən hərfləri tanıyıram.*

*Babası: “Lap yaxşı, bala, onda bu hərfləri al, söz düzəlt, görüm, bacaracaqsanmı?!” – deyib ona altı hərf verdi.*

*Ramin həvəslə işə başladı. ...*

Şagirdlər şəkillərin altında verilən faktoloji suallara cavab verməklə dinləmə zamanı nə dərəcədə diqqətli olduqlarını nümayiş etdirirlər. İkinci sualın cavablandırılması zamanı müəllim babanın sözlərini ("Söz düzəlt!") şagirdlərə oxuda bilər.

Sonra şagirdlər şəkillərə baxaraq danışırlar.

### Danışma. Söz ehtiyatı

**1.2.3** Müəllim şagirdlərin diqqətini "Söz boğçası" rubrikasında olan sözlərə yönəltməzdən öncə bu sözlərlə bağlı suallar verir:

– *Təşəkkür etmək üçün nə demək lazımdır?*

Bu sualı şagirdlər bir neçə formada cavablandıra bilər: *"Çox sağ olun. Təşəkkür edirəm! Payınız çox olsun!"* və s.

– *Ramin babasına necə təşəkkür etdi?* (Birinci şəkildəki "Çox sağ ol" ifadəsi oxunur.)

– *Təbrik edərkən nə demək lazımdır?* (Hədiyyəni nə münasibətlə veririksə, ona uyğun təbrik sözləri deməliyik (*"Bayramın mübarək!", "Doğum günün mübarək!", "Yüz yaşa!"* və s.).

**Rollu oyun.** ("Bir-birinizi təbrik edin")

Bu oyunun məqsədi şagirdlərin situasiyaya uyğun nitq etiketlərindən istifadə bacarığını inkişaf etdirməkdir. Oyuna başlamazdan öncə şagirdlərə təlimat verilməlidir. Təlimatda şagirdlərə təbrik və təşəkkür edərkən nə demək, özünü necə aparmaq, jest və mimikalardan necə istifadə etmək və s. izah olunur, müvafiq rollar verilir. Müəllim şagirdlərə rollarını ifa etməzdən öncə tapşıra bilər: "*Yoldaşınızı təbrik etmək üçün bir hədiyyə fikirləşin, həmin hədiyyənin bu qutuda olduğunu düşünün və yoldaşınıza verib onu təbrik edin".* Bu tapşırıq şagirdlərin xəyal gücünü inkişaf etdirir. Müəllim şagirddən xəyalında düşünüb seçdiyi hədiyyənin nə olduğunu, nə üçün bu hədiyyəni seçdiyini və s.-ni soruşmaqla şagirdlərin fikrini əsaslandırmasına çalışmalıdır.

Rollu oyunu bir neçə formada icra etmək olar:

– Müəllim müəyyənləşdirdiyi (yaxın zamanda ad günü olacaq) şagirdi lövhəyə çıxarır və bir neçə şagirdə yoldaşını təbrik etməyi tapşırır;

– Bir neçə oğlan və bir neçə qız seçilir. Qızlar ana, nənə rolunu, oğlanlar isə övlad rolunu oynayırlar. Oğlanlar bayram (8 Mart – Qadınlar günü) münasibətilə qarşı tərəfi təbrik edir, onlara arzularını bildirirlər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər təbrik və təşəkkür nitq etiketlərini mənimsədiklərini nümayiş etdirirlər.

### Yazı

**3.1.1** **"Hüsnxət" rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "Iı" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Müəllimin nəzərinə!** Böyük "I" hərfi ilə söz başlamadığı üçün bu hərfin praktik əhəmiyyəti azdır. Ancaq bəzən tərkibində "ı" hərfi olan sözün bütün hərflərinin böyük formada yazılması bu hərfin də öyrədilməsini lazımlı edir.

**Tapşırıq B (iş dəftəri).** Tapşırığın yerinə yetirilməsindən öncə müəllim şəkli ifadə edən sözü və bu sözdəki səsləri bir-bir soruşmalı, sonra sözlərdə buraxılmış hərfləri yerinə yazmağı tapşırmalıdır.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırığın yerinə yetirilməsi zamanı bəzi çətinliklər ortaya çıxa bilər. Belə ki, "ı" səsi müxtəlif samit səslərin qovuşuğunda hiss edilir və bu, şagirdləri çaşdıra bilər. Çətinlik çəkən şagirdlər tapşırığı yerinə yetirən zaman rəng adlarını oxuyub rəng adlarında "ı" səsini saymaqla tapşırığı yerinə yetirə bilərlər.

**Diferensial təlim**

Dərinləşdirmə. Müəllim tapşırığın yerinə yetirilməsindən əvvəl sinfin daha fəal şagirdlərindən rəng adlarındakı "ı" səsinin sayını şifahi şəkildə soruşa bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tap. A (dərslik) |
| Sözün ifadə etdiyi şəkli müəyyən edir. | Tap. B (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Dərslikdəki şəkilaltı suallar |
| Dinlədiyi mətni şəkillər əsasında nəql edir. | MV-də verilmiş dinləmə mətni və dərslikdəki şəkillər |
| Təbrik və təşəkkür nitq etiketindən istifadə edir. | Tap. A (iş dəftəri) |
| "Iı" hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət rubrikası (iş dəftəri) |

## 2-ci dərs. Şəkillər üzrə mətnqurma. Sait və samitlər. Hüsnxət: "İi" hərfi

• Dərslik: səh. 17–18 • İş dəftəri: səh. 11

### Təlim məqsədləri

- Dinlədiyi mətndəki hadisələrin ardıcıllığını şəkillərin köməyi ilə müəyyən edir (st. 1.1.1).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Bədii mətnlərdə təxəyyülü real faktlardan fərqləndirir (st. 2.2.3).
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub nəql edir (st. 1.2.1).
- Sait və samit səsləri sadalayır və onların yazıda hansı hərflə işarə olunduğunu müəyyən edir (st. 4.1.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

### • Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Babanın hədiyyəsi" mövzusu üzrə xatırlatma |
| 2 | **Dinləmə** | "Babanın hədiyyəsi" mətninin davamı. Dinləmə mətni və sualların cavablandırılması |
| 3 | **Danışma** | Süjetli şəkillər üzrə mətn qurub danışma |
| 4 | **Dil qaydaları** | Sait və samitlərin mənimsədilməsi |
| 5 | **Yazı** | "İi" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Dərslikdəki süjetli şəkil üzrə fəaliyyətə başlanmazdan öncə ötən dərsin mövzusu xatırlanır. Sonra müəllim şagirdləri süjetin davamını izləməyə həvəsləndirmək üçün belə bir sual verir:

– *İndi, uşaqlar, sizcə, Ramin babasının verdiyi hərflərdən söz düzəldə biləcəkmi?*

### Dinləmə

**1.1.1** **Tapşırıq A (dərslik).** Şagirdlər bir neçə dəqiqə ərzində süjetli şəkilləri ümumi nəzərdən keçirib ilkin fikirlər bildirirlər. "*Yuxu nədir? Siz heç yuxu görmüsünüzmü?* kimi suallar verməklə şagirdləri gördükləri yuxuları barədə danışdırmaq olar.

Sonra müəllim: *"İndi gəlin görək, Ramin yuxuda nə görüb?"* – deyə dinləmə mətninə keçid edir. Şagirdlərə tapşırır ki, o oxuduqca şəkilləri izləsinlər (Müəllim bəzən dinləmə mətnini dayandırıb uşaqlara: "İndi mən hansı şəkil üzrə danışıram?" – deyə suallar verə bilər).

**<u>Dinləmə mətni:</u>**

*Ramin babasının verdiyi hərflərdən söz düzəltməyə çalışırdı. Hərfləri düzür, oxuyur, söz yaranmadıqda dağıdıb yenidən yığırdı. Neçə dəfə cəhd etsə də, heç bir söz düzəldə bilmədi. Yorulub yatdı.*

*Yuxusunda gördü ki, hərflər sıraya düzülüb evdən çıxırlar. Onları səslədi:*

*– Getməyin, siz mənə lazımsınız. Söz verirəm ki, bu dəfə sizdən söz düzəldəcəyəm. Geri dönün!*

*Lakin hərflər Ramini eşitmir, yolboyu qaçırdılar. Ramin lap yorulub əldən düşmüşdü. Dayanıb fikirləşirdi:*

*– Axı, görəsən, hərflər məndən niyə qaçır? Vay, yəqin, babama şikayət etməyə gedirlər. Yox-yox, buna razı olmaram. Sizi mütləq geri qaytaracağam.*

*Ramin birdən hərflərin yaraşıqlı bir binaya girdiyini gördü. Buranın hara olduğunu öyrənmək üçün yaxınlaşıb binanın üzərindəki sözü oxudu. Birdən yadına düşdü ki, babasının verdiyi hərflərdən MƏKTƏB sözünü düzəldə bilər.*

*– Ura! Bu həmin sözdür! Tapdım! Tapdım! – deyə sevinclə qışqırdı.*

*Elə bu vaxt yuxudan oyandı. Hər kəs Ramindən nə üçün qışqırdığını, nəyi tapdığını soruşsa da, Ramin susaraq tez-tələsik hərflərinin yanına qaçdı. Onları ardıcıl düzüb dedi:*

*– Baxın, mən söz düzəltməyi bacardım!*

Şagirdlər müəllimin yönəldici sualları vasitəsilə şəkilləri ayrı-ayrılıqda təsvir edir.

**<u>Suallar:</u>** 1. *Birinci şəkildə Ramin hərflərdən nə düzəldib? Hərflərin bu cür birləşməsini söz hesab etmək olarmı?* Şagirdlər "Hərf birləşməsi məna bildirmirsə, söz yaranmır" qənaətinə gəlməlidirlər.

2. *İkinci şəkildə nə görürsünüz? Ramin niyə yatdı? Ramin yuxuda nə görür?*

3. *Hərflər hara gedirdi? Sizcə, bura haradır? Ramin binanın üzərində hansı sözü oxudu? Ramin bu sözü görəndə niyə sevindi?*

4. *Raminin söylədiyi söz ("Tapdım") oxunur. Ramin nəyi tapır?*

5. **2.2.3** *"Hansı hadisələr Raminin yuxusunda baş verir?"* sualı şagirdlərin real və real olmayan təsvir və hadisələri fərqləndirmək bacarığına və fantaziyalarının inkişafına yönəlmişdir.

### Danışma

**1.2.1** Şəkil üzrə fəaliyyətin sonunda şagirdlər süjetli şəkil kompozisiyası üzrə mətn qurub nəql edirlər.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərin mövzu üzrə fantaziyalarını inkişaf etdirmək üçün belə bir tapşırıq da verə bilər: *"Təsəvvür edin ki, sizə sevdiyiniz bir hədiyyə veriblər. Yatıb həmin hədiyyə ilə bağlı yuxu görürsünüz.* Şagirdlər başlarını partalarının üzərinə qoyub gözlərini yumur və fikirləşirlər. Daha sonra xəyalən gördükləri yuxunu təsvir edirlər.

### Dil qaydaları

**4.1.1** **Tapşırıq B (dərslik).** Tapşırıq sait və samit mövzusuna keçid məqsədi daşıyır. Şagirdlər babanın Raminə verdiyi hərflər üzrə sait və samitlərin fərqini anlamağa çalışırlar. Müəllimin yönəldici sualları ilə *[m], [k], [t], [b], [ə]* səslərinin tələffüzü üzərində müşahidə aparılır və onlar müqayisə olunur (məsələn, *[m] və [b] səslərini tələffüz edin. İndi isə bu səsləri dodaqlarınızı bitişdirmədən deyin. Gördüyünüz kimi, bu, mümkün deyil. Çünki bu səslərin tələffüzü zamanı dodaqlar qapanır. İndi [ə] səsini tələffüz edin. Bu səs asanlıqla və maneəsiz tələffüz edilir* və s.).

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərin diqqətini "kitab" sözü ilə bağlı sxemə yönəldir. 9 sait səsin hər biri səsləndirilir. Sait səslərin musiqili, avazlı, maneəsiz tələffüz edildiyi söylənilir.

**Tapşırıq C (dərslik).** Şagirdlər bu tapşırığı yerinə yetirməklə sait və samit səsləri müqayisə yolu ilə mənimsəyirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlərdən sözlərdə buraxılmış sait səsləri müəyyən etmək tələb olunur. Sözlərin şəkillərlə müşayiət olunması şagirdlərin oxuyub-anlamasını asanlaşdırır.

**Tapşırıq D (dərslik).** Şagirdlər bütün şəkil adlarını tələffüz edir. "Delfin" şəklinin üzərində dayanırlar. Bu şəkil adının samitlə başladığını müəyyən edirlər.

**Tapşırıq E (dərslik).** Tapşırıq üç mərhələdə yerinə yetirilir:

1. Əvvəlcə şagirdlər müəyyən edirlər ki, *cücə, kökə, lalə, bibi* sözlərində samitlər təkrarlanır. Şagirdlər hər bir sözdə hansı samitin təkrarlandığını da söyləməlidirlər.

2. Sonra saitlərin təkrarlandığı sözlər seçilir, hər bir sözdə hansı saitin təkrarlandığı müəyyən edilir: *səbət, maral, quzu, tülkü, bibi.*

3. Sonda şagirdlər həm saitin, həm də samitin təkrarlandığı sözləri tapırlar: *baba, bibi.*

Tapşırıq qruplarla və ya cütlərlə iş formasında da yerinə yetirilə bilər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər sait və samitlər mövzusunu mənimsədiklərini nümayiş etdirirlər.

### Yazı

**3.1.1** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "İi" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərdə çap hərfləri ilə verilmiş sözləri hüsnxət normaları ilə yazmaq bacarığını da formalaşdırır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Dərslikdəki şəkilaltı suallar |
| Şəkillər əsasında real və real olmayan təsvir və hadisələri fərqləndirir. | Şəkil üzrə faktoloji suallar |
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub nəql edir. | Tap. A (dərslik) |
| Sait səsləri sadalayır, samitlərdən fərqləndirir. | Tap. B, C, Ç, D, E (dərslik). Tap. A (iş dəftəri) |
| "İi" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (iş dəftəri) |

## 3-cü dərs. Sait və samitlər. Hüsnxət: "Tt" hərfi

• Dərslik: səh. 19 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

- Verilmiş sözdə sait və samit bildirən hərfləri fərqləndirir (st. 4.1.1).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1)
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).
- Səslə hərfi uyğunlaşdıraraq eşitdiyi sözü yazır (st. 3.1.1).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Raminin babasının adının tapılması |
| 2 | **Dil qaydaları** | Sait və samitlərin mənimsədilməsi |
| 3 | **Yazı** | “Tt” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 4 | **Oxu. Söz ehtiyatı** | Cədvəldə verilmiş sözləri müxtəlif istiqamətlərdə oxuyub-anlama |
| 5 | **Yazı** | Verilmiş hərflərdən sözlərin düzəldilib yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərdən ötən dərslərdə tanış olduqları Raminin babasının adını soruşur.

**Tapşırıq A (dərslik).** Şagirdlər Raminin babasının adını (İman) öyrənmək üçün tapşırığı yerinə yetirirlər. Tapşırığın əsas məqsədi uşaqları məlum olmayan informasiyanı tapmağa həvəsləndirməkdir.

Şagirdlər şəkil adlarının ilk səsini müəyyən edib həmin səsin müvafiq işarəsini yazmaqla hərfi tanıdıqlarını nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.1 **Tapşırıq B (dərslik).** Tapşırığın yerinə yetirilməsindən öncə müəllim lövhədə bir sütunda “sait”, digər sütunda “samit” sözü yazılmış cədvəl çəkir. Şagirdlər öz adlarının sait, yoxsa samitlə başladığını söylədikcə müəllim cədvəlin müvafiq sütununda qeydlər aparır. Şagirdlər sait və samitlə başlayan adların sayını müəyyənləşdirirlər. Sonra B tapşırığı yerinə yetirilir. Şagirdlər *Ömər* və *Aytac* adlarının saitlə başlayıb samitlə qurtardığını müəyyən edirlər. Müəllim tapşırığa başqa suallar da əlavə edə bilər: – *Hansı adlar samitlə başlayıb samitlə bitir? (Murad, Nigar). Hansı ad saitlə başlayıb saitlə bitir? (İradə). Hansı ad samitlə başlayıb saitlə bitir? (Leyla).*

**Tapşırıq C (dərslik).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər sözdə sait və samitlərin işlənmə ardıcıllığında müəyyən qanunauyğunluğun olduğunu dərk edirlər.

### Yazı

3.1.1 **“Hüsnxət” rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik “Tt” hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq həm də oxu bacarığının inkişafına yönəldilmişdir. Şagirdlər əvvəlcə boş xanaya “t” hərfi yazırlar. Sonra tamamlanmış sözü oxuyaraq müvafiq şəkli müəyyən edirlər.

### Oxu. Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərin söz ehtiyatını artırır və möhkəmləndirir. “T” samitinin əvvəlinə *ı, u* saitlərindən başqa bir sıra saitlər artırıldıqda müxtəlif mənalı sözlər yaranır: *at, ot, et, ət, it, öt.* Şagirdlərin dediyi sözləri müəllimin lövhədə yazması, həmin sözlərin mənaları üzərində iş aparması tövsiyə olunur. Sözlərin mənalarının izahı üçün həmin sözlərin cümlələrdə işlədilməsi məqsədəuyğundur.

**Tapşırıq D (dərslik). Auksion.** Bu tapşırıq şagirdlərin söz ehtiyatını yoxlamaq məqsədi daşıyır. Şagirdlər cədvəldə şaquli və üfüqi istiqamətlərdə verilmiş hərflər ardıcıllığından tanıdıqları sözləri seçməlidirlər. Tapşırıq auksion üsulu ilə yerinə yetirilə bilər. Şagirdlər sözləri tapdıqca müəllim həmin sözləri lövhədə yazır. Cədvəldə *xan, xana, tar, nar, at, ata, oyun, yun, un, tort, ana, toy* və s. sözlər oxuna bilər.

> **Müəllimin nəzərinə!** Auksiona başlamazdan əvvəl müəllim şagirdlərə təlimat verməlidir:
> *– Cədvəldəki hərfləri yuxarıdan aşağıya və ya soldan sağa doğru oxuyub söz tapmaq lazımdır. Yadda saxlayın ki, hərflər birlikdə məna bildirmirsə, deməli, o, söz deyil. Auksion vaxtı təkrar söz deyilməməlidir. Ən sonuncu sözü tapan şagird auksionun qalibi olacaq.”*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər şaquli və üfüqi istiqamətlərdə müəyyən etdikləri sözləri müvafiq anlayışla (şəkillə) əlaqələndirməklə oxuduqları sözü tanıdıqlarını nümayiş etdirirlər. Cədvəldə “kirpi” sözü üfüqi, digər sözlər isə şaquli vəziyyətdə yerləşdirilmişdir.

### Yazı. Söz ehtiyatı

3.1.1 **Tapşırıq E (dərslik).** Bu fəaliyyət həm yazı bacarığının, həm də söz ehtiyatının inkişafına yönəldilmişdir.

**Qruplarla iş.** Şagirdlər indiyə qədər yazılışını öyrəndikləri 8 hərfdən (a, n, l, ə, m, ı, i, t) istifadə edərək müxtəlif sözlər düzəltməlidirlər. Tapılan sözlərin yazılışında hər bir qrup üzvünün iştirak etməsinə müəllim nəzarət etməlidir. Sonda daha çox söz tapıb yazılı şəkildə təqdim edən qrup qalib olur.

Tapşırıqda verilən hərflərdən *alət, tələ, ana, nal, lalə, əl, Ləman, liman, manat, tam, tamam, nanə, ata, nənə, al, alın, nanəli, təməl, əlli, Alı, Əli, ləl* və s. sözlər düzəldilə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözdəki sait və samit səsləri fərqləndirir. | Tap. B, C (dərslik) |
| Oxuduğu sözə müvafiq olan şəkli müəyyən edir. | Tap. D (dərslik). Tap. A (iş dəftəri) |
| "Tt" hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət (iş dəftəri). Tap. B (iş dəftəri) |
| Hərflərdən sözlər düzəldərək hüsnxət normalarına uyğun yazır. | Tap. E (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə boş vaxtlarında məşğul olduqları sevimli kiçik əşyasını dərsə gətirmək tapşırılır.

## fəsil 4 RAMİN VƏ DOSTLARI

# 1-ci dərs. Sevimli məşğuliyyət. Hüsnxət: "Bb" hərfi

• Dərslik səh. 20 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 1.2.1).
- Sözün ifadə etdiyi anlayışın əsas əlamətlərini sadalayır (st. 2.1.1).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

### • Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şagirdlərin dərsə gətirdikləri sevimli əşyalarla tanışlıq |
| 2 | **Danışma** | Şagirdlərin sevimli məşğuliyyəti barədə söhbət |
| 3 | **Söz ehtiyatı** | Qarşıya çıxan yeni sözlərin izahı |
| 4 | **Yazı** | "Bb" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər müəllimin tapşırığına əsasən evdən gətirdikləri sevimli əşyalarını (boş vaxtlarında məşğul olduqları oyuncaq, şahmat, idman aksesuarı və s.) partalarının üzərinə qoyurlar.

Müəllim şagirdlərə söz boğçasına əlavə etmək üçün dərs boyu eşidib mənasını bilmədikləri sözləri səsləndirmələrini tapşırır.

### Danışma

**1.2.1** **Tapşırıq A (dərslik).** Şagirdlər evdən gətirdikləri sevimli əşyalarını təqdim edirlər. Müəllim yönəldici suallar verməklə çalışmalıdır ki, şagirdlər danışarkən fikirlərini əsaslandırsınlar. Suallar: "*Bunun adı nədir? Nə üçün məhz bunu gətirdin? Bunu necə istifadə edirlər? Bunu sənə kim öyrədib?*" və s.

Sonra şagirdlər dərslikdəki şəkillər əsasında Ramin və dostları barədə danışmağa başlayırlar. Müəllimin yönəldici sualları: "*Ramin dostları ilə birlikdə nə edir? Siz plastilindən nə düzəldə bilirsiniz? Velosiped, skuter sürməyi kim bacarır? Sonuncu şəkildə nə görürsünüz? Onlar nə edir? Kimin rəsm çəkmək xoşuna gəlir? Siz nə ilə məşğul olmağı xoşlayırsınız? Hobbiniz varmı?*"

**Müəllimin nəzərinə!** Bu yaşda olan uşaqlar "hobbi" sözünü hələ ki xoşladığı iş, sevdiyi oyun və s. timsalında anlaya bilər.

"Hobbi" sözünün mənası: *insanın könüllü surətdə məşğul olduğu fəaliyyəti; sevimli məşğuliyyəti.*

### Söz ehtiyatı

**2.1.1** Tədris prosesində şagirdlərin söz ehtiyatının artırılması, möhkəmləndirilməsi diqqət mərkəzində saxlanmalı, öyrədilən yeni sözlər növbəti dərslərdə təkrar olunmalıdır.

Mövzu ətrafında diskussiya zamanı şagirdlərin istifadə etdiyi sevimli əşyaları, sevdikləri oyunlar, cizgi filmləri və s. ilə bağlı yeni sözlər ortaya çıxa bilər; məsələn: *batut, skuter, leqo, fırfıra, mozaika, kolleksiya, kubik-rubik, mütaliə* və s. Müəllim bəzi şagirdlərin nitqində istifadə etdiyi sözləri digərlərinin anlamadığını aşkar edərsə, həmin sözün mənasını ilkin olaraq nitqində işlədən şagirdin özündən soruşmalı, sonra ətraflı izah verməlidir. Müəllim danışma fəaliyyətinin sonunda şagirdlərin diqqətini "Söz boğçası"na əlavə edilən yeni sözlərə yönəldib onlardan həmin sözlərin mənasını soruşmaqla mənimsədiklərini yoxlaya bilər.

**2.1.1** **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin söz ehtiyatının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər sözü oxuyub uyğun təsviri və izahı müəyyən etməklə yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

### Yazı

**3.1.1** **"Hüsnxət" rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "Bb" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər şəklə baxır, şəkil adında yeri dəyişik düşmüş hərfləri müəyyən edir və hüsnxət normalarına uyğun yazırlar.

**Diferensial təlim**

**Dərinləşdirmə.** Tapşırığı tez yerinə yetirən şagirdlərə hərf tərkibində yerdəyişmə olan əlavə sözlər verilə bilər. Sözlər şagirdlərin yaza bildikləri hərflərdən ibarət olmalıdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkildə gördükləri haqda danışır və onları öz məşğuliyyəti, maraq dairəsi ilə əlaqələndirir. | Tap. A (dərslik) |
| Yeni öyrəndiyi sözlərin mənasını izah edir. | Tap. A (iş dəftəri) |
| "Bb" hərfini hüsnxət normalarına uyğun yazır. | Hüsnxət (iş dəftəri) |
| Sözlərdəki səhvləri düzəldib yazır. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. Gizlənqaç oyunu. Sanamalar. Heca

- Dərslik: səh. 21–22
- İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Dinlədiyi ilə bildiyi məlumatları müqayisə edib nəticə çıxarır (st. 1.1.2).
- Sözdəki saitlərə əsasən hecaların sayını müəyyən edir (st. 4.1.2).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şagirdlərin bildiyi oyunlar barədə sual-cavab |
| 2 | **Dinləmə** | Gizlənqaç oyununun qaydaları |
| 3 | **Oxu** | Şəkilləri müşayiət edən qeydlərin, sanamanın oxusu |
| 4 | **Danışma** | Şəkillər əsasında danışma və qruplarla iş: sanamanın yerinə yetirilməsi |
| 5 | **Dil qaydaları** | "Heca" mövzusunun mənimsədilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin tanıdıqları oyunlar barədə suallar verir: *"Hansı oyunları bilirsiniz? Ən çox sevdiyiniz oyun hansıdır? Tək oynamaq xoşunuza gəlir, yoxsa yoldaşlarınızla birlikdə oynamaq?"*

Şagirdlər dərslikdə verilən fraqmentlərə əsasən şəkillərin hansı oyunu əks etdirdiyini müəyyən edirlər. Bu oyun barədə bildiklərini söyləyirlər.

### Dinləmə

**1.1.1** Müəllim gizlənqaç oyunu barədə dinləmə mətni təqdim edir.

**Dinləmə mətni:**

*Gizlənqaç evdə, həyatdə və s. yerdə oynanılan kollektiv oyundur. Oyuna başlayarkən hər kəsin bildiyi bir sanama söylənilir və kimin göz yumaraq oyuna başlayacağı müəyyən edilir. Seçilən uşaq gözlərini yumaraq saymağa başlayır: 1, 2, 3 ... və beləliklə, 10 -a qədər yavaş-yavaş sayır. O saydığı vaxtda digər uşaqlar gizlənirlər. Sayıb qurtardıqdan sonra "Açdım, qaç, gizlənqaç" deyərək gözünü açıb yoldaşlarını axtarmağa başlayır. Bu zaman gizlənən uşaqlar onun yerindən uzaqlaşmasını gözləyirlər. Fürsət tapan kimi gizləndikləri yerdən çıxıb həmin yerə gələrək divara əl vurur: "Vurdum! Vurdum!" – deyə qışqırırlar. Belə etdikdə oyunçular bir daha gizlənmək haqqı qazanırlar. Gizlənmək haqqını qazana bilməyən uşaqlar arasında "sanama" deyilir, seçilən uşaq gözlərini yumub saymağa başlayır. Oyun beləcə davam edir.*

Uşaqlar mətni dinlədikdən sonra müəllimin suallarına cavab verirlər: *Gizlənqaçı harada oynayırlar? Bu oyunu tək oynamaq olarmı? Oyuna başlamaq üçün əvvəlcə nə edirlər? Oyuna birinci kim başlayır? Hansı oyunçu "Açdım, qaç, gizlənqaç" söyləyir? Bəs hansı oyunçular "Vurdum-vurdum" söyləyir? Yenidən gizlənə bilmək üçün oyun zamanı nə etməliyik? Bu oyunda xoşunuza gələn nədir?"*

*“Oyuna necə başlayırlar?* sualını cavablandırarkən şagirdlər əzbər bildikləri müxtəlif növ sanamalar söyləyə bilərlər. *“Bu oyunda xoşunuza gələn nədir?”* sualı şagirdləri daha səmimi cavablar verməyə həvəsləndirir. Onlar “göz yummaq”, “gizlənmək”, “gizlənəni tapmaq” və s. cavablar verə bilərlər. Şagirdlər gizlənqaç oyunu ilə bağlı yadlarında qalan maraqlı bir hadisə də danışa bilərlər.

**Oxu**

2.2.1 **Tapşırıq A (dərslik).** 1-ci şəkildə gizlənqaç oynayan uşaqların adları və oyuna başlamaq üçün söylənilən sanamanın oxusuna başlanır. Əvvəlcə müəllim sanamanı oxuyur, şagirdlər dərslikdən izləyirlər. Sonra müəllim bu şeir parçasını ayrı-ayrı şagirdlərə oxutdurur. Bu sanama uşaqlara çox yaxşı tanış olduğu üçün onlar asanlıqla oxuya və ya başqası oxuyarkən kitabdan izləyə bilərlər.

Müəllim şəkillər üzrə yönəldici suallar verir:

– *Kim gözünü yumur? Şəkildə kimin harada gizlənə biləcəyini təxmin edin (2-ci şəkil). Solmaz harada gizlənmişdi? (3-cü şəkil). Ramin Əlini harada tapdı?* (4-cü şəkil). *Uşaqlar nə fikirləşirlər? Kimi axtarırlar?* (5-ci şəkil). *Zərifə harada imiş?* (6-cı şəkil).

Şagirdlər şəkilləri müşayiət edən söz və qısa cümlələri oxumaqla vizual informasiyanı daha asan qavrayırlar.

2.2.3 **Tapşırıq B (dərslik). Riyaziyyatla inteqrasiya.** Şagirdlər *içində, arxasında, altında, üstündə, yanında* və s. sözlərin təyinatını riyaziyyat dərslərində də mənimsəmişlər.

Tapşırığı yerinə yetirməklə şagirdlər şəkil üzrə iş zamanı obraz və məkanla bağlı nə dərəcədə diqqətli olduqlarını da nümayiş etdirirlər.

Doğru cavablar: *“Solmaz pərdənin arxasında idi. Əli masanın altında idi. Zərifə qutunun içində idi”.*

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş illüstrasiyaya baxaraq oxuduqları cümlələrin düzgünlüyünü müəyyən edirlər. Bununla cümlələri oxuyub anladıqlarını, eyni zamanda *içində, arxasında, altında, üstündə, yanında* və s. sözləri mənimsədiklərini nümayiş etdirirlər.

1.1.2 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin müxtəlif mənbələrdən aldıqları informasiyalara əsaslanaraq müəyyən nəticəyə gəlmək bacarığının formalaşmasına yönəldilmişdir. Tapşırığın yerinə yetirilməsi zamanı şagirdlər düşünüb fikirlərini əsaslandırmalıdırlar.

Doğru cavab: *Oyunun qaydalarını bilməyən oyunçu Zərifədir. Oyunun qaydalarına görə Zərifə tapılmasını sona qədər gözləməli, fürsət tapan kimi qutunun içərisindən çıxıb cəld Ramindən əvvəl onun gözünü yumduğu yerə əli ilə vurub, “vurdum-vurdum” deməli idi.*

Müəllim şagirdlərə *“Oyunda gözünü növbəti dəfə kim yummalıdır?”* sualını verməklə onlarda müvafiq nəticə çıxarmaq bacarığını inkişaf etdirə bilər. Şagirdlər süjetli şəkillərdəki hadisələrin ardıcıllığına və “oyunun qaydaları” barədə dinlədikləri mətnə əsaslanaraq “Növbəti dəfə sanama söyləməlidirlər” nəticəsinə gələ bilərlər. Şagirdlərin cavab verərkən fikirlərini əsaslandırmalarına diqqət edilməlidir.

**Danışma**

1.2.1 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Hər qrup əzbər bildiyi bir sanama seçir və saymağa başlayır. Növbə ilə bütün qruplar dinlənilir.

**Dil qaydaları**

4.1.2 **Tapşırıq D, E (dərslik).** Bu tapşırıqlar heca üzrə dil qaydasının mənimsədilməsi üçün hazırlıq xarakteri daşıyır.

**“Bunları bilməliyik” rubrikası.** Şagirdlər indiyə qədər empirik yolla hecalarla oxu bacarığına yiyələnmişlər. İndi isə heca bir dil qaydası kimi nəzərdən keçirilir. Sözdəki hecaların sait səslərə görə yarandığı izah olunur. Rubrikada verilən sözlər oxunur. Hər hecadakı sait səsə diqqət edilir.

**Tapşırıq Ə (dərslik).** Bu tapşırıqda verilən sözlər şagirdlər tərəfindən növbə ilə hecalarla oxunur. Sözlərdəki sait səslərin sayına əsasən sözün neçə hecadan ibarət olduğu müəyyənləşdirilir.

**Tapşırıq F (dərslik).** Şagirdlər “Ay” və “El” hecasına müxtəlif hecalar artırmaqla ikihecalı adlar düzəldirlər: *Ayşən, Aytac, Ayan, Aynur, Aysu, Aylin, Ayxan, Elşən, Elmir, Elcan, Elxan, Elmar* və s.

Əlavə tapşırıq: “Adı üçhecalı olan şagirdlər ayağa qalxsın”.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş çoxhecalı sözləri tamamlamaq üçün buraxılmış hecaları müəyyən etməlidirlər.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər hecaları uyğunlaşdırıb müəyyən etdikləri adları yazmaqla heca üzrə biliklərini möhkəmləndirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətnlə bağlı faktoloji suallara cavab verir. | MV-də verilmiş dinləmə mətni və suallar |

| | |
|---|---|
| Oxunan mətni kitabda izləyir. | Sanama |
| Hadisələrin baş verdiyi məkanı müəyyənləşdirir. | Tap. B (dərslik). Tap. A (iş dəftəri) |
| Dinlədiyi məlumatı şəkildə gördükləri ilə müqayisə edib nəticə çıxarır. | Tap. C (dərslik) |
| Sözdəki saitlərə əsasən hecaları müəyyən edir. | Tap. D, E, Ə, F (dərslik). Tap. B, C (iş dəftəri). |

## 3-cü dərs. Məlumat toplama. Heca. Hüsnxət: "Rr" hərfi

• Dərslik: səh. 23 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri**

- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 1.2.2).
- Sözdəki saitlərə əsasən hecaların sayını müəyyən edir (st. 4.1.2).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

### • Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Özünü təqdimetmə ilə bağlı ümumi sorğu-sual |
| 2 | **Oxu** | Raminlə bağlı məlumatın oxusu |
| 3 | **Dil qaydaları** | Heca üzrə möhkəmləndirmə |
| 4 | **Dinləmə-danışma** | Cütlərlə iş. Məlumat toplayıb təqdim etmək |
| 5 | **Yazı** | Böyük və kiçik "Rr" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərin özünü təqdimetmə ilə bağlı ilkin təsəvvürlərini yoxlamaq və dərsin mövzusuna yönəltmək məqsədi daşıyır. Müəllim: – *Təsəvvür edin ki, tanımadığınız biri ilə tanış olursunuz. Ona özünüz haqqında nə deyə bilərsiniz? Hansı məlumatı verərsiniz?* Şagirdlər "adımı, soyadımı, atamın adını, yaşımı, yaşadığım yeri" və s. deyə fikir söyləyə bilərlər.

### Oxu

2.2.1 2.2.3 **Tapşırıq B (dərslik).** Məqsəd şagirdlərə özünü təqdim edərkən hansı məlumatların verilməli olduğunu öyrətməkdir. Cədvəldəki qrafik məlumatın oxusu cütlərlə iş formasında yerinə yetirilə bilər. Cütlərə müəyyən vaxt ərzində məlumatları oxuyub müzakirə etmək tapşırılır. Şagirdlər faktoloji suallara cavab verməklə Ramin haqqındakı məlumatları oxuyub- anladıqlarını nümayiş etdirirlər.

**Diferensial təlim.**
**<u>Dərinləşdirmə.</u>** Yazmağı bilən şagirdlərə özü haqqında anket hazırlamaq tapşırıla bilər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərin yazı bacarığı formalaşmadığı üçün özləri ilə bağlı hər hansı məlumatı yazmaq imkanı məhduddur. Lakin şagirdlər iş dəftərində öz adının hərflərini və yaşını göstərən rəqəmi dairəyə almaqla özü ilə bağlı məlumat verirlər.

### Dil qaydaları

4.1.2 **Tapşırıq C (dərslik).** "Heca" mövzusu üzrə möhkəmləndirmə məqsədi daşıyır. Sözlər bir-bir hecalarla oxunur və hər bir sözün neçə hecadan ibarət olduğu müəyyən edilir və heca sayı eyni olan sözlər müəyyənləşdirilir.

**Rollu oyun. "Mağazada".** Müəllim üzərində sözlər yazılmış kartları bir partanın üstünə düzür. İri bir qabın içərisinə isə müxtəlif hecalar yazılmış kiçik kağızlar – "pullar" qoyur. İki şagird seçir. Onlardan biri satıcı, digəri alıcı rolunu oynayır. Alıcı "ba" hecası yazılmış "pul"u verib "ba" hecalı söz almaq istəyir. Satıcı partanın üstündən *banan, albalı, torba* sözlərini tapıb ona verir. Alıcı sözləri oxuyub düzgünlüyünü yoxlayır. Oyunçular yerlərini dəyişirlər. Oyun bu qayda ilə digər şagirdlərlə davam etdirilir.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin dil qaydası üzrə biliklərini (hecanın sait əsasında yarandığını) möhkəmləndirməklə yanaşı, söz ehtiyatını da inkişaf etdirir. Şagirdlər heca üzrə biliklərindən istifadə edərək yeni öyrəndikləri "hobbi" sözünə yaxınmənalı söz ("məşğuliyyət") tapırlar.

### Danışma

1.2.2 **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Müəllimin təlimatına əsasən şagirdlər bir-birindən məlumat toplayırlar. Hər iki şagird aldığı məlumatı yadda saxlamalı, sonra topladığı məlumatı təqdim etməlidir; məsələn: "*Arifin 6 yaşı var. Hobbisi şəkil çəkməkdir. Bir qardaşı var. Adı Turaldır. Ancaq onu "qaqaş" deyə çağırırlar. Onun bir yaşı*

*var. Arif deyir ki, o çox dəcəldir."* və s.

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər dərslikdə əlyazısı formasında verilmiş böyük və kiçik "Rr" hərfinin konfiqurasiyasını və digər hərflərlə birləşmə qaydasını nəzərdən keçirir, iş dəftərində bunu tətbiq edirlər.

**Tapşırıq C (iş dəftəri). Təsviri incəsənət fənni ilə inteqrasiya**. Şagirdlər buraxılmış hərfi yerinə yazaraq oxumalı və oxuduqları sözün şəkillərdən hansına aid olduğunu rəngləmə işi ilə təsdiq etməlidirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cədvəl şəklində təqdim olunmuş mətn üzrə faktoloji suallara cavab verir. | Tap. B (dərslik) |
| Sözdəki saitlərə əsasən hecaları müəyyən edir. | Tap. C (dərslik).<br>Tap. B (iş dəftəri) |
| Aldığı məlumatları mətn halına salaraq şifahi təqdim edir. | Tap. Ç (dərslik) |
| "Rr" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (iş dəftəri).<br>Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə ailə fotolarını dərsə gətirmək tapşırılır.

## 4-cü dərs. 1-ci bölmə üzrə ümumiləşdirici təkrar

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 1.2.2).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Sözü təşkil edən hecaları müəyyən edir (st. 4.1.2).
- Verilmiş sözdə sait və samit bildirən hərfləri fərqləndirir (st. 4.1.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə üzrə xatırlatma |
| 2 | **Dinləmə-danışma** | Ailə fotolarının təqdimatı |
| 3 | **Oxu** | Məktəb əşyalarının adlarının oxusu |
| 4 | **Dil qaydaları** | Böyük və kiçik hərflər; sait, samit və heca üzrə təkrar |
| 5 | **Yazı** | Söz ehtiyatı üzrə tətbiqi yazı |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Şagirdlər yönəldici suallar vasitəsilə bölmə üzrə keçilən mövzuları xatırlayırlar. Gətirdikləri ailə fotolarını təqdim etmək üçün hazırlaşırlar.

**Danışma**

1.2.1 Bölmə üzrə danışma fəaliyyəti şagirdlərin özləri, ailələri, dostları, sevimli məşğuliyyətləri barəsində olmuşdur. Bu dərs ümumiləşdirmə xarakteri daşıdığından şagirdlərin gətirdikləri ailə fotolarının təqdimatı ilə bölmənin mövzusuna yekun vurmaq olar.

Ailə fotolarının təqdimatı cütlərlə iş formasında yerinə yetirilə bilər. Şagirdlər artıq ötən dərsdə məlumat toplamaq üçün ilkin bacarığa yiyələnmişdilər. Bu dərsdə həmin bacarıq bir qədər əyani formada (fotoları şərhetmə) inkişaf etdirilir. Müəllim əvvəlcə təlimat verir:

– *Gətirdiyiniz fotolar barədə yoldaşınıza danışın. Bir-birinizi dinləyin, əlavə məlumat almaq üçün suallar verin. Sonra sinif (yaxud parta, qrup) yoldaşınızın ailə fotosunu lövhə qarşısında sinfə təqdim edin.*

Bu üsulun əsas məqsədi şagirdlərin informasiyanı qəbul etmək, yadda saxlamaq və ötürmək bacarıqlarını inkişaf etdirməkdir.

**Oxu. Söz ehtiyatı**

2.2.1 2.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkillərdə təsvir olunan məktəb əşyalarının adlarını söyləyirlər. Daha sonra şeiri oxuyur, şəkillərdə təsvir olunan, lakin şeirdə adı çəkilməyən məktəb əşyalarını (*pozan, çanta, xətkeş, marker)* müəyyən edirlər.

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin söz ehtiyatı, oxu, yazı üzrə bilik və bacarıqlarını möhkəmləndirmək məqsədi daşıyır. Tapşırığın yerinə yetirilməsi zamanı şagirdlərin diqqətini əv-

vəlcə cədvəlin kənarlarında verilmiş şəkillərə yönəltmək lazımdır. Hər bir şəkli ifadə edən sözün yazılması və sözün hərf tərkibi ilə tanışlıq şagirdlərin cədvəldə müxtəlif istiqamətlərdə yazılmış sözləri asanlıqla tapmasına kömək edir.

### Dil qaydaları

Bölmə boyunca şagirdlərə səslə hərfin, sait və samit səslərin fərqi, hecanın xüsusiyyətləri üzrə dil qaydaları mənimsədilmişdir. Bu dərsdə dil qaydalarının mənimsənilmə səviyyəsi yoxlanılır.

4.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər hər sırada “Ka” hərfinin iştirak etdiyi sözü seçməklə “k” hərfinin ifadə etdiyi səsləri fərqləndirmək bacarıqlarını nümayiş etdirirlər.

4.1.3 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqla bölmə boyunca şagirdlərin yazılışını öyrəndiyi 10 hərfin müxtəlif formaları (böyük və kiçik, çap və əlyazı) nəzərdən keçirilir, şagirdlər tərəfindən mənimsənildiyi yoxlanılır.

4.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlərdən hecalara düzgün ayrılan sözləri (2, 3, 7-ci sözləri) müəyyən etmək tələb olunur. Müəllim digər sözləri hecalara düzgün ayırmağı tapşıra bilər.

4.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər saitlər arasında verilmiş samitləri (*v, t, r*) müəyyən etməklə onları fərqləndirdiklərini nümayiş etdirirlər. Müəllim tapşırıqda verilməyən saitlərlə (*ı, o*) bağlı əlavə sual verə bilər.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq bu bölmədə dil qaydaları üzrə keçilmiş mövzuları əhatə edir. Şagirdlər verilmiş hər bir sözün hərf, sait, samit və heca sayını bildirməklə təhliletmə bacarıqlarını inkişaf etdirirlər. Tapşırıq həmçinin riyaziyyatla inteqrasiya yaradır. Şagirdlər saymaq bacarığını da nümayiş etdirirlər.

### Yazı

3.1.1 **Tapşırıq D (dərslik).** Şagirdlər qohumluq bildirən sözləri seçib köçürməklə həm oxu, həm də yazı bacarıqlarını inkişaf etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | MV (ailə fotolarının təqdimi) |
| Sözləri hecalarla oxuyur. | Tap. A, B, D (dərslik). |
| Oxuduğu sözə müvafiq olan şəkli müəyyən edir. | Tap. A (dərslik).<br>Tap. B (iş dəftəri) |
| Sözü təşkil edən hecaları müəyyən edir. | Tap. C (dərslik).<br>Tap. C (iş dəftəri). |
| Sait və samitləri fərqləndirir. | Tap. Ç (dərslik).<br>Tap. C (iş dəftəri) |
| Çap və əlyazısı şəklində verilmiş eyni səsi işarə edən hərfləri uyğunlaşdırır. | Tap. A (iş dəftəri) |

# bölmə 2 TƏHLÜKƏDƏN QORUNAQ

| Mövzu | | Təhlükədən qorunaq |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | Şəkil üzrə danışma |
| | Söz ehtiyatı | təhlükə, zəlzələ, xilasedici, təmir, işarə, qadağa, göstəriş, məlumat, xəbərdarlıq, dəbilqə, respirator, şlanq, hava balonu, yanğınsöndürən, işıqfor, yeraltı keçid, yerüstü keçid, piyada zolağı, kəsici alət, elektrik cihazı, çoban, sürü, halqa, qolçaq |
| | Oxu | • Komiksləri müşayiət edən söz birləşmələri və qısa cümlələrin oxunması<br>• Kitabın sərlövhə, mündəricat, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununun təxmin edilməsi |
| | Yazı | D, Y, O, Ö, S, Ş, U, Ü, K, P, V, E, G, Ğ hərflərinin hüsnxət normalarına uyğun yazılışı |
| Akademik biliklər | Dil qaydaları | • Cümlənin əlamətləri<br>• Nəqli və sual cümləsi |
| | Filoloji anlayışlar | müəllif, fəsil, cild, nəqli cümlə, sual cümləsi, nöqtə, sual işarəsi |
| Kompetensiyalar | | • Oxu mədəniyyəti, kitaba sevgi və maraq<br>• Təhlükəni qabaqlamaq, özünü və başqalarını qorumaq |

Bölmədə əsas informasiya materialları bizi əhatə edən təhlükələr mövzusundadır. Bu materiallarda təhlükələrdən qorunmaq yolları haqqında məlumatlar verilir. Əsas məqsəd isə bu mövzudan istifadə etməklə müxtəlif nitq bacarıqlarını formalaşdırmaqdır.

Bu bölmədə şagirdlər müxtəlif mətn (nəsr, nəzm) nümunələri ilə tanış olurlar. Bölmənin əsas məqsədlərindən biri kitabın elementləri (cild, mündəricat və s.) ilə şagirdləri tanış etmək və kitabdan istifadə qaydalarını öyrətməkdir. Bölmədə həmçinin şagirdlərdə vizual nitq bacarığı formalaşdırılır. Belə ki, müxtəlif işarələrin ifadə etdiyi mənalar şagirdlər tərəfindən araşdırılır və verbal şəkildə ifadə edilir. Bu bölmədə də informasiya materialı, əsasən, şifahi və qrafik (şəkillər) formada təqdim olunur.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

- Şəkildə gördükləri əsasında mətn qurub danışır və öz həyatı ilə əlaqələndirir;
- Dinlədiyi fikrə münasibətini bildirir;
- İnsan həyatının qorunması ilə bağlı ən zəruri təhlükəsizlik qaydalarını bilir.

**Diferensial təlim**

Şagirdlərin bilik və bacarıq səviyyələrindəki ən böyük fərq oxu və yazı üzrə məzmun standartlarının reallaşmasında özünü göstərə bilər. Bu istiqamətdə diferensial təlim tətbiq etmək tövsiyə olunur.

**Mənimsəməkdə çətinlik doğuran məsələlər**

Düzgün cümlə qurmaq şagirdlərin ünsiyyət qurmaları üçün ən vacib şərtlərdən biridir. Buna görə də 2-ci bölmədə cümlə və onun növləri tədris olunur. Şagirdlərə cümlə və cümlə növlərini (nəqli və sual), əsasən, formal əlamətlərinə görə fərqləndirmək mənimsədilir.

**İkinci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** iş vərəqləri, kəsmə hərflər, söz kartları, durğu işarələri yazılan kartlar, rəqəmlər yazılan kartlar, doğru və yanlış kartları (smayliklər və ya qırmızı, yaşıl kartlar), işarələr, yol hərəkəti nişanları.

## fəsil 1 DİQQƏT! TƏHLÜKƏ!

### 1-ci dərs. Bölmə üzrə ümumi tanışlıq

• Dərslik: səh. 25 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**
- Şahidi olduğu hadisə haqqında danışır (st. 1.2.1).
- Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır (st. 1.2.2).
- Eyni məna qrupuna aid olan sözləri müəyyən edir (st. 2.1.2).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Dərsə hazırlıq** | Təhlükəsizlik anlayışı ilə ümumi tanışlıq |
| 2 | **Dinləmə-danışma** | Bölmə titulu üzrə təqdimatlar |
| 3 | **Oxu. Söz ehtiyatı** | Mövzuya uyğun sözlər üzrə iş |
| 4 | **Yazı** | Hüsnxət normalarına uyğun sözlərin yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə təhlükənin nə olduğunu izah etmək üçün onlara "Cırtdan" nağılını xatırladaraq sual verir: "Cırtdan və dostları nə üçün it hürən tərəfə getmədilər?"

**Danışma**

1.2.1 Müəllim yönəldici suallar vasitəsilə şagirdlərin rastlaşdıqları təhlükəli hadisələr barədə danışmalarına imkan yaradır. Suallar: "*Təhlükəli hadisə ilə rastlaşmısınızmı? Qorxdunuzmu? Kim sizə kömək etdi? Bəs kimi isə xilas etmisinizmi?*"

1.2.2 **Cütlərlə iş.** Müəllim bölmənin titul səhifəsində verilən birinci sualı cütlərdə müzakirə etməyi tapşırır. Cütlərə sualı müzakirə etmək üçün vaxt verilir. Daha sonra müəllim şagirdlərdən öz fikirlərini və ya yoldaşlarının fikirlərini soruşur. Digər suallar ətrafında da eyni formada iş aparılır.

**Müəllimin nəzərinə!** 4-cü sualın ("İnsanlar qaydaları nə üçün düşünürlər?") müzakirəsindən sonra müəllim belə bir izahat verə bilər: *"Qaydaları düşünməkdə başlıca məqsəd nizam-intizam yaratmaq olsa da, onları tətbiq etməklə insanlar özlərini təhlükədən qorumuş olurlar"*.

**Qruplarla iş.** Müəllim şagirdlərə bölmənin titul səhifəsində olan şəkillərə diqqətlə baxmağı və orada hansı təhlükələrin əks olunduğunu araşdırmağı tapşırır. Araşdırmanı qruplarla iş formasında yerinə yetirmək olar. Hər qrupa bir mövzu verilir.

1-ci qrup: "Oyun meydançasında təhlükə".
2-ci qrup: "Evdə təhlükə".
3-cü qrup: "Yolda təhlükə".

Hər bir qrupun təqdimatından sonra müəllim müvafiq mövzu ilə bağlı sinfə suallar verir. Şagirdlər təqdimatları diqqətlə dinlədiklərini nümayiş etdirməlidirlər.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin təhlükə barədə aldıqları informasiyanın nə dərəcədə mənimsənildiyi yoxlanılır.

**Söz ehtiyatı**

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlərin "təhlükə" mövzusu ilə bağlı söz ehtiyatını yoxlamaq və möhkəmləndirmək məqsədi daşıyır.

**Diferensial təlim**
**Dərinləşdirmə.** Müəllim şagirdləri bacarıqlarına görə qruplaşdırır. Oxu bacarıqları inkişaf etmiş və müstəqil işləmə bacarığı olan şagirdlərə kəsmə hərflərdən istifadə edərək "təhlükə" mövzusuna aid sözlər (*təhlükə, işıqfor, qayda, ehtiyat* və s.) düzəltmək tapşırılır.

**Diferensial təlim**
**Dəstək.** Digər qrupa kömək üçün müəllim mövzu ilə bağlı konkret sözlər səsləndirir (*yanğın, qayda* və s.) və şagirdlərdən kəsmə hərflər vasitəsilə həmin sözü yığmaq tələb olunur. Bu zaman çətinlik çəkən şagirdlər üçün söz hecalarla səsləndirilir. Müəllimin sözü səsləndirməsi şagirdlərə hər bir səsə uyğun müvafiq hərflərdən söz düzəltməyə kömək edir.

**Yazı**

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin oxuyub-anlama, məlumatı analiz edərək nəticə çıxarmaq bacarıqları ilə yanaşı, yazıda hüsnxət normalarına riayət etmək bacarığını da inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şahidi olduğu hadisə haqqında təəssüratlarını bölüşür. | MV-də verilmiş fəaliyyət. Tap. A (iş dəftəri) |
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | Bölmə titulu |
| Verilmiş sözləri oxuyaraq müvafiq mövzuya aid olanları seçir. | Tap. B (iş dəftəri) |
| Böyük və kiçik hərfləri müəyyən olunmuş xətt boyunca düzgün yazır və bitişdirir. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri). Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsin mövzusu kitabın struktur elementləri ilə tanışlıq olduğu üçün müəllimə müxtəlif mövzularda kitablar seçmək tövsiyə olunur. Həm bədii, həm elmi, həm də mündəricat səhifəsi olan uşaq kitablarına üstünlük verilməsi məqsədəuyğundur.

## 2-ci dərs. Kitablar.
## Hüsnxət: "Dd" hərfi

• Dərslik: səh. 26-27 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 1.2.2).
- Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir (st. 2.1.2).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

- **Köməkçi vasitələr:** uşaq ədəbiyyatına aid kitablar
- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin gətirdiyi kitabların nümayişi |
| 2 | **Danışma. Söz ehtiyatı** | Kitabın struktur elementləri ilə tanışlıq |
| 3 | **Oxu** | "Təhlükə nədir" kitabının mündəricatı üzərində iş |
| 4 | **Yazı** | "Dd" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Müəllimin nəzərinə!** Bölmənin əsas məqsədlərindən biri də şagirdlərin kitabla ilkin tanışlığı üçün vacib olan struktur elementlərinin öyrədilməsidir. Müəllimə növbəti dərslərdə şagirdlərin kitabın strukturu ilə bağlı tanış olduqları yeni sözlər üzrə ("fəsil", "cild", "müəllif") iş aparması tövsiyə olunur.

### Mövzuya yönəltmə

Müəllim seçdiyi kitabları şagirdlərə nümayiş etdirir. Bu dərsdə müxtəlif kitablar üzərində iş aparılacağı şagirdlərin nəzərinə çatdırılır. Müəllim yönəldici suallar verməklə şagirdləri kitablarla tanışlığa həvəsləndirir: *"Sizin üçün hansı kitablar maraqlıdır?"*

### Danışma. Söz ehtiyatı

2.2.3 1.2.2 2.1.2 Şagirdlər nümayiş etdirilən kitabların cildlərinə baxaraq mövzusunu təxmin edirlər. Kitabın möhkəm və bərk kağızdan olan hissəsinin "cild" adlandığı şagirdlərə bildirilir. Müəllim bir kitabın mövzusuna uyğun bir neçə ad səsləndirir. Şagirdlər verilmiş adlar arasından məhz həmin kitabın adını oxuyub seçirlər. Müəllimin yönəldici sualları ilə şagirdlər kitabın adının fərqli (daha böyük, bəzən rəngli, baş hərflərlə) yazıldığı qənaətinə gəlirlər. Digər kitabların da adları şagirdlərlə müzakirə olunur. Sonra eyni qayda ilə müəllifin adının, adətən, cildin hansı hissəsində yazıldığı müəyyən edilir.

**Qruplarla iş.** Hər qrupa bir kitab verilir. Qruplar ayrılmış vaxt ərzində müvafiq kitabın cildində və mündəricatında yazılanları oxuyaraq kitab barədə müzakirə aparır, müvafiq kitab haqqında təqdimat edirlər. Təqdimat zamanı onlar "müəllif", "cild" sözlərindən istifadə etməlidirlər. Müəllim yönəldici suallarla hər bir kitab haqqında daha geniş məlumatın təqdim olunmasına çalışır. Eyni zamanda digər şagirdləri də kitab haqqında sual verməyə həvəsləndirir.

### Oxu

2.2.3 2.2.1 **Tapşırıq A, B (dərslik).** Tapşırıq şagirdlərin kitabın struktur elementləri üzrə öyrəndikləri bilik və bacarıqları möhkəmləndirmək məqsədi daşıyır. Tapşırıqda verilən kitab nümunələri şagirdlər tərəfindən şərh edilir.

**Tapşırıq C (dərslik).** Oxu bacarığının inkişafı kitabın struktur elementlərindən biri olan mündəricatın üzərində yerinə yetirilir. Oxu prosesi sinfin səviyyəsinə uyğun olaraq müxtəlif formalarda aparıla bilər.

**Müəllimin nəzərinə!** Tapşırıq riyaziyyatla inteqrasiya yaradır. Hər bir fəslin qarşısında yazılmış rəqəmin həmin fəslin sırasını bildirdiyini şagirdlərin nəzərinə çatdırmaq tövsiyə olunur.

**"Söz boğçası" rubrikası.** Oxu prosesində şagirdlərə tanış olmayan sözlərin mənaları izah olunur.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər müəllimin yönəldici sualları vasitəsilə şəkilləri təsvir edir, təhlükələri sadalayır və qarşısını almaq yollarını düşünürlər. Daha sonra bu şəkillərin "Təhlükə nədir" kitabının hansı fəslinə aid olduğunu tapırlar. Bu bölmədə "Yadlar və biz" ayrıca mövzu kimi verilmir. Ona görə də şagirdlərlə bu istiqamətdə ətraflı müzakirə aparılır.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin kitabla işləmək bacarığının möhkəmləndirilməsinə yönəlmişdir.

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Dd" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Tapşırıq B (iş dəftəri).** Həm oxu, həm yazı bacarığını inkişaf etdirən bu tapşırıq riyaziyyatla da inteqrasiya yaradır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kitabı nəzərdən keçirərək onun haqqında şifahi təqdimat edir. | MV-də təsvir olunan fəaliyyət |
| Kitabın mündəricatında verilmiş məlumatlar üzrə sualları cavablandırır. | Tap. A, B, C (dərslik). Tap. A (iş dəftəri) |
| "Dd" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri). Tap. B (iş dəftəri) |

## 3-cü dərs. "Şüşə". Cümlə. Hüsnxət: "Yy" hərfi

• Dərslik: səh. 27-28 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**
- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 1.2.1).
- Cümləni formal əlamətlərinə görə (ilk sözün böyük hərflə yazılması, sonda müvafiq durğu işarəsinin qoyulması) tanıyır (st. 4.1.6)
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

- **Köməkçi vasitələr:** rəqəm kartları
- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ötən dərsin xatırladılması |
| 2 | **Danışma** | Şəkillər üzrə iş |
| 3 | **Dil qaydaları** | Cümlənin formal əlamətlərə görə tanıdılması |
| 4 | **Oxu** | "Şüşə" mətninin oxunması |
| 5 | **Dil qaydaları** | Cümlənin formal əlamətlərinin mənimsədilməsi |
| 6 | **Yazı** | "Yy" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini A tapşırığındakı şəkillərə yönəldir və sual verir:

– Şəkildə nə görürsünüz?

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim növbəti sualı verir:

– *Şəkillərdəki uşaqlar hansı təhlükə ilə qarşılaşa bilərlər?*

Şagirdlər şəkillərdə gördüklərini müzakirə edirlər. Müxtəlif fikirlər (təbiətə ziyan vurmaq, uşağın suya düşməsi, balıqların azalması, yanğın təhlükəsi və s.) səslənir. Müəllim fikirlərdən bir neçəsini lövhədə yazır.

### Dil qaydaları

4.1.6 Müəllim lövhədə yazdığı fikirləri göstərib bu fikirlərin "cümlə" adlandığını bildirir. Cümlənin formal əlamətlərini (böyük hərflə başlaması və durğu işarəsi ilə bitməsi) göstərir. "Bunları bilməliyik" rubrikası nəzərdən keçirilir.

Şagirdlərin nitq bacarıqlarının inkişafı üçün cümlə qura bilmələri çox önəmlidir. Buna görə də ikinci bölmədə məhz "Cümlə və onun növləri" tədris olunur. Bu mərhələdə şagirdlər "cümləni bitmiş fikri ifadə edən söz sırası" kimi qavramaqda çətinlik çəkirlər. Bu səbəbdən də cümlənin formal əlamətlərinə görə tapılması məqsədəuyğun hesab olunur.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnin adını oxuyur. Müəllim soruşur:

– *Mətnin adı hansı təhlükəni yada salır?*

Şagirdlər bu mövzu ilə əlaqədar həyatda gördüklərini danışırlar. Daha sonra mətn oxunur və birinci sual cavablandırılır. Müəllim müxtəlif suallar vasitəsilə müzakirəni genişləndirə bilər:

– *Ayxanın səhvi nə idi? O bu hadisənin baş verməməsi üçün nə edə bilərdi?*

Mətnin təhlilindən sonra şagirdlər mətndə olan cümlələri formal əlamətlərə görə seçib mətndə neçə cümlənin olduğunu uyğun rəqəm kartı ilə göstərirlər. Daha sonra şagirdlər cümlədəki sözlərin sayını müəyyənləşdirirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərə cümlədəki sözləri müəyyənləşdirməyi tapşırarkən müəllim sualları belə qura bilər: *"Birinci cümlədə neçə söz var? Bəs ikinci cümlədə?"* və s. Cavabın kartlarla göstərilməsi tapşırığın bütün sinfin iştirakı ilə yerinə yetirilməsinə imkan verir.

**Diferensial təlim**

**Dəstək.** Cümlələrin sayını düzgün müəyyənləşdirməyən şagirdlərə növbə ilə yaxınlaşmaq və onlara mətndəki cümlələrin formal əlamətlərini göstərməyi və yenidən saymağı tapşırmaq tövsiyə olunur.

2.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər şəkilləri müzakirə edirlər. Sonra cümlələri oxuyaraq uyğun şəkilləri müəyyənləşdirirlər.

**Diferensial təlim**

**Dərinləşdirmə**. Müəllim şagirdləri qruplara ayırır, hər qrupa bir şəkil haqqında kiçik mətn qurmağı və ya rollu oyun vasitəsilə kiçik situasiyalar nümayiş etdirməyi tapşıra bilər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərin təfəkkürünün inkişafına yönəlmişdir.

### Dil qaydaları

4.1.6 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə cümlənin formal əlamətlərini müəyyən etməklə cümləni tanımaq bacarığı inkişaf etdirilir. Tapşırıqda cümlələrlə yanaşı, söz birləşmələri də verilmişdir. Əsas məqsəd söz birləşməsi və cümlənin sintaktik vahid kimi fərqləndirilməsi deyil, şagirdlərin formal əlamətlərə – nöqtə və böyük hərfə görə cümləni tanımasıdır.

### Yazı

3.1.1 **“Hüsnxət” rubrikası.** Şagirdlər böyük və kiçik “Yy” hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlərin dil qaydası üzrə öyrəndikləri biliklərin tətbiqinə yönəlmişdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir. | Tap. A (dərslik). |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Cümləni formal əlamətlərinə görə seçir. | Tap. B (dərslik).<br>Tap. B, C (iş dəftəri) |
| Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir. | Tap. C (dərslik).<br>Tap. A (iş dəftəri) |
| “Yy” hərfini düzgün yazır. | “Hüsnxət” rubrikası (dərslik və iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə işarələr üzərində iş aparılacaq. Ona görə də müəllimə işarələr təsvir olunmuş bir neçə kart hazırlamaq məsləhət görülür. Məlumatverici, qadağanedici, xəbərdarlıq edən işarələr seçilməlidir. İşarələr içərisində “Qarşıda yeməkxana var“ işarəsinin olması tövsiyə edilir.

## 4-cü dərs. “Uşaq və buz”. “Hüsnxət”: “Oo” hərfi

• Dərslik: səh. 28-29 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Qrafik işarələri (yol nişanları və s.) cümlə şəklində ifadə edir (st. 1.2.1).
- İşarələrin ifadə etdiyi fikri müəyyənləşdirir (st. 2.2.4).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Köməkçi vasitələr:** yol hərəkəti işarələri, şərf (və ya onu əvəz edəcək bir əşya)

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Təhlükədən qorunma yolları üzrə müzakirə |
| 2 | **Danışma** | İşarələrin cümlə şəklində ifadə edilməsi |
| 3 | **Oxu** | “Uşaq və buz” şeirinin oxusu |
| 4 | **Yazı** | “Oo” hərfinin hüsnxət normalarına uyğun yazılışı. Təhlükə bildirən cümlələrin köçürülməsi |
| 5 | **Yaradıcı iş** | Cümlələrin işarələrlə ifadəsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərdən birinin gözlərini şərflə bağlayır, sinfə bir neçə maneə (stul, çanta və s.) yerləşdirir. Bu şagirdə sinifdə asta-asta irəliləməyi tapşırır. Digər şagirdlərə isə həmin şagirdin yıxılmaması üçün ona xəbərdarlıq etmələri tapşırılır. Bu fəaliyyətdə əsas məqsəd “xəbərdarlıq” sözünü mənimsətməkdir.

### Danışma

1.2.1 Şagirdlər fəaliyyəti bitirdikən sonra müəllim bu maneələrin insana təhlükə yaratdığını və ondan qorunmaq üçün insanların müxtəlif vasitələrdən istifadə etdiklərini söyləyir və sual verir:

– *Ətrafdakı təhlükələr barədə necə xəbər tuturuq?*

Şagirdlər sual ətrafında müzakirə aparırlar. Müzakirə zamanı onlar təhlükə haqqında xəbər verən müxtəlif mənbələrin adlarını çəkə bilərlər: valideynlər, müəllimlər, polis, səs siqnalı, işarələr və s.

1.2.1 Müəllim şagirdlərə əvvəlcədən sinifdə yerləşdirdiyi bir neçə işarəyə diqqətlə baxmağı tapşırır və deyir:

*– Təsəvvür edin ki, maşınla yol gedirsiniz, bərk acmısınız, bu zaman hansı işarə sizə yaxınlıqda yeməkxananın olduğunu bildirə bilər?*

Digər işarələr (xəbərdarlıq və qadağan) ətrafında da müzakirə aparılır. Müəllim yönəldici suallar (*"Şəkildə nə görürük? Sizcə, bu işarə nə bildirir? Bu işarələrə harada rast gəlmək olar?)* vasitəsilə işarələrin mənasını, gündəlik həyatdakı əhəmiyyətini şagirdlərin diqqətinə çatdırır. Şagirdlər müəllimin köməyi ilə işarələrin mənasını cümlə şəklində ifadə etməyə çalışmalıdırlar.

2.2.4 **Tapşırıq A (dərslik).** Əvvəlcə şagirdlər işarələrin mənasını təxmin edirlər. İşarələri daha dəqiq izah etmək üçün hər bir işarənin altında verilmiş cümləni oxuyurlar, sonra bu haqda bildiklərini danışırlar.

**Oxu**

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər şeiri ucadan oxuyurlar. Müəllimin suallarını cavablandırırlar. *Şeirdəki hadisə hansı fəsildə baş verir? Uşaq yıxılmamaq üçün necə qoruna bilərdi?*

2.2.4 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin oxuduqları mətni anladıqlarını yoxlamaqla yanaşı, ona uyğun qrafik təsviri seçmək bacarığı formalaşdırır. Vizual oxunun inkişafının təməlini qoyur.

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın əsas məqsədi şagirdlərin oxuyub-anlama bacarığını inkişaf etdirməkdir.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər verilən işarələr arasından qadağanedici işarəni fərqləndirməklə işarələrin məzmununu və məqsədini mənimsədiklərini nümayiş etdirirlər.

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Oo" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər cümlələri oxuyur, tapşırıqda neçə cümlə və hər cümlədə neçə söz olduğunu söyləyirlər. Daha sonra şagirdlər təhlükə bildirən cümlələri seçərək izah edirlər. Sonda həmin cümlələri köçürürlər. Tapşırıq oxu, yazı bacarıqlarının, həm də məntiqi təfəkkürün inkişafına yönəlmişdir.

**Yaradıcı iş**

**Tapşırıq D (dərslik).** Lövhədə "Su içmək olmaz" cümləsini yazdıqdan və şagirdlərlə bu cümləni necə təsvir edəcəkləri barədə müzakirə apardıqdan sonra müəllim də öz təsvirini göstərə bilər (məsələn: üstündən xətt çəkilmiş fincan, su kranı və s.).

Şagirdlər "D" tapşırığında yer alan cümlələr ətrafında fikirlərini bildirir və bu cümlələrə aid işarələr düşünüb şəklini çəkirlər.

**Diferensial təlim**

**Dəstək.** Şəkil çəkməkdə çətinlik çəkən şagirdlərə tapşırıqda verilən cümlələri müəllimin hazırladığı işarələrlə uyğunlaşdırmaq tapşırıla bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Rast gəldiyi təhlükəli hadisələr barədə danışır. | Tap. A (dərslik) |
| Qrafik işarələri (yol nişanları və s.) cümlə şəklində ifadə edir. | MV-dəki fəaliyyət |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| İşarələrin ifadə etdiyi fikri müəyyənləşdirir. | Tap. C (dərslik).<br>Tap. A, B (iş dəftəri) |
| "Oo" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik, iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə kitab elementləri ilə bağlı möhkəmləndirici fəaliyyət qurmaq üçün bir neçə uşaq kitabının seçilməsi tövsiyə olunur.

fəsil **2** YANĞIN

## **1-ci dərs.** Xilaskar it. “Hüsnxət”: “Öö” hərfi

• Dərslik: səh. 30-31 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).
- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Mətndəki əsas hadisələri müəyyən edir (st. 2.2.5).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Köməkçi vasitələr:** uşaq ədəbiyyatı üzrə kitablar

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Kitablar haqqında müzakirə |
| 2 | **Oxu** | “Xilaskar it” mətninin oxunması |
| 3 | **Oxuyub-qavrama** | Mətndən əsas faktların seçilməsi, mətnə aid cümlələrin illüstrasiyalarla uyğunlaşdırılması, mətnin nəql edilməsi |
| 4 | **Yazı** | “Öö” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Bu fəsildə kitabın əsas elementləri üzərində iş davam edir. Müəllim şagirdləri cütlərə ayırır. Hər cütə 1 kitab verir. Bu sualları lövhədə yazır və şagirdlərə bu sualları bir-birindən soruşmağı tapşırır:

*– Kitabın adı nədir?*

*– Kitabın müəllifi kimdir?*

*– Kitabın neçə səhifəsi var?*

*– Kitabda neçə fəsil var?*

*– Kitab nə haqdadır?*

### Oxu

2.2.3 **Tapşırıq A (dərslik).** Cütlər işlərini dərslikdə verilən kitab üzrə davam etdirir, tapşırıqda verilən sualları oxuyub cavablandırırlar.

2.2.1 **“Xilaskar it” mətni (dərslik).** Mətn əvvəlcə “Xəyalında canlandırma” üsulu ilə müəllim tərəfindən oxunur. Mətnin bir hissəsini yanğınsöndürənlə gənc ananın dialoqu təşkil etdiyi üçün müəllim onların sözlərini oxuyarkən bu obrazlara uyğun səs tembrini dəyişməlidir. Mətn oxunduqdan sonra müəllim soruşur:

*– Xəyalınızda nə canlandırdınız? Yoldaşınızla müzakirə edin. Hansı səsləri eşitdiniz?*

**Müəllimin nəzərinə!** Şagirdlər yanğınsöndürən maşının səs siqnalını, suyun şırıltısını, ananın və yanğınsöndürənlərin, itin, körpə uşağın səslərini "eşitdiklərini" söyləyə bilərlər.

Müzakirədən sonra müəllim mətni yenidən oxuyur. Şagirdlər isə süjetli kompozisiyanı oxu materialı ilə birlikdə izləyir, xəyallarında canlandırdıqları səhnə ilə müqayisə edirlər. Müəllim vaxtaşırı oxunu dayandırıb şagirdlərə suallarla müraciət edə bilər:

*– İndi oxuduğum cümləni kim dedi?*

*– Bu cümlə hansı şəklə aiddir? Həmin şəkli göstərin.*

Sonda şagirdlər növbə ilə mətni oxuyurlar.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər cümlələrlə illüstrasiyaları uyğunlaşdırmaqla oxuyub-qavrama bacarıqlarını inkişaf etdirirlər.

2.2.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən aldıqları məlumatlarla tapşırıqda verilmiş cümlələri müqayisə edərək onların doğru və ya yanlış olduğunu müəyyən edirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər qurduqları cümlələri süjetli mətndəki təsvirlərlə uyğunlaşdırıb fikirlərini əsaslandıra bilərlər.

<u>Cümlələr</u>: *Ana yanğınsöndürənə zəng etdi.*
*İt körpəni xilas etdi.*
*Evdə yanğın baş vermişdi.*

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlərdə nəqletmə bacarığının və yaddaşın möhkəmləndirilməsinə yönəldilmişdir. Tapşırıq yerinə yetirildikdən sonra şagirdlər mətni bütövlükdə nəql edirlər.

### Yazı

3.1.1 **“Hüsnxət” rubrikası.** Şagirdlər böyük və kiçik “Öö” hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kitabın cildindəki vizual və verbal məlumatlardan çıxış edərək onun məzmunu haqda fikir söyləyir. | Tap. A (dərslik). MV-dəki fəaliyyət |
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir.· | Tap. A (iş dəftəri) |
| Mətndəki əsas hadisələri müəyyən edir. | Tap. B (dərslik). Tap. B (iş dəftəri) |
| Mətndən bir hissəni seçərək nəql edir. | Tap. C (dərslik) |
| “Öö” hərfini hüsnxət normalarına uyğun yazır. | “Hüsnxət” rubrikası (dərslik və iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə müəllimə "Söz boğçası" rubrikasında verilən yeni sözlərin mənimsədilməsi üçün həmin sözlərə aid əşyaların və ya şəkillərin (dəbilqə, yanğınsöndürmə balonu, su şlanqı, respirator) hazırlanması tövsiyə olunur.

## **2-ci dərs.** Yanğınsöndürənlər. Hüsnxət: “Ss” hərfi

• Dərslik: səh. 32 • İş dəftəri: səh. 22

### Təlim məqsədləri

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Bildiyi faktlara əsaslanaraq dinlədiyi məlumata münasibət bildirir (st. 1.1.2).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkillər üzrə iş |
| 2 | **Dinləmə-danışma** | "Yanğınsöndürənlə məktəbdə görüş" dinləmə mətni |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlər üzərində iş |
| 4 | **Yazı** | “Ss” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim gətirdiyi şəkilləri və ya əşyaları şagirdlərə göstərərək tapşırıqdakı suallar üzrə müzakirə aparır.

### Dinləmə-danışma

1.2.2 1.1.2 **Tapşırıq B (dərslik).** Şagirdlərin diqqəti "Yanğınsöndürənlə məktəbdə görüş" şəklinə yönəldilir və tapşırıqda verilmiş suallar ətrafında müzakirə aparılır. Bu tapşırıq dinləmə mətni üçün motivasiya rolunu oynayır və BİBÖ şəklində də qurula bilər.

**Dinləmə mətni:**

*Ayxangilin sinfində xüsusi bir gün idi. Onların qonağı var idi. Bu, yanğınsöndürən Əli idi. O, uşaqlara geyimindən, istifadə etdikləri əşyalardan, yanğını yaradan səbəblərdən və ondan qorunmağın yollarından danışdı. Yanğınsöndürən Əli uşaqlara bu qaydalara əməl etməyi tövsiyə etdi:*

*1. Yanğın baş verəndə 101 nömrəsinə zəng edin, yanğının baş verdiyi yer barədə dəqiq məlumat verin.*

*2. Əgər yanğın gecə baş veribsə, ailə üzvlərinizi və qonşuları oyatmaq üçün “Yanğın!” deyə qışqırın.*

*3. Yanğın zamanı valideynlərinizlə bir yerdə olun, onlardan uzaqlaşmayın.*

*4. Əgər yanğın yalnız bir otaqda baş veribsə, qapını bağlayın, oradan uzaqlaşın.*

*5. Yanğın zamanı istidən və tüstüdən qorunmaq üçün palto və ayaqqabı geyinin, ağız və burnunuzu nəm parça və ya dəsmalla bağlayın.*

Müəllim dinləmə mətninin nə dərəcədə mənimsənildiyini yoxlamaq üçün şagirdlərə suallar verir.

**Müəllimin nəzərinə!** Yanğınsöndürənlə görüşün təşkili bu dərsi daha da maraqlı edə bilər.

### Söz ehtiyatı

2.1.1 Müəllimin yönəldici sualları ilə "Söz boğçası" rubrikasında verilən şəkillər üzrə yeni sözlər mənimsədilir. Müəllim sözlərin daha dərindən mənimsədilməsi və şagirdlərin nitqində istifadəsi üçün əlavə suallar verə bilər:

*1. Dəbilqədən daha kimlər istifadə edirlər? (inşaatçılar, motosikl sürənlər və s.)*

*2. Hava balonundan daha kimlər istifadə edirlər? (dalğıclar, kosmonavtlar və s.)*

*3. Su şlanqından daha harada istifadə olunur? (bağda ağacları sulayarkən və s.)*

Dərs boyunca şagirdlər üçün yeni olan sözlər müəllim tərəfindən izah olunaraq söz boğçasına əlavə edilməlidir.

2.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlər öyrəndikləri yeni sözləri cümlələrdə yerinə qoymaqla həmin sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər ilkin olaraq şə-

killərə baxaraq hər bir şəklin adını, sonra isə sözün izahını müəyyənləşdirirlər. Bu tapşırıq vasitəsilə şagirdlərin bir neçə bacarığı möhkəmləndirilir: şəklin adlandırılması, həmin şəklin aid olduğu sözün qrupdan seçilməsi və həmin anlayışın ifadə etdiyi mənanın müəyyənləşdirilməsi.

**Doğru cavab:** 1–C, 2–A, 3–B

**Diferensial təlim**

**Dəstək.** İşləmə prinsipinə görə nisbətən çətin olan bu tapşırığın yerinə yetirilməsində çətinlik çəkən bəzi şagirdlərə tapşırığın bir hissəsini – şəklin sözlə uyğunlaşdırılmasını tapşırmaq olar.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlərin söz ehtiyatını möhkəmləndirir. Tapşırıq oyun (auksion) şəklində də qurula bilər. ("Yanğınsöndürən" sözündəki hərflərdən istifadə etməklə son sözü deyən şagird qalib gəlir.)

**Yazı**

**3.1.1** **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Ss" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ətrafında fikirlərini ifadə edir. | Tap. A, B (dərslik) |
| Bildiyi faktlara əsaslanaraq dinlədiyi məlumata münasibət bildirir. | MV – dinləmə mətni |
| Sözün ifadə etdiyi şəkli müəyyən edir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| "Ss" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri).<br>Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq. 1.** Müəllimə növbəti dərsdə nəqli və sual cümlələrini mənimsətmək üçün hər hansı bir şəkil nümayiş etdirməsi tövsiyə olunur.

**2.** Dərsliyin 33-cü səhifəsindəki "Ç" tapşırığının yerinə yetirilməsi üçün hər iki kitaba aid sual cümlələri yazılmış kartlar hazırlamaq tövsiyə olunur.

## 3-cü dərs. Azərin sualları. Cümlənin növləri. Hüsnxət: "Şş" hərfi

• Dərslik: səh. 33 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**

- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Sual və nəqli cümlələri fərqləndirir (st. 4.1.7).
- Cümlənin növündən asılı olaraq onu müvafiq durğu işarəsi ilə tamamlayır (st. 4.1.7).
- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Köməkçi vasitələr:** sual cümlələri yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkil üzrə iş |
| 2 | **Oxu** | "Azərin sualları" mətninin oxusu |
| 3 | **Dil qaydaları** | Nəqli və sual cümlələrinin mənimsədilməsi |
| 4 | **Yazı** | "Şş" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə hər hansı bir şəkil (məsələn: telefonla zəng edən adam) nümayiş etdirərək bu sualları verir:

*1. Bu şəkildən hansı məlumat ala bildik?*

*2. Bu şəklə aid hansı sualınız var?*

Müəllim şagirdlərin cavablarından bir neçəsini lövhədə yazır. Məlumat verən cümlələrin nəqli, məlumat toplamaq məqsədilə qurulan cümlələrin isə sual cümləsi olduğu izah edilir.

**Oxu**

**2.2.1** **Tapşırıq A (dərslik).** Şagirdlər mətnin adını oxuyurlar və yanğınsöndürənlə Azərin şəklinə baxıb mətnin məzmununu təxmin edirlər. Sonra mətn iki şagird tərəfindən oxunur. Müəllim "Siz mətndən hansı sualların cavabını tapdınız?" – deyə şagirdlərin fikirlərini dinləyir. "Bəs siz yanğınsöndürəndən hansı məlumatı almaq istərdiniz?" – deyə onların da bir neçə sual səsləndirməsinə imkan

yaradır.

**Dil qaydaları**

4.1.7 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini mətndəki cümlələrə və cümlələrin sonundakı müvafiq durğu işarələrinə yönəldir və onları müqayisə edir.

**"Bunları bilməliyik"** rubrikası üzrə iş aparılır. Nəqli və sual cümlələrini daha dərindən mənimsətmək üçün müxtəlif əşyalar göstərərək bu əşyalar barədə məlumat və sual verən cümlələr qurmağı tapşırmaq olar. Bu zaman müəllim söylənilən cümləri lövhədə yazaraq şagirdlərə cümlələrin sonunda müvafiq durğu işarəsini qoymağı tapşıra bilər.

**Tapşırıq C (dərslik) və tapşırıq A (iş dəftəri).** Hər iki tapşırıq nəqli və sual cümlələrinin daha dərindən mənimsədilməsinə xidmət edir.

2.2.3 4.1.7 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini dərslikdəki kitabların cildlərinə yönəldir. Hər iki kitabın adı şagirdlər tərəfindən oxunur və kitablar arasındakı fərq müzakirə olunur. Müəllim şagirdləri iki qrupa ayırır və qruplara üzərində hər iki kitaba aid sual cümləri yazılmış kartlar paylayır. Şagirdlər "Bu sualların cavablarını hansı kitabdan oxumaq olar?" sualı ətrafında müzakirə aparırlar.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlələrlə şəkilləri uyğunlaşdırıb mətni ardıcıllıqla nəql edirlər. Müəllim sonda bu cümlələrin növünü soruşmaqla şagirdlərin yeni dil qaydasını nə dərəcədə mənimsədiklərini müəyyən edə bilər.

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər "Şş" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. A (dərslik) |
| Nəqli və sual cümləsini fərqləndirir. | Tap. C (dərslik). Tap. A (iş dəftəri) |
| Kitabın cildinə əsasən onun məzmununu təxmin edir. | Tap. Ç (dərslik) |
| Mətnlə illüstrasiya arasında uyğunluğu müəyyən edir. | Tap. B (iş dəftəri) |
| "Şş" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri) |

fəsil 3 YOLDA TƏHLÜKƏ

## 1-ci dərs. Yol hərəkəti qaydaları. Hüsnxət: "Uu" hərfi

• Dərslik: səh. 34-35 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

- Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.1).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır (st. 2.1.4).
- Dialoqlarda situasiyaya uyğun sadə nitq etiketlərindən istifadə edir (st. 1.2.3).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Yolda təhlükə" mövzusunda beyin həmləsi |
| 2 | **Danışma. Söz ehtiyatı** | "Yol hərəkəti qaydaları" üzrə müzakirə |
| 3 | **Oxu** | Tapmacanın oxusu |
| 4 | **Dil qaydaları** | Hecalar əlavə etməklə sözlərin köçürülməsi |
| 5 | **Danışma** | Xəritə üzrə iş |
| 6 | **Yazı** | "Uu" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 7 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Şagirdlər "Yolla gedərkən hansı təhlükələrlə qarşılaşa bilərik?" sualı ətrafında ağıllarına ilk gələn fikirləri səsləndirirlər.

**Danışma. Söz ehtiyatı**

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilən şəkillərə əsasən sualları cavablandırırlar. Müəllim "Söz boğçası" rubrikasında göstərilmiş sözlərin şagirdlərin nitqində nə dərəcədə istifadə olunduğunu müşahidə edir. Şagirdlər həmin sözlərin aid olduğu təsvirləri müəyyənləşdirirlər. Yeni sözlər "Söz boğçası"na əlavə olunur.

**Oxu**

2.2.1 **Tapşırıq B (dərslik). Cütlərlə oxu.** Şagirdlər cütlərdə tapmacanı oxuyub sualları cavablandırırlar. Müəllim şagirdlərin diqqətini tapmacadakı açar sözlərə (*üç qardaş, dayan, diqqətli ol, buyur*) yönəldir və şəkillər vasitəsilə

onların mənalarını açıqlamağı tapşırır.

**2.1.4** Şagirdlərin diqqəti mətndəki "üç qardaş" ifadəsinə yönəldilir: *"Nəyə görə işıqfor bir qutuda üç qardaşa bənzədilir?"* Şagirdlər bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri müəyyən edirlər.

### Dil qaydaları

**Tapşırıq C (dərslik).** I bölmədə tədris olunan dil qaydalarının möhkəmlənməsinə yönəlmiş bu tapşırıq həm də yazı bacarıqlarını inkişaf etdirir.

### Danışma

**1.2.1** **Tapşırıq Ç, D (dərslik).** Şagirdlərdə xəritə ilə işləmək, istiqaməti müəyyən etmək bacarıqlarının formalaşdırılmasına yönəlmişdir. Bu tapşırıq eyni zamanda riyaziyyat və həyat bilgisi fənləri ilə inteqrasiya yaradır. Buna görə də tapşırığa başlamazdan əvvəl "sağ", "sol", "qarşısında", "arxasında", "yanında" anlayışlarını yada salmaq məqsədəuyğundur. Bu zaman sadə idman hərəkətlərindən (*"Sol əlini qaldır. Sağa dön"* və s.) istifadə etmək olar.

Şagirdlər xəritədə təsvir olunmuş obyektlərin adlarını oxuyur, Ayxangilin evini və digər obyektlərin yerlərini müəyyən edirlər; məsələn: *"Məktəb xəstəxananın qarşısındadır"* və s.

Riyaziyyatla inteqrasiyanı genişləndirmək üçün bu suallardan istifadə oluna bilər: *"Neçə bina var? Neçə maşın qırmızıdır? Neçə piyada zolağı var? Bəs neçə yerüstü keçid var?"*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri xəritə ilə müqayisə edərək faktların doğruluğunu müəyyən edirlər. Bununla cümlələrlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən etmək bacarığı inkişaf etdirilir.

**Tapşırıq E (dərslik).** Şagirdlər Ayxanın zooparka getməsi üçün alternativ yolları cümlə şəklində ifadə edirlər; məsələn: *"Ayxan səki ilə düz getsin, xəstəxananın yanından sağa dönüb yenidən düz getsin. Yerüstü keçiddən keçsin. Polis idarəsinin arxasındakı piyada zolağından keçərək zooparka çatsın".*

**1.2.3** **Tapşırıq Ə (dərslik).** Xəritə üzrə iş bu tapşırıqla davam edir. Şagirdlər "Ayxanın evdən müxtəlif istiqamətlərə (kitabxanaya, polis idarəsinə, məktəbə) getmək üçün insanlara müraciət etmək" situasiyasına uyğun dialoqlar qururlar. Ayxanın məlumat toplamaq məqsədilə hansı cümlə növündən istifadə etdiyini soruşmaqla dil qaydaları ilə də inteqrasiya yaradıla bilər.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq nitq etiketləri ilə bağlı möhkəmləndirmə məqsədi daşıyır.

### Yazı

**3.1.1** **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Uu" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Tapşırıq C (iş dəftəri).** Öncə dərslikdəki tapmaca şagirdlər tərəfindən oxunur, hər bir rəngin verdiyi göstərişlər müvafiq işıqforun yanındakı çərçivədə yazılır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Nitqində yeni sözlərdən istifadə edir. | Tap. A, Ç (dərslik) |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Təsvirə (xəritəyə) uyğun məlumat verir. | Tap. Ç, D (dərslik).<br>Tap. A (iş dəftəri) |
| Dialoq qurarkən nitq etiketlərindən istifadə edir. | Tap. Ə (dərslik).<br>Tap. B (iş dəftəri) |
| Böyük və kiçik "Uu" hərfini düzgün yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri).<br>Tap. C (iş dəftəri) |

## 2-ci dərs. "Yol"
## "Hüsnxət": "Üü" hərfi

• Dərslik: səh. 36 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).
- İşarələrin ifadə etdiyi fikri müəyyənləşdirir (st. 2.2.4).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

• **Köməkçi vasitələr:** yol hərəkəti nişanları və onlara aid cümlə kartları

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Yol" mahnısı üzrə iş |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Yol" şeir parçasının oxusu |
| 3 | **Oxuyub-qavrama** | İşarələrlə cümlələrin uyğunlaşdırılması |
| 4 | **Yazı** | "Üü" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim musiqi fənni ilə inteqrasiya edərək "Yol" uşaq mahnısını (musiqisi Oqtay Zülfüqarovundur) səsləndirir.

**Oxu. Söz ehtiyatı**

2.2.1, 2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər şeiri növbə ilə bir-birini izləyərək oxuyurlar. Müəllim şeirdəki məsləhətlərlə bağlı suallar verir:

*– Yolu nə zaman keçmək olar? Nə üçün yeraltı keçiddən keçmək lazımdır?*

Daha sonra şagirdlər şəkillər üzrə müzakirə aparırlar.

2.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş cümləni tamamlamaq üçün işıqforla bağlı biliklərindən istifadə edirlər. Tapşırıq şagirdlərin həm söz ehtiyatını, həmçinin də yazı bacarıqlarını möhkəmləndirir.

**Oxuyub-qavrama**

2.2.4 **Tapşırıq B (dərslik). Qruplarla iş.** Şagirdlər qruplarda onlara verilmiş cümlələri oxuyur və uyğun gələn işarəni müzakirə edərək seçirlər. Müəllim hər qrupa işarələrin ifadə etdiyi mənalara uyğun bir situasiya fikirləşməyi tapşıra bilər. Qrupların təklif etdiyi situasiyalardan birini rollu oyun vasitəsilə canlandırmaq tövsiyə olunur. Bununla da şagirdlər işarələrin həyatımızdakı rolunu daha yaxşı anlamış olarlar. Situasiya qurmaqda çətinlik çəkən qruplara müəllim bu istiqamətdə kömək edə bilər; məsələn:

*"Biz meşə ilə gedirdik. Hava çox isti idi. Hamı su istəyirdi. Birdən Arif yol kənarında işarəni görüb dedi:*

*– Dostlar, bura gəlin, yaxınlıqda bulaq var.*

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlərin qrafik işarələri oxuyub-anlama, cümlə ilə ifadə etmək bacarığını möhkəmləndirir.

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Üü" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Hüsnxət normalarını inkişaf etdirməklə yanaşı, dil qaydaları ilə inteqrasiyanı da təmin edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. A (dərslik) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. A (iş dəftəri) |
| İşarələrin ifadə etdiyi fikrə uyğun cümləni müəyyənləşdirir. | Tap. B (dərslik). Tap. B (iş dəftəri) |
| Böyük və kiçik "Üü" hərfini düzgün yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri) |
| Çap hərfləri ilə verilmiş cümləni üzündən köçürür. | Tap. C (iş dəftəri) |

## 3-cü dərs. "Dağ yolunda"
## Hüsnxət: "Kk" hərfi

• Dərslik: səh. 37 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- İşarələrin ifadə etdiyi fikri müəyyənləşdirir (st. 2.2.4).
- Nəqli və sual cümlələrini fərqləndirir (st. 4.1.7).
- Mətndəki əsas faktları müəyyənləşdirir (st. 2.2.5).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).
- Cümlənin məqsəd və intonasiyasından asılı olaraq onu müvafiq durğu işarəsi ilə tamamlayır (st. 4.1.7).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Məkana uyğun işarələrin seçilməsi |
| 2 | **Oxu** | "Dağ yolunda" mətninin oxusu |
| 3 | **Dil qaydaları** | Sual və nəqli cümlələr |
| 4 | **Oxuyub-qavrama** | Təlimata əsasən işıqforun düzəldilməsi |
| 5 | **Yazı** | "Kk" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim bir neçə işarəni şagirdlərə göstərərək "Bu işarələrə harada rast gələ bilərik?" – deyə soruşur.

**Oxu**

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər mətni oxuyurlar. Oxuduqdan sonra bu suallara cavab verirlər.

1. Mətnin adı nədir?
2. Mətndə hadisələr harada baş verir?
3. Mətndəki oğlanın adı nədir?
4. Ata maşını niyə saxladı?
5. Sizcə, ata düzgün qərar vermişdi?

Daha sonra "A" tapşırığında verilmiş suallar da müzakirə olunur.

2.2.4 **Tapşırıq B (dərslik).** "A" tapşırığında yer almış mətnə aid işarə müəyyən olunduqdan sonra digər iki işarəni də şagirdlər cümlə ilə ifadə edir və onlara hansı məkanda rast gəlinməsi barədə fikirlərini bildirirlər.

**Dil qaydaları**

4.1.7 **Tapşırıq C (dərslik). Yazı ilə inteqrasiya.** Məqsəd şagirdlərdə nəqli və sual cümlələrini fərqləndirmək bacarığını formalaşdırmaqdır. Şagirdlər cümlələri oxuyur və bu cümlələrin nəqli, yoxsa sual cümləsi olduğunu fərqləndirirlər. Sonra sual cümləsini mətnə əsasən cavablandırırlar. Şagirdlər sual cümləsini köçürməklə yazı bacarıqlarını möhkəmləndirirlər.

**Tapşırıq A (iş dəftəri).** Nəqli və sual cümlələrinin fərqləndirilməsi üzrə möhkəmləndirmə məqsədi daşıyır.

**Oxu**

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Qrafik təsviri cümlə şəklində ifadə etmək bacarığının inkişafına yönəldilmişdir.

2.2.5 **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Cütlər "İşıqforun hazırlanması" təlimatını oxuyur və ardıcıllığa əməl edərək işıqfor düzəldirlər.

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Kk" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Tapşırıq C (iş dəftəri).** Yazı bacarığının və durğu işarələri üzrə biliklərin möhkəmləndirilməsi məqsədi daşıyır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. C (dərslik) |
| Sual və nəqli cümlələri fərqləndirir. | Tap. A (iş dəftəri).<br>Tap. A (dərslik). |
| Böyük və kiçik "Kk" hərfini düzgün yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri) |
| Cümləni müvafiq durğu işarəsi ilə tamamlayır. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Gələn dərsdə sinfə məişətdə işlədilən bir kəsici və ya deşici alət (bıçaq, qayçı, sancaq və ya dəftərxana bıçağı) və üzərində yaş həddi qeyd edilmiş oyuncaq qutular (və ya şəkillər) gətirmək tövsiyə olunur.

# fəsil 4 EVDƏ TƏHLÜKƏ

## 1-ci dərs. "Oyuncaq mağazasında"

• Dərslik: səh. 38-39 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**

- Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.1).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ev əşyalarının nümayişi |
| 2 | **Danışma. Söz ehtiyatı** | Evdə təhlükə mövzusu üzrə iş |
| 3 | **Oxu** | "Oyuncaq mağazasında" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim özü ilə gətirdiyi mətbəx və ya dəftərxana bıçağını, iynə, sancaq və ya qayçını nümayiş etdirib soruşur:

*– Bu əşyalar nə üçündür? (Əşyaların gərəkli olduğu vurğulanır.) Bu əşyalarla ehtiyatlı davranmasaq, hansı təhlükələrlə qarşılaşarıq? Evdə istifadə olunan başqa hansı təhlükəli əşyaları tanıyırsınız?*

**Danışma. Söz ehtiyatı**

1.2.1 2.1.2 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti dərslikdə verilən mətbəx şəklinə yönəldilir. Şagirdlər şəkildə təsvir olunan əşyaları adlandırırlar. Müəllim lövhədə "kəsici alət və elektrik cihazı" söz birləşmələrini yazıb şagirdlərə uyğun əşya adlarını söyləmələrini tapşırır. "Söz boğçası"nda verilən digər sözlərin də mənası açıqlanır. Şagirdlər tapşırıqda verilən suallar ətrafında fikir yürüdərkən yeni sözləri nitqlərində işlədirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər müstəqil şəkildə tapşırığı yerinə yetirdikdən sonra təsvir olunan hadisələrin yarada biləcəyi təhlükələri öz həyatları ilə əlaqələndirib fikir bildirirlər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırığın əsas məqsədi "Evdə təhlükə" mövzusu ilə əlaqədar söz ehtiyatını zənginləşdirmək, yazı və oxu bacarıqlarını inkişaf etdirməkdir.

**Oxu**

"Oyuncaq mağazasında" mətnini oxumazdan öncə müəllim gətirdiyi oyuncaq qutularını sinfin müxtəlif guşələrində yerləşdirərək şagirdlərə seçim etməyi tapşırır. Şagirdlər seçimləri barədə fikirlərini əsaslandırırlar.

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər "Oyuncaq mağazasında" mətnini oxuyur, şəkillər üzrə müzakirə edir, şəkillərə uyğun cümlələri seçirlər.

**Oxuyub-qavrama**

Mətn oxunduqdan sonra müəllim mətnlə bağlı suallar səsləndirir: "*Mətnin adı nədir? Mətndə hadisələr harada baş verir? Mətndə kimlər iştirak edir?*"

2.2.5 **Tapşırıq C (dərslik). Cütlərlə iş.** Cütlər Ayxana və Aydana aid cümlələri müəyyənləşdirirlər. Tapşırıq belə yerinə yetirilə bilər: müəllim birinci cümləni səsləndirir. Cümlə Ayxana aid olduqda oğlanlar, Aydana aid olduqda isə qızlar ayağa qalxırlar.

2.2.4 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq yerinə yetirilməzdən öncə müəllim sual verir:

*– Ayxanın mətndəki sözlərindən onun haqqında nə deyə bilərik?*

Şagirdlər Ayxan obrazına münasibət bildirməklə onun diqqətli olması qənaətinə gəlirlər. Daha sonra tapşırıq yerinə yetirilir. Şagirdlər verilmiş situasiyalara uyğun obrazları sadə şəkildə təhlil edir və onlara xas cəhətləri dəyərləndirirlər.

**Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Hər bir oyuncağın istifadəsi üçün qoyulan yaş həddi və yaş həddinin qoyulma səbəbi cütlər tərəfindən araşdırılır. Bir oyuncaq seçib onun haqqında təqdimat edirlər.

**Tapşırıq D (dərslik). Qruplarla iş.** 4 şagirddən ibarət qruplar təşkil olunur. Qruplar üzərinə müvafiq söz yazılmış rəngli kartları qatarın rənginə əsasən düzür, alınan cümlənin növünü müəyyənləşdirirlər. Təqdimat zamanı şagirdlər əllərində rəngli kartlar tutaraq qatar kimi düzülürlər. Tez və düzgün düzülən qrup qalib olur.

**Tapşırıq E (dərslik).** Tapşırıq "Doğru" və "Yanlış" kartları vasitəsilə yerinə yetirilir. Şagirdlər tapşırıqda verilən informasiyanı təhlil edərək mövzu üzrə ümumiləşdirmə aparırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik).<br>Tap. B (iş dəftəri) |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Mətnin müxtəlif hissələrinə aid olan illüstrasiyaları, cümlələri müəyyən edir. | Tap. B, C (dərslik) |
| Obraz barədə fikrini ifadə edir. | Tap. C (iş dəftəri) |

## **2-ci dərs.** "Ağıllı Ömər" şeiri. Hüsnxət: "Pp" hərfi

• Dərslik: səh. 40 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**

- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).
- Verilmiş sözdə sait və samit bildirən hərfləri fərqləndirir (st. 4.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Evdə təhlükə barədə müzakirə |
| 2 | **Dinləmə** | Dinləmə mətni üzrə iş |
| 3 | **Oxu** | "Ağıllı Ömər" şeirinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | "Ağıllı Ömər" şeiri üzrə faktoloji sualların cavablandırılması |
| 5 | **Dil qaydaları** | "Pp" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Yazı** | Sait və samitlərin fərqləndirilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər öz həyat təcrübələrindən çıxış edərək "Evdə təhlükə" mövzusunda müzakirə aparırlar.

### Dinləmə və danışma

Müəllim dinləmə mətnini səsləndirir.

1.2.2 **Dinləmə mətni**

*"Ayxan həyətdən çoxlu uşaq səsi eşitdi. Tələsik eyvana çıxaraq baxdı. Bacısı Aydan bunu görüb tez anasını çağırdı".*

Müəllim şagirdlərin dinləmə bacarığını yoxlamaq məqsədilə suallar verir:

– *Ayxan niyə eyvana çıxdı? Ayxanın eyvana çıxdığını kim xəbər verdi? Sizcə, Aydan düzgün etdi? Dinlədiyiniz mətndə kimi ağıllı hesab edirsiniz?*

Daha sonra şagirdlər dinlədikləri mətnin davamını öz təxəyyüllərinə uyğun davam etdirirlər.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər şeiri bir-birini izləyərək oxuyurlar. Sonra müəllimin yönəldici sualları vasitəsilə şagirdlər şeirdə təhlükə ilə bağlı fikirləri müzakirə edirlər.

### Oxuyub-qavrama

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda yer alan əşyaları adlandırır, onlardan hansının kəsici alət, hansının elektrik cihazı olduğunu müəyyən edirlər. Şagirdlər hər bir əşya haqqında cümlə qururlar. Daha sonra hər bir əşyanın şeirdə işləndiyi cümlə (misra) şagirdlər tərəfindən tapılır və şeirdə "iynə" sözünün olmadığı müəyyən edilir.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Müəllim yönəldici suallar verir:

– *Kimin 6 yaşı var? Kim kibritlə oynamır? Kim elektrik xəttinə əl vurmur?* Şagirdlər mətnin adına əsaslanaraq şeirin Ömərin dilindən söylənildiyini müəyyənləşdirirlər.

**Tapşırıq D (dərslik). Riyaziyyat fənni ilə inteqrasiya.** Şagirdlərin detallara fikir vermək və yadda saxlamaq bacarığını inkişaf etdirir. Suala cavab verməkdə çətinlik çəkən şagirdlərin diqqəti şeirin ilk və sonuncu bəndlərinə yönəldilir. Ömərin ailəsinin 4 nəfərdən ibarət olduğu müəyyən edilir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər şeirə uyğun yeni ad seçməklə şeirin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş cümlələri oxuyaraq hər bir cümlənin məqsədini müəyyən edirlər.

2.2.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər oxuduqları mətnə uyğun illüstrasiyaların ardıcıllığını müəyyən edirlər.

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Pp" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Dil qaydaları

4.1.1 **Tapşırıq E (dərslik).** Tapşırıq yazı bacarıqlarını təkmilləşdirməklə yanaşı, 1-ci bölmədə tədris olunan sait və samitlərin fərqləndirilməsi bacarığını möhkəmləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətni genişləndirir. | MV-də verilmiş material |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik).<br>Tap. C (iş dəftəri) |

| | |
|---|---|
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. C, Ç, D (dərslik). Tap. A (iş dəftəri) |
| Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir. | Tap. C (iş dəftəri) |
| Sait və samitləri fərqləndirir. | Tap. E (dərslik) |
| Böyük və kiçik “Pp” hərfini düzgün yazır. | “Hüsnxət” rubrikası (dərslik və iş dəftəri) |

## 3-cü dərs. Hekayənin qurulması. Hüsnxət: “Vv” hərfi

• Dərslik: səh. 41 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1).
- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Cümlənin məqsəd və intonasiyasından asılı olaraq onu müvafiq durğu işarəsi ilə tamamlayır (st. 4.1.7).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Məişətdə təhlükə barədə müzakirə |
| 2 | **Danışma** | Şəkillər üzrə mətn qurma. Mətnin davam etdirilməsi |
| 3 | **Dil qaydaları** | Durğu işarələri |
| 4 | **Oxu** | Təhlükə bildirən cümlələrin seçilməsi |
| 5 | **Yazı** | “Vv” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə bunları yazır: *iti bıçaq, isti tava, qaynar çay.*

Sonra şagirdlərdən soruşur: *Bunlar hansı təhlükələrdən xəbər verir?*

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər evdə rastlaşdıqları təhlükəli hadisələri danışırlar.

1.2.1 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini şəkillərə yönəldir. Şagirdlər müəllimin yönəldici sualları vasitəsilə şəkilləri təsvir edir, hekayənin baş qəhrəmanına ad verirlər. Sonra hadisələrin ardıcıllığını müəyyənləşdirərək hekayə qururlar.

1.2.2 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Bu tapşırıq da fəslin əsas məqsədlərindən olan mətni təxəyyülə uyğun davam etdirmək (tamamlamaq) bacarığının inkişafına xidmət edir. Qruplar “məişətdə təhlükə” mövzusunda olan kiçik mətnləri oxuyaraq onları təxəyyüllərinə uyğun davam etdirirlər.

### Oxu

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlərin məntiqi təfəkkürlərini inkişaf etdirmək məqsədi daşıyır. Müəllim şagirdlərə seçdikləri cümlələri izah edərək fikirlərini əsaslandırmağı tapşıra bilər.

### Dil qaydaları

4.1.7 **Tapşırıq Ç (dərslik).** Şagirdlərin durğu işarələri (sual işarəsi və nöqtə) ilə bağlı biliklərinin möhkəmləndirilməsi məqsədi daşıyır. Şagirdlər verilmiş cümlələri cütlərdə oxuyur və buraxılmış səhvləri müəyyən edirlər.

**Tapşırıq D (dərslik).** Şagirdlər ilk cümləni cütlərdə oxuyur, onun nəqli və ya sual cümləsi olduğunu və hansı durğu işarəsindən istifadə edəcəklərini müzakirə edirlər. Sual cümləsi olduğuna qərar verdikdə hər iki şagird verilmiş sual cümləsinə müvafiq nəqli cümlə ilə cavab verir. Bu zaman şagirdlərin bütöv cümlə qurmasına diqqət yetirmək lazımdır; məsələn:

*– Paltarı kim ütüləyir?*

*– Anam paltarı ütüləyir.*

Müzakirədən sonra şagirdlər verilmiş cümlələri dəftərlərinə köçürürlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər fərdi şəkildə işləyərək cümlələrin sonundakı müvafiq durğu işarələrini müəyyən edirlər.

**Cütlərlə iş.** Şagirdlər iş dəftərlərini dəyişib bir-birinin tapşırığını yoxlayırlar.

### Yazı

3.1.1 **“Hüsnxət” rubrikası.** Şagirdlər böyük və kiçik “Vv” hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Tapşırıq C (iş dəftəri).** Cümlədə "Vv" hərfli sözləri hüsnxət normalarına uyğun yazmaqla yanaşı, cümlənin əsas əlamətlərini (cümlədəki ilk sözün böyük hərflə başlaması, müvafiq durğu işarəsi ilə bitməsi) tanıdıqlarını da nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. B (dərslik) |
| Mətni təxəyyülünə uyğun davam etdirir. | Tap. C (dərslik) |
| Cümlənin sonunda müvafiq durğu işarəsi qoyur. | Tap. Ç, D (dərslik).<br>Tap. A, C (iş dəftəri) |
| Böyük və kiçik "Vv" hərfini düzgün yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri).<br>Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti fəslin mövzusunu daha asan mənimsətmək üçün şagirdlərə valideynlərindən zəlzələ və xilasedicilər haqqında məlumat toplamaq tapşırılır. Bu, şagirdlərin mövzu haqqında ilkin təsəvvürlərinin yaranmasına kömək edə bilər.

# fəsil 5 XİLASEDİCİLƏR

## 1-ci dərs. "Qartalın təşəkkürü" mətni. Hüsnxət: "Ee" hərfi

• Dərslik: səh. 42 • İş dəftəri: səh. 30

### Təlim məqsədləri

- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Xilasedicilər haqqında sual-cavab |
| 2 | **Oxu** | "Qartalın təşəkkürü" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndən əsas faktların seçilməsi |
| 4 | **Yazı** | "Ee" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər valideynlərindən xilasedicilər haqqında topladıqları məlumatları müəllimin sualları əsasında müzakirə edirlər.

### Oxu

2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkildə verilmiş kitabın cildinə baxaraq sualları cavablandırırlar. Sonra müəllim aşağıdakı sual cümlələrini lövhədə yazır:

*1. Xilasedicilər kimlərdir?*
*2. Xilasedicilər bizə necə kömək edir?*
*3. Heyvanlar nə ilə qidalanır?*
*4. Hansı heyvanlar təhlükəlidir?*

*Şagirdlərdən soruşur: – Hansı sualların cavabını "Xilasedicilər" kitabından öyrənmək olar?*

2.2.1 **Tapşırıq B (dərslik). İzahlı oxu.** Mətn müəllimin müşayiəti ilə şagirdlər tərəfindən oxunur. Müəllim oxu prosesində şagirdlərin diqqətini illüstrasiyalara, hadisələrin başvermə məkanına (dağda, evin yanında, düzənlikdə) yönəldərək şərhlər verir; məsələn, düzənlik açıq sahə olduğu üçün zəlzələ zamanı daha təhlükəsizdir.

### Oxuyub-qavrama

2.2.5 Şagirdlər suallar ətrafında müzakirə aparırlar. Bu suallar şagirdlərin nəticə çıxarmaq bacarığını və yaradıcı təfəkkürünü inkişaf etdirir.

**Diferensial təlim**
__**Dəstək.**__ Şagirdlər mətnin məzmununa ad seçməkdə çətinlik çəkərsə, müəllim bir neçə adı vərəqdə yazıb onlara seçim etməyi tapşıra bilər.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki hadisələrin məntiqi sonluğunu müəyyən edirlər.

**Diferensial təlim**
__**Dərinləşdirmə.**__ Belə bir tapşırıq vermək olar:
*– Şəkillərə baxın və cümlələri oxuyun. Onların mətndəki yerini müəyyən edin.*
Daha sonra müəllim onlara mətni bütövlükdə nəql etməyi tapşıra bilər. Bu zaman onları mətni bu cümlələrlə başlamağa istiqamətləndirməlidir:
*Bir gün Ziya baba evin kölgəsində oturmuşdu. Gördü ki, bir qartal tələyə düşüb, xilas olmağa çalışır.*

**Tapşırıq A (iş dəftəri).** İllüstrasiyalara uyğun olaraq mətndəki hadisələrin başvermə məkanı seçilir.

2.2.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümləri müstəqil oxuyub düzgün cavabı ("Bir gün qartal tələyə düşdü") işarələməklə mətni anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (iş dəftəri).** Oxuyub-qavrama bacarığını inkişaf etdirən bu tapşırıqda şagirdlər mətnə aid əsas fikirləri müəyyən edirlər. __Doğru cavablar:__ *"Bəzi heyvanlar zəlzələni hiss edir"; "Qartal babanı evdən uzaqlaşdırmaq istəyirdi".*

2.2.4 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Qruplar tapşırıqda qartal haqqında verilmiş məlumatları

oxuyaraq “Qartalın təşəkkürü” mətninə aid məlumatları müəyyən edirlər. Qrupların təqdimatı zamanı seçilən məlumatlar mətndən gətirilən faktlar əsasında izah edilməlidir; məsələn, şagird “Qartal caynaqları ilə istədiyi əşyanı götürə bilir” məlumatını sübut etmək üçün qartalın mətndə papağı götürməsi faktını söyləməlidir.

Sonra tapşırıqda verilən 2-ci sual ətrafında qruplar müzakirə aparırlar. Verilmiş şəklin ötürdüyü informasiya araşdırılır. Şəklə uyğun bir neçə məlumat seçilə bilər: *“Şəkildə qartalın uzaq məsafədən enərək kiçik bir balığı ovlaması təsvir olunmuşdur. Bu onun iti caynaqlara malik yırtıcı quş olduğunu göstərir”.*

### Yazı

3.1.1 **“Hüsnxət” rubrikası.** Şagirdlər böyük və kiçik “Ee” hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. B (dərslik). Tap. A, C (iş dəftəri) |
| Cümlənin və ya illüstrasiyanın mətndəki yerini müəyyən edir. | Tap. C (dərslik). Tap. B (iş dəftəri) |
| Oxuduğu cümlənin ifadə etdiyi fikri müəyyənləşdirir. | Tap. Ç (dərslik) |
| “Ee” hərfini hüsnxət normalarına uyğun yazır. | “Hüsnxət” rubrikası (dərslik və iş dəftəri) |

## 2-ci dərs. Heyvanların köməyi. Hüsnxət: “Gg” hərfi

• Dərslik: səh. 44 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

- Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır (st. 1.1.1).
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1).
- Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir (st. 2.1.1).
- Verilmiş sözdə sait və samit bildirən hərfləri fərqləndirir (st. 4.1.1).
- Cümləni formal əlamətlərinə görə (ilk sözün böyük hərflə yazılması, sonda müvafiq durğu işarəsinin qoyulması) tanıyır (st. 4.1.6).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Xilaskar it" və "Qartalın təşəkkürü" mətnlərinin xatırlanması |
| 2 | **Dinləmə** | “Alabaşın köməyi” mətni |
| 3 | **Danışma** | Şəkillər üzrə mətnqurma |
| 4 | **Söz ehtiyatı** | Əlamətlərə uyğun anlayışların müəyyən edilməsi |
| 5 | **Dil qaydaları** | Sait və samitlər, cümlənin formal əlamətləri |
| 6 | **Yazı** | “Gg” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər "Xilaskar it" və "Qartalın təşəkkürü" mətnini xatırlayır, müəllim yönəldici suallar verir:

– *Mətndə körpəni kim xilas edir? Sizcə, Xallı yanğın zamanı tüstü bürümüş evdə körpəni necə tapa bildi? Qartal Ziya babanın papağını niyə götürüb qaçdı?*

Şagirdlər suallar ətrafında müzakirə apararaq belə bir nəticəyə gəlirlər:

“Heyvanlar insanları həm təhlükədən xilas edir, həm də onlara müxtəlif təhlükələrdən qorunmaq üçün əvvəlcədən xəbərdarlıq edə bilir”.

### Dinləmə

1.1.1 **Tapşırıq B (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir.

**<u>Dinləmə mətni:</u>**

*Çoban qoyun sürüsünü dağa apardı. Qoyunlar dağda otlayırdılar. Birdən canavar onlara hücum etdi. Çoban həyəcanla qışqırdı: “Ay aman, kömək edin!” Alabaş canavarın üstünə cumaraq onu qovdu.*

Mətni dinlədikdən sonra müəllim yeni sözləri izah edərək "Söz boğçası"na əlavə edir.

**Cütlərlə iş.** Şagirdlər qeyri-ardıcıl verilmiş cümlələri oxuyur, hadisələrin ardıcıllığını müəyyən edirlər.

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Hər bir qrup seçdiyi şəklə uyğun rabitəli mətn qurub danışır. Müəllim qruplara kömək məqsədilə şəkillərin məzmununa uyğun düşündürücü suallar yazıb verə bilər: məsələn,

1-ci şəkil: *Evin dağılmasına səbəb nə ola bilər? Uşaq niyə tək qalıb?* və s.

2-ci şəkil: *Sizcə, atın sahibi niyə yaralanmışdı? Hadisə harada baş verə bilərdi?* və s.

3-cü şəkil: *Oğlan necə oldu ki, suya düşdü?*

*Delfin onu hara apardı?* və s.

4-cü şəkil: *Uşaq nə üçün ağaca çıxmışdı? O niyə ayaqyalındır? Fil onu xilas edəndən sonra oğlan ona necə təşəkkür etdi?* və s.

**Söz ehtiyatı**

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər cümlələri oxuyaraq əlamətlərin hansı heyvanlara aid olduğunu müəyyən edirlər.

**Dil qaydaları**

4.1.1 **Tapşırıq Ç (dərslik).** 1-ci bölmədə öyrədilən dil qaydalarının təkrarlanması məqsədi daşıyır.

4.1.6 **Tapşırıq B (iş dəftəri).** Şagirdlərin cümlənin formal əlamətləri (cümlədə ilk sözün böyük hərflə başlaması, cümlənin sonunda durğu işarəsinin qoyulması) üzrə öyrəndikləri dil qaydasının tətbiqinə yönəlmişdir.

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Gg" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır. | Tap. B (dərslik) |
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. C (dərslik) |
| Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Cümlənin formal əlamətlərini tanıyır. | Tap. B (iş dəftəri) |
| "Gg" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri) |

## 3-cü dərs. "Çayda". Hüsnxət: "Ğğ" hərfi

•Dərslik: səh. 44-45 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir (st. 2.1.2).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına əsasən yazır və bitişdirir (st. 3.1.1).
- Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir (st. 4.1.6).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Uşaq və buz" şeirinin xatırladılması |
| 2 | **Danışma** | Yay fəslində təhlükələr |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Çayda" şeirinin oxunması; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Yazı** | "Ğğ" hərfinin hüsnxət normalarına əsasən yazılışı |
| 5 | **Dil qaydaları** | Cümlədə söz sırası |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə "Uşaq və buz" şeirini xatırladır. Qış fəslində rast gəlinən təhlükələr barədə şagirdlərlə müzakirə aparır.

**Danışma**

1.2.1 Müəllim şagirdlərə sual verir:

– *Yay fəslində harada təhlükə ilə rastlaşmısınız?*

Şagirdlər yay fəslində müxtəlif məkanlarda rast gəldikləri təhlükəli hadisələr barədə danışırlar.

Sonra müəllim müzakirə əsasında lövhədə belə bir cədvəl çəkir:

| Məkanlar | Təhlükə ilə üzləşən uşaqların sayı |
|---|---|
| Park | |
| Məktəb | |
| Çimərlik | |
| Meşə | |
| Ev | |

Müəllim şagirdlərin cavabına əsasən onların sayını cədvəldə qeyd edir. Cədvəl üzrə müzakirə davam edir:

*– Neçə nəfər parkda təhlükə ilə qarşılaşmışdır? Ən az harada təhlükə ilə qarşılaşmışdır? Ən çox harada təhlükə ilə qarşılaşmışdır?*

**Oxu. Söz ehtiyatı**

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər "Çayda" şeirini oxuyaraq sual ətrafında müzakirə aparırlar.

2.1.2 **Tapşırıq B (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin mövzu ilə bağlı söz ehtiyatını artırmaqdır. Müəllim sual verir:

*– Çimərkən təhlükədən necə qorunmaq olar?*

Şagirdlər şəkillərdə təsvir olunmuş varlıqların adlarını oxuyur, onlar haqqında bildiklərini danışırlar. Sonra yeni sözlər "Söz boğçası"na əlavə olunur.

Müəllim şagirdlərin diqqətini "A" tapşırığındakı illüstrasiyaya yönəldir. Şagirdlərə sual verir:

*– Şəkildə gördüyünüz uşaqlara təhlükəsizlik qaydalarına riayət etmələri üçün nə məsləhət verərdiniz?*

Bu zaman şagirdlərin öyrəndikləri yeni sözlərdən nitqlərində istifadə etməsinə diqqət yetirilir.

2.2.4 **Tapşırıq C (dərslik). Cütlərlə iş.** Şagirdlər cütlərdə şəkillərə baxır, təsvir olunmuş iki peşə sahibinin oxşar cəhətlərini müəyyən edirlər:

– Hər ikisi xilasedicidir.

– Hər ikisi xüsusi geyim geyinir.

Müəllimin yönəldici sualları vasitəsilə şagirdlər yanğınsöndürənlə bağlı öyrəndikləri məlumatları xatırlayırlar. Sonra cütlər cümlələri oxuyaraq müzakirə edirlər və cümlələrin aid olduğu peşə sahibini müəyyən edirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərin məntiqi nəticə çıxarmaq bacarığının inkişafına yönəlmişdir. Şagirdlər müəyyən edirlər ki, 1-ci və 3-cü cümlə xilasedicinin məsləhəti ola bilər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər sual cümləsinə uyğun nəqli cümlə seçməklə oxuyub-qavrama bacarıqlarını nümayiş etdirirlər.

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər böyük və kiçik "Ğğ" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Tapşırıq Ç (dərslik)**. Şagirdlərin həm yazı bacarığının, həm də dil qaydaları üzrə biliklərinin möhkəmləndirilməsi məqsədi daşıyır.

**Dil qaydaları**

4.1.6 **Tapşırıq C (iş dəftəri).** Şagirdlərin həm cümlə qurmaq, həm də çap hərflərlə verilmiş sözləri hüsnxət normalarına uyğun yazmaq bacarıqlarını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri haqqında danışır. | MV-də verilən fəaliyyət |
| Nitqində yeni sözlərdən istifadə edir. | Tap. A, B (dərslik) |
| Sözləri hecalarla oxuyur. | Tap. A (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. C (dərslik).<br>Tap. A, B (iş dəftəri) |
| "Ğğ" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik və iş dəftəri).<br>Tap. C (iş dəftəri)<br>Tap. Ç (dərslik) |
| Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə kitabın cildi və mündəricat hissəsinin hazırlanması ilə bağlı Ç tapşırığının yerinə yetirilməsi üçün müəllimə həmin tapşırıqla tanış olması tövsiyə olunur.

## 4-cü dərs. Ümumiləşdirici dərs

• Dərslik: səh. 46 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Sual və nəqli cümlələri fərqləndirir (st. 4.1.7).
- Cümləni formal əlamətlərinə görə (ilk sözün böyük hərflə yazılması, sonda müvafiq durğu işarəsinin qoyulması) tanıyır (st. 4.1.6)
- Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir (st. 4.1.3).
- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmənin mövzularının xatırlanması |
| 2 | **Söz ehtiyatı** | Başlıqlara aid sözlərin seçilməsi |
| 3 | **Oxu** | Şeirlər üzrə iş |
| 4 | **Dil qaydaları** | Cümlənin növləri |
| 5 | **Oxu** | Kitabın struktur elementləri |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə "təhlükə" mövzusu ilə bağlı bir neçə başlıq (*dənizdə təhlükə, meşədə təhlükə, parkda təhlükə, evdə təhlükə, yanğın zamanı təhlükə* və s.) yazır və soruşur: "*Hansı mövzuları bu bölmədə öyrəndik?*"

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş sözləri cütlərdə oxuyur və mənalarını anladıqlarını nümayiş etdirmək üçün sözlərə uyğun cümlələr qururlar. Daha sonra hər bir fəslə aid sözləri müəyyənləşdirirlər.

### Oxu

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Bölmənin əsas standartlarından biri olan mətnlə illüstrasiya arasında əlaqə qurmaq bacarığının inkişafının yoxlanılmasına yönəlmişdır. Şagirdlər şeirləri müstəqil oxuyur və hər bir şeirin aid olduğu şəkli müəyyənləşdirirlər.

**Tapşırıq B (iş dəftəri). Cütlərlə iş.** Cütlərə "A" tapşırığında verilən illüstrasiyalara aid suallar səsləndirmək tapşırılır. Bir şagird sual verir, ikinci şagird illüstarsiyaya əsaslanaraq həmin suala cavab verir. Sonra tapşırıq fərdi şəkildə yerinə yetirilir.

### Dil qaydaları

4.1.7 **Tapşırıq B (dərslik). Cütlərlə iş.** Hər bir sıradakı cümlələr cütlər tərəfindən araşdırılır. Təqdimat zamanı hər bir sırada növünə görə fərqlənən cümləni və həmin cümlənin növünü söyləyirlər.

4.1.6 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş kiçik mətndə cümlələrin sərhədlərini tapmaqla cümlənin əsas əlamətlərini mənimsədiklərini nümayiş etdirirlər.

4.1.3 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqla bölmə boyunca şagirdlərin yazılışını öyrəndikləri 10 hərfin müxtəlif formaları (böyük və kiçik, çap və əlyazısı) nəzərdən keçirilir, onlar tərəfindən mənimsənildiyi yoxlanılır.

### Oxu

2.2.3 **Tapşırıq Ç (dərslik). Texnologiya fənni ilə inteqrasiya. Qruplarla iş.** Qruplar istəklərinə uyğun bir mövzu seçirlər. Mövzuya uyğun kitabın cildini necə təsəvvür etdikləri barədə müzakirə aparırlar. Sonra şagirdlərə kitabın cildini düzəltmək üçün ləvazimatlar verilir.

**Müəllimin nəzərinə!** Kitab cildləri müəllimin əldə etdiyi vasitələrdən (vərəq, karton, kibrit qutusu və s.) asılı olaraq müxtəlif cür hazırlana bilər. Müəllim şagirdlərə ideya vermək üçün bu mövzulara aid kitablar da göstərə bilər.

Şagirdlərin yazı bacarıqları tam formalaşmadığına görə müəllim onlara üzərində müxtəlif mövzulara aid fəsil adları yazılmış kiçik kağızlar təqdim edə bilər. Şagirdlər seçdikləri mövzuya uyğun gələn fəsil adlarını müəyyənləşdirib sıra ilə düzüb, hər bir fəslin qarşısında səhifələri göstərən rəqəmlər yaza bilərlər. Sonda qruplar hazırladıqları kitab cildlərini və mündəricatlarını təqdim edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. A (dərslik) |
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir. | Tap. A, B (iş dəftəri) |
| Cümlənin növlərini fərqləndirir. | Tap. B (dərslik) |
| Cümləni formal əlamətlərinə görə (ilk sözün böyük hərflə yazılması, sonda müvafiq durğu işarəsinin qoyulması) tanıyır . | Tap. C (dərslik) |
| Eyni səsi işarə edən böyük və kiçik hərfləri müəyyənləşdirir. | Tap. C (iş dəftəri) |
| Mövzuya uyğun kitabın cildini və başlıqlar hissəsini düzəldir. | Tap. Ç (dərslik) |

# SAĞLAM HƏYAT

| Mövzu | | **Sağlam həyat** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışma, şagirdlərin mövzu üzrə şifahi təqdimatı |
| | Söz ehtiyatı | Gimnastika, gümrah, nahar, riayət etmək, asudə vaxt, dərnək, məşq, halqa, lent, molbert, dolça, al, şəfəq, ədəb, nur, bəhanə, fərdi, komanda, cəld, çevik, kral, dərs olmaq, yarış, dərs vermək, kefi kök olmaq, gigiyena, mikrob, mikroskop, diş fırçası, diş məcunu, cihaz, qida, məhsul, vitamin, un məmulatı, menyu, mübahisə etmək, zəngin, tərifləmək, bəkməz, qovun, tərkib, qəlyanaltı, resept |
| | Oxu | • Komiksləri müşayiət edən qısa cümlələrin, mətnlərin oxunması<br>• Mətndə məkan, şəxs, hadisələrin ardıcıllığı ilə bağlı məqamların müəyyən edilməsi |
| | Yazı | •H, X, C, Ç, Q, F, Z, J hərflərinin hüsnxət normalarına uyğun yazılışı<br>•Çap yazısı ilə verilmiş sözlərin və ya qısa cümlələrin əlyazısı şəklində yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Ad, hərəkət, əlamət, say bildirən sözlər |
| | Filoloji anlayışlar | • Obraz, baş qəhrəman, xarakter |
| Kompetensiyalar | | • Sağlam həyat tərzinin insan sağlamlığı üçün əhəmiyyətini qiymətləndirmək, özünün və başqalarının sağlamlığını qorumaq |

Üçüncü bölmədə “sağlamlıq” – gün rejimi, idman, gigiyena, sağlam qida mövzusu ilə bağlı həm informativ, həm də bədii mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərə sağlam həyat tərzi ilə bağlı yeni məlumatlar təqdim etmək, onların bu mövzu ilə bağlı söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Nitqi dinləyib anlayır, rabitəli danışır;

• Təmasda olduğu əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə edir;

• Öz fikirlərini bildirir, sadə təqdimatlar edir;

• Sözləri hecalarla oxuyur.

**Diferensial təlim**

Şagirdlərin bilik və bacarıq səviyyələrindəki ən bariz fərq oxu və yazı üzrə məzmun standartlarının reallaşmasında özünü göstərir. Şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma fərqdəki kəskinliyi aradan qaldırmağa kömək edə bilər.

**Mənimsəmədə çətinlik doğuran məqamlar:**

• Yaradıcı tapşırıqların yerinə yetirilməsi

• Çap yazısı ilə verilmiş söz və cümlələrin hüsnxət normalarına uyğun yazılması

• Nisbətən irihəcmli mətnlərin oxunması

Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**3-cü bölmədə nəzərdə tutulan köməkçi vasitələr:** kəsmə hərflər, üzərində heyvan, meyvə şəkilləri olan kartlar, menyu, optik gözlük, mikroskop, lupa, rezin top.

fəsil **1** GÜN REJİMİ

## 1-ci dərs. "Ayanın gün rejimi". Hüsnxət: "Hh" hərfi.

• Dərslik: səh. 48 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 1.2.1).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir (st.2.1.2).
- Mətndəki əsas hadisələri müəyyən edir (st. 2.2.5).
- Mətnlə illüstrasiya arasında uyğunluğu müəyyənləşdirir (st. 2.2.3).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 1.2.2).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sağlamlıq haqqında deyimlər |
| 2 | **Danışma** | "Sağlam həyat" bölməsinin titul səhifəsi üzrə iş |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Ayanın gün rejimi" mətninin oxusu. "Söz boğçası" üzrə iş |
| 4 | **Dinləmə-danışma** | Şifahi təqdimat |
| 5 | **Yazı** | "Hh" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Qeyd.** Bu dərsdə həyat bilgisi fənni ilə inteqrasiya yaranır. *Gün rejimi haqqında təsəvvürlərini sadə şəkildə ifadə edir (st. 2.1.1). Sağlam həyat tərzinin şərtlərini (təmizkarlıq, düzgün qidalanma, yuxu və istirahət) sadalayır (st. 4.1.1).*

### Mövzuya yönəltmə

Müəllim sağlamlıq haqqında deyimlər, aforizmlər səsləndirir. Şagirdlər bu cümlələrdə təkrar olunan sözü müəyyənləşdirməlidirlər.

*Tez yatıb tezdən oyanan sağlam olar.*
*İdman sağlamlıqdır.*
*Sağlam bədəndə sağlam ruh olar.*
*Gündə bir alma yesən, sağlam olarsan.*

Müxtəlif cavab variantları səslənə bilər, lakin müəllim şagirdlərin diqqətini "sağlam" sözünə yönəltməlidir.

### Danışma

**1.2.1 Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti titul səhifəsində verilmiş şəkillər əsasında yerinə yetirilir. Şagirdlər dərslikdəki yönəldici suallara cavab verməklə şəkildə gördüklərini təsvir edir, mövzu ilə bağlı müzakirədə iştirak edirlər. Müəllim şagirdləri danışmağa həvəsləndirmək üçün mövzunu onların şəxsi həyatı ilə əlaqələndirir:

*– Bəs siz sağlam olmaq üçün hansı qaydalara əməl edirsiniz? Özünüzə uyğun gün rejiminiz varmı? İdmana vaxt ayırmısınızmı? Sizcə, düzgün qidalanırsınız?*

### Oxu. Söz ehtiyatı

**2.2.1 Tapşırıq B (dərslik) Növbəli oxu.** "Ayanın gün rejimi" mətnini oxumazdan əvvəl müəllim şagirdlərin diqqətini mətnə çəkilmiş illüstrasiyalara yönəldir. Bir məktəblinin gün rejiminin əsas məqamlarını əks etdirən illüstrasiyalar şagirdlərə tanış gəldiyi üçün onlar gördüklərini öz həyatları ilə asanlıqla əlaqələndirirlər. Bu da şagirdlərə oxuyacaqları qısa cümlələrin məzmununu təxmin etməyə kömək edir. Bir-birini izləməklə şəkilaltı cümlələr müxtəlif şagirdlər tərəfindən növbə ilə oxunur.

**2.1.2 "Söz boğçası" rubrikası.** Yeni sözlərin ifadə etdiyi anlayışlar mətnə aid illüstrasiyalarda əks olunur və şəkilaltı cümlələrdə işlədilir. Buna görə də şagirdlər şəkillərdən çıxış edərək həmin sözlərin mənasını təxmin edə bilərlər. Şagirdlər "gimnastika", "nahar" və "asudə vaxt" sözləri ilə bağlı şəkilləri tapıb göstərirlər. Daha sonra həmin sözləri cümlələrdə işlədirlər.

### Oxuyub-qavrama

**2.2.5 Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin məzmunundan çıxış edərək doğru və yanlış fikirləri fərqləndirirlər. Tapşırıq yerinə yetiriləndən sonra şagirdlər mətnə istinad edərək cavablarını əsaslandırırlar; məsələn: *"Ayan təmizkar qızdır. Bəli. Çünki dərsdən gələn kimi əllərini yuyur".* Bu, şagirdlərin fikirlərini sübut etmək, əsaslandırmaq kimi vacib bacarıqlarını formalaşdırmağa kömək edir.

**2.2.3 Tapşırıq B (iş dəftəri).** Şagirdlər bu tapşırıqda şəkillərə aid məlumat almaq üçün uyğun sual cümlələrini seçirlər. Beləliklə, illüstrasiyanın məzmununun açılmasında sual cümlələrinin rolunu müəyyənləşdirirlər. Bu həmçinin şagirdlərin 2-ci bölmədə öyrəndikləri sual cümlələri haqqında bilik

və bacarıqlarını inkişaf etdirir.

**Dinləmə və danışma**

1.2.2 **Tapşırıq C (dərslik). Şifahi təqdimat.** Bu tapşırıq şagirdlərdə aşağıdakı bacarıqların inkişafına xidmət edir.

- mövzuya aid sual qurmaq;
- aldığı məlumatı dəqiqləşdirmək;
- aldığı məlumatı şəxsi həyatı ilə müqayisə etmək.

Cütlərlə iş. Parta yoldaşları bir-birinin gün rejimi haqqında məlumat toplayır və şifahi təqdim edirlər.

Şagirdlərin təqdimatı təxminən belə ola bilər; məsələn:

*"Aysel saat 7-də yuxudan oyanır. Biz ikimiz də eyni vaxtda oyanırıq. Məktəbdən sonra Aysel şahmat dərnəyinə gedir. Mən isə musiqi məktəbinə gedirəm".*

**Yazı**

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər "Hh" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkildə gördüklərini təsvir edir və onları həyatla əlaqələndirir. | Dərslik, III bölmə, titul səhifəsi |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Yeni öyrəndiyi sözləri şəxsi həyatı ilə əlaqələndirərək cümlədə işlədir. | "Söz boğçası" rubrikası. Tap. A (dərslik) |
| Mətndəki əsas hadisələri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Şifahi təqdimat edir. | Tap. C (dərslik) |
| "Hh" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik, iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə ailə üzvlərindən birinin gün rejimi haqqında məlumat toplamaq, *"Nəyə görə gün rejiminə riayət etməliyik?"* sualına cavab tapmaq tapşırılır. Bu məlumatlar növbəti dərsdə mövzuya yönəltmə zamanı şagirdlərə kömək edəcək.

## 2-ci dərs. "Əlinin səhvi". Hüsnxət: "Xx" hərfi

- Dərslik: səh. 49 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

- Dinlədiyi suallara adekvat cavab verir (st. 1.1.1).
- Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir (st. 2.1.2).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5).

- **Köməkçi vasitələr:** üzərində A, B, C, Ç hərfləri yazılmış kartlar.
- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Gün rejiminin vacibliyi haqqında müzakirə |
| 2 | **Danışma. Söz ehtiyatı** | Şəkil üzrə söhbət. "Söz boğçası" üzrə iş |
| 3 | **Oxu** | "Əlinin səhvi" mətninin oxusu |
| 4 | **Yazı** | "Xx" hərfinin hüsnxət normalarına uyğun yazılışı. Sözlərin düzgün yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

"Gün rejiminin pozulması nə ilə nəticələnə bilər?" sualı ətrafında müzakirə aparılır. Bu sualı cavablandırarkən şagirdlər valideynlərindən topladıqları məlumatlardan istifadə edə bilərlər.

**Danışma**

1.1.1 **Tapşırıq A (dərslik).** Şəkil üzrə iş tapşırıqdakı suallar ətrafında aparılır. Tapşırıq "Əlinin səhvi" mətninin mövzusuna istiqamətləndirmə məqsədi daşıyır.

2.1.2 **"Söz boğçası" rubrikası.** Şəkil üzrə müzakirə zamanı suallarda səslənən "təəccüb", "məsləhət", eyni zamanda 48-ci səhifədə "Söz boğçası" rubrikasında verilmiş "gümrah" sözü izah edilərək III bölmənin "Söz boğçası"na əlavə edilir.

**Oxu**

2.2.1 **Tapşırıq B (dərslik).** "Əlinin səhvi" mətni komiks şəklində təqdim olunur. A tapşırığı üzrə müzakirənin aparılması şagirdlərin qısa cümləleri

asanlıqla oxumasına kömək edir. Şəkilaltı cümlələr müxtəlif şagirdlər tərəfindən növbə ilə oxunur.

**Müəllimin nəzərinə!** Mətn üzrə rollu oxu təşkil etmək olar. Əli, Müəllim, Saat rolları üçün şagirdlər seçilir. Hər kəs mətndə öz roluna aid hissələri oxuyur.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).** Tapşırıqda "Əlinin səhvi" mətninin əsas məqamlarını əks etdirən cümlələr ardıcıllığı pozularaq verilmişdir. Şagirdlərə üzərində *a, b, c, ç* yazılmış kartlar paylanır. Müəllim hansı hadisənin 1-ci baş verdiyini soruşur. Şagirdlər tapşırıqda birinci hadisəni göstərən hərfə uyğun kartı nümayiş etdirirlər. Doğru cavablar: *1 – c, 2 – a, 3 – d, 4 – b.*

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq bir neçə fəaliyyəti özündə birləşdirir:

• mətnin süjet xəttinə uyğun illüstrasiyaların ardıcıllığını müəyyənləşdirmək;

• cümlənin məzmununa uyğun açar sözləri bərpa etmək.

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər "Xx" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

3.1.5 **"Sözlərin yazılışı" rubrikası.** Rubrikada verilən sözlərin düzgün yazılışı lövhədə şagirdlərə izah edilir. Şagirdlər kəsmə hərflərlə həmin sözləri yığırlar. Daha sonra müəllim lövhədə sözləri səhv yazır. Şagirdlər sözlərdəki səhvləri tapıb düzəldirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualları dinləyib anlayır və adekvat cavab verir. | Tap. A (dərslik) |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Verilmiş cümlələri mətndəki ardıcıllığa uyğun sıralayır. | Tap. C (dərslik). Tap. A (iş dəftəri) |
| "Xx" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik, iş dəftəri) |
| Sözlərdəki orfoqrafik səhvləri düzəldir. | "Sözlərin yazılışı" rubrikası |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə dərnəkdə iştirakı zamanı çəkilmiş fotoları varsa, onları gətirmək tapşırılır.

## 3-cü dərs. Dərnəklər.
## Ad bildirən sözlər. Hüsnxət: "Cc" hərfi

• Dərslik: səh. 50 • İş dəftəri: səh. 36

### Təlim məqsədləri

• Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
• Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.1).
• Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).
• Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).
• Sözdəki orfoqramı (deyilişi və yazılışı fərqlənən hərfi) müəyyənləşdirir (st. 4.1.3).

• **Köməkçi vasitələr:** üzərində əlyazısı şəklində *oğlan, park, corab, məktəb, Tural, gül, Bakı* sözləri yazılmış kağızlar, şagirdlərin fotoları.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şagirdlərin dərsdənkənar məşğələsinə aid fotoşəkillərin nümayişi |
| 2 | **Danışma** | Şəkil üzrə söhbət |
| 3 | **Dil qaydaları** | Ad bildirən sözlər |
| 4 | **Yazı** | "Cc" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərin dərsdənkənar məşğələlərdə iştirakı zamanı çəkilmiş fotoları lövhədən asılır. Müəllim yönəldici suallarla dərsdənkənar məşğələlər haqqında şagirdlərin fikrini öyrənir:

– *Hansı dərnəyə gedirsiniz?*
– *Həftədə neçə dəfə iştirak edirsiniz?*
– *Nə üçün bu dərnəyi seçmisiniz?*

Dərnəklərdə iştirak edən şagirdlər sevimli məşğələləri haqqında məlumat verirlər.

### Danışma. Söz ehtiyatı

2.1.1 **"Söz boğçası" rubrikası.** Rubrikada verilmiş yeni sözlər şəkillərin köməyi ilə izah edilərək III bölmənin "Söz boğçası"na əlavə edilir.

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllimin yönəldici sualları ilə şagirdlər şəkillərdə gördüklərini ətraflı təsvir edirlər. Şəkillər üzrə danışarkən onların söz

ehtiyatı üzərində müşahidə aparılır. Yeni sözlərin şagirdlərin şifahi nitqində nə dərəcədə yer aldığına diqqət yetirilir.

### Dil qaydaları

**4.1.5** Şagirdlərin diqqəti A tapşırığında verilən suallardakı fərqləndirilmiş sözlərə yönəldilir:

*– Nə üçün "kim?" sualına "Ayan", "məşqçi", "Əli", "rəssam" cavablarını verdiniz?*

*– Bəs nə üçün "hara?" sualına "halqa", "lent" deyə cavab vermədiniz?*

Müəllim şagirdlərin cavablarını dinləyir və düzgün variantın üzərində dayanır.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim bu rubrikada verilmiş ad bildirən sözlər haqqında məlumatları şərh edir.

**Tapşırıq B (dərslik).** II bölmədə sual cümlələri ilə tanış olduqları üçün şagirdlər cümlələrdəki fərqləndirilmiş sözləri "kim", "nə", "hara" sözləri ilə əvəz edərək sual cümlələrinə çevirə bilərlər.

**Tapşırıq C (dərslik).** Tapşırıq dil qaydası üzrə möhkəmləndirmə məqsədi daşımaqla yanaşı, şagirdlərin çap yazısı ilə verilmiş sözləri əlyazısı ilə köçürmək bacarığını da inkişaf etdirir.

**Diferensial təlim**

**Dəstək.** Bəzi şagirdlər çap hərfləri ilə verilmiş sözləri əlyazısı şəklində yazmaqda çətinlik çəkə bilərlər. Belə olduqda müəllim çətinlik çəkən şagirdlərə həmin sözləri əlyazısı şəklində verə bilər.

**Tapşırıq A (iş dəftəri). Həyat bilgisi fənni ilə inteqrasiya.** Müəllim heyvanlar və bitkilərin də canlılar aləminə aid olduğunu vurğulayıb yalnız insan bildirən sözlərin "kim?" sualına cavab olduğunu izah etməlidir.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin yer anlayışı bildirən sözləri digərlərindən fərqləndirmək bacarığına yönəlmişdir.

### Yazı

**3.1.1** **"Hüsnxət" rubrikası.** Şagirdlər "Cc" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

**4.1.3** **"Sözlərin yazılışı" rubrikası.** Müəllim rubrikada verilən sözlərin düzgün yazılışını lövhədə şagirdlərə izah edir. Daha sonra həmin sözləri orfoqramları buraxılmış şəkildə lövhədə yazır; məsələn: [*maş...*]. Sonra soruşur:

– Bu sözü yazarkən sözün axırındakı hərf "k" olmalıdır, yoxsa "q"?

Şagirdlər buraxılmış hərfi müəyyənləşdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkli təsvir edərkən öyrəndiyi yeni sözlərdən istifadə edir. | Tap. A (dərslik) |
| Ad bildirən sözlərə uyğun olaraq "kim?", "nə?", "hara?" suallarını verir. | Tap. B, C (dərslik). Tap. A, B (iş dəftəri) |
| "Cc" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik, iş dəftəri) |
| Sözdəki orfoqramı müəyyənləşdirir. | "Sözlərin yazılışı" rubrikası |

**Növbəti dərsə hazırlıq.** Şagirdlər valideynlərindən aşağıdakı mövzulardan biri haqqında məsləhət alırlar:
- Sağlamlıq
- Təhsil
- Davranış
- Təhlükəsizlik və s.

Bu haqda valideynlərə əvvəlcədən xəbərdarlıq edilir. Yaxşı olardı ki, həmin məsləhətlər A4 ölçülü kağızlara rəngli markerlərlə, kifayət qədər iri ölçüdə yazılsın.

## 4-cü dərs. "Məktəbə get, dərs oxu!". Hüsnxət: "Çç" hərfi

- Dərslik: səh. 51- 52
- İş dəftəri: səh. 37

### Təlim məqsədləri

- Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

- **Köməkçi vasitələr:** valideynlər tərəfindən üzərində məsləhətlər yazılmış A4 kağızlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Üzərində məsləhətlər yazılmış kağızların nümayiş etdirilməsi |
| 2 | **Dinləmə-danışma** | Valideynlər tərəfindən verilmiş məsləhətlərin müzakirəsi |
| 3 | **Oxu** | "Məktəbə get, dərs oxu!" şeirinin oxusu |
| 4 | **Söz ehtiyatı** | "Söz boğçası"na aid tapşırıqlar |
| 5 | **Yazı** | "Çç" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Valideynlərin şagirdlərə verdikləri məsləhətlər (üzərində məsləhətlər yazılmış kağızlar) lövhədən asılır.

### Danışma

1.2.3 Müəllim məsləhətləri ucadan oxuyur. Müəllim və şagirdlər arasındakı dialoq təxminən aşağıdakı kimi ola bilər; məsələn:

– *Dərs zamanı diqqətli ol.*

Müəllim: – *Uşaqlar, sizcə, valideynləriniz bu məsləhəti sizə nə üçün veriblər? Bu məsləhətə əməl etsəniz, nəticələriniz necə olar?*

Şagird: – *Diqqətli olsaq, daha tez öyrənərik.*

Müəllim: – *Bəs əməl etməsəniz, nə ilə nəticələnər?*

Şagird: – *Dərsləri öyrənməkdə çətinlik çəkərik və s.*

"Əlinin səhvi" mətnində müəllimin verdiyi məsləhət ("Vaxtında yatsanız, gümrah olarsınız") xatırlanır. Səbəbi, nəticəsi müzakirə edilir.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik). Xorla oxu.** Əvvəlcə müəllim "Məktəbə get, dərs oxu!" şeirini oxuyur. Bu zaman nida cümlələrini daha yüksək intonasiya ilə səsləndirir, misraların sonunda pauza verir və bunları şagirdlərin diqqətinə çatdırır. Daha sonra oxu şagirdlərlə birlikdə xorla həyata keçirilir.

### Oxuyub-qavrama. Söz ehtiyatı

2.2.4 **Tapşırıq B (dərslik).** Bu tapşırıq (şeirdə verilməyən məsləhətləri seçmək) şagirdlərin oxuyub-qavrama bacarığının inkişafına yönəlib.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda şagirdlər məsləhət verilən cümlələri seçməklə oxuyub-qavrama bacarıqlarını nümayiş etdirirlər.

2.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlər yalnız bu bölmədə öyrəndikləri sözləri seçirlər ki, bununla da onların diqqəti yeni sözlərə cəlb olunur. Yeni sözlərin iştirakı ilə cümlələr qurmaqla həmin sözlərin mənalarını anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər şəkillərin məzmununa uyğun açar sözləri (Ayan, lent, günəş, rəsm) tapıb yazırlar.

**Tapşırıq C (iş dəftəri).** Tapdıqları sözlərin cümlələrdəki yerini müəyyənləşdirməklə yeni sözlərin mənalarını anladıqlarını, nitqlərində istifadə etdiklərini nümayiş etdirirlər.

2.1.2 **Tapşırıq Ç (dərslik).** Tapşırıq yeni sözlərin cümlədəki yerini müəyyənləşdirmək, eyni zamanda cümlələri hüsnxət normalarına uyğun yazmaq bacarığını inkişaf etdirmək üçün imkan yaradır.

2.2.3 **Tapşırıq D (dərslik). Qruplarla iş.** Sinif iki qrupa ayrılır. 1-ci qrupa verilmiş cümləları oxumaq, digər qrupa cümlələrə uyğun şəkilləri göstərmək tapşırılır. Bunun üçün şagirdlər üzərində *a, b, c, ç, d, e, ə, f* yazılmış kartlardan istifadə edirlər. Sonra qruplar yerini dəyişməsi ilə fəaliyyət təkrar olunur. Doğru cavablar: *1 – ə, 2 – a, 3 – b, 4 – ç, 5 – c, 6 – d, 7 – e, 8 – f.*

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər "Çç" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dialoq zamanı mövzuya uyğun fikir yürüdür. | Məsləhətlərin müzakirəsi |
| Oxunan mətni kitabda izləyir. | Tap. A (dərslik) |
| Mətndə ifadə olunan fikirləri müəyyənləşdirir. | Tap. B (dərslik) |
| Yeni sözləri cümlədə işlədir. | Tap. C, Ç (dərslik). Tap. B (iş dəftəri) |
| Cümlələrlə illüstrasiyaların uyğunluğunu müəyyənləşdirir. | Tap. D (dərslik) |
| "Çç" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik, iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə növbəti dərsdə sözləri S.Zərdablıya, musiqisi O.Zülfüqarova aid olan "İdman" mahnısını səsləndirməsi tövsiyə olunur.

fəsil 2 İDMAN

## 1-ci dərs. "İdman dərsi". Hüsnxət: "Qq" hərfi

• Dərslik: səh. 53 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 1.2.1).
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Köməkçi vasitələr:** musiqi səsləndirmək üçün vasitələr (kompüter, telefon və s.), idman haqqında kitabçalar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "İdman" haqqında mahnı |
| 2 | **Danışma** | İdman növləri haqqında məlumat kitabçaları |
| 3 | **Oxu** | "İdman dərsi" şeirinin oxusu |
| 4 | **Söz ehtiyatı** | "Söz boğçası" üzrə iş |
| 5 | **Yazı** | "Qq" hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim kompüter, telefon və s. vasitələrdən istifadə edərək idmana aid mahnı səsləndirir. Şagirdlər də xorla mahnını ifa edirlər.

**İdman**

Kim sevirsə idmanı,
Bir, iki, üç, dörd.
Poladdan olar canı,
Bir, iki, üç, dörd.

İdmanı sevirik biz,
Bir, iki, üç, dörd.
Bərkiyir bədənimiz,
Bir, iki, üç, dörd.

*Söz: S.Zərdablı*
*Musiqi: O.Zülfüqarov*

Şeirin mövzu və məzmunu ilə bağlı sualların köməyi ilə şagirdlərin diqqəti "İdman" mövzusuna yönəldilir.

### Danışma. Söz ehtiyatı

1.2.1 **Tapşırıq A (dərslik).** Tapşırıqda verilən yönəldici sualların köməyi ilə şagirdlər vizual məlumatları şərh edirlər. Bu zaman müəllim şagirdlərin hansı idman növü ilə maraqlandıqlarını yazılı qeyd edir. Danışma prosesində müəllimin köməyi ilə "fərdi idman növü", "komanda idman növü" ifadələri açıqlanır. Həmin qeydlər bu dərsdə qrup işinin təşkilində müəllimə kömək edəcək. Tapşırıqdakı 3-cü sual şagirdlərdən mövzu üzrə danışarkən fikir yürütmək bacarığı tələb edir.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər futbol oyununu təsvir edən şəklə diqqətlə baxır və bu oyuna aid açar sözləri (*komanda, meydança, 11 oyunçu, futbolçu*) seçirlər. Daha bir neçə açar söz (*qapı, qapıçı, hakim, top* və s.) isə özləri əlavə edirlər.

Daha sonra şagirdlər futbol oyununa aid seçdikləri açar sözlərin iştirak etdiyi və oyunun qaydaları haqqında məlumat verən cümlələri müəyyənləşdirirlər. Bununla da əsas fikri ifadə edərkən açar sözlərin rolunu anlayırlar.

**Müəllimin nəzərinə!** *Tapşırıq üzrə fəaliyyəti genişləndirmək üçün bir idman növünü təsvir edən sözlər deyib bu sözlərin hansı idman növünə aid olmasını soruşmaq olar; məsələn: komanda, top, səbət, əl, ucaboylu oyunçular, topu səbətə salmaq. Şagirdlər həmin idman növünün basketbol olduğunu təxmin edirlər.*

***Qruplarla iş.*** **Fiziki tərbiyə fənni ilə inteqrasiya.** *Müəllim dərsin əvvəlində şagirdlərin maraqlandığı idman növləri haqqında apardığı qeydlərə əsaslanaraq onları qruplaşdırır. Eyni idman növü ilə maraqlanan şagirdlər bir qrupda iştirak edə bilərlər. (Qruplar idman növlərinin adları ilə adlandırıla bilər.) Hər qrup özünün məşğul olduğu və yaxud maraqlandığı idman növü haqqında məlumat verən sözlər deyir və bu sözlərin iştirakı ilə həmin idman növünün qaydaları haqqında bir neçə cümlə qurur.*

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** "İdman dərsi" şeiri əvvəlcə müəllim tərəfindən oxunur. Müəllim mimika və jestlərin, səs çalarlarının köməyi ilə obrazların hiss və duyğularını nəzərə çatdırır. Daha sonra şagirdlər bir-birini izləməklə şeiri oxuyurlar. "Bəhanə" sözünün mənası izah edilərək III bölmənin "Söz boğçası"na artırılır.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).** Bu tapşırıq vasitəsilə şagirdlər hərəkətin nəticəsini (*nəticədə nə baş verə bilər?*) təxmin etmək bacarığını nümayiş etdirirlər.

### Yazı

**3.1.1** **“Hüsnxət” rubrikası.** Şagirdlər "Qq" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Şəkillərə uyğun açar sözləri müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Səbəb-nəticə əlaqəli cümlələrin hissələrini uyğunlaşdırır. | Tap. C (dərslik) |
| “Qq” hərfini hüsnxət normalarına uyğun yazır. | “Hüsnxət” rubrikası (dərslik, iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə şagirdlərə müxtəlif cizgi filmlərindən fraqmentlər, şəkillər nümayiş etdirilməsi üçün müəyyən hazırlıqlar etmək tövsiyə olunur.

## 2-ci dərs. “Ayı və dostları. Hüsnxət: “Ff” hərfi

• Dərslik: səh. 54-55 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

• Sözləri hecalarla oxuyur (st. 2.2.1).
• Cümlədəki sözü yaxınmənalı analoqu ilə əvəz edir (st. 2.1.3).
• Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
• Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
• Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Köməkçi vasitələr:** cizgi filminin nümayişi üçün vasitələr (kompüter, mobil telefon, planşet, notbuk), müxtəlif cizgi filmləri, nağıl kitabları.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cizgi filmi, nağıl qəhrəmanları haqqında kadrlar |
| 2 | **Danışma** | Sevimli obrazlar, onların xarakterləri haqqında söhbət |
| 3 | **Oxu** | “Ayı və dostları” mətninin oxusu |
| 4 | **Söz ehtiyatı. Filoloji anlayışların izahı** | “Söz boğçası” üzrə iş. *Obraz, baş qəhrəman, xarakter* anlayışlarının mənimsədilməsi |
| 5 | **Yazı** | “Ff” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mümkün vasitələrdən istifadə edərək bir neçə nağıl qəhrəmanı haqqında kadrlar və ya şəkillər nümayiş etdirir. Öz sevimli qəhrəmanlarını görmək şagirdlərdə gözəl əhvali-ruhiyyə yarada bilər.

Şagirdlərlə onların sevimli obrazları haqqında söhbət aparılır. Onlar bu obrazları nə üçün sevdiklərini izah edirlər.

### Oxu. Söz ehtiyatı

**2.2.1** **Tapşırıq A (dərslik).** “Ayı və dostları” mətni əvvəlcə müəllim tərəfindən oxunur. Müəllim mimika və jestlərin, səs çalarlarının köməyi ilə obrazların hiss və duyğularını nəzərə çatdırır. Daha sonra şagirdlər bir-birini izləməklə mətni növbə ilə oxuyurlar.

**2.1.3** Müəllim *cəld, çevik, kral, dərs olmaq* sözlərinin mənasını yaxınmənalı sözlərin vasitəsilə izah edir; məsələn: *cəld, çevik – tez, sürətli; kral – padşah, şah; dərs olmaq – nəticə çıxarmaq, başa düşmək*. Yeni sözlər III bölmənin “Söz boğçası”na əlavə edilir.

### Oxuyub-qavrama

**2.2.4** **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlər müxtəlif obrazların təsviri içərisindən məhz "Ayı və dostları" mətninə aid olan obrazları müəyyənləşdirirlər. Bununla da müəllim şagirdlərin diqqətini "obraz” anlayışına yönəldir.

**“Bunları bilməliyik” rubrikası.** "Obraz”, “baş qəhrəman”, “xarakter" filoloji anlayışları “Ayı və dostları” mətninin nümunəsində izah edilir. Şagirdlərin baş qəhrəmanı digər obrazlardan fərqləndirmələrinə xüsusi diqqət yetirilir.
Alleqorik əsərlərdə əsas fikir şəxsləndirilmiş obrazlar (heyvanlar, quşlar, cansız əşyalar, bitkilər və s.)

vasitəsilə çatdırılır. Bu zaman həmin obrazlar kim? sualına cavab verir və sözün ilk hərfi böyük yazılır.

**Müəllimin nəzərinə!** Şagirdlərin oxuyub-qavrama bacarığının inkişaf etdirilməsi üçün onlara bir sıra filoloji anlayışların mənimsədilməsi vacibdir. Bu, mətnin təhlili zamanı müəllimlə şagird arasında ünsiyyəti asanlaşdırır və mətnin qavranılmasına kömək edir.

**Tapşırıq C (dərslik).** Şagirdlər müxtəlif obrazlara aid hərəkətləri müəyyənləşdirməklə mətni oxuyub-anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməzdən əvvəl müəllim şagirdlərə *müdrik (ağıllı), xeyirxah (kömək edən)* sözlərinin izahını verir. Şagirdlər "Ayı və dostları" mətnindəki obrazlar, onların xarakterləri haqqında öyrəndikləri məlumatları təhlil etməklə möhkəmləndirirlər.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq müxtəlif oxu materialları əsasında baş qəhrəmanı digər obrazlardan fərqləndirmək bacarığını inkişaf etdirir.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətndəki hadisələrin ardıcıllığını müəyyən etməklə mətni mənimsədiklərini nümayiş etdirirlər.

### Yazı

3.1.1 **“Hüsnxət” rubrikası.** Şagirdlər "Ff" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. A (dərslik) |
| Əsərdəki obrazları sadə formada təhlil edir. | Tap. B, C (dərslik). Tap. A (iş dəftəri) |
| Baş qəhrəmanları digərlərindən fərqləndirir. | Tap. B (iş dəftəri) |
| Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir. | Tap. Ç (dərslik) |
| “Ff” hərfini hüsnxət normalarına uyğun yazır. | “Hüsnxət” rubrikası (dərslik, iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim şagirdlərə valideynlərin köməyi ilə qaçış yarışının qaydaları haqqında bir neçə məlumat toplamağı və bu yarışla bağlı fraqmentlərə baxmağı tapşırır.

## 3-cü dərs. “Yarış”

- Dərslik: səh. 56
- İş dəftəri: səh. 40

### Təlim məqsədləri

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Mətndən tanış olmadığı sözləri seçir (st. 2.1.1).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).

- **Köməkçi vasitələr:** şəkillərin nümayişi üçün vasitələr (proyektor, kompüter, mobil telefon, planşet, notbuk), üzərində müxtəlif heyvan şəkilləri olan kartlar.
- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Beyin həmləsi |
| 2 | **Danışma** | Yarışlar haqqında müzakirə |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Yarış” mətninin oxusu. “Söz boğçası” üzrə iş |
| 4 | **Yazı** | Çap hərfləri şəklində olan cümlələrin əlyazısı ilə köçürülməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Beyin həmləsi.** Lövhədə tısbağa və dovşanın şəkilləri nümayiş etdirilir. Şagirdlər həmin heyvanlar haqqında ilk xatırladıqları fikirləri söyləyirlər. *“Sizcə, qaçış yarışında tısbağa, yoxsa dovşan qalib gələr? Bəs tısbağa qalib gəlmək üçün nə edə bilər?”* sualı ilə beyin həmləsi edilir.

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Yönəldici suallardan istifadə edərək təsvir edilən yarış növləri haqqında müzakirələr aparılır. Müzakirə zamanı şagirdlər qaçış yarışı haqqında topladıqları məlumatlardan istifadə edirlər. Məqsədli olaraq yarışlarda qaydalara riayət etməyin vacibliyi ön plana çəkilir. Ədalətli olmaq, düzgün oynamaq, cığallıq etməmək kimi fikirlər müzakirə edilir.

### Oxu. Söz ehtiyatı

**2.2.1** **Tapşırıq B (dərslik).** "Yarış" mətni əvvəlcə müəllim tərəfindən oxunur. Daha sonra şagirdlər bir-birini izləməklə növbə ilə mətni oxuyurlar. Şagirdlər oxu zamanı rast gəldikləri obrazların adlarını dəftərlərində qeyd edirlər. Bu, şagirdlərdə oxuyarkən qeyd götürmək bacarığının formalaşmasına xidmət edir.

**2.1.1** **"Söz boğçası" rubrikası.** Müəllim rubrikada verilmiş sözlərin (yarış, lovğa, arxayın, finiş xətti) təxmini mənasını soruşur. Daha sonra sözlərin dəqiq mənasını izah edir. Şagirdlər həmin sözləri cümlədə işlətməklə mənasını anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

**2.2.5** **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş cümlələri oxuduqdan sonra hadisələrin ardıcıllığını müəyyənləşdirirlər.

**Tapşırıq A (iş dəftəri). Təsviri incəsənət fənni ilə inteqrasiya.** Şagirdlər mətndə iştirak edən obrazları seçib şəkli rəngləyirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndəki əsas hadisələrin doğru, yoxsa yanlış olduğunu müəyyənləşdirməklə mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**2.2.4** **Tapşırıq Ç (dərslik).** "Necə oldu ki, Tısbağa Dovşana qalib gəldi?" sualı verilir. Tısbağanın Dovşana qalib gəlmə səbəbləri müzakirə edilir. Arxayınçılığın yaxşı xüsusiyyət olmadığı vurğulanır. Dovşanın özünə həddən artıq güvənməsi, yəni lovğalığı yarışda məğlubiyyətinə səbəb olur. Bu müzakirədə şagirdlər Tısbağa və Dovşanın xarakterləri haqqında fikirlər söyləyirlər.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda istifadə olunan "səhlənkar" sözü əvvəlcədən izah edilməlidir ki, şagirdlər bu sözdən asanlıqla istifadə edə bilsinlər. Müəllim "səhlənkar" sözünü "məsuliyyətsiz", "arxayın" kimi yaxınmənalı sözlərlə izah edə bilər.

**2.2.3** **Tapşırıq Ç (iş dəftəri).** "Yarış" mətninin məzmunundan çıxış edərək mətnə yeni başlıq verirlər. Bu tapşırıqla şagirdlərdə məzmunun təqdim edilməsində mətnin başlığının rolunu müəyyənləşdirə bilmək kimi vacib bir bacarıq inkişaf etdirilir.

### Yazı

**3.1.5** **"Sözlərin yazılışı" rubrikası.** Müəllim bu rubrikada verilən sözlərin düzgün yazılışını lövhədə şagirdlərə izah edir. "Lovğa" və "dovşan" sözlərinin hərf tərkibini şagirdlərin nəzərinə çatdırır. Sonra həmin sözləri orfoepiya normalarına uyğun tələffüz edir. Şagirdlər isə bu sözləri düzgün yazılışa uyğun yazırlar. Daha sonra şagirdlər "Sözlərin yazılışı" rubrikasında verilmiş sözlərə əsasən öz yazılarını yoxlayırlar.

**Müəllimin nəzərinə!** Orfoqrafiya üzrə fəaliyyətin iş dəftərində təqdim olunan A, B, C, Ç tapşırıqlarından öncə yerinə yetirilməsi tövsiyə olunur.

**4.1.6** **Tapşırıq D (iş dəftəri).** Şagirdlərin ad bildirən sözlərlə bağlı biliklərini möhkəmləndirmək məqsədi daşıyır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir. | Tap. C (dərslik) |
| Obrazları və onların xarakterini müəyyənləşdirir. | Tap. Ç (dərslik).<br>Tap. B, C (iş dəftəri) |
| Məzmundan çıxış edərək mətni adlandırır. | Tap. Ç (iş dəftəri) |
| Ad bildirən sözləri kim? nə? hara? sualları üzrə qruplaşdırır. | Tap. D (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müxtəlif heyvan şəkillərini nümayiş etdirmək üçün müəllimə müəyyən hazırlıq görmək tövsiyə olunur.

## 4-cü dərs. "Tülkü və Qarğa". Hüsnxət: "Zz" hərfi

- Dərslik: səh. 57
- İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

- Verilmiş əlamət, say və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

- **Köməkçi vasitələr:** üzərində heyvan şəkilləri olan kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Heyvanlara aid hərəkət bildirən sözlərin söylənməsi |
| 2 | **Dil qaydaları** | Hərəkət bildirən sözlərin mənimsədilməsi |
| 3 | **Danışma** | “Tülkü və Qarğa” şəkil kompozisiyası üzrə nəqletmə |
| 4 | **Dil qaydalar** | Hərəkət bildirən sözlərin cümlədə işlədilməsi |
| 4 | **Yazı** | “Zz” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərə üzərində müxtəlif heyvan şəkilləri olan kartlar paylanır. Onlar bir-bir kartlarını nümayiş etdirir, digərləri həmin heyvana uyğun hərəkət bildirən söz deyirlər; məsələn: *it – hürür, tutur, qaçır; quş – uçur, cikkildəyir.*

### Dil qaydaları

4.1.5 **Tapşırıq A (dərslik).** Bu tapşırıqda “Yarış” mətnindəki obrazlara aid hərəkət bildirən sözləri müəyyən etmək lazımdır. Müəllim *“nə edir?”* sual əvəzliyindən istifadə edərək diqqəti hərəkət bildirən sözlərə yönəldir. Şagirdlər hərəkətlərin hansı obrazlara aid olduğunu müəyyənləşdirirlər.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikada hərəkət bildirən sözlər haqqında məlumatı şərh edir.

**Tapşırıq B (dərslik).** Şagirdlər bu tapşırığı yerinə yetirməklə hərəkət bildirən sözləri fərqləndirdiklərini və nitqlərində istifadə etdiklərini nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər:

• şəkillərin məzmunundan çıxış edərək peşə-sənət növlərini fərqləndirirlər;

• həmin peşəyə məxsus hərəkət bildirən sözləri müəyyənləşdirirlər.

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik).** **Qruplarla iş.** Şagirdlər qruplara ayrılaraq “Qarğa və Tülkü” şəkil kompozisiyası üzrə baş verən hadisələri aşağıdakı mərhələlərlə müəyyən etməyə çalışırlar:

- Hadisələrin baş verdiyi məkanı təsvir edirlər.
- Şəkildəki obrazları adlandırıb təsvir edirlər.
- Şəkillərə aid açar sözləri müəyyənləşdirirlər.
- Açar sözləri cümlədə işlədirlər.
- Hər bir şəkli ardıcıllıqla təsvir edirlər.
- Obrazları xarakterizə edirlər.
- Söylədikləri mətni adlandırırlar.

Qruplar hazırladıqları mətni nəql edirlər. Hər bir qrup üzvü fəaliyyətə cəlb olunmalıdır. Bunun üçün qrup üzvləri hazırladıqları mətni növbə ilə, bir-birini izləməklə davam etdirə bilərlər.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər fərdi şəkildə “Qarğa və Tülkü” nağılının qısa məzmununu əks etdirən cümlələrdə hərəkət bildirən sözləri bərpa edirlər. Bununla da həm qrup halında qurduqları nağılın qısa məzmununu təkrar edir, həm də dil qaydaları (hərəkət bildirən sözlər) haqqında aldıqları bilikləri möhkəmləndirirlər.

### Yazı

3.1.1 **“Hüsnxət” rubrikası.** "Zz" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hərəkət bildirən sözləri fərqləndirir. | Tap. A, B (dərslik).<br>Tap. A, B (iş dəftəri) |
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. C (dərslik) |
| “Zz” hərfini hüsnxət normalarına uyğun yazır. | “Hüsnxət” rubrikası (dərslik, iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə şagirdlərə böyüdücü əşyalar (optik gözlük, lupa, mikroskop) nümayiş etdirilməsi üçün müəyyən hazırlıqlar etmək tövsiyə olunur.

fəsil 3 GİGİYENA QAYDALARI

## 1-ci dərs. “Şikayət”

• Dərslik: səh. 58 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

• Şəklə baxaraq dinlədiyi mətni genişləndirir və şərh edir (st. 1.1.1).
• Sözün ifadə etdiyi şəkli müəyyənləşdirir (st. 2.1.1).
• Sözləri hecalarla oxuyur (st. 2.2.1).
• Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
• Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).

• **Köməkçi vasitələr:** şəkillərin nümayişi üçün vasitələr (proyektor, kompüter, mobil telefon, planşet, notbuk).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Lupa və ya gözlük kimi əşyalar ətrafında söhbət |
| 2 | **Dinləmə-danışma** | Dinləmə mətni |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxu** | “Şikayət” mətninin oxusu |
| 5 | **Oxuyub-qavrama** | Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| 6 | **Danışma** | Hadisələrin davamının təxmin edilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinfə gətirdiyi optik gözlük və ya lupanı nümayiş etdirir. Böyüdücü əşyalardan istifadənin səbəbi izah edilir. Yaxşı olardı ki, şagirdlər lupa ilə bir neçə əşyaya baxsınlar. Şagirdlərin ilkin fikirləri müzakirə olunur.

### Dinləmə və danışma

1.1.1 Aşağıdakı dinləmə mətni səsləndirilir:

*“Bu gün məktəbin həkimi Ayangilin sinfinə gəlmişdi. O, şagirdlərlə təmizlik qaydaları haqqında söhbət edirdi. Özü ilə maraqlı bir cihaz gətirmişdi. Bu cihazla mikrobları asanlıqla görmək olurdu. Həkim dedi ki, bu, mikroskopdur. Bu cihazın vasitəsilə gözlə görmədiyimiz çox xırda şeyləri, elacə də mikrobları görmək mümkündür. Həkim onlara məsləhət verdi ki, əllərinizi tez-tez yumalısınız. Yoxsa mikroblar müxtəlif xəstəliklər yaradar”.*

Müəllim oxuduğu mətn haqqında faktoloji suallar verir və şagirdlərin cavabları müzakirə edilir.

– *Nə üçün məktəbin həkimi Ayangilin sinfinə gəlmişdi?*
– *Hansı təmizlik qaydalarını tanıyırsınız?*
– *Həkimin gətirdiyi cihaz necə adlanır?*
– *Mikroskop nə üçün istifadə edilir?*
– *Mikroblar nəyə səbəb olur?*
– *Bundan necə qorunmaq olar?*

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Şəkil üzrə iş konkret suallar ətrafında aparılır. Şagirdlər dinləmə mətnində eşitdikləri mikroskopun təsvirini görürlər. Şəkillər üzrə danışarkən söz ehtiyatı üzərində müşahidə aparılır. *Mikrob, cihaz* və *mikroskop* sözlərinin şagirdlərin şifahi nitqində nə dərəcədə yer aldığına diqqət yetirilir. Yeni sözlər III bölmənin “Söz boğçası”na əlavə edilir. Daha sonra şagirdlər rabitəli nitq quraraq şəkli bütövlükdə təsvir edirlər.

**“Sözlərin yazılışı” rubrikası.** Müəllim rubrikada verilən ”mikrob” və “mikroskop” sözlərinin düzgün yazılışını lövhədə şagirdlərə izah edir. Daha sonra həmin sözləri orfoepiya normalarına uyğun tələffüz edir. Şagirdlər isə bu sözləri düzgün yazılışa uyğun yazırlar. Daha sonra şagirdlər “Sözlərin yazılışı” rubrikasında verilmiş sözlərə əsasən öz yazılarını yoxlayırlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər *mikrob, mikroskop* və *həkim* sözlərini uyğun yerlərə yazır və bu anlayışları izah edən cümlələri seçirlər. Bununla da həmin sözləri nitqlərində istifadə etdiklərini nümayiş etdirirlər.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik). Proqnozlaşdırma.** “Şikayət” mətnini oxumazdan əvvəl müəllim şagirdlərin diqqətini mətnə çəkilmiş illüstrasiyalara yönəldir. Şagirdlər illüstrasiyalarda əks olunan məlumatları müzakirə edirlər. Daha sonra mətnin aşağıdakı hissəsi oxunur:

*Anarın tez-tez dişi, qarnı ağrıyırdı. Bir gün yuxu gördü. Dişləri ona deyirdi...*

– Sizcə, dişləri ona nə deyə bilər?

*Əlləri deyirdi:*

– Sizcə, əlləri nə söyləyə bilər?

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərdə hərəkətin səbəbini (*niyə belə oldu?*)

təxmin etmək bacarığının inkişafına yönəlib. Eyni zamanda çap hərfləri ilə verilmiş cümlələri əlyazısı şəklində köçürürlər. Tapşırığı tez yerinə yetirən şagirdlər bir-birinin tapşırığını yoxlayırlar. Bu üsulla şagirdlərdə özünəgüvənmə, diqqətli olmaq kimi vacib xüsusiyyətlər inkişaf etdirilir.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda açması dişlər və diş fırçası olan və illüstrasiyalarla təsvir edilən tapmacalar verilmişdir. Şagirdlər açar sözləri müəyyənləşdirərək tapmacaların açmasını yazırlar. Tapşırıq mövzunun daha dərindən mənimsədilməsinə yönəldilib.

### Danışma

1.2.2 **Qruplarla iş.** Şagirdlər qruplara ayrılırlar. “Şikayət” mətnini davam etdirmək üçün onlara müxtəlif situasiyalar təqdim edilir.

✓ Əli yuxudan oyanır və cəld hamam otağına qaçır.

✓ Əli yuxusunu anasına danışır.

✓ Əli yuxusuna əhəmiyyət vermir. Həmişəki kimi gigiyena qaydalarına riayət etmir.

Qruplar situasiyalardan birini seçir və mətnin sonunu həmin situasiyaya uyğun davam etdirirlər. Müəllim danışma prosesində şagirdlərin nitqlərində yeni sözlərin istifadəsinə diqqət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəklə baxaraq dinlədiyi mətni genişləndirir və şərh edir. | Dinləmə mətni<br>Tap. A (dərslik) |
| Yeni öyrəndiyi sözləri nitqində istifadə edir. | Tap. A (iş dəftəri) |
| Sözləri hecalarla oxuyur. | Tap. B (dərslik) |
| Hadisələrin səbəbini müəyyən edir. | Tap. C (dərslik) |
| Mətni təxəyyülünə uyğun davam etdirir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə şagirdlərə mövzuya aid şəkillərin (çirkli dişlər, səliqəsiz saçlar, çirkli qablar, daraq, diş məcunu, qab yumaq üçün vasitə) nümayiş etdirilməsi üçün müəyyən hazırlıqlar etmək tövsiyə olunur.

## 2-ci dərs. Əlamət bildirən sözlər. Hüsnxət: “Jj” hərfi

• Dərslik: səh. 59 • İş dəftəri: səh.43

### Təlim məqsədləri

- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
- Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
- Verilmiş əlamət, say və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).
- Böyük və kiçik hərfləri hüsnxət normalarına uyğun yazır və bitişdirir (st. 3.1.1).

• **Köməkçi vasitələr:** şəkillərin nümayişi üçün vasitələr (proyektor, kompüter, mobil telefon, planşet, notbuk).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkillər üzrə söhbət |
| 2 | **Oxuyub-qavrama** | Şəkilləri təsvir edən cümlələrin müəyyənləşdirilməsi |
| 3 | **Dil qaydaları** | Əlamət bildirən sözlər |
| 4 | **Yazı** | “Jj” hərfinin hüsnxət normalarına uyğun yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhənin bir hissəsində çirkli dişlər, səliqəsiz saçlar, çirkli qablar, digər hissəsində daraq, diş məcunu, qab yumaq üçün vasitənin şəklini nümayiş etdirir. Şagirdlər lövhədəki şəkillərin məntiqi uyğunluğunu tapmağa çalışırlar.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Sinif iki qrupa ayrılır. 1-ci qrupa verilmiş cümlələri oxumaq, digər qrupa cümlələrə uyğun şəkilləri göstərmək tapşırılır. Bunun üçün şagirdlər üzərində 1, 2, 3, 4, 5, 6 yazılmış kartlardan istifadə edirlər. Sonra qruplar yerini dəyişməklə fəaliyyət təkrar olunur. Doğru cavablar: *1 – ç, 2 – b, 3 – e, 4 – c, 5 – d, 6 – a.*

Şagirdlər şəkillərin məzmununa uyğun olaraq gigiyena qaydalarını müəyyən edirlər. Bu zaman

mütləq nə üçün belə düşündüklərini izah edir, bu gigiyena qaydalarına əməl edilmədiyi təqdirdə nə baş verəcəyini təxmin edirlər.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər səbəb-nəticə əlaqəli cümlələri uyğunlaşdırmaqla gigiyena qaydaları haqqında məlumatları mənimsədiklərini nümayiş etdirirlər.

### Danışma

1.2.3 **Rollu oyun.** III fəslin 1-ci və 2-ci dərslərində gigiyena qaydaları haqqında məlumatlandırılan şagirdlər həkim və xəstə rolunda çıxış edirlər. Bu dialoqda aşağıdakı şərtlərə əməl edilməlidir:

- yeni sözləri nitqlərində istifadə etməli;
- nitq etiketlərinə diqqət etməli;
- gigiyena qaydalarına aid məsləhətlərin düzgünlüyünə fikir verməli.

Şərtlər öncədən izah edilir (onları lövhədə yazmaq tövsiyə olunur).

Rollu oyunda iştirak etməyən şagirdlər dialoqu diqqətlə dinləyirlər. Oyunun sonunda müzakirə edərək yoldaşlarına məsləhət verirlər. Rollu oyun bir neçə cütlüklə aparıla bilər.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (dərslik).** Şagirdlər şəkillərin məzmunundan çıxış edərək onları təsvir edir, nöqtələrin yerinə əlamət bildirən sözlər artırırlar. Tapşırıq yerinə yetirilərkən *necə? nə cür? hansı?* suallarından istifadə etməklə şagirdlərin diqqəti əlamət bildirən sözlərə yönəldilir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada əlamət bildirən sözlər haqqında məlumatı şərh edir.

**Tapşırıq B, C (dərslik). Yazı ilə inteqrasiya.** Bu tapşırıqlar şagirdlərin dil qaydaları üzrə yeni biliklərini möhkəmləndirməyə xidmət edir.

**Tapşırıq B (iş dəftəri). Təsviri incəsənət fənni ilə inteqrasiya.** Əlamət bildirən sözlərə uyğun çəkilən rəsm həm də yaradıcılıq bacarığını inkişaf etdirir. Şagirdlər əlamət bildirən sözlərin təsvir üçün istifadə edildiyini anlayırlar. Çəkdikləri rəsmin mövzusundan çıxış edərək şəkli adlandırırlar (məsələn: "Bahar gəlir").

### Yazı

3.1.1 **"Hüsnxət" rubrikası.** Şagirdlər "Jj" hərfinin konfiqurasiyasını və onun iştirak etdiyi sözləri hüsnxət normalarına uyğun yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlələrə aid olan illüstrasiyaları müəyyən edir. | Tap. A (dərslik) |
| Əlamət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyənləşdirir. | Tap. B, C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Dialoq zamanı mövzuya uyğun fikir yürüdür. | MV-də fəaliyyət |
| "Jj" hərfini hüsnxət normalarına uyğun yazır. | "Hüsnxət" rubrikası (dərslik, iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə üzərində *yuyunmaq, daranmaq, dırnaqları tutmaq, təmiz su, sabun, diş fırçası, diş məcunu, çirkli, yuyunmamaq, daranmamaq, mikrob, xəstəlik* yazılmış və müxtəlif meyvə şəkilləri olan kartlar hazırlamaq tövsiyə olunur.

## 3-cü dərs. "Təmizlik"

- Dərslik: səh. 60
- İş dəftəri: səh. 44

### Təlim məqsədləri

- Sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur (st. 2.2.1).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir (st. 2.1.1).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür (st. 3.1.1).

- **Köməkçi vasitələr:** şəkillərin nümayişi üçün vasitələr (proyektor, kompüter, mobil telefon, planşet, notbuk), müxtəlif meyvələrin təsviri olan kartlar, açar sözlər yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şaxələndirmə |
| 2 | **Oxu** | "Təmizlik" şeirinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazların müqayisəsi |
| 4 | **Söz ehtiyatı** | Əlamət bildirən sözlərdən istifadə etməklə sözün izah edilməsi |
| 5 | **Yazı** | Çap hərflərlə yazılmış cümlələrin əlyazısı şəklində köçürülməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Şaxələndirmə.** Müəllim lövhədə *təmizlik* və *pintilik* sözlərini yazır.

Üzərində *yuyunmaq, daranmaq, dırnaqları tutmaq, təmiz su, sabun, diş fırçası, diş məcunu, çirkli, yuyunmamaq, daranmamaq, mikrob, xəstəlik* sözləri yazılmış kartları masanın üzərinə düzür. Şagirdlər bu kartlardan birini seçir, üzərində yazılmış sözü oxuyur və *təmizlik*, yaxud *pintilik* sözünün ətrafına yapışdırır.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu.** Əvvəlcə müəllim şeiri ifadəli oxuyur, şagirdlər isə kitabı izləyirlər. Daha sonra qarşılıqlı oxu həyata keçirilir. Şagirdlər iki qrupa ayrılırlar: şeirin birinci misrasını bir qrup, digər misrasını isə ikinci qrup qarşılıqlı şəkildə oxuyur; məsələn:

I qrup: *Səhər durunca*
II qrup: *Əlimdə fırça,*
I qrup: *Yudum dişimi,*
II qrup: *Bildim işimi.*

"Oxu" təliminin bu növü şagirdləri oxu prosesində daha diqqətli olmağa, bir-birini izləməyə sövq edir. Oxudan sonra şeirdəki obrazı əks etdirən illüstrasiyaları seçir (B, Ç), seçimlərinin səbəbini izah edirlər.

2.2.4 **Tapşırıq B (dərslik).** Müəllim lövhədə "Təmizlik" şeiri ilə "Şikayət" mətninin qəhrəmanlarının təsvirini nümayiş etdirir. Şagirdlər açar sözlərdən istifadə edərək obrazları müqayisə edirlər.

**Tapşırıq A (iş dəftəri).** Dərslikdə açar sözlərdən istifadə edərək obrazları kollektiv şəkildə müqayisə edən şagirdlər iş dəftərində eynitipli tapşırığı fərdi şəkildə yerinə yetirirlər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (dərslik). Anlayışın çıxarılması. Oyun.** Üzərində meyvə şəkilləri olan kartlar şagirdlərə paylanır. Lakin kartlar gizli saxlanılmalıdır ki, onu görməsinlər. Hər bir şagird kartda təsvir olunmuş meyvənin əlamətlərini söyləyir, digərləri isə onu tapır. Bu tapşırıqla əlamət bildirən sözün hansı varlığa aid olduğunu müəyyənləşdirməklə yanaşı, sözün izahını vermək bacarığı da formalaşdırılır.

2.1.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq fərdi şəkildə yerinə yetirilir. Şagirdlər bu fəsildə tanış olduqları yeni sözləri onların izahı ilə uyğunlaşdırırlar.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər gizlənmiş sözləri tapır, cümlələrdəki uyğun boşluğa yazırlar. Beləliklə, bu sözlərin mənalarını anladıqlarını nümayiş etdirirlər.

### Yazı

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq fərdi şəkildə yerinə yetirilərkən şagirdlərin əlamət bildirən sözləri necə fərqləndirmələri və hüsnxət normalarına uyğun yazmaları müşahidə edilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur. | Tap. A (dərslik) |
| Əsərdəki obrazları sadə formada təhlil edir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Əlamət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır. | Tap. Ç (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür. | Tap. C (iş dəftəri) |

## **4-cü dərs.** Mətnin ardıcıllığı

• Dərslik: səh. 61 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

- Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Verilmiş əlamət, say və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nəqletmə zamanı *əvvəl, sonra, sonda, axırda* kimi sözlərin nitqdə işlənməsi |
| 2 | **Oxuyub-qavrama** | Şəkilli kompozisiya üzrə hekayə qurmaq |
| 3 | **Dil qaydaları** | Əlamət bildirən sözlər |
| 4 | **Yazı** | Çap yazısı ilə verilmiş cümlələrin əlyazısı şəklində yazısı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin yaxşı bildikləri hər hansı bir nağılı məqsədli şəkildə ardıcıllığı pozmaqla danışır; məsələn:

*"Div çayda boğuldu. Uşaqlar işıq gələn tərəfə yollandılar. Cırtdan divin yatdığını görüb dostlarını yuxudan oyatdı. Uşaqlar meşədə azdılar. Cırtdanın nənəsi uşaqlara yağ yaxması verdi. Kəndin uşaqları Cırtdanın nənəsindən odun yığmaq üçün meşəyə getməyə icazə istədilər".*

Müəllim şagirdlərə müraciət edir:

*– Sizcə, mən indi hansı nağılı danışdım? ("Cırtdan") Danışarkən hadisələri düzgün ardıcıllıqla çatdıra bildimmi?*

Çox güman ki, şagirdlər hadisələrin ardıcıllığının pozulduğunu qeyd edəcək, məsələn, sonuncu cümlənin əvvəldə gəlməli olduğunu bildirəcəklər. Müəllim şagirdlərin diqqətini *əvvəl, sonra, sonda, axırda* sözlərinə cəlb edərək "Faydalı məsləhət" rubrikasında verilmiş məlumatları şərh edir.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Əvvəlcə şagirdlər kollektiv şəkildə şəkil kompozisiyası üzrə baş verən hadisələrin ardıcıllığını müəyyən edir, obrazları adlandırırlar (cavablar: 1 – b, 2 – ç, 3 – a, 4 – c).

Sonra şagirdlər 4 qrupa bölünürlər. Hər qrup bir şəkli aşağıdakı mərhələlər üzrə təsvir edir.

- hadisələrin baş verdiyi məkanı təsvir etmək;
- şəkildəki obrazları təsvir və xarakterizə etmək;
- şəklə aid açar sözləri müəyyənləşdirib cümlədə işlətmək.

"B" və "ç" şəkilləri üzrə işləyən qruplar təsvirə uyğun dialoq qurub rollu oyun şəklində təqdim edə bilərlər.

2.2.3 2.2.5 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər hekayə xəritəsinin ilk variantı ilə tanış olurlar. Şagirdlər əvvəlcə illüstrasiyalarla onların məzmununu əks etdirən cümlələri uyğunlaşdırırlar. Hadisələrin ardıcıllığını bərpa edərək cümlələri *əvvəl, sonra, sonda* sözlərinin qarşısına yazırlar. Daha sonra hekayəyə başlıq verir, hadisələrin harada baş verdiyini (evdə) və hekayədə iştirak edən obrazların adlarını (ata, ana, qardaş, bacı) qeyd edirlər. Bu onların şəkil kompozisiyası üzrə hekayə qurmaq bacarığını inkişaf etdirir.

### Dil qaydaları. Yazı

4.1.5 3.1.1 **Tapşırıq B (dərslik).** Bu tapşırıqla əlamət bildirən sözün hansı varlığa aid olduğunu müəyyənləşdirmək, eyni zamanda hüsnxət normalarına uyğun yazmaq bacarığı inkişaf etdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir. | Tap. A (dərslik) |
| Mətndə zaman, məkan, şəxs və hadisə ilə bağlı məqamları müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Əlamət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyənləşdirir. | Tap. B (dərslik) |
| Çap hərfləri ilə verilmiş cümlələri üzündən köçürür. | Tap. B (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə müxtəlif menyular (restoran və kafelərə aid hazır menyular və yaxud valideynlərin köməyi ilə hazırlanmış menyular) gətirmək tövsiyə olunur.

# fəsil 4 SAĞLAM QİDA

## 1-ci dərs. Qida növləri

• Dərslik: səh. 62-63 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Sözün ifadə etdiyi şəkli müəyyənləşdirir (st. 2.1.1).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st.2.2.4).
- Təqdimat zamanı verbal və qrafik informasiyadan istifadə edir (st. 3.1.4).

• **Köməkçi vasitələr:** müxtəlif menyular (restoran və kafelərə aid hazır menyular və yaxud şəkillər)

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Menyu haqqında söhbət |
| 2 | **Dinləmə-danışma. Söz ehtiyatı** | "Günlük menyu" haqqında diaqramın izahı |
| 3 | **Yazı** | Günlük menyunun bölmələri |
| 4 | **Oxuyub-qavrama** | Qidaların qruplaşdırılması |
| 5 | **Şifahi təqdimat** | Faydalı menyuların hazırlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mümkün vasitələrdən istifadə edərək lövhədə müxtəlif menyular (restoranda sifariş üçün istifadə olunan vərəqə, kitabça) nümayiş etdirir. Aşağıdakı suallarla şagirdləri müzakirəyə cəlb edir:

*– Bu kitabçalar sizə tanışdırmı?*

*– Siz belə kitabçalarla harada rastlaşmısınız?*

*– Bu kitabçalardan nə üçün istifadə olunur?*

### Dinləmə

1.1.1 Müəllim aşağıdakı dinləmə mətnini səsləndirir.

**Sağlam qida**

*Hər həftə olduğu kimi, məktəbin həkimi yenə Ayangilin sinfi ilə söhbət edirdi. Bu gün düzgün qidalanmaq haqqında danışırdılar. Həkim dedi ki, süd məhsulları sümükləri və dişləri möhkəmləndirir. Un məmulatları güc, enerji verir. Meyvə və tərəvəzlər isə bədənimizi vitaminlə təmin edir. Vitamin orqanizmin dözümlü olmağına kömək edir. Həkim gedərkən şagirdlərə tapşırıq verdi: "Bu həftə faydalı və zərərli qidalar haqqında məlumat toplayın. Özünüz üçün gündəlik menyu hazırlayın".*

Müəllim oxuduğu mətn haqqında faktoloji suallar verir və şagirdlərin cavabları müzakirə edilir:

*– Məktəbin həkimi bu həftə Ayangilin sinfi ilə hansı mövzuda söhbət etdi?*

*– Süd məhsullarının faydası nədir?*

*– Enerji, güc almaq üçün hansı qidalardan istifadə etməliyik?*

*– Hansı qidalar bədənimizi vitaminlərlə təmin edir?*

*– Vitaminlərin faydası nədir?*

*– Həkim Ayangilin sinfinə nə tapşırdı?*

**Müəllimin nəzərinə!** Müəllim sinfə elan edir ki, onlar da Ayangilin sinfi kimi həkimin tapşırığına əməl edəcəklər. Bu gündən etibarən sağlam qida haqqında məlumat toplayacaq, günlük menyular tərtib edəcəklər.

### Danışma. Söz ehtiyatı

1.2.2 2.1.1 **Tapşırıq A (dərslik).** Bu tapşırıqda günlük menyumuzun bölmələri haqqında müzakirə aparılır. Əvvəlcə şagirdlər şəkildə təsvir olunan qidalardan tanıdıqlarını sadalayırlar (çörək, un, makaron, alma, armud, pomidor, ərik, banan, şokolad, keks, konfet, toyuq, balıq, qatıq, ayran, pendir və s.). Daha sonra günlük menyudakı bölmələri müəyyən edirlər. Bölmələrin adları bir-bir çəkilir və hər birinə aid olan qidalar sadalanır; məsələn: 1. Un məhsulları: çörək, makaron. 2. Meyvə-tərəvəz: alma, armud, pomidor, kələm və s. 3. Süd məhsulları: qatıq, ayran, yağ, pendir və s. 4. Ət məhsulları: ət, toyuq, balıq, sosiska, kolbasa və s. 5. Şirniyyat: konfet, şokolad, keks, peçenye, tort və s.

**"Söz boğçası" rubrikası.** Yeni sözlər (*qida, məhsul, vitamin, un məmulatı, menyu*) günlük menyunun təsvirindən istifadə olunmaqla izah edilir və "Söz boğçası"na əlavə edilir.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər günlük menyu haqqında öyrəndiklərini tətbiq edirlər. Verilmiş qida şəkillərinin adlarını uyğun bölmələrin qarşısında yazmaqla şagirdlərdə iki müxtəlif bacarıq inkişaf etdirilir: 1) gördüyü şəklin adını yazmaq; 2) predmetləri kateqoriyalar üzrə qruplaşdırmaq.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər bu tapşırıqda təsvir edilmiş iki müxtəlif nahar menyusunu

müqayisə edirlər. Hansı menyunun faydalı qidalardan ibarət olduğunu müzakirə edirlər.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda şagirdlər günlük menyunun bölümlərinə aid qida adlarını oxuyub hər bir sırada fərqlənən sözü dairəyə alırlar; məsələn: *makaron, çörək, düşbərə, alma* sözləri verilmiş sırada "alma" meyvə olduğu üçün digərlərindən fərqlənir. Bu tapşırıq şagirdlərə günlük menyunun bölmələri haqqında aldıqları məlumatları möhkəmləndirməyə imkan yaradır.

3.1.4 **Tapşırıq C (dərslik). Yoldaşını yoxla.** Bu tapşırıqda isə şagirdlər A tapşırığında müzakirə etdikləri günlük menyudan istifadə edərək özləri üçün nahar menyusu tərtib edirlər. Şagirdlərə xatırlatmaq lazımdır ki, günlük menyunun hər bölməsinə aid qidalardan istifadə etməlidirlər. Menyu üçün rəngli karton kağızlardan istifadə etmək olar. Sonda şagirdlər menyuları parta yoldaşları ilə dəyişib bir-birinin menyusunu faydalılıq baxımından müzakirə edə bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn haqqında faktoloji suallara cavab verir. | Dinləmə mətni |
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A, B (dərslik) |
| Sözün ifadə etdiyi şəkli müəyyənləşdirir. | "Söz boğçası" rubrikası |
| Verilmiş şəklin adını yazır. | Tap. A (iş dəftəri) |
| Oxuduğu cümlənin ifadə etdiyi fikri müəyyənləşdirir. | Tap. B (iş dəftəri) |
| Təqdimat zamanı verbal və qrafik informasiyadan istifadə edir. | Tap. C (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə oyun zamanı istifadə üçün kiçik rezin top gətirmək tövsiyə olunur.

## 2-ci dərs. "Meyvələr"

• Dərslik: səh. 63 • İş dəftəri: səh.47

### Təlim məqsədləri

- Sözün aid olduğu ümumi məna qrupunu müəyyən edir (st. 2.1.1).
- Durğu işarələrini nəzərə almaqla oxuyur (st. 2.2.1).
- Mətndəki əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Sözü təşkil edən hecaları müəyyən edir (st. 4.1.2).
- Sözdəki orfoqramı (deyilişi və yazılışı fərqlənən hərfi) müəyyənləşdirir (st. 4.1.3).

- **Köməkçi vasitələr:** kiçik rezin top

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab |
| 2 | **Söz ehtiyatı** | Ümumi məna bildirən sözlər üzrə iş |
| 3 | **Oxu** | "Meyvələr" şeirinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Şeir üzrə iş |
| 5 | **Dil qaydaları** | Sözlərdə hecaların sayı;<br>Sözlərin düzgün yazılışı üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Ötən dərsin mövzusu (günlük menyu) üzrə sual-cavab təşkil olunur. Müəllim qida məhsullarının ümumi adını deyir. Şagirdlər həmin ada uyğun sözlər söyləyirlər. Məsələn, süd məhsulları: pendir, ayran, qatıq və s.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini əvvəlcə hər cümlənin içərisində verilmiş şəklə yönəldir. Şagirdlər həmin şəkilləri qida adları ilə əvəz edib cümləni bütövlükdə səsləndirirlər:

• *Sümüklərin möhkəm olması üçün **süd məhsulları** ilə qidalanmalıyıq.*

• *Enerji almaq üçün **un məhsullarından** istifadə etməliyik.*

• *Vitamin almaq üçün **meyvə-tərəvəz** yeməliyik.*

**Oyun.** "Meyvələr" şeirinin oxunmasına başlanmazdan öncə müəllim şagirdlərlə oyun keçirir. Oyunun məqsədi şagirdlərin meyvələr üzrə söz ehtiyatını yoxlamaqdır. Müəllim püşkatma yolu ilə 5–8 şagirddən ibarət qrupu dövrəyə düzür. Topu

şagirdlərdən birinə ataraq bir meyvə adı söyləyir. Həmin şagird topu dövrədəki digər şagirdlərdən birinə ataraq başqa bir meyvənin adını çəkir. Şagirdlər bu qayda ilə topu bir-birinə ötürüb müxtəlif meyvə adları söyləməlidirlər. Əgər kimsə çəkilən meyvə adını təkrarlayarsa və yaxud söyləyə bilməzsə, oyundan çıxır.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Meyvələr haqqında verilmiş şeirdə bir çox meyvələrin adları sadalanıb. Müəllim şagirdlərin diqqətini sözlər arasındakı vergüllərə yönəldərək həmin sözləri sadalama intonasiyası ilə oxuyur. Daha sonra şagirdlərin oxu prosesində vergülləri nəzərə alaraq oxumalarına diqqət edir.

**Müəllimin nəzərinə!** "Meyvələr" şeirində bir çox meyvə adlarının sadalanması şagirdlərin diqqətini "vergül" işarəsinə empirik şəkildə cəlb edir.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Bu tapşırıqla şagirdlər oxuduqları şeirə aid suallara cavab verərək nəzm nümunəsini oxuyub-anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər şəkillərdən istifadə etməklə "Meyvələr" şeirində buraxılmış bəzi meyvə adlarını yazırlar.

**Müəllimin nəzərinə!** "Meyvələr" şeirində bəzi misraların sonunda buraxılmış meyvə adları digər (özündən əvvəlki) misraların sonundakı sözlərlə qafiyələndiyi üçün eyni zamanda bu tapşırıq şeirin oxusundan sonrakı mərhələdə yerinə yetirildiyi üçün şagirdlər asanlıqla buraxılmış meyvə adlarını yazırlar. Qafiyə haqqında öyrədici material IV fəslin "Bunu bilməliyik" rubrikasında şərh ediləcək.

### Dil qaydaları

4.1.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda "Meyvələr" şeirində sadalanan meyvə adlarını müəyyənləşdirməklə oxuyub-qavrama, həmin meyvə adlarının isə neçə hecalı söz olduğunu fərqləndirərkən dil qaydaları haqqında bilik və bacarıqlarını inkişaf etdirirlər.

4.1.3 **"Sözlərin yazılışı" rubrikası.** Müəllim rubrikada verilən sözlərin düzgün yazılışını lövhədə şagirdlərə izah edir. Daha sonra həmin sözləri orfoqramları buraxılmış şəkildə lövhədə yazır; məsələn: *[şaf.alı] sözünü yazarkən buraxılmış hərf "t" olmalıdır, yoxsa "d"?* Şagirdlər buraxılmış hərfi müəyyənləşdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün aid olduğu ümumi məna qrupunu müəyyən edir. | Tap. A (dərslik) |
| Vergülləri nəzərə alaraq sadalama intonasiyası ilə oxuyur. | Tap. B (dərslik) |
| Mətndəki əsas məqamları açan sualları cavablandırır. | Tap. C (dərslik). |
| Sözləri hecaların sayına görə qruplaşdırır. | Tap. B (iş dəftəri) |
| Sözdəki orfoqramın (deyilişi və yazılışı fərqlənən hərfin) hansı hərflə işarə olunduğunu müəyyənləşdirir. | "Sözlərin yazılışı" rubrikası |

**Növbəti dərsə hazırlıq.** Şagirdlər evdə sevdikləri meyvələrin şəklini çəkir, həmin meyvənin faydası haqqında bir neçə məlumat qeyd edir və öyrənirlər. Bu məlumatlardan növbəti dərsdə B tapşırığını (rollu oyun) yerinə yetirərkən istifadə edəcəklər.

## 3-cü dərs. "Meyvələrin söhbəti". Say bildirən sözlər

• Dərslik: səh. 64-65 • İş dəftəri: səh. 48

### Təlim məqsədləri

- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
- Əlyazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).
- Verilmiş əlamət, say və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).

### • Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | BİBÖ cədvəli üzrə iş |
| 2 | **Oxu** | "Meyvələrin söhbəti" mətni |
| 3 | **Danışma** | Rollu oyun |
| 4 | **Yazı** | Hüsnxət normalarına uyğun yazı |
| 5 | **Dil qaydaları** | Say bildirən sözlər |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə **BİBÖ cədvəli** çəkir. Cədvəllə işləmə qaydaları şagirdlərə izah edilir. Şagirdlər alça, gavalı, ərik və üzüm haqqında bildiklərini söyləyir, müəllim isə onları cədvəlin "Bilirəm" sütununa qeyd edir. Daha sonra şagirdlər bu meyvələr haqqında nə öyrənmək istədiklərini söyləyirlər. Cədvəlin sonuncu – "Öyrəndim" sütunu isə "Meyvələrin söhbəti" mətnini oxuduqdan sonra işlənəcək.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Rollu oxu.** Əvvəlcə müəllim "Meyvələrin söhbəti" mətnini oxuyur. Daha sonra şagirdlər bir-birini izləyərək mətni oxuyurlar (növbəli oxu). Mətnlə tanış olduqdan sonra şagirdlərin razılığı ilə Müəllif, Alça, Gavalı, Ərik, Üzüm rolları seçilir. Hər kəs mətndə öz roluna aid hissələri oxuyur. Oxudan sonra şagirdlər meyvələr haqqında öyrəndikləri məlumatları söyləyir, müəllim isə həmin məlumatları BİBÖ cədvəlinin "Öyrəndim" sütununa qeyd edir.

**"Söz ehtiyatı" rubrikası.** Müəllim "mübahisə etmək" (sözləşmək), "zəngin" (çox) ifadələrinin yaxınmənalı qarşılığını verərək izah edir. "Tərifləmək" sözünü mətndən uyğun situasiya xatırlamaq yolu ilə izah etmək olar. "Bəkməz" sözünü əlamətlərini sadalamaqla (şirin olur, üzümdən hazırlanır) və yaxud şəklini nümayiş etdirməklə izah etmək mümkündür.

### Oxuyub-qavrama

**Tapşırıq B (dərslik).** Şagirdlərə əvvəlcədən hazırlanmış *alça, gavalı, ərik, üzüm, bağban* sözləri yazılmış kartlar paylanır. Şagirdlərdən biri "Meyvələrin söhbəti" mətnindəki obrazlara aid cümlələrdən birini oxuyur. Digər şagirdlər həmin sözlərin kimə aid olduğunu bildirən kartı nümayiş etdirirlər.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqla hekayə xəritəsi üzrə fəaliyyət bacarığı inkişaf etdirilir. Şagirdlər hadisələrin ardıcıllığını bərpa edərək cümlələri *əvvəl, sonra, sonda* sözlərinin qarşısına yazırlar.

### Danışma

1.2.3 **Tapşırıq C (dərslik). Rollu oyun.** Şagirdlər sevdikləri meyvələr haqqında topladıqları məlumatlardan istifadə edərək "Meyvələrin söhbəti" mətnini davam etdirirlər. Bu zaman onlar sevdikləri meyvənin dilindən danışır (birinci şəxsin adından), onları tərifləyirlər.

### Yazı

3.1.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq əlyazısı ilə verilmiş cümlələri hüsnxət normalarına uyğun yazmaq bacarığı ilə yanaşı, yeni sözlərin cümlədəki yerini müəyyənləşdirmək bacarığını da inkişaf etdirir.

### Dil qaydaları

4.1.5 **Tapşırıq D (dərslik).** Müəllim *nə qədər, neçə, neçənci* sual əvəzliklərinin iştirakı ilə yaranan sual cümlələrindən istifadə edərək şagirdlərin diqqətini say bildirən sözlərə yönəldir; məsələn:

– *Səbətdə nə qədər çiyələk var?*
– *Qabda neçə alma var?*
– *Nar finişə neçənci çatıb?*

Şagirdlər suallara cavab verərək şəkillərin məzmununu təsvir edən cümlələr qururlar.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada say bildirən sözlər haqqında məlumatı şərh edir.

**Tapşırıq E (dərslik).** Şagirdlər bu tapşırığı yerinə yetirməklə say bildirən sözləri fərqləndirdiklərini və nitqlərində istifadə etdiklərini nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər "üç ...... alma" birləşməsində nöqtələrin yerinə rəng bildirən söz yazırlar (məsələn: *üç qırmızı alma*). Daha sonra həmin ifadəyə uyğun şəkil çəkirlər. Bu tapşırıqla həm əlamət, həm də say bildirən sözlər haqqında aldıqları bilikləri inkişaf etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. A (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını bərpa edir. | Tap. A (iş dəftəri) |
| Dialoq zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. C (dərslik) |
| Əlyazısı şəklində olan cümlələri üzündən köçürür. | Tap. Ç (dərslik) |
| Say bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyənləşdirir. | Tap. D, E (dərslik)<br>Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə valideynlərinin köməyi ilə dünyada ən maraqlı ağaclardan (bonsay, evkalipt, dəmirağac) birinin adını və onun haqqında bir məlumat öyrənmək tapşırılır. İmkan daxilində həmin ağacın şəklini də əldə edə bilərlər.

## 4-cü dərs. "Çörək ağacı"

• Dərslik: səh. 66 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

- Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır (st. 1.2.2).
- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Varlığı səciyyələndirmək üçün əlamət, say və hərəkət bildirən sözlərdən istifadə edir (st. 4.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə. Danışma** | Dünyanın maraqlı ağacları haqqında şifahi təqdimat |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Çörək ağacı" mətni |
| 3 | **Oxuyub-qavrama** | Doğru və yanlış. Açar sözlər. Faktoloji suallara yazılı cavablar |
| 4 | **Dil qaydası** | Ad, əlamət, say, hərəkət bildirən sözlər |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

1.2.2 Şagirdlər dünyanın ən maraqlı ağacları haqqında öyrəndikləri məlumatları təqdim edirlər. Ağacın adını və ona aid bir məlumat söyləyirlər. Əgər bu ağacın şəklini də əldə edə biliblərsə, nümayiş etdirirlər.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Növbəli oxu**. "Çörək ağacı" mətnini oxumazdan əvvəl müəllim şagirdlərin diqqətini mətnin başlığına və mətnə çəkilmiş illüstrasiyaya yönəldir. Bu ağacın nə üçün belə adlandırılması haqqında şagirdlərin fərziyyələri dinlənilir. Mətn müxtəlif şagirdlər tərəfindən növbə ilə oxunur.

**"Söz ehtiyatı" rubrikası.** "Qovun" sözünün mənası həm yaxınmənalı sözlə ("yemiş"), həm də şəklini nümayiş etdirməklə izah edilə bilər. "Tərkib" sözünün mənasını cümlədə işlətməklə izah etmək mümkündür.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnin məzmunundan çıxış edərək doğru və yanlış fikirləri fərqləndirməklə yanaşı, mətnə istinad edərək niyə belə düşündüklərini əsaslandırırlar; məsələn: *"Çörək ağacı" **soyuq ölkələrdə** yetişir. Xeyr, "çörək ağacı" **isti ölkələrdə** yetişir.* Bu tapşırıq şagirdlərdə fikirlərini sübut etmək, əsaslandırmaq kimi vacib bacarığı formalaşdırmağa kömək edir.

2.2.3 **"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərdən soruşur:

– *İndi oxuduğunuz mətnə aid yadınızda qalan sözləri deyin.*

Şagirdlər mətnə aid sözlər səsləndirdikdən sonra müəllim yenidən soruşur:

– Söylədiyim sözlərin hansı mətnə aid olduğunu tapın. Sözlər: *meyvələr, tərifləmək, mübahisə etmək, bağban.*

Şagirdlər bu sözlərin "Meyvələrin söhbəti" mətninə aid olduğunu tapandan sonra rubrikada "açar sözlər" haqqında verilmiş məlumat oxunur.

**Tapşırıq C (dərslik).** Tapşırıqda "Çörək ağacı" mətninə aid açar sözləri (*ağac, sarı, qovun, vitaminli, ətirli, meyvə*) seçirlər. Şagirdlərə verilmiş sözün mətnə aid olduğunu müəyyənləşdirmək üçün mətni diqqətlə oxumaq, lazım gəldikcə mətnə təkrarən müraciət etmək tövsiyə olunur.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərin dərslikdə "Çörək ağacı" mətninə aid açar sözlərin müzakirəsini aparması iş dəftərində eyni məzmunlu tapşırığı asanlıqla yerinə yetirmələrinə kömək edir.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər bu tapşırıqda mətnə aid faktoloji suallara yazılı formada cavab verirlər. Cavabların düzgün olması ilə yanaşı, cümlələrin hüsnxət normalarına uyğun yazılmasına da diqqət ayrılmalıdır.

### Dil qaydaları

4.1.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər məzmunun açılmasına kömək edən say bildirən açar sözlər və şəkillər vasitəsilə tapmacaları cavablandırırlar.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər göy, sarı, qırmızı, yaşıl karandaşları vasitəsilə ad, əlamət, say və hərəkət bildirən sözləri fərqləndirirlər. Tapşırıq bu bölmədə öyrədilən dil qaydalarının təkrarlanmasına xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | "Dünyanın maraqlı ağacları" haqqında şifahi təqdimat |

| | |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. A (dərslik) |
| Hadisənin və ya hərəkətin səbəbini izah etmək üçün mətndən faktlar seçir. | Tap. B (dərslik)<br>Tapşırıq B (iş dəftəri) |
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. C (dərslik)<br>Tap. A, C (iş dəftəri) |
| Oxuduğu mətndəki məlumatları yazıda əks etdirir. | Tap. B (iş dəftəri) |
| Ad, əlamət, say və hərəkət bildirən sözləri fərqləndirir. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə tapşırılır ki, ana və nənələrindən hər hansı bir yeməyi və yaxud şirniyyatı ilk dəfə hazırlayarkən hansı məlumatlardan istifadə etdiklərini soruşsunlar. Bu məlumatlar növbəti dərsdə mövzuya yönəltmə zamanı şagirdlərə kömək edəcək.

## 5-ci dərs. Meyvə salatının resepti

• Dərslik: səh. 67 • İş dəftəri: səh. 50

### Təlim məqsədləri

- Sözləri hecalarla oxuyur (st. 2.2.1).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).
- Təqdimat zamanı verbal və qrafik informasiyadan istifadə edir (st. 3.1.4).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Salatlar haqqında söhbət |
| 2 | **Oxu** | "Meyvə salatının resepti" |
| 3 | **Yazı** | Meyvə salatının tərkibi və hazırlanması. Menyuların hazırlanması |
| 4 | **Söz ehtiyatı** | IV fəslə aid yeni sözlərin fərqləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdləri mövzuya cəlb etmək məqsədilə onlara belə suallar verə bilər:

– *Salatları xoşlayırsınızmı? Hansı salatları xoşlayırsınız?*

– *Bəs həmin salatların tərkibində nələr olduğunu bilirsiniz? Ananızın bu salatı necə hazırladığına diqqət etmisiniz?*

### Oxu

**2.2.1** **Tapşırıq A (dərslik).** Müəllim sual-cavabdan sonra dərslikdəki "Meyvə salatının resepti" haqqında izahat verir: *"Hər hansı bir yeməyi ilk dəfə hazırlayarkən reseptdən istifadə edirik"*. Bu məqamda "Resept" sözünün mənası izah edilir:

– Reseptin iki hissəsi var: tərkibi və hazırlanma qaydası.

İlkin mərhələdə yalnız reseptin tərkib hissəsi üzrə iş aparılır. Şagirdlər bir-birini izləməklə meyvə salatının tərkibini oxuyurlar. Müəllim soruşur:

– *Bu meyvə salatının tərkibi xoşunuza gəldimi? Siz hansı meyvələrdən salat yemək istəyərdiniz?*

### Yazı

**3.1.2** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu tapşırıqda verilən şəkillərin məzmununu yazıda əks etdirərək meyvə salatının tərkibini yazırlar.

**3.1.4** **Tapşırıq B (dərslik).** Şagirdlər sevdikləri meyvə salatının tərkibini dəftərlərinə yazıb təqdim edirlər. Say bildirən sözlərin altından xətt çəkərək onları digər sözlərdən fərqləndirdiklərini nümayiş etdirirlər.

### Oxu

**2.2.1** **Tapşırıq A (dərslik). İnformatika fənni ilə inteqrasiya.** Müəllim şagirdlərin diqqətini meyvə salatının ikinci hissəsinə – hazırlanma qaydasına cəlb edir. Şəkillərin köməyi ilə meyvə salatının hazırlanma qaydası (alqoritmi) izah edilir. Şagirdlər buraxılmış "əvvəl", "sonra", "sonda" sözlərini uyğun yerlərə əlavə etməklə cümlələri oxuyurlar.

### Yazı

**3.1.2** **Tapşırıq B (iş dəftəri).** Şagirdlər bu tapşırıqda salatın hazırlanma qaydasını əks etdirən cümlələri ardıcıl olaraq *əvvəl, sonra, sonda* sözlərinin qarşısına yazırlar.

**3.1.4** **Tapşırıq C (dərslik).** Şagirdlər "səhər yeməyi", "qəlyanaltı", "nahar", "axşam yeməyi" üçün menyu hazırlamalıdırlar. Bu zaman dərsliyin 62-ci səhifəsində verilmiş günlük menyudan istifadə edə bilərlər. "Qəlyanaltı" sözünün mənası cümlədə işlədilməklə izah edilir. Müəllim səhər yeməyi üçün bir nümunə verə bilər:

• Yumurta • Kakaolu süd • Çörək • Pendir

### Söz ehtiyatı

**2.1.2** **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş sözlər arasından məhz IV fəsildə öyrəndikləri yeni

sözləri seçib cümlədə işlədirlər. Bu tapşırığı yerinə yetirərkən IV fəslə aid səhifələrə bir daha nəzər salırlar ki, bu da təkrarlamaq üçün bir üsuldur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalarla oxuyur. | Tap. A (dərslik) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tap. B (dərslik)<br>Tap. A, B (iş dəftəri) |
| Təqdimat zamanı verbal və qrafik informasiyadan istifadə edir. | Tap. C (dərslik) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. Ç (dərslik) |

## 6-cı dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 68 • İş dəftəri: səh. 51

### Təlim məqsədləri

- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1).
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Anlayışın çıxarılması |
| 2 | **Oxuyub-qavrama** | Fəsillərin qısa icmalı |
| 3 | **Dil qaydaları** | Ad, əlamət, say, hərəkət bildirən sözlər |
| 4 | **Danışma** | Şəkil kompozisiyası üzrə iş |
| 5 | **Oxuyub-qavrama** | Hekayə xəritəsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Anlayışın çıxarılması.** Müəllim üzərində III bölmənin fəsillərinin adları – “Gün rejimi”, “İdman”, “Gigiyena qaydaları”, “Sağlam qida” yazılmış kartları lövhəyə tərsinə (yazısı lövhəyə doğru) yapışdırır. Hər hansı bir fəslə aid açar sözlər söyləyir. Şagirdlər açar sözlərin hansı fəslə aid olduğunu tapırlar; məsələn: *Ayan, Əli, gümrah olmaq, vaxtını səmərəli istifadə etmək; “Ayı və dostları”, “Kirpi və Dovşan”, futbol, üzgüçülük, güləş; təmizlik, mikroskop, mikrob, Anar; menyu, resept, “Meyvələr”, “Meyvələrin söhbəti”.* Şagirdlərin düzgün cavabları səsləndikcə müəllim kartları çevirir.

**Müəllimin nəzərinə!** Bu iş zamanı şagirdlər dərsliyin III bölməsini vərəqləyib fəsil adlarına bir daha nəzər sala bilərlər. Bununla da şagirdlər keçilmiş materialı vərəqləyərək əsas məqamlara sürətlə nəzər salmaq bacarığı qazanırlar.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (dərslik).** Şagirdlər bu tapşırığı fərdi şəkildə yerinə yetirirlər. III bölmənin hər bir fəslində nəyi öyrəndiklərini fəslin adı ilə uyğunlaşdırırlar.

**Tapşırıq A (iş dəftəri).** Verilmiş cümlələrin hansı fəslə aid olduğunu müəyyənləşdirməklə III bölmədə öyrəndiklərini yenidən xatırlayır, təkrar edirlər.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (dərslik).** III bölmədə şagirdlərə ad, əlamət, say, hərəkət bildirən sözlər haqqında məlumat verilib. Şagirdlər tapşırıqda verilmiş sözləri qruplaşdırmaqla dil qaydaları üzrə biliklərini təkrar edir, möhkəmləndirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bu tapşırıqda hər sırada qrammatik cəhətdən fərqlənən sözü tapmalıdırlar; məsələn: *ata, ana, dadlı, müəllim*. Bu sırada *dadlı* sözü əlamət, digər sözlər isə ad bildirir. Bu tapşırıq da dil qaydaları haqqında biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq C (dərslik).** Şagirdlər hər suala cavab olan bir söz yazmaqla nitqlərində ad, əlamət, say, hərəkət bildirən sözlərin olduğunu nümayiş etdirirlər.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin III bölmədə qazandıqları şəkil kompozisiyası üzrə hekayə qurmaq bacarıqlarını inkişaf etdirir.

**Qruplarla iş.** Müəllim qruplar arasında iş bölgüsü aparır:

- I qrup – hadisələrin baş verdiyi məkanı təsvir edir.
- II qrup – şəkildəki obrazları adlandırır, təsvir edir, xarakterizə edir.

- III qrup – şəkil kompozisiyasının məzmununa uyğun başlıqlar verir.

**Oxuyub-qavrama**

2.2.3 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq hekayə xəritəsini tərtib etmək bacarığının inkişafına yönəlib. Şagirdlər hadisələrin ardıcıllığını bərpa edib hər bir illüstrasiyanın məzmununu əks etdirən cümləni uyğun şəklin altında yazırlar. Sonra hekayəyə başlıq verir, hekayədə iştirak edən obrazların adını (Tısbağa, Əli) və baş qəhrəmanın xarakterini qeyd edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və üsullar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu cümlənin ifadə etdiyi fikri müəyyənləşdirir. | Tap. A (dərslik, iş dəftəri) |
| Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır. | Tap. B, C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. Ç (dərslik) |
| Mətndə zaman, məkan, şəxs və hadisə ilə bağlı məqamları aydınlaşdırır. | Tap. C (iş dəftəri) |

bölmə **4** # TƏBİƏTİN SİRLƏRİ

| Mövzu | | Təbiətin sirləri |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Dinlənilən və ya oxunan mətnin təxəyyülə uyğun dəyişdirilməsi və ya davam etdirilməsi<br>• Şəkillər üzrə kiçik dialoqun qurulması |
| | Söz ehtiyatı | Sirr, səma, qövs, şimşək, şüa, çanaq, naxış, leysan, sel, kol, çətir, səbət, sapsarı, həyəcan, kürk, ağappaq, kədərli, qəmgin və s. |
| | Oxu | • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Nəzm və nəsrlə yazılmış mətnlərin fərqləndirilməsi;<br>• Şeirin əsas struktur elementlərinin (başlıq, bənd, misra) fərqləndirilməsi<br>• Şeirin nəsrə çevrilərək nəql edilməsi |
| | Yazı | • Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvlərin düzəldilməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Oxunan mətnin qısa məzmununun yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Əlamət, say, hərəkət bildirən sözlər, durğu işarələri, heca üzrə biliklərin təkrarı və tətbiqi |
| | Filoloji anlayışlar | • Şeir, hekayə, misra, bənd, qafiyə, şair, yaxınmənalı sözlər, əksmənalı sözlər |
| Kompetensiyalar | | • Təbiətə sevgi, təbiətdəki varlıqlara dəyər verilməsi, dostluq, xeyirxahlıq, qayğıkeşlik |

Bu bölmədə müxtəlif təbiət hadisələri, səma cisimləri, heyvanlar və bitkilər aləmi ilə bağlı müxtəlif mövzulardan bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, ətraf aləmlə bağlı söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir;

• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır;

• Sözləri hecalarla oxuyur;

• Mətnə diqqətlə qulaq asır, mətn oxunduqca kitabdan izləyir;

• Hərfləri hüsnxət normalarına uyğun yazır;

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• yaxınmənalı və əksmənalı sözlərin müəyyənləşdirilməsi;

• şeirin nəsrə çevrilərək nəql edilməsi;

• şəkil üzrə mətn qurub yazma.

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı bir sıra filoloji anlayışların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

•iş vərəqləri, heyvan və səma cisimlərinin şəkilləri, yaxınmənalı və əksmənalı sözlər yazılmış kartlar və s.

fəsil **1** GÖYQURŞAĞI

## 1-ci dərs. "Rənglərin söhbəti"

• Dərslik: səh. 70-71 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Sözləri hecalamadan, bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Təxəyyülünə uyğun kiçik dialoq qurub danışır (st. 1.2.1).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).

• **Köməkçi vasitələr:** üzərində müxtəlif təbiət hadisələrinin təsviri və heyvanlar olan şəkillər.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Sirr" anlayışının izahı |
| 2 | **Dinləmə-danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş |
| 3 | **Oxu** | "Rənglərin söhbəti" mətninin oxusu |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmənin adını şagirdlərə aydınlaşdırmaq üçün əvvəlcə kiçik dinləmə mətni səsləndirir:

*"Qədim zamanlarda bir alim yaşayırmış. Günlərin bir günü bu alim bağda uzanıb göyə baxır. Səmada uçan quşlara tamaşa edir. Öz-özünə deyir: "Necə olur ki, quşlar uça bilir? Bəs biz insanlar niyə uça bilmirik? Görəsən, bunun sirri nədir?"*

Müəllim fasilə edərək şagirdlərə alimi düşündürən suallara cavab verməyi tapşırır. Sonra mətnin davamını səsləndirir:

*"Alim fikirləşir, fikirləşir və nəhayət tapır ki, quşların qanadları onlara uçmaqda kömək edir. Beləliklə, o, təyyarəni kəşf edir".*

**Müəllimin nəzərinə!** Sonda bölmənin adını şagirdlərə izah etmək tövsiyə olunur: **"**Təbiətin sirləri" dedikdə ilk baxışda anlaşılmaz, qəribə görünən təbiət hadisələri nəzərdə tutulur.

### Dinləmə-danışma

**1.1.1** Şagirdlərin diqqəti bölmə titulunda verilmiş şəkillərə və suallara yönəldilir. Bununla müxtəlif təbiət hadisələri haqqında şagirdlərin ilkin bilikləri yoxlanılır. Müəllim şəkillərin məzmunu ilə bağlı əlavə suallar verə bilər:

*– Şəkillərdə nə görürsünüz? Ağaclar sizə nəyi xatırladır? Göyqurşağı görmüsünüzmü? Göbələklər haqqında nə bilirsiniz? İlbizlər haqqında cizgi filmlərinə baxmısınızmı?*

Sonra müəllim şagirdlərin tanış olduqları varlıqlar haqqında tapmacalar səsləndirir:

O hansı heyvandır ki, yuvasını çiynində gəzdirir? ***(İlbiz)***

Rəngbərəngdir, bağ deyil o,
Elə baxma, dağ deyil o.
Yeddi gülün ləçəyidir,
Göy üzünün çiçəyidir. ***(Göyqurşağı)***

Bir kişinin dörd evi var,
Biri yaşıldır, o biri al.
Biri sarıdır, o biri ağ. ***(Fəsillər)***

Bir damım var
Tək dirəkli. ***(Göbələk)***

Cavabların tapılmasında şagirdlər çətinlik çəkərsə, müəllim onların diqqətini tapmaca mətnlərindəki açar sözlərə yönəldə bilər; məsələn, *göyqurşağı haqqında açar sözlər: rəngbərəngdir, yeddi rəngi var, göy üzündə olur* və s.

### Oxu

**2.2.1** **Tapşırıq B (dərslik).** Tapşırıqda verilən sual şagirdlərin diqqətini "Rənglərin söhbəti" mətninə yönəltmək və mətndəki rənglərə uyğun varlıqlar haqqında ilkin məlumat toplamaq məqsədi daşıyır.

Mətn dialoq şəklində verildiyi üçün "rollu oxu" texnikasından istifadə edilməsi məqsədəuyğundur. Müəllim "Rənglərin söhbəti" mətninin oxunması üçün 5 şagird müəyyənləşdirir. Dörd şagirdə rənglərin, beşinciyə yağışın sözlərini səsləndirmək tapşırılır. Şagirdlər mətni oxuduqca digərləri dərslikdən həmin hissəni izləyirlər.

**Müəllimin nəzərinə!** Müəllim bəzi şagidlərin oxunulan hissəni kitabdan izlədiyini yoxlamaq üçün fasilə edib izləyən şagirdlərdən soruşa bilər: *"İndi yoldaşınız hansı rəngin dediklərini oxudu? Sarı rəng nə dedi?"* və s.

Mətn oxunduqdan sonra şagirdlərin mətni anladığını yoxlamaq üçün faktoloji suallar verilir:

*– Mətndə neçə rənglə tanış oldunuz? Siz bu rənglərdə olan hansı varlıqları tanıyırsınız?*

**Tapşırıq C (dərslik).** Bu tapşırıq mətndəki əsas fikri müəyyənləşdirməyə xidmət edir.

**Müəllimin nəzərinə!** Mətndəki əsas fikri müəyyənləşdirərkən şagirdlər arasında müxtəlif fikirlər yarana bilər: 1) *yağışdan sonra göyqur-*

*şağı yaranır; 2) hər rəngin öz gözəlliyi var* və s. Müəllim hər bir fikrə hörmətlə yanaşmalı və şagirdlərin fikirlərini sərbəst ifadə etməsinə şərait yaratmalıdır.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq vasitəsilə mətnin məzmununun qavranılması yoxlanılır.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq da şagirdlərin oxuyub-anlama bacarığını yoxlayır. Şagirdlər mübahisədə iştirak etməyən rənglərin qırmızı, göy, bənövşəyi olduğunu müəyyən edirlər.

### Danışma

1.2.1 **Tapşırıq D (dərslik).** Əsas məqsəd şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirməkdir.

**Qruplarla iş.** Tapşırığın qruplarla iş formasında yerinə yetirilməsi tövsiyə olunur.

Müəllim yönəldici suallar vasitəsilə müvafiq rənglərə uyğun varlıqları və əlamətləri şagirdlərə xatırladır; məsələn: – *Qırmızı rəngdə hansı varlıqları tanıyırsınız? (Nar, pomidor, albalı və s.) Qırmızı rəng nə deyə bilər? (Başında tac olan mənim rəngimdədir, bütün meyvələrin şahı mənəm* və s.)

**Diferensial təlim**

Bu tapşırıq rollu oyun şəklində yerinə yetirilə bilər. Hər bir qrupda tələffüzü aydın, aktyorluq qabiliyyəti olan şagirdlər rənglərin təmsilçiləri kimi çıxış edirlər.

### Yazı

3.1.2 **Tapşırıq B və C (iş dəftəri).** Tapşırıq şagirdlərin mətnlə bağlı oxuyub anlama bacarığını yoxlamaqla bərabər, orfoqrafik qaydalara uyğun düzgün yazı vərdişləri aşılamaq məqsədi daşıyır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Material |
|---|---|
| Sözləri bütöv oxuyur. | Mətn |
| Mətndə əsas fikri və hadisələri müəyyənləşdirir. | Tap. B, C, Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Kiçik dialoq qurur. | Tap. D (dərslik) |
| Orfoqrafik qaydada yazır. | Tap. B, C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərs üçün göyqurşağının yaranma ardıcıllığını əks etdirən kartların hazırlanması tövsiyə olunur.

## 2-ci dərs. "Göyqurşağı necə yaranır?"

• Dərslik səh. 71-72 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

- Sözləri hecalamadan, bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Eyni mövzu ilə bağlı müxtəlif mətnlərdən əldə etdiyi məlumatları ümumiləşdirir (st. 2.2.3).
- Əlyazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).
- Sözü cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir (st. 2.1.2).
- Əlamət, say, hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Göyqurşağı barədə sual-cavab |
| 2 | **Oxu** | "Göyqurşağı necə yaranır?" mətninin oxunması |
| 3 | **Yazı** | Yeni öyrənilmiş sözlərin cümlədə işlədilməsi |
| 4 | **Dil qaydaları** | Ad, əlamət, hərəkət, say bildirən sözlərin müəyyənləşdirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Bu tapşırığın əsas məqsədi həyatda göyqurşağını müşahidə etmiş şagirdlərin bununla bağlı təəssüratlarını bölüşməklə həmin təbiət hadisəsinə maraq oyatmaqdır.

### Oxu. Söz ehtiyatı

2.2.1 "Göyqurşağı necə yaranır" mətni aşağıdakı ardıcıllıqla oxunur:

1. Müəllim əvvəlcədən mətni tapşırıq B-dəki şəkillərə uyğun hissələrə bölməlidir. Bir şagird seçilmiş hissəni oxuyub dayanır, sonra müəllim oxunulan hissəyə aid şəkli müəyyənləşdirməyi tapşırır; məsələn: "Hava tutulur, göy üzünü qara buludlar alır. Şimşək çaxır". Müəllim: "*Aşağıdakı şəkillərdən hansı oxuduğun hissəyə aiddir?"* sualını verir. (Tapşırıq B, dərslik, 4-cü şəkil.)

2. Oxu prosesində mənası aydın olmayan sözlər əvvəlcə şagirdlərdən soruşulur, fərziyyələr dinlənilir, daha sonra müəllim tərəfindən izah olunur. Həmin sözlər şagirdlərin "Söz boğçasına" daxil edilir.

**Müəllimin nəzərinə!** "Söz ehtiyatı" rubrikasında verilən sözlərin izahı üçün müəllim sinfin səviyyəsinə uyğun olaraq sözün ən asan izahetmə

üsulunu seçməlidir; məsələn: “qövs” sözünü izah etmək üçün adi plastik xətkeşi əymək və ya lövhədə yarımçevrə çəkmək olar.

2.1.2 **Tapşırıq A (iş dəftəri).** Yeni öyrədilən sözlər mənimsədilir.

2.2.5 **Tapşırıq B (dərslik**). Bu tapşırığın əsas məqsədi şagirdlərin hadisələrin düzgün ardıcıllığını müəyyənləşdirmək bacarığını inkişaf etdirməkdir.

2.2.3 **Tapşırıq C (dərslik). Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Göyqurşağı necə yaranır" mətnini oxuyarkən yeni rast gəldikləri məlumatları (göyqurşağının yaranma ardıcıllığı, forması, daha çox yaz fəslində görünməsi, 7 rəngdə olması və s.) ötən dərsdə tanış olduqları "Rənglərin söhbəti" mətnindən aldıqları informasiya ilə (göyqurşağı rənglərində olan varlıqlar) müqayisə edirlər.

**Yazı**

3.1.1 **Tapşırıq Ç və D (dərslik).** Bu tapşırıqda verilmiş tapmacalar mətnin əsas məzmununu əks etdirən açar sözlərlə bağlıdır. Şagirdlər həmin sözləri cümlədə düzgün işlətmək, hüsnxət normalarına uyğun üzündən köçürmək bacarıqlarını nümayiş etdirirlər.

2.2.5 **Tapşırıq C (iş dəftəri). Riyaziyyat və təsviri incəsənət fənləri ilə inteqrasiya.** Məqsəd göyqurşağının təbii rəng ardıcıllığını şagirdlərə mənimsətməkdir. Tapşırıq aşağıdakı ardıcıllıqla yerinə yetirilir: 1) misallar həll edilir; 2) cədvəldə hər bir misalın cavabına uyğun rəng tapılır və göyqurşağının uyğun zolağı rənglənir.

**Dil qaydaları**

4.1.5 **Tapşırıq E (dərslik).** Bu tapşırıqda məqsəd ad, əlamət, hərəkət və say bildirən sözləri qruplaşdırmaqdır.

**Tapşırıq Ə (dərslik).** Şagirdlər adıçəkilən varlıqlara xas olan hərəkətləri uyğunlaşdırır və yazırlar. (*Hava tutulur. Günəş çıxır. Yağış yağır. Şimşək çaxır.*)

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İllüstrasiyaların ardıcıllığını müəyyən edir. | Tap. B (dərslik) |
| Mətndəki faktları müəyyən edir. | Tap. C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Sözü cümlədə işlətməklə mənasını anladığını nümayiş etdirir. | Tap. A (iş dəftəri) |
| Əlyazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür. | Tap. D (dərslik) |
| Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır. | Tap. E (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Qrup işi üçün üzərində rəqəmlər (10-a qədər) və *a, b, c* yazılmış kartların hazırlanması tövsiyə olunur.

## 3-cü dərs. Şeir və nağıl

• Dərslik: səh. 72-73 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

- Cümlələri köçürərkən sözlər arasında ara məsafəsi saxlayır (st. 3.1.1).
- Şeirin əsas struktur elementlərini (misra) fərqləndirir (st. 2.2.2).
- Heca vəznli şeirdə misralardakı hecaların sayını müəyyənləşdirir (st. 2.2.2).
- Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır (st. 2.1.4).
- Şeiri nəsrə çevirərək nəql edir (st. 2.2.2).
- Oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

• **Köməkçi vasitələr:** üzərində rəqəmlər (10-a qədər) və a, b, c yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ay şəklinə diqqətin yönəldilməsi |
| 2 | **Oxu** | Sözləri bitişik verilmiş şeir parçasının oxusu və köçürülməsi. Şeir və hekayəyə çevrilmiş mətnlərin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Yeni öyrədilən anlayışların (*şeir, hekayə, misra, cümlə)* fərqləndirilməsi; şeir parçasının nəsrə çevrilməsi |
| 4 | **Yazı** | Şeir parçalarının məzmununun yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Şagirdlərin diqqəti dərslikdə verilmiş (səh. 72) Ay şəklinə yönəldilir. Şagirdlər Ay haqqında bildiklərini söyləyirlər. Müəllim lövhədə Ay şəkli çəkir və ya “Ay” sözünü yazır, kənarlarına isə şagirdlərin Ay haqqında söylədikləri fikirləri qeyd edir.

**Oxu**

2.2.2 3.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəklin, müzakirə zamanı söylənən fikirlərin, lövhədə yazılan əlamətlərin (açar sözlər) köməyi ilə sözləri bitişik şəkildə verilmiş şeir parçasını oxuyurlar. Tapşırıq həmçinin yazı məzmun xətti ilə inteqrasiya

olunur. Şagirdlər şeir parçasındakı sözləri düzgün şəkildə ayırıb üzündən köçürürlər. Sonra müəllim mətnin forması ilə bağlı onların fikirlərini soruşur:

*– Neçə sətir yazdınız? Hansı sətir cümlə deyil, lakin böyük hərflə başlayır? Sətirlərin sonunda hansı durğu işarələri var?*

2.2.2 **“Bunları bilməliyik” rubrikası.** “Uşaq və buz” şeirinin bir parçası və onun nəsrlə ifadəsini müqayisə etməklə şagirdlər şeirlə hekayə arasındakı fərqlə bağlı ilkin təsəvvürə malik olurlar.

**Müəllimin nəzərinə!** 1-ci sinif şagirdləri üçün "nəsr" və "nəzm" terminləri mücərrəd səsləndiyindən bu mərhələdə "şeir", "hekayə", “nağıl” sözlərindən istifadə edilməsi məqsədəuyğundur.

Şagirdlər rubrikada verilmiş şeir və hekayə nümunələrini oxuyur, müəllimin yönəldici sualları ilə onlar arasındakı fərqi müəyyən edirlər:

*– Verilmiş hər iki nümunə mətn adlanır. Bəs bu mətnlər nə ilə fərqlənir?*

Bu mərhələdə nəzmlə nəsri fərqləndirmək üçün aşağıdakı cəhətlər vurğulanır:

*1. Şeirdə hər sətir cümlə olmasa belə, böyük hərflə başlanır. Bu cür sətirlər misra adlanır.*

*2. Şeir müəyyən ritmlə oxunur. (Musiqi ilə inteqrasiya)*

2-ci fərqi şagirdlərin nəzərinə çatdırmaq üçün müəllim musiqi dərsində keçdikləri “ritm” mövzusunu yada salır. “Oynaq topum” mahnısını səsləndirir. Şagirdlərə mahnının ahənginə uyğun qələmi partaya vurmalarını və ya əl çalmalarını tövsiyə edir. Daha sonra “Uşaq və buz” şeirini vəznlə oxuyur. Şagirdlərə isə eyni qayda ilə şeirin ahənginə uyğun qələmi partaya vurmağı tapşırır. Beləliklə, şeirdə ritm haqqında təsəvvür yaradılır.

### Oxuyub-qavrama

**Tapşırıq B (dərslik).** Məqsəd əvvəlki bölmələrdə şeir və hekayə formasında yazılmış mətnləri şagirdlərə xatırlatmaqla bu anlayışları daha dərindən mənimsətməkdir.

Mətnlərin adlarının qarşısında onların dərslikdə yeri (səhifələr) göstərilmişdir. Şagirdlər ikirəqəmli ədədləri tam oxuya bilmədikləri üçün müəllim səhifələrin tapılmasında onlara istiqamət verməlidir. Şagirdlər əvvəlcə onluq yerində duran rəqəmi, sonra isə təklik yerində duran rəqəmi yadda saxlayıb səhifəni tapırlar. Tapşırığın bu qayda ilə yerinə yetirilməsi həm də şagirdlərin kitabla işləmək bacarıqlarını formalaşdırır.

**Tapşırıq A (iş dəftəri).** Tapşırığın məqsədi *şeir, hekayə* anlayışlarının mənimsədilməsidir.

**Tapşırıq C (dərslik).** Tapşırıq üç mərhələdə yerinə yetirilir.

1. Bütün sinif şeir parçasındakı misraların sayını müəyyən edir.

2. **Dil qaydaları ilə inteqrasiya.** Tapşırığın 2-ci mərhələsinin **qruplarla iş** formasında yerinə yetirilməsi məqsədəuyğundur. Müəllim hər qrupa bir misra verir. Onlar misralardakı hecaların sayını müəyyən edirlər. Hər bir qrupun nümayəndəsi təqdimat zamanı hecaların sayını göstərən kartı nümayiş etdirir. Qrupların hamısı eyni nəticəni göstərir. Bu zaman müəllim ümumiləşdirmə aparır:

*– Şeirdəki bütün misralarda hecaların sayı eynidir.*

2.1.4 **C tapşırığının (dərslik) 3-cü mərhələsi.** *“Hansı şəkil “Ay” şeirinin 2-ci misrasındakı təsvirə uyğundur?”* sualını şagirdlər *a, b, c* kartları ilə cavablandırırlar. Şagirdlər əvvəlcə misranın yerini müəyyənləşdirir, sonra misranın məzmununa uyğun şəkli seçməklə ("a" şəkli) oxuyub qavradıqlarını nümayiş etdirirlər.

Bu tapşırıq şagirdlərdə oxuduqları informasiyanı təxəyyüllərində canlandırmaq (*Arıq olub çöp kimi, Dönüb olub top kimi*), bənzəyənlə bənzədilən arasında oxşar əlamətləri müəyyənləşdirmək bacarıqlarını formalaşdırır.

**Əlavə tapşırıq.** Müəllim şeirin 4-cü misrasına (*Dönüb olub top kimi*) aid olan illüstrasiyanı müəyyənləşdirməyi tapşırır.

Müəllim lövhədə *oraq, dairə, yarımdairə* sözlərini yazaraq şagirdlərdən şəkillərə uyğun sözləri seçməyi tapşırır. Şagirdlər ***b*** şəklinə “yarımdairə”, ***c*** şəklinə “dairə” sözlərinin (riyaziyyat fənni ilə inteqrasiya) uyğun gəldiyini tapandan sonra “oraq” sözünün də "a" şəklinə uyğun olduğu nəticəsinə gəlirlər. Müəllim "hilal", "aypara", "bədirlənmiş ay" sözlərini də şagirdlərin nəzərinə çatdırıb “Söz boğçası”na əlavə edə bilər.

**Müəllimin nəzərinə!** Aypara, hilal: Ayın nazik qövs şəklində olan dövrü, yeni ay, bir-iki günlük ay. Bədirlənmiş ay: tam dairə şəklinə düşmüş, dolğunlaşmış, on dörd gecəlik.

2.2.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər qazandıqları bilik və bacarıqları müstəqil şəkildə nümayiş etdirirlər.

2.2.2 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Hər qrup bir şeir parçasını nəsrə çevirib şifahi şəkildə təqdim edir.

### Yazı

3.1.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər verilmiş şeir parçalarını hekayə şəklində ifadə etməklə

yaradıcı yazı bacarıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümləri köçürərkən sözlər arasında ara məsafəsi saxlayır. | Tap. A (dərslik) |
| Şeirlə hekayəni fərqləndirir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Şeirdə misralardakı hecaların sayını müəyyənləşdirir. | Tap. C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Şeiri nəsrə çevirərək nəql edir. | Tap. Ç (dərslik) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə nümayiş etdirmək üçün müxtəlif səma cisimlərinin şəkillərinin gətirilməsi tövsiyə olunur.
Qrup işinin təşkili üçün müəllim dərslikdə verilmiş "Rəssam Günəş" mətnindən 4 nüsxə hazırlayır.

## 4-cü dərs. “Rəssam Günəş”

- Dərslik səh. 74
- İş dəftəri: səh. 55

### Təlim məqsədləri

- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. (st. 1.1.1).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır. (st. 3.1.2).
- Eyni məzmunda olan nəzm və nəsrlə yazılmış mətnləri müəyyənləşdirir (st. 2.2.2).
- Verilmiş illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyənləşdirir. (st. 2.2.3).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif səma cisimləri şəkillərinin nümayişi |
| 2 | **Dinləmə** | “Bip-bip"in nəğməsi” şeiri |
| 3 | **Oxu** | “Rəssam Günəş” mətninin oxusu |
| 4 | **Yazı** | Şəklə uyğun sözlərin yazılışı, şeirin bir hissəsinin köçürülməsi |
| 5 | **Dil qaydaları** | Sözdəki orfoqramın müəyyənləşdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim müxtəlif səma cisimlərinin şəkillərini şagirdlərə nümayiş etdirərək adlarını soruşur.

### Dinləmə

**1.1.1** Müəllim Teymur Elçinin “Bip-bip”in nəğməsi” şeirindən bir parçanı söyləyir və ya şərait varsa, nəğməni səsləndirir.

Uçdu göylərə
Bizim peykimiz,
Söylədi Yerə:
– Yol gedirik biz.
Bip-bip, bip-bip,
Göylər min rəngdir,
Burda ulduzlar
Gör nə qəşəngdir.
Günəşdən, Aydan
Salam var sizə,
Nəğmə deyirəm
Uşaqlar, sizə.

Müəllim şeiri səsləndirdikdən sonra şagirdlərə suallar verir:

– *Şeirdə hansı səma cisimlərinin adları çəkilir?*

**Tapşırıq A (dərslik).** Şagirdlər müəllimin yönəldici sualları vasitəsilə səma cisimləri haqqında bildiklərini danışırlar.

– *Günəş nə zaman çıxır?*
– *Ay və ulduzlar nə zaman göy üzünü bəzəyir?*
– *Səma cisimləri haqqında daha nə bilirsiniz?*

**3.1.2** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər dinlədikləri mətnlə bağlı açar sözlərə aid şəkillərə baxaraq onların adlarını yazırlar.

### Oxu. Söz ehtiyatı

**Tapşırıq B (dərslik).** "Rəssam Günəş" şeiri şagirdlər tərəfindən növbəli oxunur. Bu zaman müəllim mətnin düzgün oxunmasına nəzarət edir. Düzgün oxu mətnin məzmununun dərk edilməsinə zəmin yaradır. Mətndəki bəzi sözləri *(ertə, min, rəng vurmaq* və s.) əvvəlcədən yazı taxtasına yazmaq uşaqları düzgün oxuya hazırlayır. Oxunmuş mətni şagirdlərə yenidən oxutmaq “oxu sahəsini” genişləndirir.

### Oxuyub-qavrama

**2.2.2** Bu tapşırıq vasitəsilə şagirdlər nəzm və nəsrlə verilmiş mətnin hissələrini uyğunlaşdırmaqla eyniməzmunlu mətn parçalarını oxuyub anladıqlarını nümayiş etdirirlər.

Tapşırığın qrup işi formasında yerinə yetirilməsi məqsədəuyğundur.

**Qruplarla iş.** Bir qrupun nümayəndəsi şeirin müəyyən rəngdə verilmiş hissəsini oxuyur, başqa bir qrupun nümayəndəsi isə həmin hissəyə uyğun

nəsr parçasını tapıb təqdim edir. Təqdimatlar bu formada davam edir.

**2.2.3** **Tapşırıq C (dərslik).** İllüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırmaq bacarığını inkişaf etdirir. (*Cavab:* “Bənövşəyi rənglə verilmiş misralar”)

**2.2.3** **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin "Rəssam günəş" şeiri ilə bağlı oxuyub anlamasını yoxlamaqla bərabər çap hərfləri ilə verilmiş mətni köçürmək bacarığını da inkişaf etdirir.

### Dil qaydaları

**4.1.3** Şagirdlərin diqqəti "Sözlərin yazılışı" rubrikasına yönəldilir. "Göy qurşağı" fəslində öyrədilən yazılışı və tələffüzü fərqli sözlərin düzgün yazılış forması şagirdlərə göstərilir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırıqda səhv verilmiş sözləri orfoqrafiya qaydalarına uyğun olaraq düzgün yazmaqla bəzi orfoqrafik normaları mənimsədiklərini nümayiş etdirirlər.

Tapşırıq yerinə yetirildikdən sonra şagirdlərə "Sözlərin yazılışı" rubrikasında verilən sözlər üzrə imla yazdırılması tövsiyə olunur.

**Diferensial təlim**

İmla yazmaqda çətinlik çəkən şagirdlərə “Sözlərin yazılışı” rubrikasındakı sözləri üzündən köçürmək tapşırıla bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | MV |
| Şeiri nəsrə çevirərək nəql edir. | Tap. B (dərslik) |
| Verilmiş illüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Sözün düzgün yazılışını müəyyən edir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə müxtəlif həşərat şəkilləri gətirmək tapşırılır.

fəsil 2 İLBİZ

## 1-ci dərs. “İlbizin çanağı” (I hissə)

• Dərslik: səh. 75-76 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

- Sözün ifadə etdiyi şəkli müəyyənləşdirir (st. 2.1.1)
- Mətni oxuyarkən tanış olmayan sözlərə diqqət yetirir (st. 2.1.1).
- Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir (st. 2.2.3).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Həşərat şəkilləri üzrə iş |
| 2 | **Oxu. Söz ehtiyatı** | "İlbizin çanağı" mətninin məzmununun təxmin edilməsi, oxusu və yeni sözlərin mənimsədilməsi |
| 3 | **Yazı** | Mətnlə bağlı şəkillərə aid cümlələrin yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin gətirdikləri şəkilləri lövhədən asaraq onların adlarını soruşur. Şagirdlər şəkildə verilmiş canlılar haqqında bildikləri məlumatları danışırlar.

### Oxu. Söz ehtiyatı

**2.1.1** **Tapşırıq A (dərslik).** Əsas məqsəd şagirdlərin həyatda gördükləri, tanıdıqları həşəratların adlarını öyrətməklə söz ehtiyatını möhkəmləndirmək, eyni zamanda oxu bacarığını (sözlə şəklin əlaqəsi) inkişaf etdirməkdir. Şagirdlər tapşırığı yerinə yetirməklə həm də "İlbizin çanağı" mətnində iştirak edən obrazlarla tanış olurlar.

**Tapşırıq B (dərslik).** Kitabın adını (“İlbizin çanağı”) oxuyan şagirdlər onun cildində təsvir olunmuş ilbiz şəklinə baxaraq müəllimin yönəldici sualları vasitəsilə "çanaq" sözünün mənasını dəqiqləşdirir və oxuyacaqları mətnin məzmununu təxmin edirlər:

– *Kitabın üz qabığında nə görürsünüz?*

– *Kitabın adı nədir? ("Çanaq" sözünün mənası təsvirə uyğun təxmin edilir.)*

– *Sizcə, bu kitabda nə haqda danışılır?*

– *İlbiz haqqında nə bilirsiniz?*

**2.1.1** **Tapşırıq C (dərslik). Növbəli oxu.** Şagirdlər "İlbiz" mətninin 1-ci hissəsini növbə ilə səsli oxuyurlar. Şagirdlərdən tanış olmayan sözlərin (*naxış, leysan* və s.) təxmini mənası soruşulur. Sonra müəllim sözlərin dəqiq mənasını açıqlayır. Sözlər kartlara yazılaraq "Söz boğçası"na əlavə edilir.

**Müəllimin nəzərinə!** "Söz boğçası" rubrikasında verilən sözlərin izahı: *Çanaq* – bəzi heyvanların (tısbağa və s.) bədənini örtən sərt qabıq; *Naxış* – bəzək; *Leysan* – güclü yağış.

### Oxuyub-qavrama

**2.2.3** Şagirdlər oxu prosesindən sonra müəllimin yönəldici sualları vasitəsilə mətnin hissələri ilə illüstrasiyalar arasındakı uyğunluğu müəyyən edirlər.

**Müəllimin nəzərinə:** Birinci şəkildə müəllim diqqəti tırtılın evinə yönəldərək şagirdlərə mətndə verilməyən əlavə məlumatları çatdıra bilər; məsələn: *"Nəyə görə rəssam tırtılı yarpaqların arasında çəkib?" (Tırtıl yarpağın üstündə yaşayır və yarpaqla qidalanır.)*

**2.2.5** **Tapşırıq Ç (dərslik). Tapşırıq A (iş dəftəri).** Şagirdlərin oxuyub-anlama bacarığını möhkəmləndirir.

**Tapşırıq D (dərslik).** Şagirdlər yeni öyrəndikləri anlayışın ("çanaq" sözünün) əsas əlamətlərini yeni bir əşyaya (heyvana) aid etməklə yeni sözü mənimsədiklərini nümayiş etdirirlər.

**2.2.3** **Tapşırıq C (iş dəftəri).** Şagirdlər açar sözlərdən istifadə etməklə tapmacaların cavabını tapırlar. Bu isə onların məntiqi oxu bacarığını inkişaf etdirir.

### Yazı

**3.1.2** **Tapşırıq B (iş dəftəri).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Şagirdlər:

1) mətnə əsasən şəkillərin düzgün ardıcıllığını müəyyənləşdirir və uyğun rəqəmləri boş xanaya yazırlar. (Doğru cavab: 3, 2, 1).

2) hər şəkli bir cümlə ilə ifadə edərək yazırlar.

Düzgün cavablar:

*1. Dostlar Tırtılın yanına gedirlər. 2. Tırtıl İlbizin çanağını bəzəyir. 3. İlbiz çanağını bəyənir.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözə uyğun şəkli müəyyən edir. | Tap. A, B (dərslik) |
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir. | Tap. C (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. Ç, D (dərslik) Tap. A (iş dəftəri) |
| Tapmacadakı açar sözləri müəyyənləşdirir. | Tap. C (iş dəftəri) |
| Şəklə uyğun cümlələr qurub yazır. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. "İlbizin çanağı" (II hissə)

• Dərslik səh. 76-77 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**
- Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Sözü təşkil edən hecaları müəyyən edir (st. 4.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "İlbizin çanağı" mətninin (1-ci hissə) xatırlanması |
| 2 | **Oxu** | "İlbizin çanağı" mətninin (2-ci hissə) oxusu |
| 3 | **Oxuyub-qavrama** | Oxu materialının qavranılması üzrə iş |
| 4 | **Dil qaydaları** | Sözü təşkil edən hecaların müəyyənləşdirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

• **Köməkçi vasitələr:** doğru və yanlış smaylikləri.

### Mövzuya yönəltmə

Müəllim "İlbizin çanağı" mətninin 1-ci hissəsini xatırladır: – *İlbiz nədən şikayətlənirdi? (Bəzəksiz çanağından və çanağını belində daşımaqdan.) İlbiz hansı istəyinə çatdı? (Çanağı rəngbərəng oldu.)*

**Proqnozlaşdırma.** Müəllim: "Sizcə, İlbiz yenə də çanağından şikayət edəcəkmi?" sualı vasitəsilə şagirdlərdə mətnə maraq yaradır.

### Oxu

Şagirdlərin diqqəti mətnlə bağlı şəklə yönəldilir. Bu, şagirdlərin oxusunu asanlaşdırır. Şagirdlər növbə ilə mətni oxuduqdan sonra şəkildə təsvir olunan hissəni tapıb yenidən səsləndirirlər.

### Oxuyub-qavrama

**2.2.4** **Tapşırıq B (dərslik).** Şagirdlər "İlbizin çanağı" mətninin son cümləsini müəyyən etməklə

mətnin ideyasını anladıqlarını nümayiş etdirirlər. Bu zaman şagirdlər öz seçimlərini əsaslandırmalıdırlar.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər hadisələrin ardıcıllığını müəyyən etməklə mətndəki əsas faktları oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik).** Tapşırığın əsas məqsədi şəkilləri hadisələrin ardıcıllığına uyğun müəyyənləşdirməklə şagirdlərin şüurlu oxusunu və şifahi nitqini inkişaf etdirməkdir. İş dəftərindəki A tapşırığının yerinə yetirilməsi şagirdlərin şəkillər üzrə nəqletməsini asanlaşdırır.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

2.2.4 **Tapşırıq D (dərslik).** Şagirdlər tərəfindən mətnin qavranılmasını yoxlamaq məqsədi daşıyır. Şagirdlər oxuduqları fikirlərin doğru və yanlış olduğunu "smaylik"lər vasitəsilə göstərirlər.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərin hekayə xəritəsi qurmaq bacarığını formalaşdırmaqdır.

### Dil qaydaları

4.1.2 **Tapşırıq E (dərslik) və tapşırıq C (iş dəftəri).** Sözü hecalara ayırmaq bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş cümlənin mətndəki ardıcıllıqda yerini müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətni ardıcıllıqla nəql edir. | Tap. C (dərslik) |
| Səbəb və nəticə əlaqəsini müəyyənləşdirir. | Tap. Ç (dərslik) |
| Hekayə xəritəsini tamamlayır. | Tap. B (iş dəftəri) |
| Sözü təşkil edən hecaları müəyyən edir. | Tap. E (dərslik)<br>Tap. C (iş dəftəri) |

## 3-cü dərs. “İlbizlər”

• Dərslik səh. 77-78 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir (st. 2.2.3).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Sirli canlılar" kitabının üz qabığı üzrə sual-cavab |
| 2 | **Oxu** | “İlbizlər” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndə öyrənilən faktların analizi |
| 4 | **Yazı** | Mətnlə əlaqəli sualların tərtib olunması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərin diqqəti dərslikdə verilmiş "Sirli canlılar" kitabının üz qabığına yönəldilir. Suallar: – *Kitabın adı nədir? Kitabın üz qabığında hansı heyvanlar görürsünüz? (ilbiz, buqələmun, bayquş, yarasa) Bu heyvanlar haqqında nə bilirsiniz? Heyvanların hansı xüsusiyyətləri sizə sirli gəlir?*

"Buqələmun", "bayquş", "yarasa" sözləri bölmənin "Söz boğçası"na əlavə olunur.

**Müəllimin nəzərinə!** Buqələmun təhlükə hiss etdikdə bədəninin rəngini və şəklini dəyişir. Bayquşlar gündüzlər görmürlər və gecələr ova çıxırlar.

Yarasalar quş kimi uçur, amma quş deyil. Həm də səs siqnalları vasitəsilə “görürlər”.

Müəllim növbəti dərs üçün şagirdlərə buqələmun, bayquş, yarasa haqqında məlumat toplamaq tapşırığı verə bilər.

### Oxu

**Tapşırıq A (dərslik). İnteraktiv (qruplarla) oxu.** Şagirdlər üç qrupa ayrılır. Hər qrup mətnin bir abzasını oxuyub yeni məlumatları qeyd edir.

### Oxuyub-qavrama

2.2.5 Qruplarla oxu bitdikdən sonra təqdimat zamanı hər qrup öz abzasını oxuyur və qeydlərini təqdim edir. O biri qruplar oxu və təqdimat zamanı digər qrupu izləyərək yeni məlumatların doğru təqdim olunduğunu qiymətləndirirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər "İlbiz üç il qidalanmadan yata bilər" faktının mətndə əks olunmadığını müəyyənləşdirməklə oxu zamanı diqqətli olduqlarını nümayiş etdirirlər. Müəllim bu faktın da doğru olduğunu onların nəzərinə çatdırır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlərin oxuduqları məlumatları analizetmə bacarığını inkişaf etdirir.

2.2.3 **Tapşırıq C (dərslik).** Tapşırıqda şagirdlər mətndə öyrəndikləri faktları illüstrasiyalarla müqayisə edərək ikinci şəklin mətnin məzmununa uyğunluğunu tapırlar. Bu zaman şagirdlər öz cavablarını mətnə istinad etməklə əsaslandırmalıdırlar.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər onlara təqdim edilmiş faktların mənbəyini (faktın aid olduğu kitabı) müəyyən edirlər.

### Oxu. Yazı

3.1.4 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda şagirdlərdən informativ mətndə əsas məqamları seçmək və bu məqamlarla bağlı yazılı sual tərtib etmək bacarığı tələb olunur.

**Diferensial təlim**

**Dəstək.** Çətinlik çəkən şagirdlərə müəllim mətni yenidən oxumağı və ya mətndən seçdiyi cümləyə sual verməyi tapşıra bilər.

**Dərinləşdirmə.** Tapşırığı tez yerinə yetirən şagirdlərə dəftərlərində başqa suallar və ona uyğun cavablar yazmaq tapşırığı verilə bilər.

3.1.5 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq vasitəsilə sözləri orfoqrafiya qaydalarına uyğun yazmaq bacarığı inkişaf etdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. A, B, Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir. | Tap. C (dərslik) |
| İnformativ mətndəki məlumatlar haqqında suallar hazırlayır. | Tap. B (iş dəftəri) |
| Sadə orfoqrafiya qaydalarına əsasən cümlədəki səhvləri düzəldib yazır. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Şagirdlərə buqələmun, yarasa, bayquş, ilbiz haqqında məlumat toplamaq tapşırılır. Şagirdləri stimullaşdırmaq üçün qalın kağızın üzərində müxtəlif nağıl obrazları olan "Ən yaxşı nağılbaz" prizi hazırlamaq tövsiyə olunur.

## 4-cü dərs. Yaxınmənalı sözlər

• Dərslik: səh. 78-79 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Cümlədəki sözü yaxınmənalı analoqu ilə əvəz edir. (st. 2.1.3).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5).
- Oxuduğu mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Buqələmun, yarasa, bayquş və ilbiz şəkillərinin nümayişi |
| 2 | **Danışma** | Şagirdlərin topladıqları məlumatların təqdimatı |
| 3 | **Söz ehtiyatı** | Yaxınmənalı sözlərin filoloji izahı |
| 4 | **Yazı** | Şəkillər üzrə cümlələrin qurulması; Sözlərin orfoqrafiya qaydalarına uyğun yazılışı |
| 6 | **Danışma** | Şəkillər üzrə danışma |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim buqələmun, yarasa, bayquş, ilbiz şəkillərini lövhədə yerləşdirir. Sonuncu sırada ilbizin şəkli yerləşdirilir.

### Danışma

1.2.1 **Cütlərlə iş.** Şagirdlər topladıqları məlumatları müəllimin göstərişinə əsasən cütlərdə müzakirə edirlər. Şagirdlər buqələmunla bağlı təqdimat edib növbəti heyvan haqqında müzakirə edirlər. Bu qaydada cütlərlə iş davam etdirilir. Bununla da toplanılan məlumatları başqası ilə müzakirə etmək və faktları ümumiləşdirib şifahi təqdim etmək bacarıqları inkişaf etdirilir.

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq A (dərslik).** "İlbizin çanağı bərk olur" cümləsi oxunur və "bərk" sözünün yaxınmənalı qarşılığı müəyyən olunur ("möhkəm").

**"Bunları bilməliyik" rubrikası.** Müəllimin yönəldici sualları ilə yaxınmənalı sözlərin mahiyyəti mənimsədilir:

– *1-ci şəkildə nə görürsünüz? İlbiz nə edir?* (İlbiz güzgüdə özünü bəyənir. "Bəyənir" sözünü "xoşlamaq" ifadəsi ilə əvəz etmək olar)

– *2-ci şəkildə nə görürsünüz? İlbizin çanağı necədir?*

**Tapşırıq B (dərslik).** Şagirdlərin sözü yaxınmənalı analoqu ilə əvəz etmək bacarığı inkişaf etdirilir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş sözlərin yaxınmənalı analoqunu tapıb yazmaqla yeni anlayışı mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik) və tapşırıq B (iş dəftəri).** Məqsəd yaxınmənalı sözlərin mənimsədilməsi və şagirdlərdə hüsnxət normalarına uyğun yazı bacarığının inkişaf etdirilməsidir.

**Yazı**

3.1.2 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin şəkildə gördüklərini yazılı şəkildə ifadə etmək bacarığını formalaşdırmaq məqsədi daşıyır.

**Müəllimin nəzərinə:** Şagirdlər şəkillərə uyğun təxminən bu cavabları yaza bilərlər: *"Fil ağacdan banan dərir. Fil odunu maşına yükləyir. Fil öz üzərinə su çiləyir. Fil suyun altında xortumu ilə nəfəs alır".*

3.1.5 **"Sözlərin yazılışı" rubrikası.** Müəllim rubrikada verilən sözləri lövhədə yazır. Hər bir sözün düzgün yazılışı və tələffüzü müzakirə olunur. Sözlərin üstü örtülür, müəllimin diktəsi ilə yazılır. Şagirdlər parta yoldaşı ilə bir-birinin yazdıqlarını yoxlayırlar.

**Danışma**

1.2.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin təxəyyülünü və yaradıcı təfəkkürünü inkişaf etdirmək məqsədi daşıyır.

**Qruplarla iş.** Şagirdlər 4 qrupa bölünürlər. Hər qrup verilmiş abzası davam etdirərək nağıl qurur. Təqdimatlar dinlənilir.

**Diferensial təlim.** Müəllim çətinlik çəkən şagirdlərə aşağıdakı variantları təklif edə bilər.

1. Biri var idi, biri yox idi, bir fil var idi. Filin xortumu çox uzun idi. Hərəkət edərkən ona mane olurdu. Fil burnunun bu qədər uzun olmasından narazı idi. Bunu dostu Zürafəyə də söylədi. Zürafə dedi:

– Bəs düşünmürsən ki, xortumun olmasaydı, bu qədər rahat su içməyi, yük daşımağı necə bacarardın? Məncə, xortumun sənə xeyri çoxdur.

Fil düşündü və dostunun haqlı olduğunu gördü.

2. Bir gün ulaqla zebr rastlaşdılar. Ulaq zebrə dedi: "Sənin nə gözəl zolaqların var. Amma mən uzunqulaqlı, qapqara bir heyvanam. Zebr gülümsündü:

– Ancaq insanlar səni daha çox sevirlər. Səni həyətlərində bəsləyirlər, özlərinə dost bilirlər. Mən isə onlar üçün bir çöl heyvanıyam". Məncə, sevilmək bəzəkli olmaqdan daha yaxşıdır.

3. Bir gün dəvə öz-özünə düşündü: "Görəsən, niyə mənim belim əyridir. Mənim də at kimi yaraşıqlı qamətim olsa, nə gözəl olardı". At kişnəyərək cavab verdi:

– Belinin əyrisi səni səhranın ortasında susuzluqdan qoruyur, əziz dost. Sən heç birimizin dözə bilməyəcəyi uzun səyahətlər edirsən.

Bu sözlərdən sonra dəvə bir daha belindən şikayət etmədi.

4. Bayquş yalnız gecələr yuvasından çıxırdı. Gündüzlər isə həsrətlə başqa quşların səsinə qulaq asıb düşünürdü: "Kaş mən də işıqda görə biləydim." Bir gün yarasaya da şikayətləndi. Yarasa dedi:

– Eh, dostum, onlar oxuyur, sən isə əla eşidirsən. Heç bir quşun qaranlıqda görə bilməyəcəyi qədər iti görürsən. Ən güclü quşlardansan. Səncə, bunlar azdır?

Bayquş gözlərini döydü. Sən demə, onun da yaxşı cəhətləri varmış.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə bir-birinin fikirlərinə hörmətlə yanaşmağı, təqdimat edən şagirdin sözünü kəsməməyi xatırladır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Şagirdlərin gətirdikləri şəkillər |
| Cümlədəki sözü yaxınmənalı analoqu ilə əvəz edir. | Tap. A, B, C (dərslik). Tap. A, B (iş dəftəri) |
| Kompozisiyalı şəklə uyğun cumlələr qurub yazır. | Tap. C (iş dəftəri) |
| Sözlərdəki səhvləri düzəldir. | "Sözlərin yazılışı" rubrikası |
| Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə günəbaxan, göbələk, qərənfil, qarğıdalı bitkilərinin adı və ya şəkli əks olunmuş söz kartları hazırlamaq, hər bir kartın arxa tərəfində uyğun əlamətlər yazmaq tövsiyə olunur.

## fəsil 3 GÖBƏLƏK

### 1-ci dərs. "Ağ göbələk"

• Dərslik: səh. 80-81 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır (st. 2.1.4).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. (st. 2.2.5).
- Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bir neçə bitkinin əlamətlərinin müəyyən olunması |
| 2 | **Oxu. Söz ehtiyatı** | " Ağ göbələk" şeirinin oxusu. "Söz boğçası" üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Göbələklə bağlı mətnlərdə faktların müqayisəsi |
| 4 | **Yazı** | "Göbələk" şeirindən bir hissənin üzündən köçürülməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Müəllim hazırladığı söz kartlarının əlamətlər yazılmış arxa tərəfini nümayiş etdirir; məsələn: *"Bitkidir, çiçəyi sarı rəngdədir, tumları yeyilir, günəşə bənzədilir"* və s. Doğru cavab müəyyən olunanda müəllim kartın üz tərəfini (bitkinin adı və ya şəkli olan) nümayiş etdirir.

## Oxu. Söz ehtiyatı

2.1.4 2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər tapmacanı cütlərlə oxuyur, cavabını birlikdə müzakirə edirlər. Cavabı tapmaqda kömək edən əlamətləri (birayaqlı olması və papağa bənzəməsi və s.) sadalayırlar. Məqsəd şagirdlərin oxuyacağı mətnə ("Ağ göbələk" şeirinə) maraq oyatmaqla məntiqi düşünmə bacarığını inkişaf etdirmək, söz ehtiyatını zənginləşdirməkdir.

**Tapşırıq B (dərslik). İstiqamətləndirilmiş oxu.** "Ağ göbələk" şeirinin oxusundan əvvəl müəllim şagirdlərə oxu zamanı rast gəldikləri yeni məlumatlara diqqət etmələrini tapşırır. Mətn şagirdlər tərəfindən növbəli oxunur. Bu zaman müəllim şeirin düzgün oxunmasına və şagirdlərin diqqətlə izləməsinə nəzarət edir. Müəllim oxu prosesində mənası aydın olmayan sözləri (sel, kol, çətir, səbət) əvvəlcə şagirdlərdən soruşur, daha sonra yeni sözlərin izahını özü verir. Həmin sözlər şagirdlərin "Söz boğçası"na əlavə edilir.

## Oxuyub-qavrama

2.2.5 Mətn oxunduqdan sonra şagirdlərin oxuyub qavramasını yoxlamaq məqsədilə mətn və şəkil üzrə suallar verilir: *Göbələk harada bitir? Dağlarda qar nə zaman əriyir? Göbələk nə zaman çoxalır? Göbələklər harada bitir? Şeirin hansı misraları şəkildə təsvir olunub?*

**Tapşırıq C (dərslik).** Şagirdlər müəllimin köməyi ilə tapmaca və şeirdə əks olunan faktları müqayisə edərək şeirdəki yeni məlumatları (*yaz fəslində, yağışdan sonra göbələklərin çoxalması, kol dibində bitməsi, uşaqların səbətə göbələk yığması*) müəyyənləşdirirlər. Bu tapşırıq qruplarla və ya cütlərlə iş formasında da yerinə yetirilə bilər.

2.2.5 2.1.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verbal təsviri beyində canlandırıb bənzəyənlə (göbələk) bənzədilənin (çətir) oxşar əlamətlərini müəyyənləşdirmək bacarığını nümayiş etdirirlər. *Şagirdlərə "Göbələyi başqa nəyə bənzətmək olar?"* sualını verməklə onların yaradıcı təfəkkürünü inkişaf etdirmək olar.

**Tapşırıq D (dərslik).** Bu tapşırığın məqsədi şagirdlərin ad, əlamət və hərəkət bildirən sözləri bir-birindən fərqləndirmək bacarığını möhkəmləndirməkdir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər göbələklə bağlı aldıqları məlumatları analiz edirlər, doğru və yanlış məlumatlar müzakirə olunur. Şagirdlər cavablarını əsaslandırmaq üçün mətnə istinad etməlidirlər.

## Yazı. Söz ehtiyatı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırığı yerinə yetirməzdən öncə müəllim şagirdlərə belə bir sual verir: *"Sizi ailənizdə, sinifdə necə çağırırlar?"* Şagirdlər "müraciət" sözünün mənasını anlayıb "Göbələk" şeirindəki ilk misraların şairin göbələyə müraciəti olduğunu müəyyən edirlər. Tapşırıq oxu bacarığı ilə yanaşı, çap hərfləri ilə verilmiş mətni köçürmək bacarığını da inkişaf etdirir.

2.1.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər yeni öyrəndikləri sözləri cümlədə işlətməklə mənasını anladıqlarını nümayiş etdirirlər.

**Diferensial təlim**

**Dəstək.** Cümlə qurmaqda çətinlik çəkən şagirdlərə tərkibindəki sözlərin yeri dəyişdirilmiş cümlələr verməklə onlara sözləri ardıcıl düzüb cümlə yazmaq tapşırıla bilər: "Çətir bizi yağışdan qoruyur" (*qoruyur, çətir, yağışdan, bizi*).

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyən edir. | Tap. A (dərslik) |
| Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır. | Tap. C (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. Ç (dərslik). Tap. A (iş dəftəri) |
| Mətndən ad, əlamət, hərəkət bildirən sözləri seçib qruplaşdırır. | Tap. D (dərslik) |
| Kiçikhəcmli mətnləri üzündən köçürür. | Tap. B (iş dəftəri) |

| | |
|---|---|
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. Şeir, bənd, qafiyə

- Dərslik: səh. 81-82 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**
- Şeirdə qafiyəli sözləri seçir (st. 2.2.2).
- Şeirin əsas struktur elementlərini (başlıq, bənd, misra) fərqləndirir (st. 2.2.2).
- Əlyazısı şəklində olan sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Layla” beşik nəğməsi |
| 2 | **Oxu** | Şeir sonunda oxşar səslənən sözlərin müəyyən olunması, *bənd, qafiyə, şair* anlayışlarının mənimsədilməsi |
| 3 | **Yazı** | Şeir parçasını köçürmə, sözlər üzrə imla |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Musiqi ilə inteqrasiya.** “Laylay” beşik nəğməsi səsləndirilir.

*Laylay dedim, yatasan,*
*Qızılgülə batasan,*
*Qızılgülün içində*
*Şirin yuxu tapasan.*

Müəllim laylanı səsləndirməzdən əvvəl şagirdlərdən nəğmənin misrasındakı son sözlərə diqqət etmələrini tapşırır. Şeiri səsləndirdikdən sonra bu sözləri lövhədə yazır. Şagirdlər oxşar səslənən sözləri müəyyən edirlər: *yatasan, batasan, tapasan.*

### Oxu

2.2.2 **Tapşırıq A (dərslik).** Ötən dərsdə şagirdlərin öyrəndikləri “Göbələk” şeirindən bir bənd xatırlanır. Müəllim mətni səsləndirdikcə şagirdlər şeirin axırıncı sözlərini dəftərlərində qeyd edirlər. Sonra oxşar səslənən sözlər *(sellərə, çöllərə)* müəyyənləşdirilir.

**"Bunları bilməliyik" rubrikası.** *Bənd, qafiyə, şair* sözlərinin mənası şagirdlər tərəfindən cütlərdə araşdırılır. Sonra cütlər təqdimat edirlər. Faktoloji suallarla anlayışların qavranılması yoxlanılır:

*Şeirdə neçə misra var? 1-ci bənddə neçə misra var? Hansı misralar qafiyələnir? Şeirin müəllifi kimdir? Qafiyələnən sözlər hansılardır?*

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər yeni öyrəndikləri filoloji anlayışlarla *(bənd, qafiyə, şair)* bağlı bilikləri başqa bir şeir nümunəsi vasitəsilə möhkəmləndirilir. Tapşırığın qruplarla iş formasında yerinə yetirilməsi məqsədəuyğundur.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər qruplarla iş fəaliyyətində əldə etdikləri bilik və bacarıqları müstəqil şəkildə nümayiş etdirirlər.

2.2.2 **Tapşırıq C (dərslik) və tapşırıq B (iş dəftəri).** Tapşırıqlar vasitəsilə “qafiyə” anlayışı daha dərindən mənimsədilir. Birinci tapşırığı qruplarla iş şəklində yerinə yetirmək olar. Qruplar tapşırıqda verilən sözləri oxuyub tanış olduqdan sonra qrup üzvlərindən biri, məsələn, "*satdı*" sözünü deyir, digər qrup tez "*batdı*" deyə cavab verir. Oyun bu şəkildə davam edir. Tapşırıqdakı sözlər bitdikdən sonra müəllim şagirdlərə bir söz deyir, qruplar oxşar səslənən başqa bir söz söyləyirlər. Sonra iş dəftərindəki B tapşırığı müstəqil yerinə yetirilir.

**Müəllimin nəzərinə!** Oyun aşağıdakı kimi də təşkil oluna bilər: “Oxşar söz tapın” oyunu. Müəllim bir söz deyib əlindəki topu şagirdə atır. Şagird topu tutur və müəllimin dediyi sözə oxşar söz deyir. Sözü tapmayan şagird oyundan çıxır. Axıra qalan şagird qalib hesab olunur.

**Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya.** Qafiyəli sözlərlə bağlı şagirdlərin söz ehtiyatı və yazı bacarığı möhkəmləndirilir.

Dağ – bağ – yağ – sağ və s.
Kol – yol – bol – sol və s.
Qar – dar – tar – nar və s.

### Yazı

3.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər şeirdə buraxılmış qafiyələnən sözləri yerinə yazmaqla hüsnxət qaydalarına uyğun üzündən köçürmək bacarıqlarını nümayiş etdirirlər.

3.1.5 **"Sözlərin yazılışı" rubrikası.** Şagirdlər rubrikada yazılışı və tələffüzü fərqli olan sözlərin düzgün yazılış formasını nəzərdən keçirirlər. Sonra müəllim həmin sözləri bir-bir səsləndirir, hər bir sözün düzgün yazılışını soruşur. Şagirdlər müəllimin tapşırığı ilə sözü hecaya ayırır, hər hecadakı səsləri ayrılıqda səsləndirir və həmin sözü dəftərlərində yazırlar. Yazının izahlı şəkildə aparılması sinfi fəallaşdırır, onların diqqətli olmasına şərait yaradır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar

və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeirin əsas struktur elementlərini fərqləndirir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Şeirdə qafiyəli sözləri seçir. | Tap. A, B, C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Buraxılmış sözləri artırmaqla kiçikhəcmli mətnləri üzündən köçürür. | Tap. Ç (dərslik) |
| Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözü düzgün yazır. | "Sözlərin yazılışı" rubrikası |

## **3-cü dərs.** “Xeyirxah göbələk”

• Dərslik: səh. 83-84 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Diqqət şəkillərə yönəldilir |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Xeyirxah göbələk” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndə hadisələrin səbəbinin, ardıcıllığının müəyyən edilməsi |
| 4 | **Danışma** | Mətnin şəkil əsasında genişləndirilib nəql edilməsi |
| 5 | **Yazı** | Mətndən şəklə uyğun hissənin tapılıb yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini göbələyin ölçüsünə yönəldir və soruşur:

– *Şəkildəki göbələklər bir-birindən nə ilə fərqlənir?*

**Oxu. Söz ehtiyatı**

2.2.1 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Müəllim hər qrupa mətndəki şəkillərdən birini müzakirə edib bu suallara cavab tapmağı tapşırır:

– *Şəkillərdə nə görürsünüz? Hansı canlılar var? Şəkildə hansı təbiət hadisəsi təsvir olunub?*

Qruplar hər bir şəkil haqqında fikirlərini yazır və təqdimat edirlər.

**Növbəli oxu.** Şagirdlər mətnin hissələrini növbə ilə səsli oxuyurlar. Mənası aydın olmayan sözlər (*yazığı gəlmək, büzüşmüş* və s.) izah olunur. Hər hissədən sonra müəllim şagirdlərin mətni diqqətlə izlədiklərini yoxlamaq üçün həmin hissəyə aid sualları verir.

Oxu prosesi bitdikdən sonra müəllim soruşur:

– *Siz nədən bildiniz ki, göbələk böyüyür? (göbələyin altına toplaşan heyvanların getdikcə böyük olmasından) Sizcə, göbələk nə üçün sürətlə böyümüşdü?*

Şagirdlər sualı cavablandırarkən mətndən gətirdikləri faktlarla (yağışın yağması) fikirlərini əsaslandırmalıdırlar.

**Oxuyub-qavrama**

**Tapşırıq B (dərslik).** Şagirdlər suala cavab vermək üçün çətir haqqında bildiklərini danışırlar (çətir yağışdan, günəşdən qorunmaq üçündür).

2.2.5 **Tapşırıq C (dərslik).** Mətndəki faktoloji materalın mənimsənilməsini yoxlayır.

**Tapşırıq Ç (dərslik).** Tapşırığın yerinə yetirilməsindən öncə müəllim şagirdlərə "Sizcə, nə üçün göbələyin altında ilk dəfə dovşan deyil, qarışqa gizləndi?” sualını verir. Şagirdlər müəyyən edirlər ki, göbələk böyüdükcə onun altında daha iri heyvanlar yerləşə bilir.

**Danışma**

1.2.2 **Tapşırıq D (dərslik).** Tapşırığın məqsədi şagirdlərin oxuduğu mətni genişləndirib nəqletmə bacarığını inkişaf etdirməkdir.

**Əlavə tapşırıq:** “Verilmiş şəkil mətnin hansı hissəsinə uyğun gəlir?”(Cavab: *Siçanın gəlişi ikinci abzasdan sonrakı hissəyə uyğun gəlir, çünki siçan kəpənəkdən böyük, sərçədən isə kiçikdir.*)

**Yazı**

3.1.1 **Tapşırıq A (iş dəftəri). Təsviri incəsənətfənni ilə inteqrasiya.** Şagirdlər şəklə aid hissəni (*Aradan bir az keçmiş su içində büzüşmüş sərçə onlara yaxınlaşır. Qarışqa onu da yanlarına çağırır)* tapıb köçürürlər. Bununla şagirdlərin verbal və vizual mətnləri uyğunlaşdırmaq və çap hərfləri ilə verilmiş mətni üzündən köçürmək bacarığı inkişaf etdirilir.

**Tapşırıq B (iş dəftəri). Dil qaydaları ilə inteqrasiya.** Şagirdlər *heca, söz* və *cümlə* anlayışlarını mənimsədiklərini öz yazısı ilə nümayiş etdiririrlər. Eyni zamanda yeni bir məlumat qazanırlar – dovşanlar qışda rəngini dəyişir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. B, C (dərslik) |
| Hadisənin və ya hərəkətin səbəbini (niyə belə oldu?) mətndən axtarıb tapır. | Tap. A, B (dərslik) |
| Oxuduğu mətni verilmiş təsvirə uyğun genişləndirib nəql edir. | Tap. D (dərslik) |
| Kiçikhəcmli mətnləri üzündən köçürür. | Tap. A, B (iş dəftəri) |

## 4-cü dərs. Şəkil üzrə mətn qurma

- Dərslik: səh. 85-86
- İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. (st. 2.2.5).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 2.1.3).
- Sözü təşkil edən hecaları müəyyən edir (st. 4.1.2).
- Verilmiş sözlərin düzgün ardıcıllığını müəyyən edərək bitmiş fikir ifadə edən cümlə qurur. (st. 4.1.6).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Göbələyin əlamətlərinin sadalanması |
| 2 | **Oxu** | Tapmacaların oxusu |
| 3 | **Danışma** | Şəkil üzrə mətnqurma |
| 4 | **Dil qaydaları** | Heca, cümlə üzrə təkrar |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim "Xeyirxah Göbələk" mətnindəki obrazları xatırladır. Onlara məxsus əlamətləri soruşur.

**Oxu**

2.2.3 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Hər qrupa mətndəki obrazlara aid bir tapmaca verilir və tapmacanın cavabını tapmaqla yanaşı, həmin obrazla bağlı tapmacadakı açar sözləri qeyd etmək tapşırılır. Qrup işi zamanı şagirdlər həm də tanıdıqları heyvanlarla bağlı bilmədikləri məlumatları öyrənmiş olurlar.

Qrup işi zamanı şagirdlərə aydın olmayan sözlərin (*peşə, zəhmətkeş, fəryad, məskən* və s.) mənası izah olunmalı, "Söz boğçası"na əlavə edilməlidir.

**Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığını inkişaf etdirməklə yanaşı, ad və əlamət bildirən sözlər üzrə biliklərini də möhkəmləndirir.

**Danışma**

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Hər bir qrupa bir şəkil verilir. Qruplar şəkildə gördüklərini müzakirə edirlər. Sonra müəllim bütün sinfə hadisələrin ardıcıllığını müəyyən etməyi tapşırır. Qrup nümayəndələri mətnin ardıcıllığına əsasən düzülüb düzgün sıra ilə şəkildə gördüklərini təsvir edirlər.

**Müəllimin nəzərinə!** Müəllim qruplara paylanan şəkillərə uyğun istiqamətləndirici suallar verə bilər: *Uşaqlar hara gedirlər? Onların əllərində nə var? Onları kim yola salır?* və s.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş sual cümlələrinə müvafiq nəqli cümlə seçməklə oxuyub-qavrama və sualı adekvat cavablandırmaq bacarıqlarını möhkəmləndirirlər.

**Oxu. Söz ehtiyatı**

2.1.1 **Tapşırıq D (dərslik).** Şagirdlər bu fəsildə öyrəndikləri yeni sözləri həm təkrar edir, həm də mənalarını bir daha uyğunlaşdırmaqla söz ehtiyatlarını möhkəmləndirmiş olurlar.

2.1.2 **Tapşırıq E, F (dərslik).** Şagirdlərin oxuyub-qavrama və söz ehtiyatını möhkəmləndirir.

2.1.3 **Tapşırıq A (iş dəftəri).** Şagidlər yaxınmənalı sözləri müəyyənləşdirməklə söz ehtiyatlarını artırırlar.

**Dil qaydaları**

4.1.2 **Tapşırıq Ə (dərslik), C (iş dəftəri).** Sözü hecalara ayırmaq bacarığının inkişafına xidmət edir.

4.1.6 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin verilmiş sözlərdən bitmiş fikir ifadə edən cümlə qurmaq və cümlənin formal əlamətlərini (böyük hərflə başlamaq və nöqtə) tətbiq etmək bacarığını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir. | Tap. A (dərslik) |
| Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. | Tap. C (dərslik) |

| | |
|---|---|
| Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır. | Tap. Ç (dərslik) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. E, F (dərslik) |
| Yaxınmənalı sözləri müəyyənləşdirirır. | Tap. A (iş dəftəri) |
| Sözü təşkil edən hecaları müəyyən edir. | Tap. Ə (dərslik)<br>C (iş dəftəri) |
| Bitmiş fikir ifadə edən cümlə qurur. | Tap. B (iş dəftəri) |

## fəsil 4 BOZQULAQ

## 1-ci dərs. "Bozqulağın bahar sevinci"

• Dərslik: səh. 87-88 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**

- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.1).
- Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. (st. 2.2.5).
- Oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).
- Verilmiş sozlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur (st. 4.1.6).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yaz fəslini əks etdirən şəkillər üzrə iş |
| 2 | **Dinləmə-danışma** | "Yaz günləri" şeiri və yaz fəslinə dair şəkillər üzrə iş |
| 3 | **Oxu** | "Bozqulağın bahar sevinci" mətninin oxusu |
| 4 | **Yazı** | Mətnin şəklə uyğun hissəsini yazmaq |
| 5 | **Dil qaydaları** | Sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək cümlə qurur |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə fəsillərə aid müxtəlif şəkillər (və ya videomaterial) nümayiş etdirir.

### Dinləmə-danışma

1.1.1 Müəllim M.Ə.Sabirin "Yaz günləri" şeirini səsləndirir:

*Gəl, gəl, a yaz günləri,*
*İlin əziz günləri.*
*Dağda ərit qarları,*
*Bağda ərit qarları.*
*Çaylar daşıb sel olsun,*
*Taxıllar tel-tel olsun.*
*Ağaclar açsın çiçək,*
*Yarpağı ləçək-ləçək. (M.Ə.Sabir)*

Müəllim şagirdlərin mətni diqqətlə dinləyib qavradıqlarını yoxlamaq üçün faktoloji suallar verir:

*– Şeir hansı fəsil haqqındadır? Şeirdə yaz fəslinin hansı əlamətləri sadalanır? Çayların suyu niyə daşır?*

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllimin yönəldici sualları vasitəsilə şagirdlər şəkillər üzrə danışırlar: *Şəkillərdə nə görürsünüz? Qaranquş nə zaman gəlir? Ağacların çiçək açması bizə hansı fəsildən xəbər verir?*

### Oxu

**Tapşırıq B (dərslik).** Müəllim şagirdlərə *"Yaz" sözünü hansı sözlə əvəz edə bilərik?"* sualını verir və onların diqqətini mətnin adına ("Bahar gəldi") yönəldir. Şagirdlərə mətn oxunduqca eşitdikləri obrazların adlarını qeyd etmələrini tapşırır. Müəllim mətni əvvəlcə özü oxuyur və bu zaman mimika, jest və səs çalarlarının köməyi ilə obrazların hiss və duyğularını ifadə edir. Sonra hər bir obraza aid (Bozqulaq, Ana dovşan, Şirincə) sözlərin tire işarəsindən sonra başlandığını şagirdlərə göstərir.

**Rollu oxu.** Obrazların nitqi şagirdlər arasında bölüşdürülür. Bu fəaliyyətdə hər kəs oxuyacağı hissəni gözlədiyi üçün yoldaşları oxuyarkən onları daha diqqətlə izləyir. Şagirdlərin obraza uyğun jest və mimikadan istifadə etmələrinə diqqət edilməlidir. Mətn oxunduqdan sonra müəllim suallar verir:

*– Bozqulaq nədən şikayətlənir? Ana dovşan nə üçün qaranquşları başqa quşlardan fərqləndirir? Mətndə baharın hansı əlamətləri verilib?*

**Əlavə tapşırıqlar:** ***1.*** *Birinci və ikinci şəkillərdə mətnin hansı hissələri təsvir olunub? Həmin hissələri tapıb oxuyun.*

**2.** *"Bozqulaq çiçəyi alıb dostu Kirpinin görüşünə tələsdi ..." Sizcə, mətni necə davam etdirmək olar?*

**3.** *Bu mətndə Bozqulağın xüsusiyyəti haqqında nə deyə bilərsiniz? (nəzakətlidir) Fikrinizi mətndən nümunə gətirərək əsaslandırın.*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).**Oxu prosesində şagirdlərin obrazların adlarını dəftərdə qeyd etmələri tapşırığın icrasını asanlaşdırır. Eyni zamanda "qeyd götürməklə oxu" bacarığını formalaşdırır.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş cümlələri tamamlamaqla mətni oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətndəki hadi-

sələrin təsvir olunduğu illüstrasiyaları ardıcıl düzməklə mətni nəql edirlər. Bu tapşırıq şagirdlərin şüurlu oxusunu və şifahi nitqini inkişaf etdirir.

**Tapşırıq E (dərslik).** Şagirdlər oxuduqları mətndəki əsas faktları yadda saxlamaqla tapşırıqda verilmiş fikirlərin doğru və yanlış olduğunu müəyyən edirlər, "smaylik" kartlar vasitəsilə göstərirlər.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq şagirdlərin mətnlə bağlı oxuyub-qavrama bacarıqlarını möhkəmləndirməklə yanaşı, şəklə uyğun mətnin hissəsini öz sözləri ilə yazmaq bacarıqlarını da inkişaf etdirir.

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərdə şəkildən istifadə edərək öz təxəyyüllərinə uyğun mətni tamamlayıb yazmaq bacarığını inkişaf etdirməkdir.

### Dil qaydaları

4.1.6 **Tapşırıq C (iş dəftəri).** Məqsəd şagirdlərin verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək cümlə qurmaq bacarıqlarını inkişaf etdirməkdir.

**Diferensial təlim**

Mətn üzrə iş bitdikdən sonra sinifdə tələffüzü aydın, aktyorluq qabiliyyəti olan şagirdlərlə rollu oyun təşkil edilə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| İllüstrasiyaların ardıcıllığını müəyyən edir. | Tap. B, Ç (dərslik) |
| Hadisənin və ya hərəkətin hansı nəticəyə gətirib çıxardığını mətndən axtarıb tapır. | Tap. C (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. D (dərslik) |
| Şəklə uyğun cümlələr qurub yazır. | Tap. A, B (iş dəftəri) |
| Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim şagirdlərə dovşan, kirpi, ayının yediyi qidalar barədə məlumat toplamağı tapşırır.

## 2-ci dərs. "Bozqulağın yay günləri"

• Dərslik səh. 89-90 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Şagirdlərin dovşan, kirpi, ayı haqqında bildikləri məlumatların müzakirəsi |
| 2 | Oxu | "Bozqulağın yay günləri" mətninin oxusu |
| 3 | Danışma | Yay fəsli ilə bağlı əhvalatların söylənilməsi |
| 4 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Şagirdlər dovşan, kirpi, ayı haqqında topladıqları məlumatları söyləyirlər.

### Oxu

**İnteraktiv (qruplarla) oxu.** Şagirdlər 4 qrupa bölünürlər. Hər qrup bir şəkli müzakirə edib mətndən uyğun hissəni tapıb oxuyur. Qruplar oxuduqları hissədə heyvanlar haqqında məlumatları da qeyd edirlər.

2.2.5 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətndəki faktlara əsasən nəticə çıxarmaq, hadisənin səbəbini izah etməklə fikrini əsaslandırmaq bacarıqlarını inkişaf etdirir.

"Qonaqpərvər" sözünün mənası izah olunaraq "Söz boğçası"na əlavə edilir. Şagirdlər mətndən faktlar gətirməklə Bozqulağın qonaqpərvər olduğunu vurğulamalıdırlar.

**Tapşırıq C (dərslik).** Şagirdlərdə diqqətli oxu bacarığını inkişaf etdirir.

**Tapşırıq A (iş dəftəri).** Doğru cavab müəyyən edildikdən sonra müvafiq şəkil mətnin birinci abzası və ona aid illüstrasiya ilə də müqayisə oluna bilər.

**Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətnin hekayə xəritəsini tərtib etməklə mətndəki əsas faktları yadda saxladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq Ç (dərslik).** Əvvəlki tapşırıqlar vasitəsilə mətndəki faktoloji materialı mənimsəyən şagirdlər hadisələrin ardıcıllığını müəyyənləşdirirlər.

**Tapşırıq D (dərslik).** Şagirdlər bildiklərinə və mətndən öyrəndikləri məlumatlara əsaslanaraq cümlələri tamamlayırlar.

2.2.5 **Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya.** Müəllim yanaşı gələn cümlələr arasında müəyyən ardıcıllıq əlaqəsi olduğunu izah edir; məsələn, müəllim soruşa bilər:

– *"Orxan dostları ilə top oynadı", "Atası Orxana top aldı"* cümlələrini necə sıralasaq, düzgün olar?

### Danışma

1.2.1 **Tapşırıq E (dərslik).** Şagirdlərə "əhvalat" sözünün mənası (baş vermiş hadisə) izah olunur. Sonra şagirdlər ötən yay fəslində yaşadıqları maraqlı əhvalatları danışır, təəssüratlarını bölüşürlər.

**Müəllimin nəzərinə!** Söylənən əhvalatla bağlı suallar verməklə (*Sonra necə oldu? Bəs kömək kim gəldi?* və s.) şagirdlərin daha detallı danışmasına çalışmaq lazımdır. Digər şagirdlərin də suallar verməsinə imkan yaradılmalıdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. B, C, D (dərslik). Tap. A,B (iş dəftəri) |
| Verilmiş cümlənin mətndəki ardıcıllıqda yerini müəyyən edir. | Tap. B, Ç (dərslik) |
| Mövzu ilə bağlı əhvalat danışır. | Tap. E (dərslik) |
| Hadisənin səbəbini müəyyən edir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə əksmənalı sözlərə maraq oyatmaq üçün müəllimin ağ və qara, yumşaq və bərk, acı və şirin, uzun və qısa, enli və nazik əşyalar toplaması tövsiyə olunur.
Dərslikdəki B tapşırığındakı sözləri kartlara yazması tövsiyə olunur.

## 3-cü dərs. Əksmənalı sözlər

- Dərslik: səh. 90-91 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

- Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır (st. 1.1.1).
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Sözlərdə əks məna yaradan əlamətləri müəyyən edir (st. 2.1.3).
- Sözün əksmənalı qarşılığını müəyyən edir (st. 2.1.3).

- **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Seçilmiş əşyaların nümayişi |
| 2 | **Dinləmə** | Tapmacaların səsləndirilməsi |
| 3 | **Söz ehtiyatı** | Əksmənalı sözlərin filoloji izahı |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim ağ və qara, yumşaq və bərk, uzun və qısa, enli və nazik, acı və şirin əşyaları şagirdlərə nümayiş etdirir.

### Dinləmə. Söz ehtiyatı

1.1.1 2.1.3 Müəllim aşağıdakı tapmacanı söyləyərək "yuxarı", "aşağı" sözlərinin ifadə etdiyi istiqamətləri, "dolur", "boşalır" sözlərinin mənasını əyani jestlərlə nümayiş etdirir.

*Ağzını aşağı edərəm, dolar,*
*Yuxarı edərəm, boşalar. (Papaq)*

Bundan sonra müəllim digər tapmacaları səsləndirərək, şagirdlərin diqqətini "baş – ayaq", "axşam – səhər", "gedər – gələr", "ağ – qara" söz cütlərini şagirdlərin nəzərinə çatdıra bilər.

*Axşam gedər,*
*Səhər gələr. (Günəş)*
*O hansı quşdur ki,*
*Bir qanadı ağdı,*
*Bir qanadı qara. (Gecə-gündüz)*

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə "əllərinizi yuxarı qaldırın. İndi isə aşağı endirin" deyərək *yuxarı – aşağı, qaldırmaq – endirmək* sözlərini də nümunə gətirə bilər.

2.1.3 **Tapşırıq A (dərslik).** Yönəldici suallar:

– *Hansı fəsillər təsvir olunub? (yay – qış). Bu fəsillərdə hava necə olur? (soyuq – isti). Dovşan nə edir? (gəlir – gedir). Günün hansı vaxtını görürük? (gecə və gündüz)* və s.

### Söz ehtiyatı

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş sözlərə uyğun əşyalardan istifadə edərək şagirdlərə əksmənalı sözləri izah edir. Sonra şagirdlər rubrikada verilən şəkillərə diqqətlə baxır və uyğun sözləri oxuyurlar.

2.1.3 **Tapşırıq B (dərslik).** Müəllim kartlara yazılmış sözləri şagirdlərə paylayaraq tapşırıq verir:
– *Hər kəs kartındakı sözü oxusun və əksmənalı söz kartını tutan yoldaşını tapsın.*

**Tapşırıq C (dərslik). Dil qaydaları ilə inteqrasiya.** Tapşırıq həm əksmənalı sözlərin möhkəmləndirilməsinə, həm də ad, əlamət, hərəkət və say bildirən sözlərin təkrarına yönəlmişdir. Hər cütə bir çərçivədəki sözlər üzrə iş aparmaq tapşırıla bilər.

**Tapşırıq A, B, C (iş dəftəri). Təsviri incəsənətlə inteqrasiya.** Şagirdlərin əksmənalı sözləri müəyyən etmək bacarığını möhkəmləndirir.

**Tapşırıq Ç (dərslik). Yazı ilə inteqrasiya.** Şagirdlər cümlədə qırmızı rəngdə verilmiş sözləri əksmənalı qarşılığı ilə əvəz etməklə dəftərə köçürürlər. Bununla onların yazı bacarığı da inkişaf etdirilir. Cütlərə bir-birinin yazısını yoxlamaq tapşırılır. Şagirdlər yoxlama zamanı əvəz olunmuş sözlərin düzgünlüyünə diqqət etməlidirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Sözlərdə əks məna yaradan əlamətləri müəyyən edir. | Tap. B, C (dərslik)<br>Tap. A, B (iş dəftəri) |
| Sözün əksmənalı qarşılığını müəyyən edir. | Tap. Ç (dərslik)<br>Tap. C (iş dəftəri) |

## 4-cü dərs. "Bozqulağın payız qayğıları"

• Dərslik: səh. 92-93 • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Mətndən tanış olmadığı sözləri seçir (st. 2.1.1).
- Mətnin sujet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).
- Adıçəkilən varlıqlara xas olan hərəkətləri sadalayır (st. 4.1.5).
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 2.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Payız fəslinə aid şəkillərin nümayişi |
| 2 | **Oxu** | "Bozqulağın payız qayğıları" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Tapşırıqlar üzrə iş |
| 4 | **Danışma** | Mətni təxəyyülünə uyğun davam etdirmə |
| 5 | **Dil qaydaları** | Ad, əlamət, say, hərəkət bildirən sözlər |
| 6 | **Söz ehtiyatı** | "Söz boğçası" üzrə iş; yaxınmənalı və əksmənalı sözlər |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Klaster.** Müəllim lövhədə dairənin içərisində "payız" yazır. Şagirdlər payızla bağlı bildikləri məlumatları səsləndirirlər (*yağış yağır, yarpaqlar saralır* və s.). Bu məlumatlar dairənin kənarlarında yazılır.

### Oxu. Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** "Bozqulağın payız qayğıları" dialoji mətn olduğu üçün rollu oxu məqsədəuyğundur. Lakin əvvəlcə müəllim özü mətni oxuyur.

**Rollu oxu.** Obrazların nitqi şagirdlər arasında bölüşdürülür. Mətn oxunduqdan sonra şagirdlərin diqqəti dərslikdə "Söz boğçası" rubrikasındakı sözlərə yönəldilir. Mənası aydın olmayan sözlər (*sap-sarı, həyəcan, kürk, qayğı*) əvvəlcə şagirdlərdən soruşulur, daha sonra müəllim tərəfindən izah olunur. Həmin sözlər "Söz boğçası"na əlavə edilir.

Mətn oxunduqdan sonra şagirdlərin payız fəsli ilə bağlı öyrəndikləri yeni məlumatlar lövhədəki yazılara əlavə olunur. Şagirdlər bildikləri məlumatlarla yeni məlumatları müqayisə edirlər.

Bundan sonra heyvanların fəsillərə uyğun yaşayış tərzi ilə bağlı kiçik bir dinləmə mətni səsləndirilə bilər:

*"Payız fəslində bəzi quşlar qışın soyuğundan qorunmaq üçün isti ölkələrə gedirlər. Ancaq bəzi heyvanlar üçün bu cür səfər qeyri-mümkündür. Heyvanlar özlərini soyuqdan müxtəlif cür qorumağa çalışırlar. Bəziləri əvvəlcədən azuqə toplayıb qış yuxusuna gedirlər. Çünki şaxtada heyvanların yem tapması çətinləşir. Meyvə və giləmeyvələr tükənir, dələ, kirpi və s. özlərinə azuqə yığır. Ayılar isə yuvalarına çəkilib qış yuxusuna gedirlər. Havalar istiləşəndə – yazda qış yuxusundan ayılırlar".*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik). Tapşırıq A (iş dəftəri).** Tapşırıqdakı suallar vasitəsilə mətndəki faktoloji materialın qavranma səviyyəsini və mətndəki hadisələrin ardıcıllığını müəyyən etmək bacarığı yoxlanılır.

### Danışma

1.2.2 **Tapşırıq C (dərslik).** Əsas məqsəd şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirmək və şifahi nitq bacarıqlarını formalaşdırmaqdan ibarətdir.

**Qruplarla iş.** Hər qrupa tapşırığın bir hissəsi verilir. Qruplar mətni davam etdirib təqdimat edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər mətni təxminən belə davam etdirə bilərlər:

1. Bozqulaq evdən çıxıb uçan quşlara əl elədi və öz-özünə dedi: *"Ay havada uçan quşlar. Bahar gələnə kimi mən sizi gözləyəcəyəm... Niyə bü-*

*tün dostlarım qışdan qaçır axı? Mən indi tək qalacağam?"*

2. Bozqulaq dostu Kirpinin yanına gəlib dedi: *"Olmaz ki yatmayasan? Bəs mən kiminlə oynayacağam?"* Kirpi ona cavab verdi: *"Olmaz, əlbəttə. Sən darıxma. Qışda da özünə bir dost taparsan. Mən isə bahar gələndə oyanacağam".*

**Tapşırıq Ç (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər qrup işində qazandıqları bacarıqları müstəqil şəkildə yazılı formada nümayiş etdirirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər dovşanla ayının dialoqunu təxminən belə qura bilərlər:
"Bozqulaq ayının yanına gəldi və dedi:
*– Ayı, sən də yatırsan? Dur gedək, balıq tutaq".*

**Əlavə tapşırıq.** *Bu mətndəki Bozqulaq obrazı haqqında nə deyə bilərsiniz? (Qayğıkeşdir.) Fikrinizi mətndən nümunə gətirərək əsaslandırın.*

### Dil qaydaları

4.1.5 **Tapşırıq Ç, D (dərslik), tapşırıq C (iş dəftəri)** Şagirdlərin əvvəlki bölmədə öyrəndikləri dil qaydaları (ad, əlamət, hərəkət bildirən sözlər) üzrə bilikləri möhkəmləndirilir, həmçinin onların qruplaşdırmaq bacarıqları inkişaf etdirilir.

**Diferensial təlim**

**Dərinləşdirmə.** Yazı bacarıqları inkişaf etmiş şagirdlərə tapşırığı yazılı şəkildə də yerinə yetirmək tapşırıla bilər.

### Söz ehtiyatı

2.2.3 **Tapşırıq E (dərslik), B (iş dəftəri).** Dərs prosesində şagirdlərin söz ehtiyatını artırmaq həmişə diqqət mərkəzində olmalıdır. Bu baxımdan yaxınmənalı və əksmənalı sözlərin müəyyənləşdirilməsi şagirdlərin söz ehtiyatını inkişaf etdirir.

**Qruplarla iş.** Şagirdlər 3 qrupa bölünürlər. Dərslikdəki tapşırıq iş vərəqlərində qruplara təqdim olunur. Hər qrupa müəllim bir sətirdəki boş xanaya uyğun sözü əlavə etməyi və həmin sözləri cümlədə işlətməyi tapşırır.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər yaxınmənalı sözləri mənimsədiklərini müstəqil şəkildə nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. A, B (dərslik) |
| Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir. | Tap. C (dərslik)<br>Tap. Ç (iş dəftəri) |
| Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır. | Tap. Ç (dərslik)<br>Tap. C (iş dəftər) |
| Adıçəkilən varlıqlara xas olan hərəkətləri sadalayır. | Tap. D (dərslik) |
| Yaxınmənalı və əksmənalı sözləri müəyyənləşdirir. | Tap. E (dərslik)<br>Tap. B (iş dəftəri) |

## 5-ci dərs. "Bozqulağın yeni dostu"

• Dərslik: səh. 94-95 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

- Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır (st. 1.1.1).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir (st. 2.2.3).
- Mövzu ilə bağlı bir neçə cümlədən ibarət esse yazır (st. 3.1.3).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Klasterlə iş |
| 2 | **Dinləmə-danışma** | "Qış" şeiri və mahnısının səsləndirilməsi |
| 3 | **Oxu** | "Bozqulağın yeni dostu" mətninin oxusu və "Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki əsas fakt və hadisələrin ardıcıllığı üzrə iş |
| 5 | **Yazı** | Mövzu ilə bağlı essenin yazılışı və şəkil üzrə mətnin qurulması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Klaster.** Müəllim lövhədə içərisinə "qış" sözü yazılmış dairə çəkir, şagirdlər qış fəsli haqqında bildiklərini dairənin ətrafına yazırlar.

### Dinləmə və danışma

1.1.1 **Vamiq Məmmədəliyevin "Qış" mahnısı səsləndirilir.** Şərait olmazsa, Zeynal Xəlilin "Qış" şeiri müəllim tərəfindən oxunur.

*Əsir qışın küləyi,*
*Küçələrdə soyuq, qar.*
*Oynayırlar qartopu*
*Dəstə-dəstə uşaqlar.*

*Böyük yolka qurulub*
*Meydançada, bax yenə.*
*Nağmə deyir uşaqlar*
*Gözəl qışa, Vətənə,*
*Əlində böyük əsa,*
*Başında da qar papaq,*
*Şaxta baba yenə də*
*Bizlərə gəlmiş qonaq.*

1. Şeirdə hansı fəsil təsvir olunub?
2. Qışda uşaqlar hansı bayramı səbirsizliklə gözləyirlər?
3. Siz bu bayramda nə edirsiniz?
4. “Yeni il” bayramında uşaqlar səbirsizliklə kimi gözləyirlər?
5. Qış vaxtı qar yağarkən sizin sevdiyiniz hansı məşğuliyyət şeirdə təsvir olunub?

**Oxu**

2.2.5 **Qruplarla oxu.** Şagirdlər iki qrupa ayrılırlar. Birinci qrup mətnin bir hissəsini ("Bozqulaq sevindi və özünü bayıra atdı" cümləsinə qədər) səsli oxuyur. Dinləyən qrup oxunan hissə ilə bağlı suallar verir. Sonra ikinci qrup mətnin qalan hissəsini səsli oxuyur və qarşı qrupun suallarına cavab verir. Oxunun bu qayda ilə təşkili şagirlərin oxu prosesində diqqətlə dinləmələrinə və izləmələrinə, həm də sual qurmaq və sualı cavablandırmaq bacarıqlarının inkişafina yönəlmişdir.

Müəllim oxu fəaliyyətinin sonunda şagirdlərin diqqətini “Söz boğçası” rubrikasına yönəldir. Verilmiş sözlərin təxmini mənasını soruşur. Şagirdlər "kədərli" sözünü cümlədə işlədirlər. Müəllim həmin cümlədə "kədərli" sözünü "qəmgin"lə əvəz etməyi tapşırır. Bununla şagirdlər həmin sözlərin yaxınmənalı olduğunu qavrayırlar. Sözlər “Söz boğçası”na əlavə edilir.

**Mətn üzrə suallar:**

– *1-ci və 2-ci şəkildə mətnin hansı hissələri təsvir olunub?*
– *Bozqulaq nə üçün kədərli idi?*
– *Bozqulağı kim sevindirdi?*
– *Bozqulaq dostunun adını nə qoydu?*
– *Bozqulaq dostuna nə bağışladı?*
– *Bozqulaq sonda özünü necə hiss edir?*
– *Mətndə qış fəslinə aid hansı xüsusiyyətlər təsvir olunub?*
– *Bozqulağın hansı xüsusiyyətləri sizin xoşunuza gəldi? (Bozqulağın qardan "adam" düzəltməsi, Qaradamının istəyini yerinə yetirməsi, Qaradamına kök bağışlaması və s.)*

Sonuncu sualın cavablandırılması zamanı "xeyirxah" sözü izah olunaraq “Söz boğçası”na əlavə edilir.

**Müəllimin nəzərinə!** Ötən dərsdə şagirdlərə qış yuxusuna gedən heyvanlar haqqında məlumat verilmişdi. Bu dərsdə həmin məlumatlar xatırladılır.

**Oxuyub-qavrama**

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlər cümlələri mətndəki faktları yada salmaqla tamamlayırlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər qış fəsli ilə bağlı biliklərini nümayiş etdirirlər. Tapşırığı yerinə yetirdikdən sonra şagirdlər Yeni il bayramı ilə bağlı təəssüratlarını bölüşə bilərlər.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Məqsəd şagirdlərdə mətnin hissələrinə uyğun verilmiş şəkillərin ardıcıllığını müəyyən etməklə şifahi nitq bacarıqlarını formalaşdırmaqdır.

2.2.3 **Tapşırıq D, E (dərslik).** Şagirdlər bu bölmədə öyrəndikləri mətnləri bir daha xatırlamaqla ilin fəsilləri ilə bağlı ümumiləşdirmə aparırlar.

**Əlavə tapşırıqlar:** Həmin fəslə aid bir neçə cümlə də əlavə edin. Şəklin üzərində də həmin fəslə aid dəyişiklik edin (kəpənək, qaradamı, güllər, quşlar və s.).

**Yazı**

3.1.3 **Tapşırıq Ə (dərslik).** Artıq şagirdlər qrup işində ilin fəsillərini xatırlayıb onları səciyələndirə bilirlər. Bu tapşırıq vasitəsilə şagirdlər mövzu üzrə biliklərindən istifadə edib kiçik bir mətn hazırlayırlar.

**Diferensial təlim**

**Dəstək.** Mətn qurub yazmaq bacarığı formalaşmayan şagirdlərə müəllimin yaxınlaşması və tapşırıqda verilmiş suallar ətrafında müsahibə aparması, cavabları diktə etməklə yazdırması tövsiyə olunur.

3.1.4 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq yazı standartlarını reallaşdırmaqla yanaşı, şagirddə müəyyən kompetensiyalar (dəyər, münasibət) formalaşdırır.

3.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər illüstrasiyanı təsvir etməklə mətn qurmaq bacarıqlarını nümayiş etdirirlər. Tapşırığı yerinə yetirməzdən öncə müəllim şagirdlərə illüstrasiya ilə bağlı açar sözlər tapıb yazmağı tapşırır (*ev, uşaqlar, qar, it* və s.). Şagirdlər hər bir açar sözə aid bir cümlə yazmaqla mətn qururlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır. | MV |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. C (dərslik).<br>Tap. B (iş dəftəri) |

| | |
|---|---|
| Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. | Tap. Ç (dərslik) |
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir. | Tap. D, E (dərslik) |
| Mövzu ilə bağlı bir neçə cümlədən ibarət esse yazır. | Tap. Ə (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Kompozisiyalı şəklə uyğun cümlələr qurub yazır. | Tap. C (iş dəftəri) |

## **6-cı dərs.** Ümumiləşdirici dərs

• Dərslik: səh. 96 • İş dəftəri: səh. 69

**Təlim məqsədləri**

- Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Şeirin əsas struktur elementlərini (başlıq, bənd, misra) fərqləndirir (st. 2.2.2).
- Sözlərdə əks məna yaradan əlamətləri müəyyən edir (st. 2.1.3).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə adının xatırlanması |
| 2 | **Danışma** | Bölmə üzrə təəssüratların danışılması |
| 3 | **Oxu** | Şeirin əsas struktur elementləri üzrə iş |
| 4 | **Söz ehtiyatı** | Bölmə üzrə söz ehtiyatı və əksmənalı sözlər üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmənin adını soruşur.

### Danışma

1.2.3 **Tapşırıq A (dərslik).** Bu dərs ümumiləşdirmə xarakteri daşıdığından şagirdlər tapşırıqdakı suallar vasitəsilə bölmənin mövzusunu xatırlayır, bölmə üzrə təəssüratlarını bölüşürlər.

### Oxu

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Bölmə üzrə öyrəndikləri mövzuları xatırlayan şagirdlər tapşırıqda verilmiş məlumatları bölmənin fəsilləri üzrə uyğunlaşdırırlar.

2.2.2 **Tapşırıq B (dərslik).** Məqsəd bölmədə şeirin strukturu ilə bağlı öyrədilən filoloji anlayışların təkrarı və möhkəmləndirilməsidir. Tapşırığın qruplarla iş formasında yerinə yetirilməsi məqsədəuyğundur. Qruplara şeir və şəkildən istifadə edərək şeirin məzmununu yazmaq tapşırıla bilər.

2.2.2 2.1.3 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda əsas məqsəd şeirin strukturu ilə bağlı filoloji anlayışlar və əksmənalı sözlər üzrə bilik və bacarıqların möhkəmləndirilməsidir.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə bölmə üzrə öyrədilən yeni sözlərin şagirdlər tərəfindən nə dərəcədə mənimsənildiyi yoxlanılır. Şagirdlər cümlə daxilində sözlərin düzgün yerini müəyyənləşdirirlər.

Yeni öyrənilmiş sözlərin şagirdlərin fəal nitqinə keçməsi üçün oyunların əhəmiyyəti böyükdür.

**"Söz bazarı" oyunu.** 5 nəfərdən ibarət qruplar təşkil olunur. İlk oyunçu "Söz boğçası"ndan bir söz götürüb deyir: "Mən bazara getdim və "batut" aldım".

2-ci oyunçu: "Biz bazara getdik, "batut", "gimnastika" aldıq".

3-cü oyunçu: "Biz bazara getdik "batut", "gimnastika", "sirr" sözlərini aldıq" və s. Oyun bu şəkildə davam edir.

Yoldaşlarının "Söz boğçası"ndan götürdükləri sözləri tam sadalayan şagirdlərin iştirak etdiyi qrup qalib olur. Bu oyun şagirdlərin diqqətini artırır, təkrar edilən sözlər isə onların yaddaşına həkk olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Öyrəndiyi məlumatlar üzrə danışır. | Tap. A (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. A (iş dəftəri) |
| Şeirin əsas struktur elementlərini (başlıq, bənd, misra) fərqləndirir. | Tap. B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Sözlərdə əks məna yaradan əlamətləri müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. C (dərslik) |

# bölmə 5 NAĞILLAR ALƏMİNDƏ

| Mövzu | | **Nağıllar aləmində** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışma, şagirdlərin mövzu üzrə şifahi təqdimatı<br>• Dinlənilən və ya oxunan mətnin təxəyyülə uyğun dəyişdirilməsi və ya davam etdirilməsi |
| | Söz ehtiyatı | Kitabxana, rəf, fikrə dalmaq, yola düzəlmək, qarış-qarış, azdırmaq, daxma, qonaqpərvər, küpəgirən qarı, qəddar, tacir, bağlama, xəsis, taya, canlanmaq, sürü, tamahkar, qəzəblənmək, fırtına, ömür sürmək, vəzir, tum, köz, od, maşa, ovuc, hücum etmək, təklif, meydan, yumaq, bezmək, qərara gəlmək, canı qurtarmaq, rəftar etmək, heyif çıxmaq, kuzə, dayaz |
| | Oxu | • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Mətndə məkan, şəxs, hadisələrin ardıcıllığı ilə bağlı məqamların müəyyən edilməsi<br>• Obrazların sadə şəkildə təhlil edilməsi |
| | Yazı | • Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması |
| Akademik biliklər | Dil qaydaları | Ad, əlamət, say, hərəkət bildirən sözlər, durğu işarələri üzrə biliklərin təkrarı, şəxs adlarının yazılışı, əlifba |
| | Filoloji anlayışlar | Nağıl, nağılın növləri: sehrli, məişət, heyvanlar haqqında nağıllar |
| Kompetensiyalar | | Şifahi xalq ədəbiyyatı ilə tanışlıq, bu sahə ilə məşğul olan insanlar haqqında məlumatlanmaq, şəxsiyyətin formalaşmasında zəruri olan xarakterik cəhətlərin fərqləndirilməsi |

V bölmədə nağıllar, onların növləri haqqında həm informativ, həm də bədii mətnlər təqdim olunur. Əsas məqsəd nağıllarla tanışlıq, bu sahə ilə məşğul olan insanlar haqqında məlumatlar təqdim etmək, şəxsiyyətin formalaşmasında zəruri olan xarakterik cəhətləri fərqləndirmək – pisi yaxşıdan seçmək bacarığını formalaşdırmaqdır. Nağıllara aid xüsusi, hazır ifadələrdən istifadə edərək nəql etmək bacarığını aşılamaqla şagirdlərin şifahi nitqini də inkişaf etdirmiş oluruq.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir.

• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

• Sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur.

• Hüsnxət normalarına uyğun yazır.

**Mənimsəməkdə çətinlik doğuran məsələlər:**

• Yaradıcı tapşırıqların yerinə yetirilməsi
• Nisbətən irihəcmli mətnlərin oxunması
• Əsas fikrin ifadə edilməsi

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

• Müxtəlif səpkili nağıl kitabları
• Əvvəlcədən hazırlanmış sual kartları
• Nağıllara çəkilmiş cizgi filmləri

fəsil 1 NAĞILÇILAR

## 1-ci dərs. "Balalara hədiyyə"

• Dərslik: səh.6 • İş dəftəri: səh.2

**Təlim məqsədləri**
- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 1.2.1).
- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.5).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).

• **Köməkçi vasitələr:** müxtəlif səpkili (nağıl, şeir) kitablar.

• **Qeyd.** Bu dərsin məktəbin kitabxanasında keçilməsi daha məqsədyönlüdür.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif səpkili kitabların nümayişi |
| 2 | **Danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Balalara hədiyyə" mətninin oxusu, yeni sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətn və şəkillər üzrə iş |
| 5 | **Söz ehtiyatı** | Yeni öyrənilmiş sözlərin cümlədə işlədilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərə müxtəlif səpkili (nağıl, şeir haqqında) kitablar nümayiş etdirilir. Bunların içərisindən nağıl kitablarını seçmək tapşırılır. Şagirdlər seçdikləri kitabların üz qabığına baxaraq nağılın məzmununu təxmin edirlər.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Danışma fəaliyyəti titul səhifəsindəki şəkillərə yönəlmiş suallara cavab verməklə yerinə yetirilir.

**Tapşırıq B (dərslik).** Müəllimin yönəldici sualları ilə şagirdlər kitabxana haqqında bildiklərini danışırlar. Müəllim kitabxanadan istifadə qaydalarını izah edir.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərdə şeir, nağıl haqqında olan kitabları fərqləndirmək bacarığını formalaşdırır. Bu da, öz növbəsində, onlara kitabxanada kitab seçimi zamanı vaxtdan səmərəli istifadə etməyə kömək edir.

### Oxu. Söz ehtiyatı

2.1.2 **Tapşırıq C (dərslik). Növbəli oxu.** Şagirdlər "Balalara hədiyyə" mətnini növbə ilə səsli oxuyurlar. Müəllim tanış olmayan sözlərin təxmini mənasını soruşur, onların dəqiq mənasını izah edir.

Şagirdlər yeni sözləri cümlədə işlətməklə onları anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq (mətndəki faktlardan nəticə çıxarmaq) şagirdlərin oxuyub-qavrama bacarığının inkişafına yönəlib.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq mətndən əsas məqamları seçmək və yazıda əks etdirmək bacarığını inkişaf etdirir.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər sözləri cümlədə mənasına uyğun işlətməklə mənalarını anladıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarları | Materiallar |
|---|---|
| Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir. | Tap. A, B (dərslik) |
| Kitabın üz qabığından çıxış edərək məzmununu təxmin edir. | Tap. A, B (iş dəftəri) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | "Söz boğçası" rubrikası |
| Mətndəki fakt və hadisələrdən nəticə çıxarır. | Tap. Ç (dərslik) |

## 2-ci dərs. "Cırtdan"

• Dərslik: səh. 7 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2)
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Nağıl nəql edərkən janra xas olan standart ifadələrdən istifadə edir (st. 1.2.1)

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Cırtdan" nağılından cümlələrin səslənməsi |
| 2 | **Yazı** | Şəklin təsviri |
| 3 | **Dinləmə** | Nağıl danışarkən xüsusi ifadələrdən istifadə |
| 4 | **Oxuyub-qavrama** | Hadisələrin məntiqi ardıcıllığı, janra xas olan standart ifadələrdən istifadə |
| 5 | **Danışma** | Şifahi təqdimat |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim cümlələr səsləndirir:

• Uşaqlar yolayrıcına çatdılar. Gördülər ki, bir tərəfdən işıq gəlir, o biri tərəfdə it hürür.

• Kim yatmış, kim oyaq?

• Nənəm mənə hər gecə yatmazdan qabaq qayğanaq yedirərdi.

Şagirdlər bu cümlələrin hansı nağıldan olduğunu tapırlar ("Cırtdan").

### Yazı

3.1.2 **Tapşırıq A (dərslik).** Şagirdlər açar sözlərdən istifadə edərək şəklə uyğun cümlələr yazırlar.

### Dinləmə

1.1.1 1.2.1 Müəllim aşağıdakı mətni səsləndirir.

*YARI BÖLƏK*
*(Hüseyn İbrahimov)*

*Munis nağıla qulaq asmağı çox xoşlayırdı. Hər gün axşam çay-çörəkdən sonra nənəsinin yanına gəlib deyirdi:*

*– Nənə, mənə nağıl danış.*

*Nənəsi də onun qəlbini sındırmırdı. "Biri vardı, biri yoxdu" deyə nağıla başlayırdı. Munis başını onun dizinin üstünə qoyub ləzzətlə qulaq asırdı. Elə ki nənəsi "Günlərin bir günü" dedi, bilirdi ki, nə isə maraqlı bir hadisə başlayır. Həmin an başını qaldırır, nənəsinin üzünə baxırdı.*

*Nağılı qurtaranda ki nənəsi "Göydən üç alma düşdü" deyirdi, Munis qalxıb onun dizinin üstündə otururdu.*

*Nənəsi isə qəsdən bir az dayanırdı. Munis dözə bilmirdi:*

*– Ay nənə, bəs almanın biri kimin?*

*Nənəsi deyirdi:*

*– Biri mənim, biri nağıl danışanın, biri də özümün.*

*Munis pərt olurdu:*

*– Bəs mən?*

*– Yaxşı, biri sənin.*

*– Niyə biri?*

*– Yaxşı, ikisi sənin, biri mənim.*

*Munis etiraz edirdi:*

*– İstəmirəm.*

*Nənəsi soruşurdu:*

*– Niyə istəmirsən, üçünü də verim sənə?*

*Munis başını bulayırdı:*

*– Yox, biri sənin, biri mənim, birini də yarı bölək.*

*Nənəsi gülüb Munisi qucaqlayır, üzündən öpürdü.*

*– Görürsünüz, necə düz oğlandır?*

Dinləmə mətnini səsləndirdikdən sonra yönəldici suallarla şagirdlərin diqqəti nağılın girişində, əsas və son hissəsində istifadə edilən xüsusi ifadələrə cəlb olunur. Bununla da "Faydalı məsləhət" rubrikasında verilmiş məlumatlar şərh edilir.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq soruşulan məlumatla illüstrasiyaların uyğunluğunu müəyyənləşdirməyə xidmət edir.

1.2.1 **Tapşırıq B, C (iş dəftəri).** Şagirdlər "Cırtdan" nağılının birinci iki *(Biri vardı, biri yoxdu, bir qarı vardı. Bu qarının balaca bir nəvəsi vardı.)* və sonuncu iki *(Div özünü suya atdı, daha bir də sudan çıxa bilmədi. Göydən üç alma düşdü...)* cümləsini yazırlar.

**Müəllimin nəzərinə:** Nağılın əvvəlində və sonunda işlənən ifadələrin istifadəsi mütləqdir.

### Danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Müəllim nağıl danışmaq istəyən şagirdləri – nağılçıları müəyyənləşdirir. Həmin sayda qruplar təşkil olunur. Dinləyici şagirdlər nağılçılar ətrafında qruplaşırlar. Nağılçılar seçdikləri nağılı dinləyicilərinə nəql edirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəklə uyğun söz və cümlələr yazır. | Tap. A (dərslik) |
| Dinlədiyi mətn üzrə suallara cavab verir. | Dinləmə mətni |
| Hadisələrin məntiqi ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Nağıl nəql edərkən janra xas olan standart ifadələrdən istifadə edir. | Tap. B (dərslik) Tap. B, C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq**
Qrimm qardaşlarının nağılları əsasında çəkilmiş cizgi filmlərindən fraqmentlər və ya şəkillər nümayiş etdirmək üçün hazırlıqlar etmək tövsiyə olunur.

## **3-cü dərs.** “Ağca və cırtdanlar” (I hissə)

• Dərslik: səh. 8 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir (st. 2.2.3).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Oxuduğu və dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Bədii mətnlərdə təxəyyülü real faktlardan fərqləndirir (st. 2.2.3).
- Varlığı səciyyələndirmək üçün əlamət, say və hərəkət bildirən sözlərdən istifadə edir (st. 4.1.5).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cizgi filmlərindən fraqmentlərin və ya şəkillərin nümayişi |
| 2 | **Danışma** | Şəkil üzrə söhbət, nağıl adları ilə onlara çəkilmiş illüstrasiyaların uyğunlaşdırılması |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Ağca və cırtdanlar”nağılının oxusu, yeni sözlər üzrə iş |
| 4 | **Danışma** | Proqnozlaşdırma, təxminetmə |
| 5 | **Oxuyub-qavrama** | Təxəyyülün real faktlardan fərqləndirilməsi |
| 6 | **Dil qaydaları** | Əlamət bildirən sözlər |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Cizgi filmlərindən (“Qırmızıpapaq”, “Canavar və yeddi çəpiş”, “Çəkməli pişik”, “Bremen musiqiçiləri”, “Ağca və cırtdanlar”) fraqmentlər və ya şəkillər nümayiş etdirilir.

### Danışma

1. 2. 2 Müəllim şagirdlərə Qrimm qardaşları haqqında qısa məlumat verir:

*– Siz artıq bilirsiniz ki, Azərbaycanda nağılların toplanması onların kitab halında tərtib edilməsində Firidun bəy Köçərlinin rolu böyükdür. Dünya xalqlarının ədəbiyyatında da bu cür şəxsiyyətlər vardır. Sözsüz ki, “Bremen musiqiçiləri”, “Qırmızı papaq”, “Çəkməli pişik”, “Hansel və Qrethel”, “Canavar və yeddi çəpiş“, “Yatmış gözəl“, “Ağca və cırtdanlar“ nağılları, onların əsasında çəkilmiş cizgi və bədii filmləri, teatr tamaşaları çoxlarına məlumdur.*

*İki qardaş – Vilhelm və Yakob Qrimm kənd-kənd, şəhər-şəhər gəzib nənələrin dilindən həmin nağılları dinləyib yazıya alıblar. Nəticədə bu gözəl nağıllar günümüzə qədər gəlib çatıb.*

Yönəldici suallarla şagirdlər Qrimm qardaşlarının adıçəkilən və nümayiş etdirilən nağılları haqqında fikirlərini söyləyirlər.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərin oxuyub qavrama və məntiqi təfəkkürünü inkişaf etdirir.

### Oxu. Söz ehtiyatı

2.1.2 **Tapşırıq A (dərslik).** Şagirdlər “Ağca və cırtdanlar” nağılını növbə ilə səsli oxuyurlar.

Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını izah edir.

Şagirdlər yeni sözləri cümlədə işlətməklə onları anladıqlarını nümayiş etdirirlər.

### Danışma

1.2.2 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərdə proqnozlaşdırma, təxminetmə bacarığının inkişafına yönəlib.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq C (dərslik). Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqlar xəyali, sehrli varlıqları real varlıqlardan fərqləndirmək, sehrli nağılları real nağıllardan seçmək bacarığının inkişafına xidmət edir.

### Dil qaydaları

4.1.5 **Tapşırıq C, Ç (dərslik). Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqlar əlamət bildirən sözlər haqqındakı bilikləri möhkəmləndirməyə xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətni təxəyyülünə uyğun davam etdirir. | Tap. B (dərslik) |
| Bədii mətnlərdə təxəyyülü real faktlardan fərqləndirir. | Tap. C (dərslik) Tap. B (iş dəftəri) |
| Varlığı səciyyələndirmək üçün əlamət bildirən sözlərdən istifadə edir. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. "Ağca və cırtdanlar" (II hissə)

• Dərslik: səh. 9 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**
- Sözləri hecalamadan bütöv tələffüz etməklə oxuyur (st. 2.2.1)
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab |
| 2 | **Oxu** | "Ağca və Cırtdanlar" nağılının davamının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Hadisələrin ardıcıllığı |
| 4 | **Yazı. Söz ehtiyatı** | Yeni sözlər üzrə iş. Əlamət bildirən sözlər |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Lövhədə "Ağca və cırtdanlar" nağılının II hissəsinə aid təsvirlər verilir. Şagirdlər təsvirlər haqqında öz fikirlərini söyləyir, hadisələrin gedişini təxmin edirlər.

### Oxu

2.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər növbəli oxu ilə "Ağca və cırtdanlar" nağılının II hissəsini oxuyurlar.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər hadisələrin ardıcıllığını bərpa edərək nağılı nəql edirlər. Bu zaman şagirdlərin nitqində yeni sözlərin istifadəsinə diqqət edilməlidir.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq yeni sözlərin cümlədə yerini müəyyənləşdirmək bacarığını inkişaf etdirir. Eyni zamanda "B" tapşırığının yerinə yetirilməsinə kömək edir.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Şagirdlər:

1) mətnə əsasən şəkillərin düzgün ardıcıllığını müəyyənləşdirir və uyğun rəqəmləri boş xanaya yazırlar;

2) hər şəkli bir cümlə ilə ifadə edərək yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözləri hecalamadan bütöv şəkildə oxuyur. | Tap. A (dərslik) |
| Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. | Tap. B (dərslik) |
| Cümlədə buraxılmış sözləri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tap. B (iş dəftəri) |

## 5-ci dərs. Şəxs adları

• Dərslik: səh. 10 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün suallarına cavab verir (st. 2.2.5).
- Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st. 4.1.3).
- Əsərin qəhrəmanına münasibətini rabitəli cümlələrlə ifadə edir (st. 3.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nağıl obrazlarının şəkillərinin nümayişi |
| 2 | **Oxuyub-qavrama** | Obrazlar, baş qəhrəman, xarakter |
| 3 | **Dil qaydaları** | Şəxs adlarının yazılışı |
| 4 | **Yazı** | Obrazlara məktubun yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə dərslikdə verilmiş nağıl obrazlarının şəklini nümayiş etdirir. "Bu obrazlar hansı nağıllarda iştirak edir?" sualı ətrafında müzakirə aparır.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (dərslik).** Dərsliyin I hissəsində obraz, baş qəhrəman və xarakter haqqında verilmiş nəzəri məlumat xatırlanır. Bütün hadisələrin baş qəhrəmanın ətrafında cərəyan etdiyi qeyd olunur.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqla obraz, baş qəhrəman haqqındakı biliklər möhkəmləndirilir.

**2.2.5** **Tapşırıq B (iş dəftəri).** Şagirdlər nağılın məzmunundan çıxış edərək doğru və yanlış fikirləri fərqləndirməklə yanaşı, nağıla istinad edərək niyə belə düşündüklərini əsaslandırırlar; məsələn: "Ağca çirkin idi. Xeyr. Çünki gözəlliyi ilə hamını heyran edirdi". Bu tapşırıq şagirdlərdə fikirlərini sübut etmək, əsaslandırmaq kimi vacib bacarığı formalaşdırmağa kömək edir.

### Dil qaydaları

**4.1.5** **Tapşırıq B (dərslik).** Şagirdlər onlara təqdim edilmiş sözlər içərisindən yalnız şəxs adlarını seçib şifahi şəkildə cümlədə işlədirlər. Beləliklə, şəxs adlarını digər sözlərdən fərqləndirdikləri müşahidə edilir.

**"Bunları bilməliyik" rubrikası.** Şəxs adlarının yerindən asılı olmayaraq həmişə böyük hərflə yazılması izah edilir.

**Tapşırıq C (dərslik). Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqlar şəxs adlarının yazılışı haqqında biliklərin möhkəmləndirilməsinə xidmət edir.

### Yazı

**3.1.3** **Tapşırıq Ç (dərslik). Qrup işi.** Əvvəlcə hər bir şagird məktub yazmaq istədiyi obrazı seçir. Həmin obraza münasibətini, arzu və istəklərini məktub yazmaqla ifadə edir. Eyni obrazları seçmiş şagirdlər bir qrupda birləşirlər. Əgər eyni obrazı seçmiş şagirdlər çoxdursa, bir neçə qrup təşkil oluna bilər. Hər bir qrupda vəzifə bölgüsü aparılır; məsələn: daha sərbəst, sürətlə yazan şagird yazı işi ilə məşğul olur. Digər şagird yazılan məlumatları diktə edir. Bir başqası məktubun dizayn işinə cavabdeh olur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsərdəki obrazları sadə formada təhlil edir və münasibət bildirir. | Tap. A (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. B<br>(iş dəftəri) |
| Xüsusi adları böyük hərflə yazır. | Tap. B, C (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Əsərin qəhrəmanına münasibətini rabitəli cümlələrlə ifadə edir. | Tap. Ç (dərslik) |

fəsil **2** XƏYAL DÜNYASI

## 1-ci dərs. "Aylinin hədiyyəsi"

- Dərslik: səh. 11 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Sözləri hecalamadan bütöv tələffüz etməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Oxuduğu və dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Uçan xalça və təyyarənin müqayisəsi |
| 2 | **Danışma** | Sehrli obrazlar |
| 3 | **Oxu** | "Aylinin hədiyyəsi" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Doğru, yanlış |
| 5 | **Danışma** | Proqnozlaşdırma |
| 6 | **Yazı** | Şəkillərin sözlə ifadə edilməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə uçan xalça və təyyarə şəkli nümayiş etdirir. Şagirdlər bu əşyaların real və xəyali olması haqqında fikirlərini bildirirlər. Daha sonra müəllim şagirdlərə nağıllardakı sehrli qüvvələrin yaranma səbəblərini izah edir. Keçmiş zamanlarda insanlar uzaq məsafələri gec və çətinliklə qət etdikləri üçün onlara kömək edə biləcək bir əşyanı – sehrli xalçanı xəyal ediblər. Müasir dövrdə biz bu xəyalın "reallaşdığının", uzaq məsafələrin təyyarə ilə asanlıqla qət edildiyinin şahidiyik. İnsanlar çətin anlarında onlara kömək edə biləcək bir qüvvə xəyal ediblər.

### Danışma

**1.2.2** **Tapşırıq A (dərslik).** Şagirdlər uçan xalça, sehrli çıraq və simurq quşunun qəhrəmanlara necə kömək edəcəkləri haqqında bildiklərini və yaxud təxmin etdiklərini söyləyirlər.

### Oxu

**2.2.1** **Tapşırıq B (dərslik).** Şagirdlərin oxu texnikasını və bədii təxəyyüllərini inkişaf etdirir.

### Oxuyub-qavrama

**2.2.5** **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq oxuduqlarını analiz etmək bacarığının inkişafına yönəlib.

### Danışma

**1.2.2** **Tapşırıq C (dərslik).** Müəllim əvvəlcə "Göyçək Fatma" nağılından kiçik bir hissəni nəql edir:

*– Şahzadə qapı-qapı gəzib başmağın sahibini axtarır. Ögey anası isə Fatmanı təndirə salıb ağzını örtür ki, şahzadə Fatmanı tapmasın.*

Şagirdlər Aylinin sehrli əşyalarının bu situasiyada Göyçək Fatmaya necə yardım edəcəyi haqqında təxminlərini söyləyirlər. Tapşırıq şagirdlərin proqnozlaşdırma, təxminetmə bacarığının inkişafına yönəlib.

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda isə şagirdlər məhz öz sevimli qəhrəmanlarının düşdükləri çətin anlar və onlara yardımları haqqında fikirlərini söyləyirlər.

### Yazı

**3.1.2** **Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş şəkilləri ifadə etdiyi sözlərlə əvəzləyərək cümlələri hüsnxət normalarına uyğun yazırlar. Doğru cavab: *oğlan, çıraq, cin.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir. | Tap. C, Ç (dərslik) |
| Mətndəki əsas faktları müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. "Sehrli fırça" (I hissə)

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün suallarına cavab verir (st. 2.2.5).
- Oxuduğu və dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Uçan xalça və təyyarənin müqayisəsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Sehrli fırça" nağılının I hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəsi |
| 4 | **Danışma** | Proqnozlaşdırma |
| 5 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəsi, çap yazısı ilə verilmiş cümlələrin əlyazısı şəklində köçürülməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə ötən dərslərdə tanış olduqları sehrli obrazlar haqqında suallar verməklə onları mövzuya yönəldir.

### Oxu. Söz ehtiyatı

**2.1.2** **Tapşırıq A (dərslik).** Şagirdlər "Sehrli fırça" nağılını növbə ilə səsli oxuyurlar.

Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını izah edir.

Şagirdlər yeni sözləri cümlədə işlətməklə onları anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

**2.2.5** **Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərdə səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək bacarığını inkişaf etdirir. Eyni zamanda iş dəftərində verilmiş "A" tapşırığının asanlıqla yerinə yetirilməsi üçün zəmin yaradır.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlərin oxuduqlarını analiz etmək və çap hərfləri ilə verilmiş cümlələri hüsnxət normalarına uyğun köçürmək bacarığını inkişaf etdirir.

### Danışma

**1.2.2** **Tapşırıq C (dərslik).** Şagirdlər sehrli fırçanı xəsis tacirin əlində təsəvvür edirlər. Tacirin nələr çəkəcəyini təxmin edirlər. Tapşırıq şagirdlərdə proqnozlaşdırma, təxminetmə bacarığının inkişafına yönəlib.

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda isə şagirdlər özlərinin nə çəkmək istədiklərini söyləyirlər.

### Oxuyub-qavrama

**Tapşırıq B (iş dəftəri). Təsviri incəsənət fənni ilə inteqrasiya.** Şagirdlər təqdim edilmiş situasiyalarda qəhrəmanlara yardım etmək üçün sehrli əşyalar düşünüb şəklini çəkir və əşyaların adlarını yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü cümlədə mənasına uyğun işlədir. | "Söz boğçası" rubrikası |
| Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Oxuduğu mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir. | Tap. C, Ç (dərslik) |

## 3-cü dərs. "Sehrli fırça" (II hissə)

• Dərslik: səh. 13 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2)
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5.)
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
- Verilmiş əlamət və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).

• **Köməkçi vasitələr (təchizat):** üzərində "Sehrli fırça" nağılının I hissəsinə aid suallar yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Sehrli fırça" nağılının I hissəsinə aid sual-cavab |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Sehrli fırça" nağılının II hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Hadisələrin ardıcıllığı, obrazların təhlili, mətndəki əsas fikir |
| 6 | **Dil qaydaları** | Əlamət bildirən sözlər |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim üzərində "Sehrli fırça" nağılının I hissəsinə aid suallar yazılmış kartları stolun üzərinə düzür. Şagirdlər kartlardan birini seçməklə sualları cavablandıraraq ötən dərsi xatırlayırlar.

### Oxu. Söz ehtiyatı

2.1.2 **Tapşırıq A (dərslik).** Şagirdlər "Sehrli fırça" nağılının II hissəsini növbə ilə səsli oxuyurlar.

Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını izah edir.

Şagirdlər sözləri cümlədə işlətməklə yeni sözləri anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər nağılın II hissəsinə aid hadisələrin təsvir olunduğu illüstrasiyaları ardıcıl düzməklə nağılı nəql edirlər.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Bu tapşırıq mətnin məzmununu ardıcıllığa uyğun yazmaq bacarığının inkişafına yönəlib.

**Tapşırıq C (dərslik).** Şagirdlər tacirin çəkdiyi qızıl şəkillərinin əsl qızıla niyə çevrilməməyinin səbəblərini müzakirə edirlər.

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər nağıldakı obrazların davranışına əsasən onların xarakterlərini müəyyənləşdirirlər. Onların "xeyirxahlıq" və "tamahkarlıq" sözlərinin mənalarını anladıqlarına diqqət edilir.

**"Bunları bilməliyik" rubrikası.** Əsas fikir haqqında verilmiş məlumat izah edilir.

> **Müəllimin nəzərinə:** Əsas fikri müəyyənləşdirmək üçün aşağıdakı köməkçi suallardan istifadə etmək olar:
>
> – *Mətni oxuyub nə anladım? Hansı nəticəyə gəldim? Müəllif bizə hansı fikri çatdırmaq istəyir?*

2.2.4 **Tapşırıq D (dərslik).** Bu tapşırıq şagirdlərin əsas fikri müəyyənləşdirmək bacarığının inkişafına yönəlib.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin əlamət bildirən sözlər haqqında aldıqları biliklərinin inkişafına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü cümlədə mənasına uyğun işlədir. | "Söz boğçası" rubrikası |
| Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Əsərdəki obrazları təhlil edir. | Tap. C, Ç (dərslik) |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. D (dərslik) |
| Verilmiş əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir. | Tap. B (iş dəftəri) |

## 4-cü dərs. Mənim sehrli əşyam

• Dərslik: səh. 14 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

- Cümlədə sözlərin düzgün ardıcıllığını bərpa edir (st. 4.1.6).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir (st. 3.1.4).
- Mövzu ilə bağlı bir neçə cümlədən ibarət esse yazır (st. 3.1.3).

• **Köməkçi vasitələr (təchizat):** üzərində “kim?”, “nə?”, “hara?”, “hansı?”, “nə ilə?”, “nə etdi?” sualları yazılmış kartlar.

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| **1** | **Mövzuya yönəltmə** | Sual kartlarından istifadə |
| **2** | **Dil qaydaları** | Cümlədə söz sırasının bərpası, ad, əlamət, say və hərəkət bildirən sözlər |
| **3** | **Söz ehtiyatı** | Yeni sözlərlə onların izahlarının uyğunlaşdırılması |
| **4** | **Yazı** | Yazılı təqdimat, arzu və hislərin yazıda əks etdirilməsi |
| **5** | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim üzərində “kim?”, “nə?”, “hara?”, “hansı?”, “nə ilə?”, “nə etdi?” və s. suallar yazılmış kartları stolun üzərinə düzür. Eyni zamanda bu fasilədə tanış olduqları nağıl qəhrəmanlarının adları lövhədə yazılır. Şagirdlər kartlardakı suallara cavab verərkən lövhədəki adlardan da istifadə edirlər; məsələn:

– Kim?
– Cırtdan.
– Kim ilə?
– Uşaqlarla.
– Haraya?
– Meşəyə.

### Dil qaydaları

4.1.6 **Tapşırıq A (dərslik).** Şagirdlər cümlələrdəki söz sırasını sualların köməyi ilə bərpa edib oxuyurlar. Bu tapşırığı qruplarla da yerinə yetirmək mümkündür. Hər qrup bir cümlədəki söz sırasını bərpa edərək oxuya bilər.

**Tapşırıq B (dərslik).** Dərslikdə verilmiş A tapşırığından sonra bu tapşırıq fərdi şəkildə asanlıqla yerinə yetirilə bilər.

4.1.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu tapşırıqla ad, əlamət, say və hərəkət bildirən sözlərlə bağlı qazandıqları bilikləri möhkəmləndirirlər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər yeni sözlərlə onların izahını uyğunlaşdırır, bu fəsildə öyrəndikləri sözlərin mənalarını anladıqlarını nümayiş etdirirlər.

### Yazı

3.1.4 **Tapşırıq C (dərslik). <u>Qrup işi</u>.** Bu tapşırıq aşağıdakı mərhələlərlə yerinə yetirilir.

• Şagirdlər qruplara ayrılırlar. Bu zaman müəllim hər qrupda şifahi nitq, yazı, rəsm çəkmək bacarığı yüksək olan şagirdlərin iştirak etməsinə diqqət etməlidir.

• Şagirdlər bir sehrli əşya xəyal edib onun rəsmini çəkirlər (məsələn: sehrli ayaqqabı).

• Bu əşyanın sehrli qüvvəsini yazılı şəkildə izah edirlər (məsələn: *Ayaqqabını geyinən kimi istədiyim yerə sürətlə gedib çatıram*).

• Həmin əşyanın qəhrəmana kömək edə biləcəyi bir nağıl qururlar. Tapşırığın bu mərhələsini hər bir qrup bacardığı səviyyədə yerinə yetirə bilər.

3.1.3 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq öz arzu və hislərini yazıda əks etdirmək bacarığının inkişafına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir. | Tap. A, B (dərslik) |
| Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır. | Tap. A (iş dəftəri) |
| Öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır. | Tap. B (iş dəftəri) |
| Təqdimat üçün seçdiyi vizual materialları yazılı şərhləri ilə müşayiət edir. | Tap. C (dərslik) |
| Mövzu ilə bağlı bir neçə cümlədən ibarət esse yazır. | Tap. C (iş dəftəri) |

## 1-ci dərs. “Biləndər və vəzir”

• Dərslik: səh. 15 • İş dəftəri: səh. 11

**Təlim məqsədləri**

- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4.)
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Verilmiş əlamət və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).
- Kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzunun təxmin edilməsi |
| 2 | **Oxuyub-qavrama** | Obrazın xarakterinin müəyyənləşdirilməsi, sual-cavab yarışı |
| 3 | **Dil qaydaları** | Əlamət bildirən sözlər |
| 4 | **Yazı** | Biləndərin məsləhətlərinin köçürülməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Bu tapşırığın əsas məqsədi şagirdlərin diqqətini fəslin mövzusunu əks etdirən açar sözə yönəltməkdir. Şagirdlər dərslikdə verilmiş “B” tapşırığını yerinə yetirərkən həmin açar sözdən istifadə edəcəklər.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik). Tapşırıq A (iş dəftəri). İstiqamətləndirilmiş oxu.** Müəllim şagirdlərin diqqətini oxunun məqsədinə yönəldir və bildirir ki, mətni oxuyarkən baş qəhrəmanın – Biləndərin sözlərinə və hərəkətlərinə xüsusi diqqət yetirmək lazımdır. Çünki şagirdlər nağılı oxuduqdan sonra baş qəhrəmanın xarakterini müəyyənləşdirməlidirlər.

2.2.3 **Tapşırıq C (dərslik). Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqlar şagirdin oxuyub-qavrama bacarığını inkişaf etdirir.

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıq aşağıdakı mərhələlərlə yerinə yetirilə bilər.

• Sinif iki komandaya ayrılır.

• Komandalara komanda üzvləri tərəfindən ad seçilir.

• Komanda üzvləri “Biləndər və vəzir” nağılının məzmununa aid suallar hazırlayırlar.

• İlk sual verən komandanı müəyyənləşdirmək üçün püşk atılır.

• Sual verən komanda üzvü cavab verən komanda üzvünün adını çəkib sualını təqdim edir.

• Sual düzgün cavablandırılan zaman komanda 1 xal qazanır. Beləcə, sual-cavab oyunu qalib seçilənə qədər davam edir.

### Dil qaydaları

4.1.5 **Tapşırıq D (dərslik).** Bu tapşırıq əlamət bildirən sözlər haqqında qazanılan biliklərin təkmilləşməsinə xidmət edir.

### Yazı

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər nağılda Biləndərin vəzirə verdiyi məsləhətləri tapıb köçürürlər *(Bizim tərəflərdə yaxşı qovun yetişir. Bazardan qovun alın. İçini özünüz yeyin. Tumlarını xoruza, qabığını isə uzunqulağa verin.).*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Verilmiş əlamət və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir. | Tap. D (dərslik) |
| Kiçikhəcmli mətnləri üzündən köçürür. | Tap. C<br>(iş dəftəri) |

## 2-ci dərs. “Bir parça köz”

• Dərslik: səh. 16 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Obrazın xatırlanması |
| 2 | **Oxu** | Mətnin oxusu, obrazın xarakterinin müəyyənləşdirilməsi |

| | | |
|---|---|---|
| 3 | **Söz ehtiyatı** | Yeni sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Hekayə xəritəsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Klaster.** Müəllim şagirdlərdən ötən dərsdə tanış olduqları qəhrəmanın adını soruşur. Şagirdlərin cavabından sonra lövhədə onun adını (*Biləndər*) yazır. Biləndərin xarakteri xatırlanır və adının ətrafında qeyd olunur.

### Oxu

2.2.4 **Tapşırıq A, B (dərslik).** Şagirdlər "Bir parça köz" nağılını oxuduqdan sonra baş qəhrəmanın – Biləndərin xarakterini müəyyənləşdirməyə çalışırlar.

**"B" tapşırığında** şagirdlər oxuduqları cümlələrin məzmunu ilə Biləndərin xarakterik cəhətlərini uyğunlaşdırırlar. Həmin sözləri (*nəzakətli, məntiqli, qayğıkeş*) dərsin əvvəlində lövhədə çəkilmiş klasterə əlavə edirlər.

**Tapşırıq C (dərslik).** Müəllim lövhədə çəkilmiş klasterdən də çıxış edərək Biləndərin xarakterik cəhətlərini izah edir və şagirdlərin diqqətini qəhrəmanın adına yönəldir. Şagirdlər insanların onu niyə belə adlandırdıqları haqda fikirlərini söyləyirlər. Daha sonra müəllim doğru cavabı söyləyir (Doğru cavab: "*Bilmək" sözü ilə bağlıdır*).

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç, D (dərslik). Tapşırıq A (iş dəftəri).** Şagirdlər "maşa" sözünün mənasını nağıla çəkilmiş illüstrasiyaya əsasən izah etməyə çalışırlar. Müəllim "köz" və "kömür" arasındakı fərqi izah edir. Şagirdlər iş dəftərindəki tapşırığı yerinə yetirməklə yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

2.1.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlədə buraxılmış sözləri müəyyənləşdirməklə yeni sözləri nə dərəcədə anladıqlarını nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər nağılın hekayə xəritəsini tərtib etməklə mətndəki əsas faktları yadda saxladıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. A, B, C (dərslik) |
| Sözün ifadə etdiyi şəkli müəyyən edir. | Tap. Ç, D (dərslik) Tap. A (iş dəftəri) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Əsərin məzmununa uyğun hekayə xəritəsi qurur. | Tap. C (iş dəftəri) |

## 3-cü dərs. "Daş paltar" (I hissə)

• Dərslik: səh. 17 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Nəqli və sual cümlələrini fərqləndirir (st. 4.1.7).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Materiallar haqqında təsəvvür |
| 2 | **Danışma** | Süjetli şəkil kompozisiyası üzrə mətnin qurulması |
| 3 | **Oxuyub-qavrama** | "Daş paltar" nağılının I hissəsinin oxusu; mətn üzrə faktoloji sualların yazılı cavablandırılması |
| 4 | **Söz ehtiyatı** | Cümlələrdə buraxılmış sözlərin bərpası |
| 5 | **Danışma** | Təxminetmə |
| 6 | **Dil qaydaları** | Cümlənin növləri |
| 7 | **Yazı** | Şəklə uyğun hissənin köçürülməsi |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhənin bir hissəsində bir neçə material adı – yun, ipək, pambıq, rezin, digər hissəsində isə həmin materiallardan hazırlanan əşyaların adını – papaq, şərf, köynək, ayaqqabı yazır. Şagirdlər bu adlar arasında uyğunlaşma aparırlar.

### Danışma

**1.2.1** **Tapşırıq A (dərslik).** Şagirdlər şəkillərin ardıcıllığını müəyyənləşdirir, açar sözlərdən də istifadə edərək kiçik mətn qurub danışırlar. Nümunə:

*Rəhim baba qoyunların yununu qırxdı. Yaqut nənə həmin yundan rəngli iplər hazırladı. Qarşıdan qış gəlirdi. Yaqut nənə Yusifə naxışlı corab toxudu. Yusif isti corablarını sevə-sevə geyinir.*

**Oxuyub-qavrama**

**2.2.3** **Tapşırıq B (dərslik).** Şagirdlər "Daş paltar" nağılını növbə ilə səsli oxuyurlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətn üzrə faktoloji suallara yazılı cavab verərək mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**2.1.2** Müəllim şagirdlərdən yeni sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını izah edir. Şagirdlər sözləri cümlədə işlətməklə yeni sözləri anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər cümlədə buraxılmış sözləri müəyyən etməklə yeni sözləri nə dərəcədə anladıqlarınıını nümayiş etdirirlər.

**Danışma**

**1.2.2** **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərin təxminetmə bacarığının inkişafına yönəlib.

**Dil qaydaları**

**4.1.6** **Tapşırıq B (iş dəftəri).** Şagirdlər bu tapşırıqla cümlənin məqsəd və intonasiyaya görə növləri haqqında aldıqları bilikləri möhkəmləndirirlər.

**Yazı**

**3.1.1** **Tapşırıq C (iş dəftəri).** Şagirdlər şəklə aid hissəni (Düşmən əsgərləri böyük bir daşı darta-darta meydana gətirdilər) tapıb köçürürlər. Bununla şagirdlərin verbal məlumatı vizual materialla uyğunlaşdırmaq və çap hərfləri ilə verilmiş mətni üzündən köçürmək bacarığı inkişaf etdirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır. | Tap. A (dərslik) |
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. A (iş dəftəri) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. C (dərslik) |
| Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir. | Tap. Ç (dərslik) |
| Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir. | Tap. B (iş dəftəri) |
| Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. "Daş paltar" (II hissə)

• Dərslik: səh. 18 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4.).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5.).
- Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir (st. 2.2.4.).
- Verilmiş əlamət və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5.).

• **Köməkçi vasitələr (təchizat):** üzərində Biləndərin xarakterləri (ağıllı, nəzakətli, məntiqli, qayğıkeş) yazılmış kartlar

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Obrazın xatırlanması |
| 2 | **Oxuyub-qavrama** | "Daş paltar" nağılının II hissəsinin oxusu; xarakterin müəyyənləşdirilməsi, hadisələrin ardıcıllıqla nəql edilməsi, hekayə xəritəsi |
| 3 | **Dil qaydaları** | Əlamət bildirən sözlər |
| 4 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərdən bu fəsildə tanış olduqları qəhrəmanın adını soruşur. Şagirdlərin cavabından sonra lövhədə onun adını yazır (Biləndər). Biləndərin xarakterik cəhətləri yazılmış kartlar stolun üzərinə düzülür. Şagirdlər kartları qaldırıb yazılmış xarakterə uyğun situasiyanı xatırlayırlar; məsələn: *Qayğıkeş. Biləndər anasına samovar qaynatması üçün kömək edirdi.*

Daha sonra ötən dərsdə "Daş paltar" nağılının davamı ilə bağlı şagirdlərin təxminləri xatırlanır.

**Oxuyub-qavrama**

**2.2.4** **Tapşırıq A (dərslik).** Şagirdlər "Daş paltar" nağılının II hissəsini oxuduqdan sonra nağılın məzmunundan çıxış edərək baş qəhrəmanın – Biləndərin xarakterini (hazırcavab) müəyyənləşdirməyə çalışırlar.

**2.2.5** **Tapşırıq B (dərslik).** Şagirdlər cümlələrin ardıcıllığını müəyyənləşdirməklə nağılı nəql edirlər.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqla hekayə xəritəsi üzrə fəaliyyət bacarığı inkişaf etdirilir. Şagirdlər hadisələrin ardıcıllığını bərpa edərək cümlələri "əvvəl", "sonra", "sonda" sözlərinin qarşısında yazırlar. Daha sonra hadisələrin harada baş verdiyini (kənddə, meydanda), nağılda iştirak edən obrazların adlarını (Biləndər, kənd əhalisi, əsgərlər) və baş qəhrəmanın adını (Biləndər) qeyd edirlər.

Nağılın məzmununa uyğun illüstrasiya çəkməklə nağıl haqqında vizual baxışlarını əks etdirirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər müxtəlif obrazlara aid hərəkətləri müəyyənləşdirməklə mətni oxuyub-anladıqlarını nümayiş etdirirlər.

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin əsas fikri müəyyənləşdirmək bacarığının inkişafına yönəlib.

### Dil qaydaları

4.1.5 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərin əlamət bildirən sözlər haqqında aldıqları biliklərinin inkişafına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. A (dərslik) |
| Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. B<br>(iş dəftəri) |
| Verilmiş əlamət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir. | Tap. Ç (dərslik) |

fəsil 4 **HEYVANLAR HAQQINDA NAĞILLAR**

## 1-ci dərs. "Şir və Dovşan"

- Dərslik: səh. 19 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri**

- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür (st. 3.1.1).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Heyvanlar haqqında nağılların xatırlanması |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Şir və Dovşan" nağılının oxusu, söz boğçası üzrə iş |
| 3 | **Söz ehtiyatı. Yazı** | Yeni sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Obrazların təhlili, hadisələrin ardıcıllığı |
| 5 | **Yazı** | Səhvləri düzəltməklə üzündən köçürmə |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik). Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqların əsas məqsədi şagirdlərin heyvanlar haqqında bildikləri nağılları xatırlatmaq və onların diqqətini fəslin mövzusuna yönəltməkdir.

### Oxu. Söz ehtiyatı

2.1.2 **Tapşırıq B (dərslik).** Şagirdlər "Şir və Dovşan" nağılını növbə ilə səsli oxuyurlar.

Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını izah edir.

Şagirdlər sözləri cümlədə işlətməklə yeni sözləri anladıqların nümayiş etdirirlər.

3.1.1 **Tapşırıq C (dərslik).** Şagirdlər cümlədə buraxılmış sözləri müəyyən etməklə yeni sözləri nə dərəcədə anladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq açar söz-

lərdən də istifadə edərək nağıldakı obrazları xarakterizə etmək bacarığını təkmilləşdirir.

2.2.5 **Tapşırıq D (dərslik).** Bu tapşırıq köməkçi suallardan istifadə edərək hadisələri ardıcıllıqla nəql etmək bacarığının inkişafına yönəlib.

**Yazı**

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər nağıldan verilmiş cümlələrdəki səhv məlumatları düzəldib köçürürlər *(mehriban – zalım; kirpiyə – dovşana, gölə – quyuya).*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü cümlədə mənasına uyğun işlədir. | "Söz boğçası" rubrikası |
| Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür. | Tap. C (dərslik) |
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. Ç (dərslik) |
| Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. | Tap. D (dərslik) |
| Cümlələri hüsnxət normasına uyğun üzündən köçürür. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. "Tülkü və Leylək"

• Dərslik: səh. 20 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
- Hərfin əlifba sırasındakı yerini müəyyən edir (st. 4.1.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Dostluq haqqında fikirlər |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Tülkü və Leylək" nağılının oxusu, yeni sözlər üzrə iş |
| 3 | **Danışma** | Təxminetmə |
| 4 | **Oxuyub-qavrama** | Səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| 5 | **Dil qaydaları** | Əlifba |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Tapşırıq A (dərslik).** Bu tapşırığın əsas məqsədi dostluq haqqında fikirləri xatırlamaqla şagirdlərin diqqətini mövzuya yönəltməkdir.

**Oxu. Söz ehtiyatı**

2.1.2 **Tapşırıq B (dərslik).** Şagirdlər "Tülkü və Leylək" nağılını növbə ilə səsli oxuyurlar.

Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını izah edir.

Şagirdlər yeni sözləri cümlədə işlətməklə onları anladıqlarını nümayiş etdirirlər.

**Danışma**

1.2.2 **Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərin təxminetmə bacarığının inkişafına yönəlib.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər Leylək və Tülkünün dostluğunun alınmaması səbəbləri haqqında öz fikirlərini söyləyir, müzakirə aparırlar.

**Oxuyub-qavrama**

2.2.5 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Tapşırıq səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək bacarığının inkişafına yönəlib.

**Dil qaydaları**

4.1.4 **Tapşırıq D (dərslik).** Bu tapşırıqla şagirdlərin diqqəti dərslikdə verilmiş tapşırıqların hərflərlə sıralanma ardıcıllığına yönəldilir.

**"Bunları bilməliyik" rubrikası.** Əlifba haqqında məlumat – hərflərin düzülmə ardıcıllığı, hər bir hərfin adı izah edilir.

**Tapşırıq E, Ə (dərslik).** Bu tapşırıqlar əlifba haqqında biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Tapşırıq F (dərslik). Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqlarda şagirdlər hərflərin əlifbadakı sıra nömrələrindən istifadə edərək kodlaşmanı aça bilirlər (Dərslik, "F" tapşırığı üçün doğru cavab: *Mən nağılları sevirəm.* İş dəftəri, "B" tapşırığı üçün doğru cavab: *Dost dosta tən gərək!*).

**Tapşırıq G (dərslik). Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqlarda isə şagirdlər hərflərin əlifbadakı sıra nömrələrindən istifadə edərək nağıl adlarını, öz ad və soyadlarını kodlaşdırırlar. Bununla da əlifbadan istifadə imkanlarından biri ilə tanış olurlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözü cümlədə mənasına uyğun işlədir. | "Söz boğçası" rubrikası |
| Mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir. | Tap. C, Ç (dərslik) |
| Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Hərfin əlifba sırasındakı yerini müəyyən edir. | Tap. D, E, Ə, F (dərslik). Tap. B, C (iş dəftəri) |

## 3-cü dərs. "Göyərçin və Qarışqa"

• Dərslik: səh. 22 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).
- Yeni sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.1).
- Sözləri əlifba sırası ilə düzür (st. 4.1.4).
- "K" hərfinin işarə etdiyi [k'] və [k] samitlərini fərqləndirir (st. 4.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yardım etmək haqqında fikirlərin müzakirəsi |
| 2 | **Oxu** | "Göyərçin və Qarışqa" nağılının oxusu |
| 3 | **Oxuyub-qavrama** | Cümlələrin hansı obraza aid olduğunun müəyyənləşdirilməsi, nağıla aid faktoloji sualların yazılı cavablandırılması |
| 4 | **Yazı** | Çap hərfləri ilə verilmiş cümlələrin üzündən köçürülməsi |
| 5 | **Danışma** | Şəklin təsvir edilməsi |
| 6 | **Oxuyub-qavrama** | Obrazların xarakterizə edilməsi |
| 7 | **Dil qaydaları** | Əlifba sırası, "k" hərfinin iki səs ifadə etməsi |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə sual verir:

– Siz kimlərə çətin anda kömək etmisiniz?

### Oxu

**Tapşırıq A (dərslik).** Şagirdlər "Göyərçin və Qarışqa" nağılını növbə ilə səsli oxuyurlar. Nağılın məzmunundan çıxış edərək nağıl üçün başqa ad düşünürlər.

### Oxuyub-qavrama

**2.2.4 Tapşırıq B (dərslik).** Bu tapşırıqla şagirdlərin nağılı nə qədər diqqətlə oxuduqlarını müşahidə etmək mümkündür.

**2.2.3 Tapşırıq A (iş dəftəri).** Şagirdlər nağıl üzrə faktoloji suallara yazılı cavab verərək nağılı nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

### Yazı

**3.1.1 Tapşırıq B (iş dəftəri).** Şagirdlər şəklə aid hissəni (*Göyərçin dimdiyinə yarpaq alıb suya atdı. Qarışqa yarpaqdan yapışıb sahilə çıxdı*) tapıb köçürürlər. Bununla şagirdlərin verbal məlumatla vizual materialı uyğunlaşdırmaq və çap hərfləri ilə verilmiş mətni üzündən köçürmək bacarığı inkişaf etdirilir.

### Danışma

**1.2.1 Tapşırıq C (dərslik).** Şagirdlər açar sözlərdən istifadə edərək şəkli təsvir edirlər. Bu tapşırıq şagirdlərdə verbal təsvir bacarığını inkişaf etdirir.

### Oxuyub-qavrama

**2.2.4 Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda nağıl qəhrəmanlarını xarakterizə etməklə analitik bacarıqları möhkəmləndirilir.

### Dil qaydaları

**4.1.4 Tapşırıq D (dərslik). Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqlarla şagirdlər siyahının tərtib edilməsində (jurnallarda, lüğətlərdə) əlifba sırasının rolunu dərk edirlər.

**4.1.1 Tapşırıq E (dərslik). Tapşırıq Ç (iş dəftəri).** Bu tapşırıqlarla "k" hərfinin iki səs ifadə etməsi xatırlanır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. B, Ç (dərslik) |
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. A (iş dəftəri) |
| Çap hərfləri ilə verilmiş cümlələri üzündən köçürür. | Tap. B (iş dəftəri) |
| Yeni sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tap. C (dərslik) |
| Sözləri əlifba sırası ilə düzür. | Tap. D (dərslik) Tap. C (iş dəftəri) |
| "K" hərfinin işarə etdiyi [k'] və [k] samitlərini fərqləndirir. | Tap. E (dərslik) Tap. Ç (iş dəftəri) |

## **4-cü dərs.** Ümumiləşdirici təkrar

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
• Əsərdəki obrazları sadə şəkildə təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
• Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st. 4.1.3).
• Hərfin əlifba sırasındakı yerini müəyyən edir (st. 4.1.4).
• Bədii mətndəki obraz və hadisələr haqqında yazılı təqdimat hazırlayır (st. 3.1.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Anlayışın çıxarılması |
| 2 | **Oxuyub-qavrama** | Bölmənin qısa icmalı, obrazların xarakterizə edilməsi |
| 3 | **Dil qaydaları** | Şəxs adlarının yazılışı, əlifba sırası, “k” hərfinin iki səs ifadə etməsi |
| 4 | **Yazı** | Açar sözlərin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Anlayışın çıxarılması.** Müəllim üzərində V bölmənin fəsillərinin adları – “Nağılçılar”, “Xəyal dünyası”, “Biləndərin macəraları”, “Heyvanlar haqqında nağıllar” yazılmış kartları lövhəyə tərsinə (yazısı lövhəyə doğru) yapışdırır. Hər hansı bir fəslə aid açar sözlər söyləyir. Şagirdlər açar sözlərin hansı fəslə aid olduğunu tapırlar; məsələn: Firidun bəy Köçərli, Qrimm qardaşları – “Nağılçılar”; “Uçan xalça”, “Sehrli fırça”– “Xəyal dünyası” və s.

Şagirdlərin düzgün cavabları səsləndikcə müəllim kartları çevirir.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (dərslik). Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu tapşırıqları mövzuya yönəltmə mərhələsindən sonra fərdi şəkildə yerinə yetirir, bölmədə öyrəndiklərini bir daha təkrar edirlər.

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda nağıl qəhrəmanlarını xarakterizə etməklə şagirdlərin analitik bacarıqları möhkəmləndirilir.

### Dil qaydaları

4.1.3 **Tapşırıq B (dərslik). Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqlar şəxs adlarının böyük hərflə yazılışına dair biliklərin möhkəmləndirilməsinə xidmət edir.

4.1.4 **Tapşırıq C (dərslik). Tapşırıq Ç (iş dəftəri).** Bu tapşırıqlar vasitəsilə şagirdlərin əlifba sırası ilə bağlı bilikləri möhkəmləndirilir.

### Yazı

3.1.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər şəklə uyğun bir neçə açar söz yazırlar. (*Baba, nənə, nəvə, Toplan, Məstan, siçan, turp, çıxartmaq* və s.)

**Müəllimin nəzərinə!** Yönəldici sualların köməyi ilə “Turpun nağılı” xatırlanır. Bu mərhələdən sonra şagirdlər şəklə aid açar sözləri asanlıqla yaza bilərlər.

**Diferensial təlim**

Tapşırığın növbəti mərhələsi – əsas fikrin ifadə edilməsi müxtəlif cür icra olunur.

Tapşırığı asanlıqla yerinə yetirən şagirdlər şəklə aid bir neçə cümlə yaza, həmçinin əsas fikri sərbəst şəkildə ifadə edə bilərlər.

Köməyə ehtiyacı olan şagirdlərə isə şəklə aid bir neçə açar söz təklif etmək olar, əsas fikri ifadə etmək üçün isə müəllimin onlara təklif etdiyi variantlar arasından seçə bilərlər (Doğru cavab: *Güc birlikdədir.*).

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. A (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Əsərdəki obrazları təhlil edir və onlara münasibət bildirir. | Tap. B (iş dəftəri) |
| Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır. | Tap. B (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Hərfin əlifba sırasında yerini müəyyən edir. | Tap. C (dərslik)<br>Tap. Ç (iş dəftəri) |
| Mövzu ilə bağlı bir neçə cümlədən ibarət esse yazır. | Tap. Ç (dərslik) |

# bölmə 6 VƏTƏNİM AZƏRBAYCAN

| Mövzu | | VƏTƏNİM AZƏRBAYCAN |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Oxunan mətnin təxəyyülə uyğun dəyişdirilməsi və ya davam etdirilməsi<br>• Kompozisiyalı şəkil üzrə hekayənin qurulması<br>• Mövzu üzrə aparılan araşdırmanın şifahi təqdimatı |
| | Söz ehtiyatı | akvarium, qəfəs, məskən, doğma, çəmən, pətək, fayton, ərazi, el-oba, yurd, bərəkətli, xəcalət çəkmək, üzr istəmək, qəmgin, azad etmək, kolluq, igid, qərib, mərd, qürbət, təsəlli, mayak, möcüzə, qüllə, polad, dirək, ada, sərvət, müsabiqə, sərgi, təqdim etmək, gimnast, beynəlxalq, təmsil etmək, azarkeş, ruhlandırmaq, şans, tablo, məharət, bal, kürsü, idman arenası, layla, boy atmaq, fərəhlənmək, öyünmək, muzey, eksponat, turist, çul, təşvişə düşmək, yadigar, qəm, ordu, fəxr etmək, işğal etmək, eyvan, abad, göz oxşamaq, səbri tükənmək və s. |
| | Oxu | • Kiçikhəcmli mətnlərin oxunması<br>• Mətnin məzmununun plan əsasında nəql edilməsi |
| | Yazı | • Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Mətnin planı üzrə məzmunun yazılması<br>• Təlimatın yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Yer adlarının yazılışı<br>• Nəqli və sual cümlələri üzrə biliklərin təkrarı və tətbiqi – sual sözlərindən istifadə etməklə mətndəki faktlara dair sual cümlələrinin qurulması |
| | Filoloji anlayışlar | • Mətnin planı, təlimat |
| Kompetensiyalar | | • Vətənini tanımaq, vətənə sevgi, dövlət rəmzlərinə hörmət, qədim abidələrə, qədim əşyalara dəyər verilməsi və s. |

Bu bölmədə "vətən" anlayışı və Azərbaycanla bağlı müxtəlif mövzulardan (Azərbaycanın təbiəti, bölgələri, milli adət-ənənələri, işğal olunmuş torpaqları, qəhrəmanları və s.) bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərə vətənpərvərlik hislərini aşılayan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, "vətən" və "yer" anlayışı ilə bağlı söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir;

• verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır;

• sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur;

• mətnə diqqətlə qulaq asır, mətn oxunduqca kitabdan izləyir;

• hüsnxət normalarına uyğun sərbəst yazır;

• cümlənin növlərini fərqləndirir;

• ad, əlamət və hərəkət bildirən sözləri fərqləndirir;

• şeirin struktur elementlərini tanıyır.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• təlimatın yazılması;

• mövzu üzrə araşdırmanın aparılması.

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı mövzuların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

dövlət rəmzlərini əks etdirən vəsaitlər, qədim bir əşya, təlimat və məktub nümunəsi.

fəsil **1** VƏTƏN NƏDİR?

## 1-ci dərs. "Ən gözəl yer"

• Dərslik: səh. 25-26 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**

- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir (st. 1.2.1).
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- İllüstrasiya əsasında mətni genişləndirir (st. 2.2.3).
- Eyni məna qrupuna aid olan sözləri müəyyən edir (st. 2.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Dərsə hazırlıq** | Söz assosiasiyası |
| 2 | **Danışma** | Bölmə titulu və doğma məkan mövzusu |
| 3 | **Oxu** | "Ən gözəl yer" şeiri üzrə iş |
| 4 | **Söz ehtiyatı** | Yer, məkan bildirən sözlərin mənimsədilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Qeyd.** Müəllim şagirdlərə ailələri və dostları ilə gəzintidə olduqları günlərlə bağlı fotoşəkillər gətirməyi tapşıra bilər.

### Mövzuya yönəltmə

**Söz assosiasiyası.** Müəllim "Azərbaycan" sözünü lövhədə yazır. Şagirdlər bu sözlə bağlı başqa sözlər söyləyirlər. Bununla bölmənin mövzusu ilə bağlı əvvəlki biliklər xatırladılır və bölmə üzrə şagirdlərin ilkin bilik səviyyəsi müəyyən edilir.

### Danışma

1.2.1 Şagirdlər gətirdikləri fotoşəkilləri təsvir etməklə şifahi təqdimat edirlər. Təqdimat zamanı müəllim yönəldici suallar verməklə şagirdləri fotoşəklin əks etdirdiyi məkanla bağlı danışdırmalıdır.

**Tapşırıq A (dərslik).** Tapşırıqda verilən suallar ətrafında şagirdlər şəkillər üzrə danışırlar. Şagirdlər danışdıqca müəllim şəkillərin əks etdirdiyi məkan bildirən sözləri (*dağ, dəniz, meşə, göl* və s.) lövhədə qeyd edə bilər.

Şagirdlərə *abidə, saray, muzey, xizək, piknik* və başqa tanış olmayan sözlərin mənası izah edilməli, onlar söz boğçasına salınmalıdır.

1.2.2 **Tapşırıq B (dərslik).** Yaş qrupunu nəzərə alaraq uşaqlara "vətən" anlayışı çox bəsit şəkildə – "doğma yer" anlayışı ilə müqayisədə mənimsədilir. Şagirdlərə quşların və balıqların nümunəsində müqayisə aparmaq tapşırılır. Şagirdlər müqayisə apardıqca fikirlərini əsaslandırmalıdırlar; məsələn: *Balıqlar üçün doğma yer dənizdir. Çünki onlar burada dünyaya gəliblər. Dəniz böyük və genişdir. Dənizdə istədikləri yerə üzüb gedirlər* və s.

### Oxu

2.2.3 **Tapşırıq C (dərslik).** Müəllim şagirdlərin diqqətini şəklə (*quş, arı, kəpənək*) yönəldərək "Bəs onlar nə deyərdilər?" sualını verir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin oxuyub-anlama bacarığını inkişaf etdirir.

### Söz ehtiyatı

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin söz ehtiyatlarını möhkəmləndirmək, həmçinin məntiqi təfəkkürlərini (bağlantı qurma) inkişaf etdirmək məqsədi daşıyır. Şagirdlər "toyuq" və "hin" sözləri arasında əlaqəni tapırlar: *Toyuq hində yaşayır.* Digər sözlərin uyğun qarşılığını isə şəkillərin köməyi ilə müəyyən edirlər.

2.1.1 **Tapşırıq C (iş dəftəri).** Bölmə boyunca yer, məkan bildirən sözlər üzrə şagirdlərin söz ehtiyatının artırılması nəzərdə tutulmuşdur. Tapşırığa əsasən şagirdlər eyni məna qrupuna aid olan sözləri müəyyən etməklə ümumiləşdirmə aparırlar. Müəllimin şagirdlərə *akvarium* və *qəfəs* sözlərinin yer mənası verən digər sözlərlə eyni qrupa daxil olmadığını (daşına bildiyi üçün əşya olduğunu) izah etməsi tövsiyə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkillər üzrə təəssüratlarını bölüşür. | Bölmə titulu. Tap. A, B (dərslik) |
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. B (dərslik) |
| İllüstrasiya əsasında mətni genişləndirir. | Tap. C (dərslik) |
| Yer mənası bildirən sözləri fərqləndirir. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. “Şah və bağban” (I hissə)

• Dərslik: səh. 27 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**
- Şəklə baxaraq dinlədiyi mətni genişləndirir və şərh edir (st. 1.1.1).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün suallarına cavab verir (st. 2.2.5).
- Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 1.2.2).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında müzakirə |
| 2 | **Dinləmə** | Dinləmə mətni üzrə iş |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Şah və bağban” (1-ci hissə) mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Hadisələrin səbəbinin müəyyən edilməsi və mətnin davamının təxmin edilməsi |
| 5 | **Yazı** | Mətndən məkanı təsvir edən cümlələrin köçürülməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə suallar verir:

*– Siz heç yaşadığınız yerdən uzaqlarda olmusunuzmu? Bu haqda danışın.*

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Müəllim mətni səsləndirir:

*Lalənin atası musiqiçi idi. İşi ilə əlaqədar tez-tez xarici ölkələrə səfər edirdi.*

*Tətildə atası Laləni də özü ilə Londona aparmışdı. Laləyə tanımadığı yerlər çox maraqlı idi: fərqli dildə danışan insanlar, hündür binalar, parklar, teatr, əyləncə mərkəzləri və s.*

*Bir neçə gün keçdi. Lalə evləri, ailəsi, dostları üçün darıxmağa başladı.*

*Ətrafındakı uşaqlarla heç cür dostlaşa bilmirdi. Hamısı başqa bir dildə danışır, Laləni başa düşmürdülər. Lalə artıq evlərinə, ailəsinin, dostlarının yanına, bir sözlə, vətəninə qayıtmaq istəyirdi.*

Şagirdlər dinlədikləri mətnə əsasən şəkillər üzrə danışırlar. Məqsəd şagirdlərə “vətən” anlayışını daha dərindən mənimsətməkdir.

### Oxu. Söz ehtiyatı

**Tapşırıq B (dərslik). Xəyalında canlandırma.** Şagirdlər əvvəlcə mətnin adını oxuyur, mətnə çəkilmiş illüstrasiyaya diqqətlə baxırlar. Bu onlara mətni oxuduqca hadisələrin baş verdiyi məkanı gözləri önünə gətirməyə kömək edə bilər.

**“Söz boğçası” rubrikası.** Oxu prosesində şagirdlərə tanış olmayan sözlərin mənaları izah edilir.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik). Tapşırıq A (iş dəftəri).** Tapşırıqlar şagirdlərin mətnlə bağlı oxuyub-qavramasını yoxlayır. Şagirdlər mətndəki əsas hadisələrin səbəbini müəyyən edirlər.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin söz ehtiyatını zənginləşdirmək məqsədi daşıyır.

### Danışma

1.2.2 **Tapşırıq Ç (dərslik).** Əvvəlki saatlarda vətən mövzusu ilə bağlı həyata keçirilən fəaliyyət mətnin davamını bu mövzu ilə bağlamaqda şagirdlərə kömək ola bilər.

### Yazı

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Tapşırığın məqsədi oxunan mətnin qavranılmasını yoxlamaq və yazı bacarığını inkişaf etdirməkdir. Şagirdlər mətnin 1-ci abzasındakı 3, 4 və 6 -cı cümlələri hüsnxət normalarına əsasən köçürürlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəklə baxaraq dinlədiyi mətni şərh edir. | Tap. A (dərslik) |
| Mətndəki hadisələrin səbəbini müəyyən edir. | Tap. C (dərslik) Tap. A (iş dəftəri) |
| Mətni öz təxəyyülünə uyğun davam etdirir. | Tap. Ç (dərslik) |
| Mətnin bir hissəsini üzündən köçürür. | Tap. C (iş dəftəri) |

## 3-cü dərs. “Şah və bağban” (II hissə)

• Dərslik: səh. 28 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
- Verilmiş plan əsasında mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ötən dərsin xatırladılması |
| 2 | **Oxu** | Mətnin ikinci hissəsinin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin plan əsasında nəql olunması |
| 4 | **Söz ehtiyatı** | "Söz boğçası" üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mətnin 1-ci hissəsini xatırlatmaq üçün lövhədə suallar yazır: *"Şah və onun adamları gəzinti zamanı nə gördülər? Şahın adamları bağ sahibinin yanına nə üçün gəlmişdilər? Bağban şahın adamlarına nə söylədi?"*

Sonra şagirdlərin ötən dərsdə mətnin davamı ilə bağlı söylədikləri fərziyyələr yada salınır.

### Oxu

2.2.3 **Tapşırıq A (dərslik). İstiqamətləndirilmiş oxu.** Mətnin cütlərlə oxunması tövsiyə olunur. Cütlər mətni birlikdə oxuyur, suallar ətrafında müzakirə aparırlar. Öz fərziyyələrini mətndə baş verən hadisələrlə müqayisə edirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər "Şah və bağban" mətni üzrə hekayə xəritəsini tamamlayırlar.

2.2.4 **Tapşırıq B (dərslik). Tapşırıq B (iş dəftəri).** Cütlərə mətndəki əsas fikri müəyyən etmək tapşırılır. Cütlər mətndəki əsas fikir ətrafında müzakirə aparıb gəldikləri qənaəti təqdim edirlər. İş dəftərindəki tapşırıq əsas fikri dəqiqləşdirməkdə şagirdlərə kömək edə bilər. (*Cavab:* "İnsan üçün vətəni hər şeydən əzizdir")

**Tapşırıq C (dərslik).** Şagirdlər "Şah və bağban" mətnində iştirak edən obrazları müəyyən edib bağbanın xarakterinə münasibət bildirirlər. Tapşırıq vasitəsilə şagirdlər "vətənpərvər" və "vətənpərvərlik" anlayışlarını dərk edirlər.

2.2.5 Müəllim şagirdlərin diqqətini "Faydalı məsləhət" rubrikasına yönəldir. "Mətnin planı"nı izah edir. Mətn üzrə planın qurulması şagirdlərə mətndəki əsas hadisələri anlamaqda və mətni ardıcıl nəql etməkdə kömək edir.

**Müəllimin nəzərinə!** Dərslikdə mətn planının qurulması bacarığına vaxtaşırı müraciət olunacaq. Bu dərsdə belə bir tapşırıq ilk dəfə verildiyindən hazır plan təqdim olunur. Şagirdlər sadəcə həmin plan üzrə mətni nəql etməlidirlər.

**Tapşırıq Ç (dərslik). Qruplarla iş.** 5 şagirddən ibarət qruplar təşkil olunur və onlara işin gedişi ilə bağlı təlimat verilir. Qruplar "Şah və bağban" mətninin planını oxuyub müzakirə edirlər. Qrup üzvləri planın başlıqları üzrə nəql etmək ardıcıllığını öz aralarında bölüşürlər. Müəllim qrup işinin yekununda hər bir qrupdan bir nəfəri lövhəyə çağırır, ona müvafiq başlıq üzrə danışmağı tapşırır.

Bu üsulla nəqletmə şagirdlərdə danışarkən mətnin ardıcıllığı üzrə bir-birini izləmək bacarığını inkişaf etdirir.

**Tapşırıq Ç (iş dəftəri). Yazı ilə inteqrasiya.** Məqsəd şagirdlərin öyrəndiyi yeni anlayış (mətnin planı) üzrə bilik və bacarıqlarını möhkəmləndirməkdir.

**Diferensial təlim.** Müəllim yüksək hazırlıqlı şagirdlərə planın başlıqlarına uyğun ümumiləşdirmə aparıb cümlələr yazmağı tapşıra bilər. Mətndən seçim etməkdə çətinlik çəkən şagirdlərə isə hazır bir neçə cümləni verilən başlıqlara uyğun yazmağı tapşıra bilər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (iş dəftəri).** Şagirdlərin söz ehtiyatını möhkəmləndirir. Mətnin həmin hissəsini səhnələşdirmək məqsədəuyğun olardı. Şagirdlər öz sözləri ilə şahın üzr istəmək üçün bağbana nə söylədiyini təxmin edib danışa bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsərdəki obrazları, məkanı müəyyən edir. | Tap. A (iş dəftəri)<br>Tap. C (dərslik) |
| Mətndəki əsas fikri müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Mətni plan əsasında nəql edir. | Tap. Ç (dərslik) |
| Sözləri izahları ilə uyğunlaşdırır. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. Bayatılar

• Dərslik: səh. 29 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**

- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1).
- Şeirin əsas struktur elementlərini (misra, qafiyə) fərqləndirir (st. 2.2.2).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Sözün əksmənalı qarşılığını müəyyən edir (st. 2.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bülbülün nəğməsinin dinlənilməsi |
| 2 | **Danışma** | Şəkillər üzrə nağılqurma |
| 3 | **Oxu** | Bayatıların oxusu və təhlili |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bülbül nəğməsi (audiomaterial) səsləndirir. Bu, şagirdlərdə xoş əhvali-ruhiyyə yaradır və süjetli şəkil üzrə nağıl qurmağa maraq oyadır.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkillər ətrafında verilmiş açar sözləri oxuyur və lövhədəki sözlərə əlavə edirlər. Müəllim yeni sözlərin mənasını izah edir. Həmin sözlərdən cümlələr qurmağı tapşırır. Şagirdlər müxtəlif cümlələr səsləndirirlər.

**Qruplarla iş.** Sonra şagirdlər qruplara ayrılırlar. Şəkillər üzrə mətn quraraq yazılı şəkildə digər qrupa təqdim edirlər. Qruplar bir-birinin mətnini oxuyub yoxlayırlar. Müəllim qurulmuş hekayənin yoxlanıb qiymət verilməsi üçün bir neçə meyar da təqdim edə bilər:

– *Hekayəni oxuyub başa düşmək olur.*
– *Hekayədə hadisələr ardıcıl düzülüb.*
– *Hekayə tamamlanıb* və s.

Sonra müəllim mətni tam səsləndirir:

*“Bir padşah bülbülü tutub qızıl qəfəsdə saxlayırdı. Ona hər cür qulluq edirdi. Lakin bülbül şənlənmirdi, oxumurdu. Hər an, hər dəqiqə "Vətən, vətən" deyirdi. Axırda o, bülbülü qəfəsdən buraxıb dedi:*

*– Uç, get, görüm sənin vətənin haradır?*

*Bülbül sevincək qanad çalıb dərədəki qaratikan koluna qondu. Şən nəğmələr oxumağa başladı. Sanki uzaqdan ona baxan padşaha deyirdi:*

*- Mənim gözəl vətənim buradır”.*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər qrup işində əldə etdikləri bacarıqları bu tapşırıq vasitəsilə müstəqil şəkildə tətbiq edərək möhkəmləndirirlər.

### Oxu

Müəllim “söz boğçası”nda verilən sözləri lövhəyə yazır və onları bir-bir oxuyaraq mənalarını izah edir. Hər bir sözə aid bir neçə cümlə deməklə şagirdlərin sözü anlamalarına kömək edir.

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər şeirləri oxuyaraq vətənpərvərlik mövzusunda olanları seçib təhlil edirlər.

2.2.2 **Tapşırıq C (dərslik).** Şeirlər üzrə təhlil qruplarla iş formasında davam etdirilir. Tapşırığın əsas məqsədi 1-ci yarımildə keçilən “misra”, “qafiyə”, “heca” anlayışları üzrə xatırlatmadır. Şagirdlər “Xatırla” rubrikasında verilən məlumatı oxuyub tapşırıq üzrə fəaliyyəti icra edirlər. Hər bir bayatının son iki misrasının şeirdəki əsas fikri müəyyənləşdirməkdə rolunu da müəyyən edirlər. Qrupların təqdimatı dinlənilir.

**Müəllimin nəzərinə!** Müəllim belə şeir formasının “bayatı” adlandığını şagirdlərə söyləyə bilər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş izahları sözlərlə uyğunlaşdırmaqla yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq C (iş dəftəri).** Məqsəd “vətən” anlayışını daha dərindən mənimsətmək və fəsil üzrə ümumiləşdirmə aparmaqdır. Sinfin səviyyəsindən asılı olaraq müəllim tapşırıqda verilən bayatılar üzrə şifahi müzakirə keçirə bilər. Müzakirə zamanı bayatılarda rast gəlinən yeni sözlərin mənası izah edilir, “söz boğçası”na əlavə olunur. Daha sonra tapşırıq müstəqil yerinə yetirilir. Əgər sinfin səviyyəsi yüksəkdirsə, bayatılar üzrə şifahi iş aparılmır. Şagirdlər kontekstə uyğun olaraq yeni sözlərin mənalarını təxmin etməklə izahları ilə uyğunlaşdırırlar.

2.1.3 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər mənalarını öyrəndikləri yeni sözlərin əksmənalı qarşılıqlarını müəyyən etməklə söz ehtiyatlarını möhkəmləndirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Süjetli şəkillər üzrə mətn qurub danışır. | Tap. A (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. B (dərslik). |
| Şeirdə misraları, qafiyələnən sözləri müəyyən edir. | Tap. C (dərslik) |
| Yeni öyrəndiyi sözlərin izahını müəyyən edir. | Tap. B, C<br>(iş dəftəri) |
| Sözün əksmənalı qarşılığını müəyyən edir. | Tap. Ç (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim şagirdlərə yaşadıqları bölgə haqqında valideynlərindən məlumat toplamağı tapşıra bilər.

**fəsil 2** VƏTƏNİMİZİ TANIYAQ

## 1-ci dərs. "Azərbaycan". Yer adlarının yazılışı

• Dərslik: səh. 30-31 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**

- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 1.2.2).
- Mətndən tanış olmadığı sözləri seçir (st. 2.1.1).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Sözləri əlifba sırası ilə düzür (st. 4.1.4).
- Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st. 4.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Fəsil üzrə təxminetmə |
| 2 | **Danışma** | Xəritə üzrə iş |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxu** | "Azərbaycan" şeirinin oxunması və qavranılması |
| 5 | **Dil qaydaları** | Yer adlarının yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə bu fəslə aid səhifələri nəzərdən keçirməyi tapşırır. Bununla şagirdlərdə fəslin mövzusuna və növbəti dərslərə maraq oyadılır.

**Yönəldici suallar: "***Hansı səhifələr sizdə maraq oyatdı? Vətəninizlə bağlı nə öyrənmək istəyirsiniz?"*

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə xəritə haqqında qısa məlumat verir və onların diqqətini Azərbaycanın bölgələrini səciyyələndirən şəkillərə yönəldir; məsələn: *"Şamaxıda rəsədxana yerləşir. Rəsədxanada göy cismlərini izləyirlər".*

**Cütlərlə iş.** Sonra şagirdlər cütlərə bölünür və iş vərəqlərində xəritədə oxuduqları rayonların, qarşısında həmin rayonlarla bağlı şəkillərin adlarını yazırlar. Sonda xəritə müzakirə olunur.

Şagirdlər yaşadıqları bölgə haqqında öyrəndikləri məlumatları təqdim edirlər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (dərslik). Cütlərlə iş.** Şagirdlər "Azərbaycan" şeirini nəzərdən keçirirlər. "Söz boğçası" üzərində iş aparılır.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Yeni mənimsədilmiş söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır.

### Oxu

2.2.1 **Tapşırıq B (dərslik).** Əvvəlcə müəllim şeiri özü oxuyur, şagirdlər isə kitabda izləyirlər.

**Növbəli oxu.** Daha sonra şagirdlər iki qrupa ayrılırlar. Qarşılıqlı oxu həyata keçirilir.

*I qrup:* Gəzdim sənin çöllərini
*II qrup:* Oba-oba, oymaq-oymaq.
*I qrup:* Nə gözəlmiş qoynun sənin,
*II qrup:* Ana torpaq, ana torpaq!

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin oxu zamanı diqqətini yoxlamaq məqsədi daşıyır. Bunun üçün xəritə üzrə işə qayıdıb mətni vizual materialın köməyi ilə daha dərindən mənimsətmək olar.

Tapşırıq**:** *Şeirdə adı çəkilən rayon və meyvə adlarını xəritədə tapın.*

### Dil qaydaları

4.1.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlərin diqqəti şeirdəki yer adlarına yönəldilir. Onlar bu adları əlifba sırası ilə yazırlar. Bu zaman müəllim əlifba sırası ilə yanaşı, adların ilk hərfinin böyük və ya kiçik hərflə yazılışına diqqət yetirir.

**Müəllimin nəzərinə!** Şagirdlər yer adlarını əlifba üzrə sıralayarkən Quba və Qusarın yerini dəyişik yazarlarsa, buna diqqət edilməməlidir. "Daxili əlifba anlayışının öyrədilməsi I sinfin tədrisində nəzərdə tutulmayıb.

4.1.3 **"Bunları bilməliyik" rubrikası.** Rubrikada verilən qayda və cümlələr oxunub təhlil edilir.

**Tapşırıq D (dərslik).** Tapşırıq yer adlarının yazılışı ilə bağlı qaydanın tətbiqinə yönəlmişdir. Həm də şagirdlərin şeiri oxuyub-qavramasını yoxlayır.

**Tapşırıq B, C (iş dəftəri).** Şagirdlər yer adlarını yer mənası bildirən sözlərdən fərqləndirib onların yazılışı ilə bağlı bilik və bacarıqlarını nümayiş etdirirlər.

**Tapşırıq Ç (iş dəftəri).** Bu tapşırıq da dil qaydası üzrə möhkəmləndirmə və cümlə qurmaq bacarığının inkişafına yönəlmişdir.

### Araşdırma

**Tapşırıq E (dərslik).** Bu tapşırıq qruplarla da yerinə yetirilə bilər. Şagirdlər müəllim və valideynlərin köməyi ilə həftə ərzində yaşadıqları yerlə bağlı araşdırma aparırlar. Ola bilər ki, yaşayış yeri, məsələn kənd ilə bağlı araşdırma aparmaq çətin olsun. Bu zaman müəllim həmin kəndin yerləşdiyi rayonla bağlı araşdırma etməyi tapşıra bilər. Araşdırma zamanı mətnlə yanaşı, fotoşəkillər, rəsmlər hazırlana bilər. Qrupların araşdırma üzrə təqdimatları təksaatlıq

dərslərin birində yoxlana bilər. Təqdimat zamanı araşdırmanın gedişatı ilə bağlı şagirdlərin təəssüratlarını bölüşməsinə də şərait yaradılmalıdır. Yönəldici suallar: *Sizə kimlər kömək etdi? Bu yerlərdə oldunuzmu? Şəkilləri necə əldə etmisiniz? Araşdırma aparmaq nəyə görə xoşunuza gəldi?*

Şagirdlərin yazıları qiymətləndirilərkən yer və şəxs adlarının böyük hərflə yazılışı qaydasına riayət olunmasına da diqqət yetirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Xəritə üzrə danışır. | Tap. A (dərslik) |
| Mətndən tanış olmadığı sözləri seçir. | Tap. B (dərslik) |
| Oxunan mətni kitabda izləyir. | Tap. B (dərslik) |
| Sözləri əlifba sırası ilə düzür | Tap. Ç (dərslik) |
| Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır. | Tap. D (dərslik)<br>Tap. B, C, Ç (iş dəftəri) |

## 2-ci dərs. “Üçrəngli bayraq”

• Dərslik: səh. 31-32 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Mətndən tanış olmadığı sözləri seçir (st. 2.1.1).
- Sözün ifadə etdiyi anlayışın əsas əlamətlərini sadalayır (st. 2.1.1).
- Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır (st. 2.1.4).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5)
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sinifdəki dövlət rəmzlərinin nümayişi |
| 2 | **Danışma** | Dövlət rəmzləri haqqında söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | Şeirdə təsvir olunan bənzətmələrin təhlili |
| 4 | **Yazı** | Süjetli şəkillər üzrə mətn qurub yazma |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Şagirdlərə sinifdə dövlət rəmzlərinə aid olan əyani vəsaitlər göstərilir və bu sahədə onların biliklərini yoxlamaq üçün sual-cavab təşkil olunur.

**Danışma**

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti dərslikdəki şəklə yönəldilir. Şagirdlər müəllimin yönəldici sualları vasitəsilə şəkil üzrə danışırlar:

*– Şəkildə uşaqların himn oxuduğunu necə müəyyən etdiniz? Nə üçün himn oxunan zaman ayaq üstə qalxır, əlimizi ürəyimizin üstünə qoyuruq?*

Şagirdlər himni oxuyurlar. Dərsliyin ön səhifəsini açıb himnin mətnini nəzərdən keçirirlər, müəllimin suallarına cavab verirlər: *“Himnimizin musiqisinin və sözlərinin müəllifləri kimlərdir? Himnin daha çox xoşunuza gələn misralarını izah edin”.*

Şagirdlərə himndə tanış olmayan sözlərin mənaları izah olunur, “söz boğçası”na əlavə edilir.

**Tapşırıq C (dərslik).** Şagirdlər bayrağın rəngləri və üzərindəki nişanlar barəsində bildiklərini söyləyirlər.

**Oxu. Söz ehtiyatı**

2.1.1 **Tapşırıq B (dərslik). Cütlərlə iş.** Şagirdlər “Üçrəngli bayraq” şeirini cütlərdə oxuyub tanış olmayan sözləri dəftərdə qeyd edirlər. “Söz boğçası” üzərində iş aparılır.

Şagirdlər şeiri növbəli şəkildə ucadan bir-birini izləyərək oxuyurlar. Müəllim şeirin ilk iki misrasını izah edir: – *Şair bayrağımızı gözünün işığına bənzətməklə ona sevgisini bildirir.*

2.1.1 2.1.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər buraxılmış açar sözləri uyğun boşluqlara yazmaqla mətni mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər 4-cü bölmədə göyqurşağı haqqında öyrəndikləri məlumatları xatırlayırlar. Suallar: – *Göyqurşağı harada görünür? Nə zaman yaranır? Onun hansı rəngləri var?*

Şagirdlər bayraq–göyqurşağı bənzətməsini əsaslandırırlar:

- **Göyqurşağı səmada olur.** Bayrağımız da hər zaman ucada, səmada dalğalanır.
- **Göyqurşağının müxtəlif rəngləri olur.** Bayrağımız da bir neçə rəngdən ibarətdir.
- **Göyqurşağı yağışdan sonra yaranır.** Bayrağımız da uzun mübarizədən sonra dövlətimizin azadlığa çıxması ilə yarandı. Bayraq dövlətin müstəqilliyini, azadlığını göstərən bir simvoldur.

**Tapşırıq D (dərslik).** Şəkillərin verilməsi şeirdə sözlə təsvir olunmuş bənzətmənin asan qavranılmasına kömək edir.

**Tapşırıq E (dərslik).** Müəllim şagirdlərin diqqə-

tini əvvəlcə şəklə yönəldir: – *Dənizdə nə görürsünüz? Qaranlıq dənizdə gəmi sahili necə müəyyən edə bilər? Mayak harada yerləşir?*

Şagirdlər mayakın əlamətlərinə aid cümlələr qururlar; məsələn: “*Mayak gəmilərə yol göstərir. Mayak sahildə, hündür qayalıqda qurulur. O, işıq saçaraq gəmilərə yol göstərir*”. Beləliklə, bayraq–mayak bənzətməsi izah edilir: “*Bayrağımız da hər zaman hündür yerlərdə – göz önündə asılır*”.

**Tapşırıq Ə (dərslik).** Şagirdlərin söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır.

### Yazı

3.1.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər səhv yazılmış sözləri seçib yenidən yazmaqla orfoqrafik biliklərini möhkəmləndirirlər.

3.1.2 **Tapşırıq C (iş dəftəri).** Müəllim əvvəlcə şagirdlərlə şifahi iş aparır. Şagirdlər açar sözlərin köməyi ilə şəkillər üzrə danışırlar. Şəkillərə aid cümlələr söyləyirlər. Sonra şagirdlər müstəqil şəkildə mətn qurub yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ətrafında bildiklərindən danışır. | Tap. A, C (dərslik) |
| Mətndən tanış olmadığı sözləri seçir. | Tap. B (dərslik) |
| Bənzəyənlə bənzədilən arasındakı oxşarlığı müəyyən edir. | Tap. Ç, D, E (dərslik) |
| Səhv yazılmış sözləri müəyyən edib yenidən yazır. | Tap. B (iş dəftəri) |
| Süjetli şəkillər üzrə mətn qurub yazır. | Tap. C (iş dəftəri) |

## 3-cü dərs. “Möcüzələr adası”

• Dərslik: səh. 33 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1.).
- Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır (st. 1.1.1).
- Dinlədiyi ilə oxuduğu məlumatları müqayisə edib nəticə çıxarır (st. 1.1.2.).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Gerbin əlamətlərinin sadalanması |
| 2 | **Danışma** | Gerb haqqında söhbət |
| 3 | **Söz ehtiyatı. Oxu** | “Söz boğçası” üzrə iş.<br>“Möcüzələr adası” mətninin oxusu |
| 4 | **Dinləmə** | Oxunan və dinlənən mətnlərdəki məlumatların qavranılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Suallar: – *Keçən dərsdə Azərbaycanın hansı dövlət rəmzləri haqqında danışdıq? (himn, bayraq) Daha hansı dövlət rəmzini tanıyırsınız? (gerb)*

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər müəllimin köməyi ilə Azərbaycanın gerbi haqqında bildiklərini xatırlayıb danışırlar. Gerbin mərkəzindəki alov təsvirinin mənasını izah etməyə çalışırlar.

**Tapşırıq B (dərslik).** Şagirdlər şəklə baxaraq binaların birlikdə alova bənzədiyini müəyyən edirlər. Sonra şagirdlər “Odlar yurdu” adı ilə bağlı təxmini fikirlərini söyləyirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətnin adını oxuyaraq şəkli müzakirə edirlər. Sual: “*Sizcə, dəniz üzərində şəhər salmaq mümkündürmü?*” Müzakirədə məqsəd şagirdlərdə mövzuya maraq yaratmaqdır.

### Söz ehtiyatı. Oxu

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Müəllim mətnin oxusundan əvvəl “söz boğçası” üzrə iş aparır. Bu tapşırığı yerinə yetirməklə şagirdlər söz ehtiyatını möhkəmləndirirlər.

**İstiqamətləndirilmiş oxu.** Müəllim lövhədə suallar yazır və tapşırır:

*– Mətni oxuyarkən bu suallara cavab axtarın.*

*Neft daşları harada yerləşir? Bu şəhəri nə üçün “möcüzələr adası” adlandırırlar? Bu şəhərdə kimlər yaşayır? Neftçilər nə işlə məşğul olurlar?*

Mətn qısa olduğu üçün şagirdlər mətni səssiz oxuyurlar. Müəllim lövhədəki suallara verilən cavablar əsasında oxuyub-qavramanı yoxlayır.

### Dinləmə

1.1.1 Müəllim Odlar yurdu ilə bağlı dinləmə mətni səsləndirir:

*“Keçmişdə sakit, küləksiz günlərin birində Xəzər dənizinə ildırım düşür. Həmin yer bir an içində alova bürünür. Yerli sakinlər bu mənzərəyə çox təəccüblənirlər. Sonra onlar başa düşürlər ki, dənizin üzərində alovu yaradan neftdir. Onlar nefti*

*vedrələrlə yığıb yanacaq kimi istifadə etməyə başlayırlar.*

*Zaman keçdi, dənizin dibində quyular qazıldı, neft çıxarıldı. Daha sonra dənizdə polad dirəklər üzərində "Neft daşları" şəhəri salındı.*

*Neft daşlarında bu gün yaşayış binaları, vertolyot meydançası, xəstəxana, mağazalar var. Ağaclar əkilib, park salınıb. Neft daşlarına Bakıdan kiçik gəmi və helikopterlə getmək olar".*

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin oxuduqları və dinlədikləri informasiyanı nə dərəcədə qavradıqlarını yoxlayır.

1.1.1 **Tapşırıq D (dərslik).** Bakının gerbində təsvir olunmuş dəniz və alov dilimləri şagirdlərin bu dərsdə aldıqları məlumatlarla bağlantı yaradır.

**Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya. Qruplarla iş.** Məqsəd şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirməkdir. Bu fəslin ilk dərsində şagirdlərə yaşadıqları yerlə bağlı araşdırma işi tapşırılıb. Onlar özlərinin yaşadıqları yerlə bağlı müəyyən biliklər əldə ediblər. Bu tapşırığı icra edərkən yaxşı olardı ki, araşdırma aparan qruplar birlikdə müzakirə aparsınlar. Müəllim şagirdlərə nümunə olaraq aşağıdakı rəmzləri də göstərə bilər:



### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A, B (dərslik) |
| Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır | Tap. A (iş dəftəri) |
| Dinlədiyi fikirdəki əsas məqamları seçir. | Tap. B (iş dəftəri) |
| Dinlədiyi ilə oxuduğu məlumatları müqayisə edib nəticə çıxarır. | Tap. C, D (dərslik) Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim şagirdlərə tapşırır: *1. Valideynlərinizdən səməni və boyalı yumurtanın hazırlanması qaydasını öyrənin.*

*2. "Təsviri fəaliyyət" dərsində çəkdiyiniz hər hansı bir rəsmi gətirin.*

## 4-cü dərs. Novruz bayramı

- Dərslik: səh. 34
- İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

- Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı (düşüncələri) ilə əlaqələndirir (st. 1.2.1).
- Eyni məna qrupuna aid olan sözləri müəyyən edir (st. 2.1.1).
- Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3.1.2).
- Açıqca yazaraq öz arzu və hislərini ifadə edir (st. 3.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Rəsmlərin sinifdə yerləşdirilməsi |
| 2 | **Danışma** | Rəsm sərgisi haqqında söhbət |
| 3 | **Oxu. Söz ehtiyatı** | Novruz bayramı ilə əlaqədar sözlərin seçilməsi |
| 4 | **Dil qaydaları** | Söz sonunda bəzi samitlərin düzgün yazılışı |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin gətirdikləri rəsmləri lövhədə və sinfin divarlarında yerləşdirir. Yuxarıda "RƏSM MÜSABİQƏSİ" yazır. Uşaqlardan "müsabiqə" sözünün mənasını soruşur (iştirakçılar içərisindən ən yaxşılarını seçmək üçün keçirilən yarış).

### Danışma. Söz ehtiyatı

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini dərslikdəki şəklə yönəldir. Sərgi haqqında şagirdlərin ilkin təsəvvürlərini yoxlayır. Əgər sərgiyə baxmağa gedən və ya sərgidə iştirak edənlər varsa, onların təəssüratları dinlənilir. Sonra şagirdlər şəkildəki rəsmləri təsvir edərək danışırlar. Rəsmlərin Azərbaycanla bağlı olduğu qənaətinə gəlirlər. Şagirdlər sərgi iştirakçısı Nigarın yazılı nitqini oxuyaraq "müsabiqə", "sərgi", "iştirakçı" sözlərini daha dərindən mənimsəyirlər.

Hər bir şagird öz rəsminin qarşısında dayanaraq verilən nümunə əsasında özünü müsabiqə iştirakçısı kimi təqdim edib rəsmini şərh edir.

Beləliklə, şagirdlərə yeni sözlər daha dərindən mənimsədilir, dünyagörüşləri artırılır, yaradıcı işlərə, yarışlara, sərgilərə həvəsləndirilir.

**Tapşırıq B (dərslik).** Şagirdlər suallara cavab verməklə Nigarın çəkdiyi rəsm üzrə danışırlar. Rəsmin

Novruz bayramına aid olduğunu və “Novruz bayramı Azərbaycanın milli bayramıdır” qənaətinə gəlirlər. Şagirdlər rəsm üzrə üçüncü sualı cavablandırarkən Novruz bayramı ilə bağlı adətləri sadalayırlar.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin şərh etmək bacarıqları inkişaf edir, həmçinin onların Azərbaycanla bağlı bilikləri möhkəmləndirilir.

**Söz ehtiyatı. Yazı**

**2.1.1** **Tapşırıq C (dərslik).** Şagirdlər söz ehtiyatlarını nümayiş etdirirlər. Tapşırıq cütlərlə iş formasında yerinə yetirilə bilər. Cütlər öz aralarında müzakirə edərək Novruz bayramına aid sözləri müəyyən edib dəftərlərində yazırlar.

**Tapşırıq B (iş dəftəri).** Novruz xonçasını öz sözləri ilə təsvir edərək xonçanın görünüşünü, xonça atributlarının adlarını yazırlar.

**3.1.2** **Tapşırıq C (dərslik).** Əvvəlcə xonça, tonqal, boyalı yumurtalar və səməninin hazırlanma qaydaları müzakirə olunur.

Şagirdlərə təlimat və onun hazırlanması qaydası izah edilir, təlimat nümunəsi hazırlanıb göstərilir.

**Qruplarla iş.** Sinif 4 qrupa ayrılır. Hər qrupa müəllim bir Novruz atributu üzrə təlimat hazırlamağı tapşırır. Qruplar atributu hazırlamaq üçün lazım olan ləvazimatları və hazırlanma ardıcıllığını müəyyən edib ardıcıl yazır və müddəaları nömrələyirlər. Müəllim şagrdlərə yumurta boyanması və tonqal qalanması qaydalarını yazarkən təlimatda təhlükəsizliklə bağlı bəzi tövsiyələri də yazmağı diqqətə çatdırır.

**3.1.3** **Tapşırıq Ç (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərin öz hiss və duyğularını ifadə etmək və yazılı ünsiyyət yaratmaq bacarığının inkişaf etdirilməsidir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkildə gördüklərini təsvir edir və onları şəxsi həyatı ilə əlaqələndirir. | Tap. A, B (dərslik). Tap. A (iş dəftəri) |
| Eyni məna qrupuna aid olan sözləri müəyyən edir. | Tap. C (dərslik) |
| Tanış olduğu məlumatları yazıda əks etdirir. | Tap. Ç (dərslik). Tap. B (iş dəftəri) |
| Açıqça yazaraq öz arzu və hislərini ifadə edir. | Tap. C (iş dəftəri) |

fəsil **3** VƏTƏNİMİZİ SEVƏK!

## 1-ci dərs. “Zöhrənin qələbəsi” (I hissə)

- Dərslik: səh. 35
- İş dəftəri: səh. 27

**Təlim məqsədləri**

- Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).
- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Vətən sevgisi” anlayışının mənimsədilməsi |
| 2 | **Danışma** | Şeir və şəkillər üzrə müzakirə |
| 3 | **Yazı** | Şəkillər əsasında hekayə yazmaq |
| 4 | **Oxu. Söz ehtiyatı** | “Zöhrənin qələbəsi” mətninin oxusu |
| 5 | **Oxuyub-qavrama** | Mətn və şeir üzərində iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Suallar: *“Hansı hərəkətləriniz ana-atanızı daha çox sevindirir? Bəs siz ananıza sevginizi necə bildirirsiniz?”*

Tapşırıq: – *Dəftərinizdə ananıza sevginizi ifadə edən bir neçə cümlə yazın.*

Sonra müəllim lövhədə “Ana Vətən” yazaraq soruşur: *“Sizcə, nəyə görə vətənimizə “Ana Vətən” deyirik?”* Şagirdlər “Anamızı sevdiyimiz qədər vətənimizi də sevməliyik” qənaətinə gəlməlidirlər.

Müəllim S.Vurğunun “Azərbaycan” şeirini də səsləndirə bilər.

**Danışma**

**1.2.3** **Tapşırıq A, B (dərslik).** Şagirdlər cütlərlə Cabir Novruzun şeirini oxuyub müzakirə edirlər. Daha sonra sual və şəkillər ətrafında ümumi müzakirə aparılır.

**Yazı**

**3.1.2** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər açar sözlərdən istifadə edərək şəkilləri izah edən cümlələr qurmaqla kiçik hekayə yazırlar.

**Müəllimin nəzərinə!** Şagirdlər şəkildə

gördüklərini (plakatın hazırlanması, ətrafın təmizlənməsi) real olaraq həyata keçirməklə bir sıra mənəvi və sosial bacarıqlara yiyələnə bilərlər.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq C (dərslik). Növbəli oxu.** Şagirdlər mətni bir-birini izləyərək oxuyurlar. Tanış olmayan sözlərin mənasını öyrənib "söz boğçası"na əlavə edirlər.

### Oxuyub-qavrama

2.2.3 Müəllim lövhədə belə bir sual yazır: *Mətndə hansı suala cavab yoxdur?*

Lövhədə bu suallar yazılır: *Yarış hansı idman növü üzrə keçirilirdi? Yarış harada keçirilirdi? Azərbaycanı kim təmsil edirdi? Azarkeşlər gimnastımıza nə arzu edirdilər? Nə üçün beynəlxalq yarışlarda qalib idmançının təmsil etdiyi dövlət bayrağı yüksəyə qaldırılır?*

Şagirdlərin suallar ətrafında müzakirəsindən sonra müəllim sonuncu sualla bağlı şagirdlərə daha geniş məlumat verə bilər:

*Beynəlxalq yarışların sonunda mükafatlandırma mərasimi təşkil olunur. 1-ci yerin sahibinə qızıl, digərlərinə gümüş, bürünc medallar verilir. Qızıl medal qazanan idmançının təmsil etdiyi dövlətin bayrağı yuxarı qaldırılır, dövlət himni səsləndirilir. Bu həmin dövlətin müxtəlif xalqlar tərəfindən tanınmasında böyük rol oynayır.*

**Tapşırıq Ç (dərslik).** Şagirdlər özlərini azarkeş kimi təsəvvür edib şüarlar səsləndirirlər.

2.1.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər şeirdə buraxılmış sözləri yerinə yazmaqla şeirdəki fikri tamamlayırlar. Müəllim buraxılmış sözlərdən ibarət cümlə qurmağı da tapşıra bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dialoq zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. A, B (dərslik) |
| Şəkillər üzrə hekayə yazır. | Tap. A (iş dəftəri) |
| Mətn üzrə faktoloji suallara cavab verir. | MV. Tap. C, Ç (dərslik) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. "Zöhrənin qələbəsi" (II hissə)

• Dərslik: səh. 36 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Verilmiş cümlənin (abzaın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 1.2.2).
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Zöhrənin qələbəsi" mətninin davamının təxmin edilməsi |
| 2 | **Oxu** | "Zöhrənin qələbəsi" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki hadisələrin ardıcıllığının müəyyən edilməsi |
| 4 | **Söz ehtiyatı** | Yeni mənimsədilən sözlərin möhkəmləndirilməsi |
| 5 | **Danışma** | Cədvəl üzrə danışma.<br>Mövzu üzrə fikir yürütmə |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim gimnastika üzrə video görüntülərlə şagirdlərdə dərsin mövzusuna maraq oyadır.

### Oxu. Söz ehtiyatı

**Tapşırıq A (dərslik).** Mətnin birinci hissəsi xatırladılır. Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. Yeni sözlər izah olunur.

### Oxuyub-qavrama

**Tapşırıq B (dərslik).** Şagirdlər mətndən illüstrasiyanın əks etdirdiyi müvafiq hissəni seçib oxuyurlar.

**Tapşırıq C (dərslik).** Şagirdlər I yarımildə (3-cü bölmə) bəzi gimnastika alətləri ilə tanış olmuşlar. Bu tapşırıq həm söz ehtiyatını, həm də şagirdlərin diqqətli oxu bacarığını inkişaf etdirir.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər mətnin planına uyğun hadisələrin ardıcıllığını müəyyən etmək bacarığını nümayiş etdirirlər. Daha sonra şagirdlər mətni bütövlükdə plan əsasında nəql edirlər.

**2.2.4** **Tapşırıq B (iş dəftəri).** Xarakteri təhlil etmək üçün müvafiq sözlərdən istifadə etmək bacarığını inkişaf etdirir.

**Söz ehtiyatı**

**2.1.2** **Tapşırıq C, Ç (iş dəftəri).** Hər iki tapşırıq şagirdlərin söz ehtiyatının möhkəmləndirilməsi məqsədi daşıyır. Şagirdlər "C" tapşırığında öyrəndikləri yeni sözlərə uyğun şəkil seçməklə, "Ç" tapşırığında isə yeni sözləri cümlədə işlətməklə həmin sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Danışma**

**1.2.2** **Tapşırıq Ç (dərslik).** Şagirdlərin qrafik şəkildə təqdim olunmuş informasiyaları oxuyub-analiz etmək və məlumat toplama bacarıqlarını inkişaf etdirir. Müəllim yönəldici suallarla şagirdlərə kömək edə bilər: *"Yarışda hansı ölkələr iştirak edirdi? Hansı ölkənin nəticəsi ən yüksəkdir? 3-cü yerdə hansı ölkədir? Bu ölkənin təmsil etdiyi idmançı neçə bal toplayıb?"* və s.

**1.2.3** **Tapşırıq D (dərslik).** Bu tapşırıq şagirdlərin yaradıcı və məntiqi təfəkkürünün inkişafına yönəlmişdir. Hər şagird bir sənət növünü seçərək vətənini xaricdə necə təmsil edəcəyini düşünür. Müxtəlif peşə sahiblərinin gördüyü işləri sadalayır, sənət növünün xarakteristikasına uyğun mövzu üzrə fikirlər irəli sürür. Şagirdlər təxminən belə danışa bilərlər: *"Rəqqas olub xaricdə milli rəqsimizi dünyaya tanıdaram. Rəssam olsam, vətənimlə bağlı gözəl rəsmlər çəkib beynəlxalq sərgilərdə nümayiş etdirərəm"* və s.

**Əlavə tapşırıq.** Sonda mətn və "Söz boğçası" üzrə sual-cavab yarışı keçirilə bilər. Bu, şagirdlərin sual hazırlamaq və suala adekvat cavab vermək bacarıqlarını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş cümlənin mətndəki ardıcıllıqda yerini müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Obrazın xarakterinə uyğun əlamətləri seçir. | Tap. B (iş dəftəri) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. Ç (iş dəftəri) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tap. Ç (dərslik) |
| Mövzu üzrə təxəyyülünə uyğun fikir yürüdür. | Tap. D (dərslik) |

## 3-cü dərs. "Ana dilim"

• Dərslik: səh. 37 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

- Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir (st. 2.1.1.).
- Şeirdə qafiyələnən sözləri seçir (st. 2.2.2).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).
- Sözləri əlifba sırası ilə düzür (st. 4.1.4).
- Bitmiş fikir ifadə edən cümlə qurur (st. 4.1.6).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müxtəlif dillərdə olan layla və ya mahnıdan fraqmentlərin səsləndirilməsi |
| 2 | **Danışma** | "Ana dili" anlayışının müzakirəsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Ana dilim" şeirinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Çətin qavranılan misraların izahı |
| 5 | **Oxu. Dil qaydaları** | Ad və hərəkət bildirən sözlər, qafiyə və əlifba üzrə biliklərin möhkəmləndirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Musiqi ilə inteqrasiya.** Müəllim Azərbaycan dili də daxil olmaqla müxtəlif dillərdə olan laylalardan kiçik fraqmentlər səsləndirə bilər.

**Danışma**

**Tapşırıq A (dərslik).** Şagirdlər müəllimin yönəldici suallarının köməyi ilə digər dillərlə müqayisədə "ana dili" anlayışını müzakirə edirlər.

**Oxu. Söz ehtiyatı**

**Tapşırıq B (dərslik). İstiqamətləndirilmiş oxu.** Oxudan əvvəl müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldir. Tapşırığın şərti oxunur. İllüstrasiya ilə bağlı suallar cavablandırılır. Şagirdlər növbə ilə şeiri oxuyurlar. Onlara tanış olmayan sözlər izah edilir, "Söz boğçası"na əlavə olunur.

**2.1.1** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər ötən dərsdə "bal" sözünü idman yarışlarında istifadə olunan söz kimi öyrənmişlər. "Ana dilim" şeirində isə eyni yazılışı olan həmin sözə başqa bir məzmunda rast gəlirlər. Bu onlarda çaşqınlıq yarada

bilər. Müəllim həmin sözün şeirdəki mənasını müəyyən etməyi tapşırır. Şagirdlər həmin misraları bir daha oxuyur, "doymuram" sözünün köməyi ilə "bal kimi" sözünün "şirin" sözünün əvəzinə işləndiyini anlayırlar.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər sözləri izahları ilə uyğunlaşdıraraq söz ehtiyatlarını nümayiş etdirirlər.

**Oxuyub-qavrama**

**Tapşırıq C (dərslik).** Şeirdə qavranılması nisbətən çətin olan "Mən onu neçə dilin içində qoruyuram" misralarının təhlil olunması üçün şagirdlərə kömək məqsədilə **dinləmə mətni** səsləndirilir:

*"Hər bir xalqın öz dili olur. Bizim xalqımızın dili Azərbaycan dilidir. Əlbəttə, başqa dilləri də öyrənməyə can atmalıyıq. Lakin biz öz dilimizdə danışmalıyıq, öz dilimizi sevməliyik, onu qorumalıyıq ki, dilimiz və xalqımız tanınsın".*

**Oxu. Dil qaydaları**

2.2.2 4.1.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər qafiyələnən, eyni zamanda ad bildirən sözlərin işləndiyi bəndi (sonuncu bənd) müəyyən edirlər.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqla şagirdlər ad, əlamət, say, hərəkət bildirən sözlər üzrə biliklərini möhkəmləndirirlər.

4.1.4 **Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin əlifba üzrə bilik və bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir.

4.1.6 **Tapşırıq D (iş dəftəri).** Bu tapşırıq şagirdlərdə fikirləri ümumiləşdirərək bir cümlə ilə ifadə etmək bacarığını inkişaf etdirir: *"Mən yurdumun bayrağını, himnini, anamı və ana dilimi çox sevirəm".*

4.1.5 **Tapşırıq D (dərslik).** Tapşırıqda verilmiş şeir nümunəsində (laylada) şagirdlər yenidən eyni yazılışlı sözlərə rast gəlirlər. Tapşırıq şagirdlərin oxuyub-anlama bacarığının və məntiqi təfəkkürünün inkişafına yönəlmişdir.

**Araşdırma**

**Tapşırıq E (dərslik).** Şagirdərin araşdırma, məlumat toplama bacarıqları inkişaf etdirilir. Şagirdlərin təqdimatı növbəti təksaatlıq dərsdə dinlənilə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əlamətlərin aid olduğu anlayışı müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Şeirdə qafiyələnən sözləri seçir. | Tap. Ç (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Ad və hərəkət bildirən sözləri fərqləndirir. | Tap. Ç, D (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Sözləri əlifba sırası ilə düzür. | Tap. Ç (iş dəftəri) |
| Bitmiş fikir ifadə edən cümlə qurur. | Tap. D (iş dəftəri) |

## 4-cü dərs. Tariximizi əks etdirən qədim əşyalar

• Dərslik: səh. 38 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün suallarına cavab verir (st. 2.2.5).
- Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir (st. 2.1.1).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qədim bir əşyanın nümayişi |
| 2 | **Danışma** | Muzey fotoşəkli ətrafında müzakirə |
| 3 | **Oxu.Söz ehtiyatı** | Qədim bir çuldan bəhs edən mətnin oxusu və yeni sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki hadisələr arasında məntiqi ardıcıllıq, səbəb və nəticə əlaqəsi və əsas fikrin müəyyənləşdirilməsi |
| 5 | **Söz ehtiyatı** | İzahlara aid sözlərin müəyyən olunması |
| 6 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Müəllim qədim bir əşyanı nümayiş etdirib onu təsvir etməyi tapşırır. Sonra müəllim həmin əşyanın tarixi və dəyəri haqqında məlumat verir.

## Danışma. Söz ehtiyatı

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti fotoşəklə yönəldilir. Şəkil ətrafında müzakirə aparılır. *Muzey* və *eksponat* sözləri izah edilib "Söz boğçası"na əlavə olunur.

**Müəllimin nəzərinə!** Bu mövzu ilə bağlı yaxın ərazidə yerləşən muzeylərdən birinə ekskursiya təşkil etmək tövsiyə olunur.

## Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər mətndəki cümlələri növbə ilə bir-birini izləyərək ucadan oxuyurlar. Hər abzası oxuyub bitirdikdən sonra müəllim faktoloji suallar verməklə şagirdlərin həmin hissəni oxuyub-anladıqlarını yoxlayır. Şagirdlərə tanış olmayan sözləri izah edir.

## Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki faktlara əsaslanaraq fikirlər irəli sürürlər. Müəllim müzakirəni belə yekunlaşdıra bilər:

*– Milli dəyərlərimizə hörmət etmək, tariximizi qoruyub-saxlamaq hamımızın borcudur.*

**Tapşırıq Ç (dərslik).** Şagirdlər mətndəki əsas fikri müəyyənləşdirib mətnə ad qoymaqla mətni qavradıqlarını nümayiş etdirirlər. Müəllim lövhədə bir neçə ad yazıb seçim etməyi tapşıra bilər. *1. Baş tutmayan hiylə; 2. Dədə-babadan yadigar; 4. Ağıllı kəndli; 5. Milli dəyərə sədaqət və s.*

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndəki hadisələrin ardıcıllığını müəyyən etməklə mətni oxuyub qavradıqlarını nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq oxuyub-qavrama ilə yanaşı, dil qaydaları ilə inteqrasiyaya xidmət edir.

2.2.5 **Tapşırıq C (iş dəftəri).** Hadisələr arasında səbəb və nəticə əlaqəsini müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

## Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər izahı verilmiş sözləri müəyyən etməklə bu dərsdə yeni öyrəndikləri sözləri daha dərindən mənimsəyirlər.

**Müəllimin nəzərinə:** Sonda mətnin ümumi təhlilini aparmaq üçün şagirdlərə hekayə xəritəsi qurmaq tapşırıla bilər.

## Araşdırma

**Tapşırıq D (dərslik).** Şagirdlərin araşdırma bacarıqlarının formalaşdırılması məqsədi daşıyır. Şagirdlər valideynlərinin köməyi ilə tapşırıq əsasında məlumat toplayıb, yazılı qeydlər edirlər. Şagirdlərin təqdimatı növbəti təksaatlıq dərsdə dinlənilir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tap. A (dərslik) |
| Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur. | Tap. B (dərslik) |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. C (dərslik) |
| Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətn üzrə faktoloji suallara cavab verir. | Müəllimin sualları. Tap. B (iş dəftəri) |
| Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir | Tap. C (iş dəftəri) |
| Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir. | Tap. Ç (iş dəftəri) |

## fəsil 4 ÇAĞIRIR VƏTƏN!

### 1-ci dərs. "Çağırır vətən!"

• Dərslik: səh. 38 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st.1.2.2).
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st.2.1.3).
- Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir (st.2.2.4).
- Şeirdə qafiyələnən sözləri seçir (st.2.2.2).
- Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur. (st. 4.1.6).
- Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st.4.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Marş irəli!" mahnısının səsləndirilməsi |
| 2 | **Danışma** | Açar sözlərin köməyi ilə şəkil üzrə danışma |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Çağırır vətən!" şeirinin oxusu və yaxınmənalı sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Şeirdəki əsas fikrin müəyyən olunması, qafiyəli sözlər üzrə iş |
| 5 | **Dil qaydaları** | Cümlə qurmaq, yer adlarının yazılışı |
| 6 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

**Musiqi ilə inteqrasiya.** Müəllim "Marş irəli!" mahnısını səsləndirir. Şagirdlər əsgər yerişini və əsgər salamını nümayiş etdirirlər.

**Müəllimin nəzərinə:** Əsgər geyimi olan şagirdlərə bu dərsə həmin geyimdə gəlmələri tapşırıla bilər.

#### Danışma. Söz ehtiyatı

1.2.2 **Tapşırıq A, B (dərslik).** Şagirdlərin diqqəti fəslin adına yönəldilir. Onlar yeni fəslin mövzusu barədə düşünürlər. Daha sonra onların diqqəti fotoşəkillərə və açar sözlərə yönəldilir. Açar sözlərin köməyi ilə şəkil ətrafında müzakirə aparılır. *Ordu, qəhrəman, fəxr etmək* sözləri izah edilib "Söz boğçası"na əlavə olunur. Müəllim şagirdlərə Mübariz İbrahimov haqqında qısa məlumat verir.

2.1.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər "mübariz" sözünə yaxınmənalı olan sözləri (*qəhrəman, igid, mərd, cəsur, qorxmaz*) müəyyən etməklə söz ehtiyatlarını nümayiş etdirirlər.

#### Oxu. Söz ehtiyatı

**Tapşırıq C (dərslik). Cütlərlə oxu.** Əvvəlcə cütlər şeirin adı, müəllifi ilə tanış olub şeiri birlikdə oxuyur, tanış olmayan sözləri müəllimin köməyi ilə aydınlaşdırırlar. Daha sonra cütlər şeiri növbə ilə məzmuna uyğun intonasiya ilə oxuyub suallara cavab verirlər.

#### Oxuyub-qavrama

Müəllim sual verir: – *Sizcə, düşmənlər nə məqsədlə (nə niyyətlə) torpaqlarımıza hücum ediblər?*

Müəllim şeirin ikinci bəndinin daha aydın qavranılması üçün mətn səsləndirir:

*"Azərbaycan çoxlu sərvəti, gözəl təbiəti, qədim abidələri olan bir diyardır. Buna görə də qədim zamanlardan bəri yadelli düşmənlər Azərbaycanı ələ keçirmək, onun sərvətlərinə sahib olmaq istəyiblər. Neçə-neçə kəndlərimizi, şəhərlərimizi talan ediblər. Torpaqlarımızın bir hissəsini ələ keçiriblər. İndi Vətən bizi köməyə çağırır".*

2.2.4 **Tapşırıq Ç (dərslik).** Müəllim lövhədə bir neçə cümlə yazıb şagirdlərə şeirdəki əsas fikri müəyyənləşdirməyi tapşırır:

– Vətənimizin gözəl təbiəti var.
– Vətənimizi dünyaya tanıdaq!
– Vətənin çətin günüdür, ona kömək lazımdır!

2.2.2 **Tapşırıq D (dərslik). Yazı ilə inteqrasiya.** Şagirdlər tapşırığı yerinə yetirməklə qafiyə üzrə bilik və bacarıqlarını nümayiş etdirirlər.

*Kömək, gərək, demək, külək, sevək* və s.
*Ölkəmə, qəmə, qələmə, istəmə, əlimə* və s.

#### Dil qaydaları

4.1.6 **Tapşırıq B (iş dəftəri). Musiqi ilə inteqrasiya.** Şagirdlər sözlərdəki hərflərin və sözlərin düzgün ardıcıllığını bərpa etməklə cümləni oxuyur, onlara tanış olan "İgid əsgər möhkəm dayan!" mahnısının sözlərini xatırlayırlar. Müəllim Şəmistan Əlizamanlının ifasında həmin mahnını səsləndirə bilər.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlərin düzgün söz sırasına malik cümlə qurmaq bacarıqları inkişaf etdirilir.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər bu dərsin mövzusu üzrə öyrəndikləri sözləri tamamlamaqla yeni bir məlumat (Ağdam işğal altındadır) əldə etmiş olurlar.

4.1.3 **Tapşırıq E (dərslik).** Tapşırıq qruplarla iş formasında yerinə yetirilə bilər. Araşdırma aparmaq üçün müəllim qruplara müvafiq mənbələr təqdim edir. Bununla şagirdlər mövzu üzrə biliklərini artırır, bölmə üzrə mənimsədilmiş yer adlarının yazılışı qaydası üzrə biliklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Bitmiş fikir ifadə edən cümlə qurur. | Tap. B, C (iş dəftəri) |
| Şeirdə qafiyələnən sözləri seçir. | Tap. D (dərslik) |
| Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır. | Tap. E (dərslik) |

## 2-ci dərs. "Qaranquşun Xocalı arzusu"

• Dərslik: səh. 40 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).
- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
- Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır (st. 1.1.1).
- Nəqli və sual cümlələrini fərqləndirir (st. 4.1.7).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin adına diqqətin yönəldilməsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | İllüstrasiya ilə mətnin məzmununun təxmin edilməsi. Mətnin oxusu və yeni sözlər üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki əsas fikrin müəyyənləşdirilməsi |
| 4 | **Dinləmə** | Xocalı haqqında mətnin səsləndirilməsi |
| 5 | **Dil qaydaları** | Sual və nəqli cümlələrin xatırladılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini oxunacaq mətnin adına yönəldir. Şagirdlərin qaranquş və Xocalı barədə ilkin bilikləri yoxlanılır.

### Oxu. Söz ehtiyatı

2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti illüstrasiyaya yönəldilir. Şagirdlər şəklə baxaraq sual ətrafında müzakirə aparır, şəkildə gördükləri evlərin dağılma səbəbini təxmin edirlər.

2.2.1 **Növbəli oxu.** Şagirdlər mətni növbə ilə bir-birini izləyərək oxuyurlar. Oxu prosesi müəllimin faktoloji sualları ilə müşayiət olunur. Tanış olmayan sözlər izah olunub "Söz boğçası"na əlavə edilir.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətn üzrə hekayə xəritəsini tamamlamaqla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər sual ətrafında müzakirə apararaq mətndəki əsas fikri müəyyən edirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər sual barədə düşünərək müəllifin mətni yazmaqda əsas məqsədini müəyyən edirlər: *Müəllif xocalıların və bütün azərbaycanlıların arzu-istəklərini ifadə etmək üçün Ana qaranquş rəmzi obrazından istifadə etmişdir.*

### Dinləmə

1.1.1 **Tapşırıq Ç (dərslik).** Müəllim Xocalı haqqında informativ mətn səsləndirir.

**<u>Dinləmə mətni:</u>**

**Xocalı**

*Vətənimizin gözəl yerlərindən biri olan Xocalı çox illər bundan əvvəl erməni əsgərləri tərəfindən mühasirəyə alındı. Mühasirə bir neçə ay davam etdi. Şəhərin avtomobil yolu bağlandı. Gediş-gəliş yalnız vertolyotla mümkün idi. Bir gün Xocalıya gələn vertolyot səmada vuruldu. Bundan sonra Xocalı ilə əlaqə tamamilə kəsildi. Mühasirədə qalan Xocalı hər gün atəşə tutulurdu. Xocalı sakinləri şəhəri qəhrəmanlıqla qoruyurdular.*

*Fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə soxuldular. Evlərə-eşiklərə od vurdular. Qarlı, şaxtalı qış gecəsində aramsız güllə yağışı dayanmaq bilmirdi. Xilas olmağa çalışan silahsız insanlar ayağıyalın, başıaçıq halda meşələrə, dağlara qaçırdılar. Ancaq onlardan çoxu yollarda donaraq həlak olurdular.*

*Biz düşmənlərin törətdiyi vəhşilikləri heç vaxt unutmamalıyıq.*

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər oxu və dinləmə zamanı diqqətli olduqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər oxuduqları və dinlədikləri mətnlərdəki faktlara əsasən Xocalının vəziyyətini təsvir edib yazırlar. Bununla da mətnlərdəki əsas faktları yadda saxladıqlarını nümayiş etdirirlər.

**Dil qaydaları**

4.1.7 **"Xatırla" rubrikası.** Şagirdlər I yarımildə mənimsədikləri sual və nəqli cümlələr barədə bildiklərini xatırlayırlar. Müəllim lövhədə nəqli və sual cümləni yazır, şagirdlər isə cümlələrin növünü müəyyən edir, sual sözlərinin altından xətt çəkirlər; məsələn:

*Qaranquşlar Xocalıdan nə üçün köçüb getmişdilər?*
*Ana qaranquş ağlamağa başladı.*
*Qaranquşlar Xocalıya nə vaxt uçub gəlirdi?*
*Biz insanlarla birlikdə yaşamağa öyrəşmişik.*
*Qaranquşların gəlişinə kimlər sevinirdilər?*

Cütlər dinlədikləri mətndən yadlarında qalan faktlar əsasında sual cümlələri qururlar. Cütlərin təqdimatı dinlənilir.

**Müəllimin nəzərinə!** Şagirdlər tapşırıqda verilməyən digər sual sözlərindən də istifadə edə bilərlər.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq sual cümləri və sual sözləri üzrə bilik və bacarıqların möhkəmləndirilməsi məqsədi daşıyır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İllüstrasiyadan çıxış edərək mətnin məzmununu təxmin edir. | Tap. A (dərslik) |
| Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. B (dərslik) |
| Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır. | Tap. Ç (dərslik)<br>Tap. B, C (iş dəftəri) |
| Sual sözlərindən istifadə edir. | Tap. Ç (dərslik)<br>Tap. Ç (iş dəftəri) |

## 3-cü dərs. "Şuşanın yaraşığı"

• Dərslik: səh. 41 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

- Oxunan mətni kitabda izləyir (st. 2.2.1).
- Mətndəki əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 2.1.3).
- Nəqli və sual cümlələrini fərqləndirir (st. 4.1.7).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Xəritədə Şuşanın simvolunun müəyyən edilməsi |
| 2 | **Oxu** | "Şuşanın yaraşığı" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki əsas fikrin müəyyənləşdirilməsi |
| 4 | **Söz ehtiyatı** | Yaxınmənalı sözlərin müəyyənləşdirilməsi |
| 5 | **Dil qaydaları** | Sual və nəqli cümlələrin möhkəmləndirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Tapşırıq A (dərslik).** Tapşırığın məqsədi şagirdlərə ötən dərsi xatırlatmaqla oxunacaq mətnə maraq oyatmaqdır.

**Oxu**

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər mətni növbə ilə bir-birini izləyərək oxuyurlar.

**Oxuyub-qavrama**

2.2.4 Müəllim mətn üzrə faktoloji suallar verməklə şagirdlərin mətni diqqətlə oxuduqlarını yoxlayır:

– *Nənə gözəl bağına hansı adı vermişdi? O öz bağında nə görmək istəyirdi? Xarıbülbül nədir? Hadisələri kim danışırdı? (Murad)*

**Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki əsas fikri müəyyənləşdirməyə kömək edən cümləni seçirlər: "*...xarıbülbül quş deyil, güldür. Buralarda bitmir. Xarıbülbülün vətəni Qarabağdır, Şuşadır".*

Müəllim "Xarıbülbülün vətəni" ifadəsini izah edərək "vətən" anlayışının yalnız insanlara deyil, həmçinin quşlara, güllərə və başqa canlı və cansız əşyalara da aid olduğunu vurğulayır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndə müəllifin çatdırmaq istədiyi əsas məlumatı müəyyən edirlər *("Xarıbülbül yalnız Şuşada, Qarabağda bitir").*

Müəllim xarıbülbül haqqında mətn səsləndirir: *"Yurdumuzun ən səfalı yerində, dağların qoynunda Şuşa adlı gözəl bir diyar var. Bir gün düşmənlər bura hücum etdilər. Evləri, məktəbləri, xəstəxanaları, kitabxanaları, muzeyləri, qədim abidələri dağıtdılar. Şuşalıları öz yurdundan didərgin saldılar.*

*Şuşa dağlarında xarıbülbül adlı bir gül bitir. Gülə bu ad bülbülə bənzədiyinə görə verilib. "Xar" sözü isə "tikan" mənasını verir. Bu gül Şuşanın və ümumilikdə Qarabağın rəmzinə çevrilib".*

Suallar: *– Düşmənlər Şuşada hansı vəhşilikləri etdilər? Gülün adı nə üçün "xarıbülbül"dür?*

**Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini mətnin sonuna yönəldib soruşur: *"Nənə nə üçün kövrəlib ağladı?"* Şagirdlər bu suala *"Şuşa da işğal altındadır. Nənə Şuşa üçün çox darıxır"* və s. cavablar verməklə bayatının mətndəki əsas fikrə uyğun gəldiyini müəyyənləşdirirlər.

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Şuşanın yaraşığı" mətnindəki əsas fikirlə səsləşən şeiri oxuyaraq mövzunu daha dərindən mənimsəyir, şeirdə fərqləndirilmiş sözlərin yaxınmənalı qarşılığını müəyyən edirlər (*yurd – vətən; ön – qabaq; nurlu – işıqlı; qayıtmaq – dönmək).*

### Dil qaydaları

4.1.7 **Tapşırıq D (dərslik).** Şagirdlər fərqləndirilmiş nəqli cümlələri sual cümlələrinə çevirmək üçün müvafiq sual sözlərindən istifadə edirlər: *"Harada gözəl bir bağ var idi? Şuşanın yaraşığı nə idi? Qulağıma necə bir quş səsi gəldi?"*

**Tapşırıq C, Ç (iş dəftəri).** Tapşırıqlar sual cümlələri və sual sözləri üzrə bilik və bacarıqların möhkəmləndirilməsi məqsədi daşıyır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxunan mətni kitabda izləyir. | Tap. B (dərslik) |
| Mətndəki əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap.C, Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. B (iş dəftəri) |
| Nəqli cümləni sual cümləsinə çevirir. | Tap. D (dərslik)<br>Tap. C, Ç (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə nümayiş etdirmək üçün səh. 42-də "D" tapşırığındakı təlimata uyğun məktub nümunəsi hazırlamaq tövsiyə olunur.

## 4-cü dərs. Ümumiləşdirici dərs

• Dərslik: səh. 42 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Eyni məna qrupuna aid olan sözləri müəyyən edir (st. 2.1.1).
- Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st. 4.1.3).
- Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir (st. 4.1.3).
- Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvləri düzəldir (st. 3.1.5).
- Açıqça yazaraq öz arzu və hislərini ifadə edir (st. 3.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmənin mövzularının xatırlanması |
| 2 | **Oxu** | Xəzər haqqındakı şeir üzrə iş |
| 3 | **Söz ehtiyatı** | Söz ehtiyatının yoxlanılması |
| 4 | **Dil qaydaları** | Sözlərin düzgün yazılışı |
| 5 | **Yazı** | Təlimata uyğun məktubun yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər 6-cı bölmənin səhifələrini vərəqləyərək fəsillərin adlarını xatırlayırlar. Şagirdlər bu bölmədə öyrəndikləri mövzular üzrə öz təəssüratlarını bölüşürlər.

### Oxu

2.2.3 **Tapşırıq A (dərslik). Dil qaydaları ilə inteqrasiya.** Tapşırığın məqsədi şagirdlərin oxuyub-qavramasını, həmçinin qafiyə və yer adlarının yazılışı ilə bağlı dil biliklərini yoxlamaqdır.

Şagirdlər şeiri oxuyaraq aşağıdakı bilik və bacarıqlarını nümayiş etdirirlər:

– Bu bölmədə öyrəndikləri faktları şeir vasitəsilə

xatırlayırlar (Xəzər dənizi, Neft daşları).

– Şeirin qafiyə sisteminə uyğun söz seçirlər (şəhər–Xəzər).

– Yer adlarının böyük hərflə yazılışı haqda biliklərini nümayiş etdirirlər.

Tapşırıq cütlərlə və ya qruplarla iş formasında yerinə yetirilə bilər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər bölmədə öyrəndikləri bəzi sözləri izahları ilə uyğunlaşdırmaqla söz ehtiyatlarını nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.3 **Tapşırıq C (dərslik).** Bu bölmədə şagirdlər bir sıra yer bildirən sözlərlə tanış olmuş, yer adlarının yazılışı ilə bağlı dil qaydasını mənimsəmişlər. Tapşırığın məqsədi bölmə üzrə mənimsədilən bilik və bacarıqların yoxlanılmasıdır.

4.1.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bölməboyu öyrəndikləri məlumatları ümumi şəkildə təqdim etməklə bilik və bacarıqlarını nümayiş etdirirlər.

4.1.3 3.1.5 **Tapşırıq Ç (dərslik). Tapşırıq B (iş dəftəri).** Şagirdlər deyilişi və yazılışı fərqlənən sözlərin düzgün yazılışını müəyyən etməklə bölmə üzrə əldə etdikləri orfoqrafik biliklərini nümayiş etdirirlər.

### Yazı

3.1.3 **Tapşırıq D (dərslik).** Tapşırıqda verilmiş təlimatın hər cümləsi oxunduqca müəllim hazırladığı nümunədə həmin təlimata uyğun hansı işin görüldüyünü şagirdlərə nümayiş etdirir.

**Cütlərlə iş.** Müəllimin nəzarəti ilə cütlər məktubun hazırlanmasına başlayır. Bu tapşırığın yerinə yetirilməsi ilə şagirdlər ilboyu əldə etdikləri bir sıra bilik və bacarıqlarını nümayiş etdirirlər:

1. Sadə nitq etiketlərindən istifadə edir.
2. Özünü və yaşadığı ünvanı təqdim edir.
3. Sual cümləsi quraraq məlumat soruşur.
4. Öz hiss və duyğularını ifadə edir.
5. Məktubun məzmununa uyğun rəsm çəkir.
6. Məktubun hissələri ilə tanış olur.
7. Təlimatdakı ardıcıllığa əməl edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır. | Tap. B (dərslik) |
| Eyni məna qrupuna aid olan sözləri müəyyən edir. | Tap. C (dərslik) |
| Yer adlarını böyük hərflə yazır. | Tap. A (dərslik) |
| Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. Ç (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Məktub yazaraq öz arzu və hisslərini ifadə edir | Tap. D (dərslik) |

bölmə **7** 

# YAXŞI NƏDİR, PİS NƏDİR

| Mövzu | | **Yaxşı nədir, pis nədir** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Dinlənilən və ya oxunan mətnin təxəyyülə uyğun təxmin və ya davam etdirilməsi<br>• Şəkillər üzrə kiçikhəcmli mətnin qurulması |
| | Söz ehtiyatı | caynaq, taqət, fədakar, qısılmaq, tufan, çəpər, yolmaq, zənbil, mayallaq aşmaq, gözünə sataşmaq, acımaq, kəndir, sarılmaq, cummaq, macəra, ah çəkmək, qoza, bərəlmək, boylanmaq, təngnəfəs, hıçqırmaq, mağara, etiraf, nərildəmək, and-aman eləmək, əl saxlamaq, cəsarət, mərhəmət, tövlə, zingildəmək, qoç, zərbə, əlacsız, kor-peşman, skamya, qabartmaq, sığınmaq, vahiməli, əldən düşmək, tənzif, haray salmaq, leysan, sahil, çat-çat, hayına çatmaq və s. |
| | Oxu | • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Nəzm və nəsrlə yazılmış mətnlərin fərqləndirilməsi;<br>• Şeirin əsas struktur elementlərinin (başlıq, bənd, misra) fərqləndirilməsi<br>• Şeirin nəsrə çevrilərək nəql edilməsi |
| | Yazı | • Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Oxunan mətnin qısa məzmununun yazılması<br>• Şəkil üzrə mətn qurulub yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Ad, hərəkət bildirən sözlər, durğu işarələri, heca, sait və samitlərin və cümlə üzrə biliklərin təkrarı və tətbiqi |
| | Filoloji anlayışlar | • Abzas |
| Kompetensiyalar | | • Anaya, insanlara, digər canlı varlıqlara sevgi, mərhəmət, qayğı; dostluq münasibətlərinin aşılanması, minnətdarlıq hissinin ifadəsi |

Bu bölmədə müxtəlif mənavi dəyərlərdən, insani münasibətlərdən, dostluq və səmimi hislərdən bəhs edən bədii mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, xarakterin səciyyələndirilməsi ilə bağlı söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir.

• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

• Sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur.

• Hüsnxət normalarına uyğun yazır.

**Mənimsəməkdə çətinlik doğuran məsələlər:**

• Yaradıcı tapşırıqların yerinə yetirilməsi

• Nisbətən irihəcmli mətnlərin oxunması

• Əsas fikrin ifadə edilməsi

Bu bölmənin tədrisi zamanı bir sıra filoloji anlayışların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilə. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

fəsil 1 ANA MƏHƏBBƏTİ

## 1-ci dərs. "Pişik və qaraquş"

• Dərslik: səh. 44 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1)
- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1)
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2)
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4)
- Yaxınmənalı sözləri müəyyən edir (st. 2.1.3)
- Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur. (st. 4.1.6)

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmənin adının müzakirəsi |
| 2 | **Danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş, "Şəngül, Şüngül, Məngül" nağılını şəkil üzrə danışma |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Pişik və qaraquş" mətninin oxusu, yeni sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətnlərdəki obrazların müqayisəsi |
| 5 | **Dil qaydaları** | Verilmiş sözlərdən cümlə qurmaq |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlərin diqqəti bölmənin adına yönəldilir, şagirdlər *"Yaxşı nədir, pis nədir?"* sualı ətrafında fikirlərini söyləyir, həyatda gördüklərindən nümunələr gətirir, bölmə titulundakı şəkillərə nəzər salıb bölmənin mövzusunu təxmin edirlər.

**Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti bölmə titulunda verilmiş şəkillərə və suallara yönəldilir. Şagirdlər hər bir şəklin məzmununu danışır, obrazların hərəkətlərinə münasibət bildirirlər. Bununla şagirdlərin yaxşı və pis xüsusiyyətlər haqqında ilkin təsəvvürləri yoxlanılır.

### Dinləmə və danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər onlara tanış olan "Şəngül, Şüngül, Məngül" nağılını şəkillər üzrə danışırlar. Nağılı bilən digər şagirdlər şəkillərdə təsvir edilməyən hissələri də nəql edə bilərlər.

1.1.1 Müəllim nağılı səsləndirir və yönəldici suallar vasitəsilə şagirdlərin diqqətini ana keçinin fədakarlığına yönəldir: *"Ana keçi balalarına nə tapşırmışdı? Canavar evə necə girdi? Canavara qalib gəlmək üçün ana keçiyə kim kömək etdi?"*

Sual-cavab zamanı "Təhlükədən qorunaq" mövzusu ilə inteqrasiya yaratmaq olar: *Tanımadığımız adama qapı açmağımız düzgündürmü?*

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq şagirdlərin cümlə qurmaq və hüsnxət normalarına uyğun yazmaq bacarıqlarını inkişaf etdirir.

### Oxu. Söz ehtiyatı

2.2.4 **Tapşırıq C (dərslik). Növbəli oxu.** Şagirdlər "Pişik və qaraquş" mətnini növbə ilə səsli oxuyurlar. Müəllim şagirdlərə tapşırır ki, mətni oxuduqca hadisələri xəyallarında canlandırsınlar. Oxu prosesində tanış olmayan sözlər şagirdlərə izah edilir. Yeni sözlər "Söz boğçası"na əlavə olunur.

2.1.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş sözlərin yaxınmənalı qarşılığını seçirlər (taqət–güc, məhəbbət–sevgi, yapışmaq–tutmaq, əldən düşmək–yorulmaq). Bu tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsi məqsədi daşıyır.

### Oxuyub-qavrama

Oxu prosesi bitdikdən sonra şagirdlər ana pişik və ana keçi obrazlarını müqayisə edirlər. Vizual və verbal informasiyanın müqayisəli təhlili bacarığı inkişaf etdirilir.

### Dil qaydaları

4.1.6 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər verilmiş sözlər arasındakı məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qururlar (*"Ana məhəbbəti hər şeydən güclüdür"*).

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil üzrə danışır. | Tap. A, B (dərslik) |
| Əsərdəki obrazları müqayisə edir və onlara münasibət bildirir. | Tap. C (dərslik) |
| Verilmiş şəklə uyğun cümlələr yazır. | Tap. A (iş dəftəri) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. B (iş dəftəri) |
| Cümlələr qurur. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. “Məstan və balaları”

• Dərslik: səh. 45 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

- Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir. (st. 2.2.3).
- Mübaliğədə şişirdilmiş əlamətin mahiyyətini izah edir (st. 2.1.4).
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 2.1.3).
- Şeiri nəsrə çevirərək nəql edir (st. 2.2.2).
- Sual sözlərindən istifadə etməklə sual cümlələri qurur (st. 4.1.6).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2)

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Dinləmə mətni |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Məstan və balaları” mətninin oxunması; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Şəkillərlə mətnin uyğunlaşdırılması; şeirin nəsrə çevrilməsi |
| 4 | **Dil qaydaları** | Sual cümlələrinin qurulması |
| 5 | **Yazı** | Şeirin məzmununu əks etdirən şəklin təsvir edilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Suallar: *“Pişiyiniz varmı? Onunla oynayırsınızmı? O, dəcəllik edəndə valideynlərinizin münasibəti necə olur?”*

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). İstiqamətləndirilmiş oxu.** Şəkillərə diqqət yetirməklə “Məstan və balaları” şeiri hissə-hissə oxunur. Oxunan hissələr mətnə çəkilmiş illüstrasiyalarla uyğunlaşdırılır: 1-ci şəkil – “Gah ağaca dırmaşdı”; 2-ci şəkil – “Gah damın üstə çıxdı”; 3-cü şəkil – “Qovdu ağ kəpənəyi”; 4-cü şəkil – “Üç balası zənbildə / Yuxulayıb qalmışdı”.

2.1.4 **Tapşırıq B (dərslik).** Şagirdlərin söz ehtiyatını möhkəmləndirir. “Tufan” sözünün həqiqi mənası (qarlı, yağışlı, dağıdıcı külək) və şeirdə işlənən mənası (hər yeri dağıtmaq) ətrafında müzakirə aparılır.

2.1.3 **Tapşırıq A, B (iş dəftəri).** Bu tapşırıqlar şagirdlərin söz ehtiyatının artırılması məqsədi daşıyır. Müəllim şagirdlərə tapşırıqda verilən yeni sözlərin mənasını izah edir. Şagirdlərin diqqətini “Söz boğçası”na yönəldir. Şagirdlər tapşırıqda verilən sözləri “Söz boğçası” ilə müqayisə edərək sıranı tamamlayırlar: 1 – tufan; 2 – çəpər; 3 – yolmaq; 4 – zənbil. Bu, şagirdlərin yaxınmənalı sözləri qruplaşdırmaq bacarığını inkişaf etdirir.

Şagirdlər “B” tapşırığını yerinə yetirməklə yeni sözləri daha dərindən mənimsəyirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər şəkillər üzrə danışır, 3-cü şəklin şeirdə əks olunduğunu müəyyən edərək uyğun misranı oxuyurlar (Yoldu otu, çiçəyi...)

2.2.2 **Tapşırıq Ç (dərslik).** Bu tapşırığın məqsədi şagirdlərin nəzmi nəsrə çevirərək öz sözləri ilə nəql etmək bacarığını inkişaf etdirməkdir.

### Dil qaydaları

4.1.6 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər kim? və nə etdi? sual sözlərindən istifadə etməklə şeirin məzmununa uyğun sual cümlələri qururlar.

### Yazı

**Tapşırıq Ç (iş dəftəri).** Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən etmək və nəzmi nəsrə çevirmək bu tapşırığın əsas məqsədidir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir. | Tap. C (dərslik) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. A, B (iş dəftəri) |
| Şeiri nəsrə çevirərək nəql edir. | Tap. Ç (dərslik) |
| Sual sözlərindən istifadə edərək cümlə qurur. | Tap. C (iş dəftəri) |
| Şəklə uyğun cümlələr yazır. | Tap. Ç (iş dəftəri) |

## 3-cü dərs. “Bağdakı quyu”

• Dərslik: səh. 46 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**

- Oxuduğu mətnin davamını təxmin edir (st. 1.2.2).
- Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Əsərdəki obrazları sadə şəkildə təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür. (st.3.1.1).
- Mətnlə illüstrasiya arasındakı uyğunsuzluğu müəyyən edir (st. 2.2.3).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçir (st. 4.1.5).
- Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st. 4.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu ilə bağlı atalar sözünün müzakirəsi |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Bağdakı quyu” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnə çəkilmiş şəkillər üzrə iş |
| 4 | **Yazı** | Mətnlə illüstrasiya arasındakı uyğunsuzluğun şərh edilib yazılması |
| 5 | **Dil qaydaları** | Heyvan adlarının böyük hərflə yazılışı |
| 6 | **Söz ehtiyatı** | “Söz boğçası” üzrə iş |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Pişiyin qanadı olsa idi, sərçələrdən əlamət qalmazdı” atalar sözünü lövhəyə yazır. Şagirdlər atalar sözünü müzakirə edərək "sərçə tutmaq pişiklərin əsas məşğuliyyətidir" qənaətinə gəlirlər.

### Oxu

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər əvvəlcə mətnə çəkilmiş şəkillər üzrə açar sözlər söyləyir, sonra hadisələrin davamını təxmin edirlər.

2.2.1 **Növbəli oxu.** Mətn növbə ilə ucadan oxunur. Müəllim faktoloji suallar vasitəsilə diqqətli oxunu yoxlayır.

Şagirdlər ikinci abzası oxuduqdan sonra həmin hissəyə uyğun illüstrasiyanı seçirlər. Sonra mətnin davamını oxuyub növbəti illüstrasiyanın aid olduğu cümləni mətndən seçirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Mətndən açar sözlər (Məstan, sərçə, quyu) seçilib cümlədə işlədilir.

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlərin oxuyub anlama bacarığını və diqqətini inkişaf etdirir. Şagirdlər şəkildə nənənin təsvirinin olmadığını müəyyən edir və bu obraz haqqında öz fikirlərini bildirirlər.

Təhlükəsizlik qaydalarını xatırlatmaq məqsədi ilə müxtəlif suallar verilə bilər:

*– Sizcə, bağda hansı təhlükəsizlik qaydasına riayət olunmayıb?* (Quyunun ağzını bağlamayıblar.)

### Yazı. Söz ehtiyatı

3.1.1 **Tapşırıq C (dərslik).** Şagirdlər “Söz boğçası”ndan uyğun ifadələr əlavə edib cümlələri köçürməklə yeni sözləri daha dərindən mənimsəyirlər.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətnlə illüstrasiya arasındakı uyğunsuzluğu (mətndə quyunun ağzı açıq idi) yazılı şərh edirlər.

### Dil qaydaları

4.1.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər bu fəsildə öyrəndikləri yeni sözləri həm təkrar edir, həm də mənalarını bir daha uyğunlaşdırmaqla söz ehtiyatlarını möhkəmləndirmiş olurlar.

4.1.3 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini mətndə "Məstan" sözünün yazılışına yönəldir və bu sözün ilk hərfinin böyük yazılma səbəbini soruşur. "Bunları bilməliyik" rubrikasındakı qayda və nümunələr təhlil olunur.

**Tapşırıq D (dərslik) və Ç (iş dəftəri).** Bu tapşırıqlar vasitəsilə heyvanlara verilən adların yazılışı üzrə bilik və bacarıqlar möhkəmləndirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin davamını təxmin edib danışır. | Tap. A (dərslik) |
| Əsərdəki obrazları sadə şəkildə təhlil edir və onlara münasibət bildirir. | Tap. B (dərslik) |
| Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür. | Tap. C (dərslik) |
| Mətnlə şəkil arasındakı uyğunsuzluğu öz yazısı ilə izah edir. | Tap. B (iş dəftəri) |
| Heyvan adlarının ilk hərfini böyük yazır. | Tap. Ç, D (dərslik) Tap. Ç (iş dəftəri) |

## 4-cü dərs. “Məstanın xilası”

• Dərslik: səh. 47 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Oxunan mətni kitabda izləyir. (st. 2.2.1)
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Eyni məzmunda olan nəzm və nəsrlə yazılmış mətnləri müəyyənləşdirir (st. 2.2.2).
- Oxuduğu mətnlərdəki obrazları müqayisə etməklə ümumi ideyanı müəyyən edir (st. 2.2.4).
- Əsərdəki obrazları, hadisələri, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Sözləri əlifba sırası ilə düzür (st. 4.1.4).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ana-övlad münasibətinə aid fikir mübadiləsi aparılması |
| 2 | **Danışma** | Mövzu üzrə müzakirə |
| 3 | **Oxu** | Mətnin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətn üzrə faktoloji sualların cavablandırılması, nəzm və nəsr parçalarının uyğunlaşdırılması |
| 5 | **Yazı** | Obrazların adlarının əlifba sırası ilə yazılması, obrazlara aid hissələrin seçilib yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlərin "Məstan və balaları" şeirinin "Üç balası zənbildə yuxulayıb qalmışdı" misralarını xatırlaması mətnin davamının oxunmasına maraq oyadır. "Məstan balalarını unutmuşdu?" sualı ətrafında müzakirə aparılır.

### Danışma

1.2.2 Müəllim suallar verməklə mövzunu şagirdlərin şəxsi həyatı ilə əlaqələndirir: *"Heç olub ki, bir yerə gedəndə ananızdan ayrılmısınız və azmısınız? Belə vəziyyətdə siz nə etmisiniz? Ana övladını yaddan çıxara bilərmi?"* Şagirdlər müxtəlif əhvalatlar xatırlayır, öz təəssüratlarını bölüşürlər.

### Oxu

2.2.1 2.2.3 **Tapşırıq B (dərslik).** Mətnin hər cümləsini bir şagird ucadan oxuyur. Oxu prosesinin bu şəkildə təşkili şagirdlərin diqqətinin mətn üzərində cəmlənməsinə və sualların asan şəkildə cavablandırılmasına kömək edir.

Oxu zamanı şagirdlərə tanış olmayan sözlər (kəndir, sarılmaq, cummaq) izah olunur.

Oxu prosesi bitdikdən sonra suallar cavablandırılır.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Şagirdlər "Ana məhəbbəti" fəslində tanış olduqları obrazları müqayisə etməklə mətndəki əsas fikri müəyyənləşdirirlər: *"Ana məhəbbəti hər şeydən güclüdür".*

**Tapşırıq Ç (dərslik).** Bu tapşırıqda şagirdlər mətnin son cümləsinə aid olan illüstrasiyaya baxaraq mətnə əlavələr edirlər. Təxminən bu cümlələr səslənə bilər: *"Uşaqlar quyunun üstünü taxta ilə örtdülər. Taxtanın üzərinə iri daş qoydular"* və s. Bu, şagirdlərdə illüstrasiyanı təsvir etməklə mətni genişləndirmək bacarığını inkişaf etdirir.

2.2.2 **Tapşırıq D (dərslik). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndən verilmiş şeir parçalarına uyğun gələn cümlələri seçib köçürməklə həm oxuyub-qavradıqlarını, həm də yazı bacarıqlarını nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndəki obrazların adlarının qarşısında onların hərəkətlərinə uyğun məlumatlar yazmaqla mətni oxuyub-qavradıqlarını və yazı bacarıqlarını nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.4 **Tapşırıq E (dərslik) və B (iş dəftəri).** Məqsəd şagirdlərin əlifba üzrə bilik və bacarıqlarını möhkəmləndirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxunan mətni kitabda izləyir. | Tap. B (dərslik) |
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. B (dərslik) |
| Eyni məzmunda olan nəzm və nəsrlə yazılmış mətnləri müəyyənləşdirir. | Tap. D (dərslik) |
| Obrazları müqayisə etməklə ümumi nəticələrə gəlir. | Tap. Ç (dərslik) |
| Əsərdəki obrazlara uyğun hadisələri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Sözləri əlifba sırası ilə düzür. | Tap.D (dərslik)<br>Tap. B (iş dəftəri) |

## fəsil 2 QARAGÖZÜN MACƏRASI

## 1-ci dərs. Qaragöz yuvanı tərk edir"

• Dərslik: səh. 48 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

- Şahidi olduğu hadisə haqqında danışır (st. 1.2.1).
- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 2.2.5).
- Verilmiş şəklə uyğun söz və cümlə yazır (st. 3.1.2.)
- Mətndən ad, əlamət, hərəkət bildirən sözləri seçir (st. 4.1.5.)

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Macəra" anlayışının çıxarılması; |
| 2 | **Danışma** | Suallar ətrafında danışma və müzakirə |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Qaragöz yuvanı tərk edir" mətninin oxusu, yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki səbəb-nəticə əlaqəsinin müəyyən olunması, mətnin davamının təxmin edilməsi |
| 5 | **Dil qaydaları** | Ad bildirən sözlərin müəyyən edilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldərək "macəra" sözünün mənasını izah etmək üçün şagirdlərə müxtəlif situasiyalara aid hekayə qurmağı tapşırır:

*1. Həyətdə topla oynayan zaman top qonşunun*

*pəncərəsini sındırır.*

*2. Çantanı kiminsə çantası ilə dəyişik salırsan* və s.

**Danışma**

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin şahidi olduqları hadisələri xatırlayıb danışması onlarda mətnin oxunmasına maraq oyadır.

**Oxu. Söz ehtiyatı**

**Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər mətni növbəli şəkildə səsli oxuyurlar. Şagirdlər mətndə *kötük, küp, qulp* sözlərinə rast gəldikcə müəllim həmin sözlərin ifadə etdiyi anlayışları şəkildə tapmağı tapşırır. Bu, yeni sözlərin daha dərindən mənimsənilməsinə kömək edir.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş izahların aid olduğu sözləri müəyyənləşdirməklə yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Oxuyub-qavrama**

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlər mətndəki əsas faktlardan (yuvanın ağacda olması, yem məqsədilə qozanın toplanması) çıxış edərək Qaragözün sincab olduğunu təsdiq edirlər.

**Əlavə tapşırıq**. Müəllim şagirdlərin diqqətini mətnin 1-ci abzasına yönəldərək sual verir:

– *“Sizcə, Qaragöz niyə ah çəkdi?* Bu sualın cavabı mətndə öz əksini tapmayıb. Şagirdlər bu sualları öz təxminləri əsasında cavablandıra bilərlər: *Qaragöz də dovşan balaları kimi oynamaq istədi, lakin ah çəkdi, çünki anası ona tapşırmışdı ki, o gələnə qədər yuvadan çıxmasın”* və s.

**Danışma**

**Tapşırıq Ç (dərslik).** Şagirdlər baş qəhrəmanın hərəkətini səbəb kimi qəbul edərək onun nəticələrini təxmin edirlər.

**Yazı**

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin şəkildə gördüklərini yazı vasitəsilə təsvir etmək bacarıqlarını təkmilləşdirmək məqsədi daşıyır.

**Dil qaydaları**

4.1.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər nöqtələrin yerinə məzmuna uyğun ad bildirən sözləri yazmaqla həm ad bildirən sözləri tanıdıqlarını, həm də mətni oxuyub-anladıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şahidi olduğu hadisə haqqında danışır. | Tap. A (dərslik) |
| Sözün ifadə etdiyi şəkli müəyyən edir. | “Söz boğçası” |
| Mətndəki əsas hadisələri müəyyən edir. | Tap. C (dərslik) |
| Mətni təxəyyülünə uyğun davam etdirir. | Tap. Ç (dərslik) |
| Mətndən ad bildirən sözləri seçir. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. “Ayı və balaları”

• Dərslik: səh. 49 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

- Kitabın sərlövhə, başlıq, illüstrasiya kimi elementlərindən çıxış edərək məzmununu təxmin edir (st. 2.2.3).
- Əsərdəki obrazları, hadisələri, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir (st. 2.1.2).
- Varlığı səciyyələndirmək üçün əlamət, say və hərəkət bildirən sözlərdən istifadə edir (st. 4.1.5).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Qaragöz yuvanı tərk edir”mətninin xatırladılması |
| 2 | **Danışma** | İllüstrasiya vasitəsilə mətnin davamının təxmin edilməsi |
| 3 | **Oxu** | Söylənilən fərziyyələrin mətnlə müqayisə olunması |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki obrazlar, hadisələrlə bağlı faktlar üzrə iş |
| 5 | **Dil qaydaları** | Obrazlara aid hərəkət bildirən sözlərin müəyyən edilməsi |
| 6 | **Yazı** | Mətnin bir hissəsinin köçürülməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim suallar verməklə “Qaragöz yuvanı tərk edir” mətnini xatırladır: *“Qaragöz niyə yuvadan çıxdı? Küp kimin idi? Küp niyə aşdı?”*

**Oxu**

2.2.3 **Tapşırıq A (dərslik).** Mətnə çəkilmiş şəkil üzrə iş aparılır. Şəklə baxmaqla hadisələrin davamı təxmin edilir. Müəllim *“Sizcə, hadisələr necə davam edə bilər? Qaragöz nə edəcək?”* və s. suallar vasitəsilə mətnin davamına maraq yaradır.

Sonra mətn növbə ilə ucadan oxunur. Mətndə baş verən hadisələr söylənilən fərziyyələrlə müqayisə edilir. Oxu zamanı şagirdlərə tanış olmayan

sözlər (*boylanmaq, bərəlmək*) izah edilir.

**Oxuyub-qavrama**

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnə aid məlumatları yazmaqla mətni oxuyub-qavradıqlarını göstərirlər.

2.2.4 **Tapşırıq B (dərslik).** Qaragöz obrazı haqqında söhbət aparılır. Müəllimin yönəldici sualları vasitəsilə şagirdlər onun xarakterini açmağa çalışırlar: *"Sizcə, Qaragöz gizlənməkdə haqlı idi? Qaragöz nə etməli idi? Siz onun yerində olsa idiniz, nə edərdiniz?"* Əsas məqsəd şagirdlərin Qaragözün hərəkətinə düzgün qiymət verməleridir (*Qaragöz başqasına aid olan əşyaya əl vurmamalı, əşyanın sahibi gələndə səhvini etiraf etməli idi.*).

2.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər "Qaragözün macərası" mətnindəki faktlara aid verilən fikirlərin doğru və ya yanlış olduğunu müəyyənləşdirməklə oxuduqları mətni təhlil etmək bacarığına yiyələnirlər.

**Söz ehtiyatı**

2.1.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq söz ehtiyatını möhkəmləndirməyə xidmət edir. Şagirdlər "Söz boğçası"ndan uyğun gələn sözləri yazmaqla cümlələri tamamlayırlar.

**Dil qaydaları**

4.1.5 **Tapşırıq C (iş dəftəri). Oxu ilə inteqrasiya.** Şagirdlər obrazlara aid hərəkət bildirən sözləri seçməklə həm mətni oxuyub-anladıqlarını, həm də hərəkət bildirən sözləri fərqləndirmək bacarıqlarını nümayiş etdirirlər.

**Yazı**

3.1.1 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər mətndən ayının qəzəbini ifadə edən cümlələri köçürməklə həm yazı, həm də oxu bacarıqlarını inkişaf etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İllüstraiya vasitəsilə mətnin məzmununu təxmin edir. | Tap. A (dərslik) |
| Əsərdəki obrazları, hadisələri, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Nitqində yeni öyrəndiyi sözlərdən kontekstə uyğun istifadə edir. | Tap.B (iş dəftəri) |
| Obrazları səciyyələndirmək üçün hərəkət bildirən sözlərdən istifadə edir. | Tap. C (iş dəftəri) |

## 3-cü dərs. "Ana ilə söhbət"

• Dərslik: səh. 50 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

- Oxunan mətni kitabda izləyir (st. 2.2.1.).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4.).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2.).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1.).
- Rollu oyun zamanı obrazın xarakterinə uyğun mimika və jestlərdən istifadə edir (st. 1.2.3.).
- Sözü təşkil edən hecaları müəyyən edir (st. 4.1.2.).
- Verilmiş sözdə sait və samit bildirən hərfləri fərqləndirir (st. 4.1.1.).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | "Sirr bölüşmək" mövzusunda söhbət |
| 2 | Oxu. Söz ehtiyatı | Mətnin oxusu; baş qəhrəmanın xarakterinin təhlili; yeni sözlər üzrə iş |
| 3 | Danışma | Rollu oyun vasitəsilə mətnin səhnələşdirilməsi |
| 4 | Dil qaydaları | Sait, samit və heca üzrə biliklərin xatırlanması |
| 5 | Formativ qiymətləndirmə | |

**Mövzuya yönəltmə**

**Tapşırıq A (dərslik)** *"Sirriniz olanda kiminlə bölüşürsünüz?"* sualı ilə müəllim şagirdlərdə mövzuya maraq oyadır.

**Oxu. Oxuyub-qavrama**

2.2.1 2.2.4 **Rollu oxu.** Obrazların nitqi şagirdlər arasında bölüşdürülür. Bu oxu texnikası şagirdləri yoldaşlarının oxusunu daha diqqətlə izləməyə məcbur edir.

Oxu prosesində şagirdlər baş qəhrəmanın hərəkətlərindən və sözlərindən çıxış edərək onun keçirdiyi hislər barədə fikir söyləməlidirlər. Müəllim nümunə üçün bu cümləni seçə bilər: *"Balacanın qara gözləri yaşardı".* Bunun peşmançılıq hissi ilə bağlı olduğunu deyə bilər. Digər cümləleri isə müəyyən etməyi şagirdlərə tapşırır (*"Qaragöz isə kədərli halda oturub fikrə daldı. Qaragözü ağlamaq tutdu"* və s.).

**Söz ehtiyatı**

2.1.2 **Tapşırıq A (iş dəftəri).** Söz boğçası üzərində iş aparılır. Şagirdlər yeni sözləri kontekstə uyğun işlətmək bacarıqlarını nümayiş etdirirlər.

**Yazı**

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətndən əsas fikri ifadə edən cümlələri seçib köçürürlər.

### Danışma

**1.2.3 Tapşırıq B (dərslik). Rollu oyun.** Bu fəaliyyət şagirdlərin dialoq qurmaq, müvafiq jest və mimikadan yerli-yerində istifadə etmək bacarıqlarını inkişaf etdirir.

### Dil qaydaları

**4.1.2 Tapşırıq C, Ç (dərslik). Riyaziyyatla inteqrasiya.** Şagirdlərin heca haqqında bilikləri xatırladılır. Onlar həm hərflərin, həm də hecaların sayını müəyyənləşdirir, eyni zamanda hansının az, hansının çox olduğunu misallarla aydınlaşdırırlar.

**4.1.1 Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin sait və samitləri fərqləndirmək bacarıqlarını möhkəmləndirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxunan mətni kitabda izləyir. | Tap. A (dərslik) |
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. A (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Oxuduğu mətni səhnələşdirir. | Tap. B (dərslik) |
| Sözləri hecalara ayırır. | Tap. C, Ç (dərslik) |
| Sait və samit bildirən hərfləri fərqləndirir. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. “Qaragözün etirafı”

• Dərslik: səh. 51 • İş dəftəri: səh. 42

### Təlim məqsədləri

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 2.2.1).
- Mətndəki əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Məzmunun açılmasına xidmət edən açar sözləri müəyyənləşdirir (st. 2.2.3).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Nəqli və sual cümlələrini fərqləndirir (st. 4.1.7).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Atalar sözünün müzakirəsi |
| 2 | Danışma | Mövzunun şagirdlərin şəxsi həyatı ilə əlaqələndirilməsi |
| 3 | Oxu. Söz ehtiyatı | Mətnin rollar üzrə oxusu; oxu prosesi zamanı yeni sözlərin izahı |
| 4 | Oxuyub-qavrama | Obrazların təhlili; açar sözlərin seçilməsi; mətnlə illüstrasiyanın uyğunlaşdırılması; mətnin ardıcıllığa uyğun nəql edilməsi |
| 5 | Dil qaydaları | Mətndən sual cümlələrinin seçilməsi |
| 6 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim sual verir: *"Doğru söz acı olar, nəticəsi şirin"* atalar sözünü necə başa düşürsünüz?

**1.2.1 Tapşırıq A (dərslik).** Şagirdlər *“Etiraf etmək nədir? Siz heç etiraf etmisinizmi?”* sualları ətrafında müzakirə aparırlar. Müəllim bu sözün mənasını (səhvini boynuna almaq, yalan danışdığını, günahkar olduğunu bildirmək) izah edir. Şagirdlər öz şəxsi həyatlarından nümunələr gətirməklə etiraf etməyin çətin olduğu qənaətinə gəlirlər.

### Oxu. Söz ehtiyatı

**2.2.1** "Söz boğçası" üzərində iş aparılır. Müəllim yeni sözləri cümlədə işlətməklə mənalarını şagirdlərə izah edir.

**Rollu oxu.** Obrazların nitqi və müəllif sözləri şagirdlər arasında bölüşdürülür. Şagirdlər obrazların nitqini uyğun səs tonu ilə oxuyurlar.

### Oxuyub-qavrama

**2.2.4 Tapşırıq B (dərslik).** Şagirdlər Qaragözün etirafını bildirən cümlələri seçməklə mətndəki əsas fikri qavradıqlarını nümayiş etdirirlər. Onlar bu qənaətə gəlirlər ki, yalnız dürüst və güclü xarakterə malik insanlar etiraf etməyi bacarırlar.

**Tapşırıq C (dərslik).** Şagirdlər Qaragözün hərəkətlərini səciyyələndirməklə onun xarakterini müəyyən edirlər. Digər obrazları da bu üsulla səciyyələndirmək olar.

**2.2.3 Tapşırıq A (iş dəftəri).** Mətndən üç açar söz seçib cümlədə işlətmələri şagirdlərin mətni qavradıqlarını göstərir.

### Dil qaydaları

**4.1.7 Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən sual cümlələrini (*Sən niyə mənim küpümü aşırmısan? Niyə balımı dağıtmısan? İstəyirsiniz, sizin üçün bal toplayım?*) seçməklə sual cümləsini fərqləndirdiklərini nümayiş etdirirlər.

## Oxuyub-qavrama

2.2.3 2.2.4 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıqda "Qaragözün macərası" mətninin hissələrinə aid əsas məqamları xatırladan fikirlər verilib. Həmin fikirləri aid olduqları mətnlərə və illüstrasiyalara uyğunlaşdırmaq tələb olunur. Tapşırıq şagirdlərin diqqətini və yaddaşını inkişaf etdirməyə yönəlmişdir.

2.2.5 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Müəllim qruplara "Qaragözün macəraları" mətninin hissələrini danışmağı tapşırır.

Qruplar onlara verilən mətni müzakirə edərək xatırlayırlar. Sonda ardıcıllığı gözləyərək "Qaragözün macərası" mətnini danışırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikirlərini sərbəst ifadə edir. | Tap. A (dərslik) |
| Obrazların xarakterlərini müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Obrazların nitqini uyğun səs tonu ilə oxuyur. | Tap. B (dərslik) |
| Açar sözləri seçir. | Tap. A (iş dəftəri) |
| Mətnlə illüstrasiyanı uyğunlaşdırır. | Tap. C (iş dəftəri) |
| Ardıcıllığı gözləməklə mətni nəql edir. | Tap. Ç (dərslik) |
| Sual cümlələrini fərqləndirir. | Tap. B (iş dəftəri) |

fəsil 3 MƏRHƏMƏT

# 1-ci dərs. "Çağırılmamış qonaq" (I hissə)

• Dərslik: səh. 52 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

- Süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışır (st. 1.2.1).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Şəkillərdən istifadə etməklə mətndəki məlumatları genişləndirir (st. 2.2.3).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
- Verilmiş əlamət və hərəkət bildirən sözlərin hansı varlıqlara aid olduğunu müəyyən edir (st. 4.1.5).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Mərhəmət" sözünün izahı |
| 2 | **Danışma** | Şəkillər üzrə hekayə qurub danışmaq, obrazı təhlil etmək və ona münasibət bildirmək |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Çağırılmamış qonaq" mətninin oxusu, yeni sözlərin izahı |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsinin müəyyən edilməsi |
| 5 | **Dil qaydaları** | Heyvanlara məxsus hərəkət bildirən sözlərin müəyyənləşdirilməsi |
| 6 | **Yazı** | Obrazın zahiri görünüşünün təsviri |
| 7 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

**Anlayışın çıxarılması.** Müəllim müxtəlif ifadələr söyləyir: *yazığı gəlmək, rəhm etmək, yardım göstərmək, ehtiyacı olana kömək etmək.* O, lövhədə bir neçə söz *(mərhəmət, etibar, cəsarət)* yazaraq soruşur: *"Bu hərəkətlər hansı keyfiyyətə uyğun gəlir?"* Müzakirə nəticəsində şagirdlər *mərhəmətli* sözünü seçirlər.

## Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər süjetli şəkil kompozisiyası üzrə mətn qurub danışırlar. Hekayənin sonunda qızın hərəkətlərinə şagirdlər öz münasibətlərini bildirirlər. Onun mərhəmətli olduğu vurğulanır.

## Oxu. Söz ehtiyatı

2.2.1, 2.1.2 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini mətnin adına *("Çağırılmamış qonaq")* yönəldir. Bu ifadə izah olunur.

Mətn şagirdlər tərəfindən ucadan oxunur. Oxu prosesində paralel surətdə yeni sözlər izah olunur.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər nöqtələrin yerinə "Söz boğçası"ndan uyğun gələn sözlər yazmaqla yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

## Oxuyub-qavrama

2.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər mətndə adı çəkilməyən obrazlar (xoruz və qoç) müəyyən edərək mətndən aldığı məlumatları zənginləşdirirlər.

2.2.5 **Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq şagirdlərin hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

## Dil qaydaları

4.1.5 **Tapşırıq Ç (dərslik) və B (iş dəftəri).** Hər

iki tapşırıq şagirdlərdə varlığa uyğun hərəkət bildirən söz seçmək, sözü kontekstə uyğun işlətmək bacarıqlarını inkişaf etdirir.

**Yazı**

3.1.2 **Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər şəklə baxaraq Toplanın rəngini, formasını, görkəmini (yazıq, soyuqdan büzüşmüş) təsvir edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil üzrə mətn qurub danışır. | Tap. A (dərslik) |
| Əsərdəki obrazları və məkanı müəyyənləşdirir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq C<br>(iş dəftəri) |
| Ad, hərəkət bildirən sözləri tanıyır. | Tap. Ç (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Şəkli yazı ilə təsvir edir. | Tap. Ç (iş dəftəri) |

## 2-ci dərs. "Çağırılmamış qonaq" (II hissə)

• Dərslik: səh. 53 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 2.2.5).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Əsərdəki obrazları, hadisələri, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).
- Verilmiş sözlər arasında məna əlaqələrini müəyyənləşdirərək bitmiş fikir ifadə edən cümlə qurur (st. 4.1.6).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Evlərində heyvan saxlayan şagirdlərin təəssüratlarını bölüşməsi |
| 2 | **Danışma** | Şəkillərə baxmaqla mətnin davamının təxmin edilməsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | Mətnin oxusu, yeni sözlərin izahı |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki obrazların müəyyən edilməsi, onlara münasibət bildirilməsi |
| 5 | **Dil qaydaları** | Hərəkət bildirən sözlərin aid olduqları varlıqlara aid edilməsi |

| 6 | **Formativ qiymətləndirmə** |
|---|---|

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir: *"Hansı heyvanı evinizdə saxlamaq istəyərsiniz? Ona necə qayğı göstərərdiniz?"*

Evlərində heyvan saxlayan şagirdlər onlara necə qulluq etdikləri haqqında danışırlar. Müəllim digər şagirdlərə tapşırır:

– *Yoldaşınıza sizi maraqlandıran suallar verin.*

**Danışma**

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər müəllimin yönəldici suallarının köməyi ilə müzakirə aparırlar:

– *"Kimsəsiz heyvanlar" deyəndə nə başa düşürsünüz? Nə üçün biz onlara qayğı göstərməliyik? Belə heyvanlara necə qayğı göstərmək olar?*

Məqsəd şagirdlərdə heyvanlara qarşı mərhəmət hissi oyatmaqdır.

**Oxu. Söz ehtiyatı**

2.2.5 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda şagirdlər şəkillərə baxmaqla mətnin davamını təxmin edirlər. Bununla da şagirdlərdə öz fikirlərini sərbəst şəkildə ifadə etmək vərdişləri inkişaf etdirilir.

Mətn növbəli oxu üsulu ilə oxunur.

2.1.2 Şagirdlər yeni sözləri cümlədə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Oxuyub-qavrama**

2.2.4 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Qruplara "Çağırılmamış qonaq" mətnindəki obrazları (I qrup – Toplan, II qrup – xoruz, qoç, III qrup – İpək, IV qrup – oğlan) və onların hərəkətlərini təhlil etmək tapşırılır.

2.2.3 **Tapşırıq A, B (iş dəftəri).** Şagirdlər nöqtələrin yerinə əlamətlərinə uyğun obrazların adlarını yazaraq oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər. **"B"** tapşırığı şagirdlərin həmçinin məntiqi təfəkkürünü inkişaf etdirir.

**Dil qaydaları**

4.1.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırığa əsasən mətndən ad və hərəkət bildirən sözləri qruplaşdıraraq yazırlar. Onlar ad və hərəkət bildirən sözləri fərqləndirməklə bərabər, eyni zamanda öz söz ehtiyatlarını zənginləşdirmiş olurlar.

4.1.5, 4.1.6 **Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin sözlər arasında əlaqə yaradaraq bitmiş fikir ifadə edən cümlə qurmaq bacarıqlarını inkişaf etdirir.

**Diferensial təlim**

Çətin tipli hesab olunan bu tapşırığın yerinə yetirilməsi zamanı müəllim çətinlik çəkən şagirdlərə uyğun hərəkət bildirən sözlər yazılmış vərəq təqdim edə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Həyatda gördükləri haqqında danışır. | Tap. A (dərslik) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. B (dərslik) |
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. C (dərslik) |
| Mətndən ad, əlamət, hərəkət bildirən sözləri seçir. | Tap. C (iş dəftəri) |
| Bitmiş fikir ifadə edən cümlə qurur. | Tap. Ç (iş dəftəri) |

## 3-cü dərs. "Ana qaranquş"

• Dərslik: səh. 54 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Mətndəki əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Cümlələr, abzaslar arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Verilmiş illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyənləşdirir (st. 2.2.3).
- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Sözün əksmənalı qarşılığını müəyyən edir (st. 2.1.3).
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 2.1.3).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Qaranquş" mahnısının səsləndirilməsi |
| 2 | **Danışma** | "Qaranquşun Xocalı arzusu" mətninin xatırlanması |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Ana qaranquş" mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki əsas fikrin müəyyən edilməsi, "abzas" anlayışının mənimsədilməsi |
| 5 | **Söz ehtiyatı** | Əksmənalı və yaxınmənalı sözlərin uyğunlaşdırılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim suallar verir: – *Ətrafda ən çox hansı quşları görürsünüz? Siz hansı quşların yuvasını görmüsünüz? Onlara ən çox harada rast gəlmisiniz? Quşlara yuva qurmusunuzmu?*

**Musiqi ilə inteqrasiya.** Müəllim "Qaranquş" mahnısını (sözləri *Teymur Elçinin*, musiqisi *Ağabacı Rzayevanındır*) səsləndirə bilər.

**Danışma**

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər "Qaranquşun Xocalı arzusu" mətnini xatırlayaraq bu quşların insanlara yaxın yerdə məskən saldığını deyirlər.

**Oxu. Söz ehtiyatı**

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlərin sual ("*Sizcə, niyə bu quşlar insanlara yaxın yerdə yaşayırlar?*") ətrafında müzakirə etməsi mətnin oxunmasına maraq oyadır.

**Növbəli oxu.** Şagirdlər mətnin abzaslarını növbə ilə səsli oxuyurlar. Hər abzasın oxusundan sonra müəllim şagirdlərdən həmin hissədə ifadə olunan əsas fikri soruşur və deyilmiş fikri lövhədə yazır. Şagirdlərə tanış olmayan sözlər izah edilir.

**Oxuyub-qavrama**

2.2.4 **Tapşırıq B (dərslik).** Mətn oxunduqdan sonra şagirdlər qaranquşların insanlara yaxın yerdə məskənsalma səbəbini bir daha müzakirə edirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər sualların mətnin məzmununa aid olub-olmadığını müəyyənləşdirməklə mətndəki əsas fikri dəqiqləşdirirlər.

2.2.3 2.2.5 **Tapşırıq Ç (dərslik).** Məqsəd şagirdlərin vizual təsviri verbal təsvirlə uyğunlaşdırmaq bacarığını inkişaf etdirməkdir. Şagirdlər cavabları rəqəmli kartlarla göstərə bilərlər.

**"Bunları bilməliyik"** rubrikasındakı məlumat – mətnin bitkin hissələrinin "abzas" adlandırılması şagirdlərə mənimsədilir.

**Tapşırıq D (dərslik).** Məqsəd şagirdlərin oxuyub-qavrama bacarığını inkişaf etdirməklə yanaşı, yeni öyrəndikləri "abzas" anlayışı ilə bağlı bilikləri möhkəmləndirməkdir.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı yerinə yetirməklə şagirdlər həm mətni oxuyub-qavradıqlarını, həm də yeni öyrəndikləri "abzas" anlayışını, abzasların ardıcıllığını qavradıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

2.1.3 **Tapşırıq B, C (iş dəftəri).** Şagirdlərin əksmənalı və yaxınmənalı sözlərlə bağlı bilik və bacarıqları möhkəmləndirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar

və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cavabı mətndəki əsas fikri ifadə edən sualı müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Verilmiş illüstrasiya ilə mətnin müvafiq abzasını uyğunlaşdırır. | Tap. Ç (dərslik) |
| Mətndəki abzasları tanıyır. | Tap. Ç, D (dərslik) Tap. A (iş dəftəri) |
| Sözün əksmənalı qarşılığını müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. C (iş dəftəri) |

## **4-cü dərs.** "Mərhəmətli qız"

• Dərslik: səh. 55 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

- Şeiri nəsrə çevirərək nəql edir (st. 2.2.2).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Verilmiş illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyənləşdirir (st. 2.2.3).
- Şeirin əsas struktur elementlərini (başlıq, bənd, misra) fərqləndirir (st. 2.2.2).
- Dinlədiyi ilə bildiyi məlumatları müqayisə edib nəticə çıxarır (st. 1.1.2).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Situasiyaya uyğun sadə nitq etiketlərindən istifadə edir (st. 1.2.3).
- Cümləni formal əlamətlərinə görə (ilk sözün böyük hərflə yazılması, sonda müvafiq durğu işarəsinin qoyulması) tanıyır (st. 4.1.6).
- Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st. 4.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Dilarə" şeirinin səslənməsi |
| 2 | **Oxu** | "Mərhəmətli qız" şeirinin oxusu |
| 3 | **Oxuyub qavrama** | İllüstrasiya ilə mətnin hissəsinin uzlaşdırılması, "abzas" anlayışı |
| 4 | **Dinləmə** | "Dilarə" şeirinin səsləndirilməsi |
| 5 | **Söz ehtiyatı** | Əlamətinə görə varlığın müəyyən olması |
| 6 | **Dil qaydaları** | "Cümlə" anlayışının möhkəmləndirilməsi |
| 7 | **Yazı** | Üzündən köçürmə |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bir neçə situasiya ifadə edən cümlələr səsləndirir:

*– Yoldaşınız ayağını zədələyərsə, ...*
*– Nənəniz xəstələnərsə, ...*
*– Parta yoldaşınızın üstü bulaşarsa, ...*
*NƏ EDƏRSİNİZ?*

### Oxu

2.2.2 2.2.3 **Tapşırıq A, B (dərslik).** Şagirdlərdən biri şeirin birinci bəndini oxuyur. 2-ci şagird isə o bəndin məzmununu nəsrə çevirib danışır. 3-cü şagird isə oxunan bəndə uyğun illüstrasiyanı müəyyən edir. Oxu prosesi bu qayda ilə davam edir.

### Oxuyub-qavrama

2.2.4 Oxu prosesindən sonra şagirdlər mətndə hansı obrazın (Nərmin) mərhəmətli olduğunu müəyyən edirlər.

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər şeirin strukturu haqqında bilikləri təkrarlamaqla yanaşı, mətndəki əsas faktları oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

### Dinləmə

1.1.2 Müəllim Əli Kərimin "Dilarə" şeirini səsləndirir. Şagirdlər oxuduqları və dinlədikləri mətnlərdəki xeyirxah qız obrazlarını müqayisəli təhlil edirlər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş izaha uyğun gələn sözü kontekstə əsasən müəyyən etməklə (*tənzif*) söz ehtiyatlarını artırmış olurlar.

1.2.3 **Tapşırıq A, B (iş dəftəri).** Şagirdlərin nitq etiketlərini situasiyaya uyğun işlətmək bacarıqlarını inkişaf etdirir.

### Dil qaydaları

4.1.6 4.1.3 **Tapşırıq C, Ç (iş dəftəri).** Məqsəd şagirdlərin cümlə haqqında öyrəndikləri qaydaları (cümlənin ilk sözünün böyük hərflə yazılması, cümlənin sonunda müvafiq durğu işarəsinin qoyulması, şəxs adlarının böyük hərflə yazılması) daha dərindən mənimsətməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri nəsrə çevirərək nəql edir. | Tap. A (dərslik) |
| Verilmiş illüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. B (dərslik) Tap.A (iş dəftəri) |
| Əsərdəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir. | Tap. A (dərslik) |

| | |
|---|---|
| Yazıda nöqtə ilə bitən söz sırasının cümlə olduğunu bilir. | Tap. A, B (iş dəftəri) |
| Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır. | Tap. A, B (iş dəftəri) |
| Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır. | Tap. Ç (dərslik) |

fəsil 4 DOSTLUQ

## 1-ci dərs. "Yöndəmsiz Timsah" (I hissə)

• Dərslik: səh. 56 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir (st. 2.1.1).
- Cümlədəki sözü yaxınmənalı analoqu ilə əvəz edir (st. 2.1.3).
- Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür (st. 3.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Heyvanlara aid oxunan mətnlərin xatırlanması |
| 2 | **Danışma. Söz ehtiyatı** | Mövzu ətrafında danışma |
| 3 | **Oxu** | "Yöndəmsiz Timsah" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətn və şəkillər üzrə iş |
| 5 | **Söz ehtiyatı** | Heyvanlara aid əlamətlərin müəyyən edilməsi |
| 6 | **Yazı** | Buraxılmış sözləri yerinə qoymaqla cümlələrin köçürülməsi |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

– *İndiyə qədər oxuduğunuz hansı mətnlərdə heyvan obrazları var?*

Şagirdlər müvafiq nağılları xatırladıqca bu haqda qısa sual-cavab təşkil olunur.

### Danışma. Söz ehtiyatı

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkillərdə təsvir olunmuş canlılar haqqında danışmaqla "Yöndəmsiz Timsah" mətnində iştirak edən obrazlar haqqında biliklərini genişləndirirlər.

### Oxu. Oxuyub-qavrama

**Tapşırıq B (dərslik). İnteraktiv (qruplarla) oxu.** Hər qrupa mətnin bir hissəsi (Timsahla Dəvəquşu, Timsahla Zürafə, Timsahla Kenquru) verilir.

Hər qrup oxuduğu hissədə olan yeni məlumatları qeyd edir (timsahın ayağının və quyruğunun çox böyük olması, zürafənin qidalanması, kenqurunun balasını kisəsində gəzdirməsi və s.). Sonda hər qrup oxuduğu hissəni nəql edir. Bütövlükdə mətn haqqında təsəvvür yaranır.

Mətnə çəkilmiş illüstrasiyalarla mətnin müvafiq hissələri uyğunlaşdırılır və yenidən oxunur.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq mətndəki hadisələrin ardıcıllığını müəyyən etmək bacarığını inkişaf etdirir. Başlıqların ardıcıllığı: *3, 1, 4, 2.*

2.2.4 **Tapşırıq C (dərslik).** Məqsəd şagirdlərin obrazları sadə formada təhlil etmək və onlara münasibət bildirmək bacarıqlarını inkişaf etdirməkdir.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər əlamətlərinə uyğun canlıların adlarını tapırlar. Eyni zamanda şəkillərə və bildiklərinə əsaslanaraq izahları genişləndirlər. *"Zürafənin xalları olur, qabaq ayaqları arxa ayaqlarından uzun olur. Kenquru tullana-tullana yeriyir. Timsahın dərisi möhkəm olur. Dəvəquşu ən böyük quşdur"* və s. fikirlər səsləndirə bilərlər.

2.1.3 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərin cümlədə sözü yaxınmənalı analoqu ilə əvəz etmək bacarıqlarını inkişaf etdirməkdir.

### Yazı

3.1.1 **Tapşırıq C (iş dəftəri). Söz ehtiyatı ilə inteqrasiya.** Məqsəd söz ehtiyatını möhkəmləndirməklə yanaşı, çap hərfləri ilə verilmiş sözləri üzündən köçürmək bacarığını inkişaf etdirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir. | Tap.A (iş dəftəri) |
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap.C (dərslik) |

| | |
|---|---|
| Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir. | Tap. Ç (dərslik) |
| Sözü yaxınmənalı analoqu ilə əvəz edir. | Tap. B (iş dəftəri) |
| Buraxılmış sözləri yerinə qoymaqla cümlələri köçürür. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. "Yöndəmsiz Timsah" (II hissə)

• Dərslik: səh. 57 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

- Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Cümlələr, abzaslar arasında fasilə verməklə kiçikhəcmli mətnləri oxuyur (st. 2.2.1).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
- Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir (st. 2.2.5).
- Sözü təşkil edən hecaları müəyyən edir (st. 4.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Tıq-tıq xanım" nağılının xatırlanması |
| 2 | **Danışma** | "Tülkü və Leylək" nağılının xatırlanması, "Yöndəmsiz Timsah" mətninin davamının təxmin edilməsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Yöndəmsiz Timsah" mətninin oxunması, "Söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki əsas hadisələrin və bu hadisələr arasındakı səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| 5 | **Dil qaydaları** | Sözlərin hecalara ayrılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə "Tıq-tıq xanım" nağılını xatırladıb sual verir:

*– Tıq-tıq xanım nə üçün Çoban və Tülkü ilə dostluq etmir?*

### Danışma

1.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər "Tülkü və Leylək" nağılını da xatırlayırlar. Müzakirələr nəticəsində məlum olur ki, Tıq-tıq xanım və Leylək onlara qarşı kobud rəftar edənləri tərk edirlər.

1.2.2 **Tapşırıq B (dərslik).** Suallar:

*– Heyvanlar Timsaha qarşı hansı kobudluğu etdilər? Sizcə, Timsah onların kobudluğuna necə cavab verəcək? Şəklə baxaraq mətnin davamını təxmin edin.*

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Növbəli oxu.** Şagirdlər mətnin hissələrini abzaslara uyğun növbə ilə oxuyurlar. Müəllim hər abzasın sonunda müvafiq hissəyə aid suallar verir. Bu, oxu prosesində şagirdlərin diqqətini mətnə cəlb etməyə kömək edir.

**"Söz boğçası" rubrikası.** Mətndə şagirdlərə tanış olmayan (*leysan, sahil*) sözlər izah olunur. Oxu prosesindən sonra şagirdlər mətndəki hadisələri öz təxminləri ilə müqayisə edirlər.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).** Tapşırıq: *"Mətni dinləyən zaman hadisələri xəyalınızda canlandırın. Hansı təbiət hadisələrini təsəvvür etdiniz?"* Bu tapşırıq qavramanın effektivliyini artırır. Şagirdlər mətndəki əsas hadisələri *("Çay daşdı. Heyvanlar çayın o biri sahilində qaldılar")* müəyyənləşdirirlər.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya**. Şagirdlər hadisələrin səbəbini müəyyən edib yazırlar. Bununla onların oxuyub-qavrama və yazı bacarıqları inkişaf etdirilir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnin sonuna uyğun gələn cümləni *("Axı bu qədər dost qazanmışdı")* müəyyən etməklə mətndəki əsas fikri müəyyənləşdirirlər.

**Tapşırıq D (dərslik).** Mətndəki hadisələrin ardıcıllığı müəyyən edilir. Şagirdlər növbə ilə planın hər başlığını nəql edirlər.

### Dil qaydaları

4.1.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin sözləri hecalara düzgün ayırmaq bacarıqları inkişaf etdirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dialoq zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. A (dərslik) |
| Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. | Tap. B (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. Ç, D (dərslik) |
| Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. A (iş dəftəri) |

| | |
|---|---|
| Sözü təşkil edən hecaları müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Mətni hadisələrin ardıcıllığına uyğun nəql edir. | Tap. D (dərslik) |

## 3-cü dərs. “Ağacın təşəkkürü”

• Dərslik: səh. 58 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

- Cümlədəki sözü yaxınmənalı analoqu ilə əvəz edir (st. 2.1.3).
- Şeiri nəsrə çevirərək nəql edir (st. 2.2.2).
- Şeirin əsas struktur elementlərini (başlıq, bənd, misra) fərqləndirir (st. 2.2.2).
- Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir (st. 2.2.3).
- Öz biliklərindən və mənəvi dəyərlər haqqında təsəvvürlərindən çıxış edərək mətndəki əsas fikri şərh edir (st. 2.2.4).
- Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir (st. 4.1.3).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Yaxşılıq et ki, yaxşılıq görəsən” atalar sözü ətrafında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Ağacın təşəkkürü” şeirinin oxusu, yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Şeirin strukturu üzrə iş, şeirin nəql olunması, əsas fikirlə bağlı ümumiləşdirmə aparmaq |
| 4 | **Dil qaydaları** | Orfoqrafik normaların mənimsədilməsi, ad, əlamət, hərəkət bildirən sözlərin qruplaşdırılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə “Yaxşılıq et ki, yaxşılıq görəsən” atalar sözünü yazır və bu fikri təsdiq edən hadisələri nümunə gətirməyi tapşırır.

### Oxu. Söz ehtiyatı

2.2.4 **Tapşırıq A (dərslik).** Şagirdlər şəklə baxaraq öz fərziyyələrini söylədikdən sonra şeir oxunur. Müəllim lövhədə qeyri-ardıcıl üç cümlə yazır. Cümlələrin aid olduğu bəndlər müəyyən edilir:

*2. Ağac su içib təşəkkür etdi.*

*3. Ağacın hədiyyəsi oğlanın xoşuna gəldi.*

*1. Susuz ağaca kömək lazımdır.*

Şagirdlər şeirə aid illüstrasiyanın hansı bəndə uyğun gəldiyini müəyyən edirlər.

2.1.3 **Tapşırıq A (iş dəftəri).** Məqsəd şagirdlərin cümlədə sözü yaxınmənalı analoqu ilə əvəz etməklə söz ehtiyatını artırmaqdır.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B (dərslik).** Bu tapşırıq şagirdlərdə şeiri nəsrə çevirib danışmaq bacarığını inkişaf etdirir.

2.2.2 **Tapşırıq C (dərslik).** Məqsəd şeirin strukturu ilə bağlı öyrədilən filoloji anlayışların təkrarı və möhkəmləndirilməsidir.

2.2.3 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər şeirdən şəklə uyğun hissəni *(“Budağından almalar qopub vedrəmə düşdü”)* yazmaqla oxuyub-qavrama və yazı bacarıqlarını möhkəmləndirirlər.

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər dərslikdə tanış olduqları mətnləri xatırlayaraq müvafiq fikrə uyğun olan mətnləri (“Qartalın təşəkkürü” və “Qarışqanın xilası”) müəyyən edirlər.

### Dil qaydaları

4.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər səhv verilmiş sözləri düzgün yazmaqla bəzi orfoqrafik normaları mənimsədiklərini nümayiş etdirirlər.

4.1.5 **Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin sözləri ad, əlamət, say, hərəkət bildirməsinə görə qruplaşdırmaq, eyni zamanda sualları müəyyənləşdirmək bacarıqlarını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri nəsrə çevirərək nəql edir. | Tap. B (dərslik) |
| Verilmiş illüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. B (iş dəftəri) |
| Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir. | Tap. C (iş dəftəri) |
| Şeirin əsas struktur elementlərini (başlıq, bənd, misra) fərqləndirir. | Tap. C (dərslik) |
| Mənəvi dəyərlər haqqında təsəvvürlərindən çıxış edərək mətndəki əsas fikri şərh edir. | Tap. D (dərslik) |

## 4-cü dərs. Ümumiləşdirici dərs

• Dərslik: səh. 60 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

- Verilmiş cümlənin (abzasın, şəklin) mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Yaxınmənalı sözləri müəyyənləşdirir (st. 2.1.3).
- Öz biliklərindən və mənəvi dəyərlər haqqında təsəvvürlərindən çıxış edərək mətndəki əsas fikri şərh edir (st. 2.2.4).
- Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır (st. 1.2.2).
- Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir (st. 4.1.3).
- Sözləri əlifba sırası ilə düzür (st. 4.1.4).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə adının xatırlanması |
| 2 | **Oxu** | "Yeriyən papaq" mətninin abzasları üzrə iş |
| 3 | **Söz ehtiyatı** | Bölmə boyunca mənimsədilən yaxşı və pis xüsusiyyətlərlə bağlı söz ehtiyatının ümumiləşdirilməsi |
| 4 | **Dil qaydaları** | Heyvanlara verilən adların yazılışı, sözlərin əlifba sırası ilə düşülməsi |
| 5 | **Danışma** | Açar sözlərin köməyi ilə nağılın danışılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmədəki mövzulara uyğun açar sözlər səsləndirir (*məhəbbət, etiraf, dostluq, mərhəmət*). Şagirdlərə tapşırılır ki, açar sözlərə uyğun olaraq həyatda gördüklərindən və eşitdiklərindən misallar gətirsinlər. Beləliklə, şagirdlərin bəzi mənəvi dəyərlər haqqında təsəvvürləri bir daha yoxlanılır.

### Oxu

2.2.5 **Tapşırıq A (dərslik). İnteraktiv (qruplarla) oxu.** Qruplar mətni oxuyur və suallara cavab hazırlayıb təqdim edirlər. Tapşırığın məqsədi bu bölmədə öyrədilən "abzas" anlayışı üzrə bilik və bacarıqların möhkəmləndirilməsidir. Həmçinin şagirdlər mətnin məzmunu ilə bağlı müəllimin suallarına cavab verməklə oxu və qavrama bacarıqlarını nümayiş etdirirlər. **Suallar:** *"Yerə düşən nə idi? Uşaqlar niyə qorxdular?"*

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlər bölmədə öyrəndikləri "abzas" anlayışı üzrə bilik və bacarıqlarını nümayiş etdirirlər.

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq B (dərslik). Tapşırıq B (iş dəftəri).** Tapşırıqların məqsədi şagirdlərin yaxşı və pis xüsusiyyətlərlə bağlı söz ehtiyatını möhkəmləndirməkdir. Düzgün cavab: 1–Ç; 2–C; 3–A; 4–B.

2.2.4 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər bölmə boyunca oxuduqları mətnlərdəki əsas fikirləri müəyyənləşdirməklə oxuyub-qavrama bacırıqlarını nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.3, 4.1.4 **Tapşırıq C (dərslik).** Şagirdlərin bu bölmədə heyvanlara verilən xüsusi adların yazılışı ilə bağlı mənimsədikləri qayda üzrə bilik və bacarıqları yoxlanılır və möhkəmləndirilir. Şagirdlər həmçinin əlifba üzrə bilik və bacarıqlarını nümayiş etdirirlər.

### Danışma

1.2.2 **Tapşırıq Ç (dərslik).** Verilmiş mövzu ilə bağlı açar sözlərdən istifadə edərək danışma bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Abzasları tanıyır. | Tap. A (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. B (dərslik) |
| Mətndəki əsas fikri müəyyən edir. | Tap. C (iş dəftəri) |
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | Tap. Ç (dərslik) |
| Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Sözləri əlifba sırası ilə düzür. | Tap. C (dərslik) |

## bölmə 8 DÜNYANI KƏŞF EDİRƏM

| Mövzu | | **Dünyanı kəşf edirəm** |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Dinlənilən və ya oxunan mətnin təxəyyülə uyğun dəyişdirilməsi və ya davam etdirilməsi<br>• Şəkillər üzrə kiçik dialoqun qurulması |
| | Söz ehtiyatı | kəşf, yarıq, dəyənək, alaçıq, dəhşətli, keşikçi, ildırım, çaxmaq, çör-çöp, dərə, təpə, qaya, əhliləşdirmək, zəmi, bişmək, əkinçi, əldə etmək, dəyirman, soba, sünbül, alaq, kombayn, üyütmək, yoğurmaq, cizgi, film, aktyor, canlanmaq, kompüter, eskiz, kinoteatr, kosmos, kosmonavt, planet,raket, kainat, skafandr və s. |
| | Oxu | • Cümlələr arasında fasilə verməklə kiçikhəcmli mətnlərin oxunması<br>• Nəzm və nəsrlə yazılmış mətnlərin fərqləndirilməsi<br>• Şeirin əsas struktur elementlərinin (başlıq, bənd, misra) fərqləndirilməsi<br>• Şeirin nəsrə çevrilərək nəql edilməsi |
| | Yazı | • Çap hərfləri ilə verilmiş kiçikhəcmli mətnlərin üzündən köçürülməsi<br>• Sadə orfoqrafiya biliklərindən istifadə etməklə sözlərdəki səhvlərin düzəldilməsi<br>• Kompozisiyalı şəklə uyğun cümlələrin yazılması<br>• Oxunan mətnin qısa məzmununun yazılması<br>• Şəkil üzrə mətn qurub yazılması |
| Akademik biliklər | Dil qaydaları | • Ad, hərəkət bildirən sözlər, durğu işarələri, heca üzrə biliklərin təkrarı və tətbiqi |
| | Filoloji anlayışlar | •Şeir, hekayə, misra, bənd, qafiyə, şair, yaxınmənalı sözlər, əksmənalı sözlərin təkrarı |
| Kompetensiyalar | | • Təbiətdəki varlıqlara sevgi və dəyər verilməsi, öz xalqının tarixinə maraq, milli və dünya mədəni irsinə hörmət, zəhmətkeşlik. |

Bu bölmədə müxtəlif kəşflər, çörəyin ərsəyə gəlməsi, cizgi filmlərinin yaranması, səma cisimləri və kosmosun fəthi ilə bağlı müxtəlif mövzulardan bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, ətraf aləmlə bağlı söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Mətndəki obrazları sadə formada təhlil edir, onlara münasibət bildirir.

• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

• Sözləri hecalamadan, bütöv tələffüz etməklə oxuyur.

• Hüsnxət normalarına uyğun sərbəst yazır.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

• mətn üzrə sualların tərtib olunması.

• şəkil üzrə mətn qurub yazma.

**Diferensial təlim**

Bu bölmənin tədrisi zamanı bir sıra filoloji anlayışların mənimsədilməsində şagirdlərin fəaliyyətinə fərdi, diferensial yanaşma faydalı ola bilər. Bu məqamlarla bağlı tövsiyələr dərslərin şərhində verilmişdir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

•iş vərəqləri, kosmos və səma cisimlərinin şəkilləri, filmlərdən fraqmentlər və s.

# fəsil 1 KEÇMİŞƏ SƏYAHƏT

## 1-ci dərs. "Azıx mağarası"

• Dərslik: səh. 62 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

- Şəklə baxaraq dinlədiyi mətni genişləndirir və şərh edir (st. 1.1.1).
- Mətni oxuyarkən tanış olmayan sözlərə diqqət yetirir (st. 2.1.1).
- Verilmiş illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyənləşdirir (st. 2.2.3).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
- Cümlədəki sözü yaxınmənalı analoqu ilə əvəz edir (st. 2.1.3)

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Kəşf" anlayışının izahı |
| 2 | **Dinləmə-danışma** | Bölmə titulundakı şəkil və suallar üzrə iş; dinləmə mətni |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Azıx mağarası" mətninin oxusu, yeni sözlər üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətn və şəkillər üzrə iş |
| 5 | **Danışma** | Mövzu ətrafında danışma |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "kəşf" sözünün mənasını açıqlayır:

*– Təbiətdə və həyatda bir çox hadisələrlə qarşılaşır, onların sirrini öyrənməyə çalışırıq. Necə olur ki, yağış yağır? Külək niyə əsir? Fəsillər niyə dəyişir və s. Bu "necə" və "niyə"lərə cavab tapanda biz həmin hadisəni özümüz üçün kəşf etmiş oluruq.*

### Dinləyib-danışma

1.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti bölmə titulunda verilmiş şəkillərə və suallara yönəldilir. Şəkillərdə təsvir olunanlar haqqında şagirdlərin ilkin məlumatları yoxlanılır. Əlavə suallar: *Hansı səma cisimlərini tanıyırsınız? Qobustan haqqında nə bilirsiniz? Çörək nədən hazırlanır?*

Sonra müəllim dinləmə mətnini səsləndirir:

*"Orxan Bakıda yaşayır. O, birinci sinifdə oxuyur. Onların evi çoxmərtəbəli binadadır.*

*Bir gün atası Orxanı Şirvanşahlar sarayına apardı. Orxan möhtəşəm, qədim binaya maraqla baxırdı. O, saray haqqında xeyli maraqlı məlumat öyrəndi.*

*Yay tətilində atası Orxanı İsmayıl əmisigilə gəzməyə apardı. Atası Orxanın əmisigilin "ev"inə diqqətlə baxdığını görüb dedi:*

*– Əmingil maldarlıqla məşğuldurlar. Ona görə də onlar yayda alaçıqda yaşayırlar. Alaçıqları qurmaq və sökmək elə də çətin olmur".*

**Tapşırıq B (dərslik).** Şagirdlər dinlədikləri mətndə təsvir olunmuş müxtəlif məkanların tapşırıqda verilmiş şəkillərlə uyğunluğunu müəyyən edirlər. Bu onların beyinlərində canlandırdıqları təsvirlərlə vizual təsvirləri müqayisə etmək bacarığını inkişaf etdirir.

### Oxu. Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (dərslik). Növbəli oxu.** Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. Müəllim şagirdlərdən tanış olmayan sözlərin təxmini mənasını soruşur. Sonra sözlərin dəqiq mənasını açıqlayır.

### Oxuyub-qavrama

Mətn oxunduqdan sonra şagirdlər mətnlə bağlı faktoloji sualları cavablandırırlar:

*– İnsanların niyə evləri yox idi?*
*– Domrul nə üçün qışqırdı?*
*– "Azıx" sözünün mənası nədir?*
*– İlk insan məskəni necə adlanır?*

2.2.3 Şagirdlər illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyən edirlər. Məqsəd şagirdlərin vizual təsviri verbal təsvirlə uyğunlaşdırmaq bacarığını inkişaf etdirməkdir.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnə istinad etməklə *(Şaxtalı bir gün idi)* birbaşa ifadə olunmayan məlumatı (hadisənin qış fəslində baş verməsi) əldə edirlər.

**Tapşırıq A (iş dəftəri).** Şəkillərin ardıcıllığı bərpa edilir. Tapşırıq həmçinin şagirdlərin şəkillərə aid cümlə qurmaq bacarıqlarını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə Azıx mağarasının dünyada insanların yaşadığı ən qədim yaşayış məskənlərindən biri olduğu və Füzuli şəhəri yaxınlığında yerləşdiyi, hazırda işğal altında olduğu barədə məlumat verə bilər.

### Danışma

1.2.3 **Tapşırıq D (dərslik).** Şagirdlər şəkillər vasitəsilə aldıqları məlumatları ifadə edirlər.

**Tapşırıq E (dərslik).** Bu tapşırıq şagirdlərin xəyal gücünü – yaradıcı təfəkkürünü inkişaf etdirir.

### Söz ehtiyatı

2.1.3 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərin cümlədə sözü yaxınmənalı analoqu ilə əvəz etmək, həmçinin çap hərfləri ilə verilmiş cümləələri üzündən köçürmək bacarığını inkişaf etdirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır. | Tap. A, B (dərslik) |
| Oxuyarkən tanış olmayan sözlərə diqqət yetirir. | Tap. C (dərslik) |
| Mətndə əsas fikri və hadisələri müəyyənləşdirir. | Tap. Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Dialoq zamanı mövzuya uyğun fikir yürüdür. | Tap. D, E (dərslik) |
| Sözü yaxınmənalı analoqu ilə əvəz edir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq**
Müəllimə növbəti dərsə şam və kibrit gətirməsi tövsiyə olunur.

## 2-ci dərs. "Odun kəşfi"

• Dərslik: səh. 63 • İş dəftəri: səh.52

**Təlim məqsədləri**
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Mətndən tanış olmadığı sözləri seçir (st. 2.1.1).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).
- Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir (st. 4.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şam vasitəsilə odun izahı |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Odun kəşfi" mətninin oxunması, yeni sözlərin mənimsədilməsi |
| 3 | **Danışma** | Şəkillərin köməyi ilə mətnin genişləndirilməsi |
| 4 | **Yazı** | Oxunan mətnin qısa məzmununun yazılması |
| 5 | **Dil qaydaları** | Sözlərin yazılışı üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim kibriti alışdırmaqla şam yandırır. Bu zaman kibriti yandırarkən çıxan qığılcımı şagirdlərə göstərir. Bu üsul şagirdlərə odu, odun yaranmasını və "qığılcım" sözünün izahını əyani şəkildə mənimsətməyə kömək edə bilər.

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti şəkillərə yönəldilir. Oddan istifadə məqsədləri barədə müzakirə aparmaqla mövzuya maraq oyadılır.

### Oxu. Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (dərslik).** <u>İstiqamətləndirilmiş oxu.</u> Lövhədə suallar yazılır:

1-ci abzas: *<u>İnsanlar niyə mağarada gizləndilər?</u>*
2-ci abzas: *<u>İnsanlar odu necə əldə etdilər?</u>*
3-cü abzas: Od sönəndə *<u>Domrul nə etdi?</u>*

Müəllim şagirdlərə tapşırır ki, mətnin hər abzasını oxumağa başlamazdan öncə lövhədəki sualı oxusunlar.

Yeni sözlər (*çaxmaq, dəhşət, tonqal, ildırım, qığılcım*) izah olunur və söz boğçasına əlavə edilir.

Müəllim qığılcım yarada bilən daşların "çaxmaqdaşı" adlandığını söyləyib daşın nə üçün belə adlandırılması ətrafında müzakirə apara bilər. Daşın adı ildırımın çaxması ilə əlaqələndirilir.

Mətn oxunduqdan sonra şagirdlərin oxuyub-qavramasını yoxlamaq məqsədilə mətn və şəkil üzrə iş aparılır. Əvvəlcə şagirdlər şəkildə təsvir olunmuş hadisə haqqında danışırlar. Sonra mətndən həmin şəkil üzrə təsvir olunan hissəni tapıb yenidən səsləndirirlər.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı yerinə yetirməklə söz ehtiyatlarını möhkəmləndirirlər.

### Danışma

1.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər şəkillər vasitəsilə mətndən öyrəndikləri məlumatları genişləndirərək danışırlar.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərin mətnlə bağlı oxuyub-qavrama, həm də açar sözlərdən istifadə etməklə mətn qurmaq bacarıqlarını inkişaf etdirir.

### Dil qaydaları. Yazı

4.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər səhv verilmiş sözləri düzgün yazmaqla bəzi orfoqrafik normaları mənimsədiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Mətndə tanış olmadığı sözləri seçir və mənası ilə uyğunlaşdırır. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. B (iş dəftəri) |
| Sözdəki orfoqramın hansı hərflə işarə olunduğunu müəyyənləşdirir. | Tap. C (iş dəftəri) |

## 3-cü dərs. "Qobustanda"

• Dərslik: səh. 64 • İş dəftəri: səh.52

**Təlim məqsədləri**

- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Verilmiş illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu müəyyənləşdirir (st. 2.2.3).
- Adıçəkilən varlıqlara xas olan hərəkətləri sadalayır (st. 4.1.5).
- Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir (st. 4.1.3).
- Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır (st. 4.1.3).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Azıx mağarası" mətninin xatırlanması |
| 2 | **Oxu** | "Qobustanda" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Faktoloji suallar və şəkillər üzrə iş |
| 4 | **Dil qaydaları** | Şəxs və yer adlarının böyük hərflə yazılışı, orfoqrafiya üzrə iş |
| 5 | **Söz ehtiyatı** | Söz boğçası üzrə iş |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

"Azıx mağarası" mətni xatırladılır:

*– Azıx mağarasını kim tapmışdır? Domrul nəyi kəşf etdi?*

Müəllim yeni mətnin məzmununa maraq oyatmaq üçün şagirdlərin diqqətini mətnə çəkilmiş illüstrasiyaya, yaxud mətnin adına yönəldir və sual verir:

*– Domrul və ailəsinin yeni məskəni haradır?*

### Oxu

2.2.3 **Tapşırıq A (dərslik).** Istiqamətləndirmə. Müəllim lövhədə suallar yazır, şagirdlərə tapşırır ki, mətni oxuyarkən bu sualların cavabını tapsınlar: *"Domrulun ailəsi nə üçün yeni məskən tapmaq istədi? Onlar harada məskən saldılar? O yer necə adlanırdı? Domrulun ailəsi nə ilə məşğul olurdu? Onlar hansı heyvanları əhliləşdirdilər?"* və s.

> **Müəllimin nəzərinə!** Müəllim lövhədə sualları qeyri-ardıcıl düzüb suallar üzrə iş apara bilər. Hər abzas oxunduqdan sonra müəllim şagirdlərə bu hissəyə aid olan sualları seçməyi və cavablandırmağı tapşırır.

"Əhliləşdirmək" sözü şagirdlərə izah edilir.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlərin oxuyub-anlama bacarığını və dünyagörüşünü inkişaf etdirir. Müəllim izah edə bilər ki, qədimdə insanlar odlu silahdan (tüfəng, tapança və s.) istifadə etmirdilər.

2.2.3 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlərdə oxuyub-qavrama, həmçinin yazı bacarıqlarını möhkəmləndirir.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər kontekstə uyğun hərəkət bildirən sözlər əlavə etməklə dil qaydaları üzrə biliklərini möhkəmləndirirlər.

4.1.3 **Tapşırıq C (dərslik).** Şagirdlər səhv verilmiş sözləri düzgün yazmaqla bəzi orfoqrafik normaları mənimsəyirlər.

4.1.3 **Tapşırıq D (dərslik) və C, Ç (iş dəftəri).** Şəxs və yer adlarının böyük hərflə yazılması qaydası təkrarlanır və tapşırıqlar vasitəsilə möhkəmləndirilir.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər bu fəsildə öyrəndikləri yeni sözləri həm təkrar edir, həm də mənalarını bir daha uyğunlaşdırmaqla söz ehtiyatlarını möhkəmləndirmiş olurlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. A (dərslik) |
| Verilmiş illüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. B (dərslik).<br>Tap. A (iş dəftəri) |
| Sözdəki orfoqramın hansı hərflə işarə olunduğunu müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Cümlə ortasında gələn xüsusi adları böyük hərflə yazır. | Tap. Ç (dərslik)<br>Tap. C, Ç (iş dəftəri) |
| Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır. | Tap. D (dərslik) |

**Növbəti dərsə hazırlıq**
Müəllim şagirdlərdən Qobustan haqqında məlumat toplamağı tapşırır.

## **4-cü dərs.** “Qobustana səyahət”

• Dərslik: səh. 65 • İş dəftəri: səh.54

**Təlim məqsədləri**

- Şəklə baxaraq dinlədiyi mətni genişləndirir və şərh edir (st. 1.1.1).
- Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir (st. 2.2.3).
- İnformativ mətndəki məlumatlar haqqında yazılı təqdimat hazırlayır (st. 3.1.4).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qobustan haqqındakı məlumatların müzakirəsi |
| 2 | **Dinləmə** | “Qobustana səyahət” mətni |
| 3 | **Oxu** | “Qobustan” şeirinin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Şeirin bəndləri ilə illüstrasiyaların uyğunlaşdırılması |
| 5 | **Yazı** | Qobustanla bağlı mətnlərdəki faktların müqayisəsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Şaxələndirmə.** Müəllim lövhədə dairə çəkir, mərkəzinə "Qobustan" yazır. Şagirdlər Qobustan haqqında öyrəndikləri və topladıqları məlumatları söyləyirlər. Məlumatlar dairənin kənarına yazılır.

**Dinləmə-danışma**

Müəllim “Qobustana səyahət” mətnini səsləndirir:

*“Bir gün müəllimimiz bizi Qobustana apardı. Qobustan qayalıqlarını gəzdik. Bələdçi gəzinti zamanı bizə ətraflı məlumat verirdi:*

*– Bura ulu babalarımızın yaşayış məskənlərindən biridir. Baxın, daşlar üzərində müxtəlif rəsmlər var. At, keçi və başqa heyvan rəsmləri, balıq tutan, rəqs edən insan rəsmləri və s. Bu rəsmlər bizə keçmişdən xəbər verir.*

*Gəzinti zamanı öyrəndik ki, burada qədim ocaq yerləri də tapılıb.*

*Bələdçi bizi qavaldaşla da tanış etdi. Söylədi ki, bu daş qədim insanların ilk musiqi alətidir. Elə bu zaman sinif yoldaşımız Uğur qavaldaşı döyəcləməyə başladı. Ətrafa gözəl ritm səsləri yayıldı. Qavaldaş çalındıqca mənə elə gəldi ki, Qobustan qayalarının üzərindəki insan rəsmləri hərəkətə gəldi. Sanki onlar yallı gedirdilər.*

*Biz bu gəzintidə xeyli məlumat aldıq. Buranın nə üçün "Açıq səma altında muzey" adlandığı bizə aydın oldu”.*

1.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlər dinlədikləri mətn üzrə sualları şəkillərin köməyi ilə cavablandırırlar. Müəllim dinləmə mətni ilə bağlı əlavə suallar verir: *“Nə üçün buranı açıq səma altında muzey adlandırırlar? Uşaqlara Qobustan haqqında kim məlumat verirdi?”*

“Bələdçi”, “muzey” sözlərinin mənaları izah olunur.

**Oxuyub-qavrama**

2.2.3 **Tapşırıq B (dərslik).** "Qobustan" şeiri bəndlərlə oxunur və məlumatlar qayalıq üzərindəki rəsmlərlə müqayisə olunur.

**Tapşırıq A (iş dəftəri).** Şeirdə üçüncü şəklə uyğun məlumatın olmadığı müəyyən edilir.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlərin oxuyub-anlamasını yoxlamaqla bərabər, çap hərfləri ilə verilmiş mətnin hüsnxət normalarına uyğun köçürülməsi bacarıqlarını da inkişaf etdirir.

2.2.5 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətndən müvafiq məqamları seçib sualları yazılı şəkildə cavablandırırlar.

**Yazı**

3.1.4 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Tapşırıqda bu fəsildə öyrədilən mətnlər xatırlanır, Qobustan ilə bağlı məlumatlar ümumiləşdirilir.

Hər bir qrup Qobustan haqqında verilmiş məlumatlar arasından öz mətninə uyğun olanları seçir və qeyd edir. Təqdimatlar dinlənildikdən sonra hər üç mətndə təkrarlanan məlumatlar müəyyənləşdirilir (*Qədim insanlar kollektiv rəqs edirlər. Onlar ov ovlayır, balıq tuturdular.*).

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəklə baxaraq dinlədiyi mətni genişləndirir və şərh edir. | Tap. A (dərslik) |
| Mətnlə illüstrasiya arasındakı uyğunluğu müəyyən edir. | Tap. B (dərslik) Tap. A, B, C (iş dəftəri) |
| İnformativ mətndəki məlumatlar haqqında yazılı təqdimat hazırlayır. | Tap. C (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. C (iş dəftəri) |

fəsil 2 ÇÖRƏK

## 1-ci dərs. "Əkinçi və Canavar" (I hissə)

• Dərslik: səh. 57 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**
- Sözün aid olduğu ümumi məna qrupunu müəyyən edir (st. 2.1.1).
- Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 2.2.1).
- Mətnin süjet xəttinə əsasən illüstrasiyaların ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Bədii mətnlərdə təxəyyülü real faktlardan fərqləndirir (st. 2.2.3).
- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Məqsəd və intonasiyasından asılı olaraq cümləni müvafiq durğu işarəsi ilə tamamlayır (st. 4.1.7).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Əlamətlərinə görə əşyanı müəyyən etmə |
| 2 | **Oxu** | "Kəndli və Canavar" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnə çəkilmiş illüstrasiyalar üzrə iş |
| 4 | **Danışma** | Mətnin davam etdirilməsi |
| 5 | **Dil qaydaları** | Cümlə sonunda müvafiq durğu işarələrindən istifadə |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

2.2.1 **Tapşırıq A (dərslik). Anlayışın çıxarılması.** Bu tapşırıq uşaqları "çörək" mövzusuna yönəltmək üçün istifadə oluna bilər. Şagirdlər şəkillərin adını söyləyirlər, müəllim lövhədə yazır. Bu qida məhsullarının nədən hazırlandığını soruşur. Bununla III bölmədə öyrədilən "qida məhsulları" mövzusu xatırladılır.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər şəkillərdən tanıdıqları un məhsullarının adlarını yazmaqla söz ehtiyatlarını möhkəmləndirirlər.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Rollu oxu.** Mətni əvvəlcə müəllim oxuyur. Obrazların nitqini fərqli səs tonu ilə müvafiq mimika və jestlərlə diqqətə çatdırır. Yeni sözlər (*zəmi, əkinçi, əldən düşmək*) izah olunur. Şagirdlər mətndə hansı obrazların olduğunu müəyyənləşdirirlər.

Sonra müəllim cütlərə obrazların nitqini öz aralarında bölüşdürməyi və oxumağı tapşırır.

### Oxuyub-qavrama

Şagirdlər illüstrasiyanın mətnin hansı hissəsinə aid olduğunu tapıb həmin hissəni oxuyurlar.

2.2.5 **Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər şəkillərin ardıcıllığını bərpa etməklə oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər. Tapşırıq həmçinin şagirdlərin şəkillərə aid cümlə qurmaq bacarıqlarını inkişaf etdirir.

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlər canavarın kəndliyə hücum etməsi faktının mətndə olmadığını müəyyən edirlər.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Tapşırığın məqsədi şagirdlərin bədii mətnlərdə təxəyyülü real faktlardan fərqləndirmək bacarığını inkişaf etdirməkdir. Tapşırıqda verilmiş 3, 5, 6-cı cümlələrdə real olmayan hadisələr təsvir olunur.

### Danışma

1.2.2 **Tapşırıq D (dərslik).** Şagirdlər mətnin davamını təxmin etməklə məktəbəhazırlıq dövründə çörəyin hazırlanma qaydası üzrə əldə etdikləri biliklərini nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.7 **Tapşırıq C (iş dəftəri). Oxu ilə inteqrasiya.** Bu tapşırıq şagirdlərdə oxuyub-anlama və cümlə sonunda məqsəd və intonasiyaya görə durğu işarəsini müəyyənləşdirmək bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur. | Tap. B (dərslik) |
| İllüstrasiyaları mətnin məzmununa uyğun ardıcıllıqla sıralayır. | Tap. C (dərslik) |
| Bədii mətnlərdə təxəyyülü real faktlardan fərqləndirir. | Tap. Ç (dərslik) |
| Cümlənin sonunda müvafiq durğu işarəsindən istifadə edir. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. “Əkinçi və Canavar” (II hissə)

• Dərslik: səh. 68 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

- Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur (st. 2.2.1).
- Rollu oyun zamanı obrazın xarakterinə uyğun mimika və jestlərdən istifadə edir (st. 1.2.3).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Sözdəki orfoqramı (deyilişi və yazılışı fərqlənən hərfi) müəyyənləşdirir (st. 4.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Əkinçi və Canavar” mətninin xatırlanması |
| 2 | **Oxu** | “Əkinçi və Canavar” mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 4 | **Dil qaydaları** | Sözdəki orfoqramın müəyyənləşdirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Proqnozlaşdırma.** Müəllim “Kəndli və canavar” mətnini xatırladır, şagirdlərdə mətnin II hissəsinə maraq oyatmaq üçün suallar verir:

– *Sizcə, kəndlinin cavabı canavarın xoşuna gələcəkmi? Canavar çörək hazırlamaq istəyəcəkmi?*

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq A (dərslik). Rollu oxu.** Mətnin davamı I hissənin oxunduğu kimi oxunur. Mənası aydın olmayan (*şumlamaq, daş-kəsək, taxıl*) sözlər izah olunur.

Şagirdlər mətndən illüstrasiyanın məzmununa uyğun gələn hissəni müəyyən edirlər.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Məqsəd mətndəki əsas fikri ifadə edən “Zəhmətsiz yemək olmaz” nəticəsinə gəlməkdir.

2.2.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər hadisələrin ardıcıllığını bərpa edərək cümlələri *əvvəl, sonra, daha sonra, sonda* sözlərinin qarşısına yazırlar. Bununla da şagirdlərdə hadisələri məntiqi ardıcıllıqla sıralamaqla mətn yazmaq bacarıqları formalaşdırılır.

### Danışma

1.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər “Əkinçi və Canavar” mətnini səhnələşdirməklə mətni tam qavradıqlarını nümayiş etdirirlər. Müəllim şagirdlərə obrazların nitqini onların xarakterinə uyğun səsləndirməyi və jest və mimikadan düzgün istifadə etməyi tapşırır.

### Dil qaydaları

4.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər sözlərdəki çatışmayan hərfləri bərpa etməklə orfoqrafik biliklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini fərqli səs tonu ilə oxuyur. | Tap. A (dərslik) |
| Rollu oyun zamanı obrazın xarakterinə uyğun mimika və jestlərdən istifadə edir. | Tap. B (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tap. A (iş dəftəri) |
| Deyilişi və yazılışı fərqlənən sözlərdə buraxılmış hərfləri müəyyən edir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq**
Müəllimə növbəti dərs üçün müxtəlif kənd təsərrüfatı maşınlarının şəkillərini hazırlamaq tövsiyə olunur.

## 3-cü dərs. Çörəyin ərsəyə gəlməsi

• Dərslik: səh. 69 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**

- Sözün ifadə etdiyi şəkli müəyyən edir (st. 2.1.1).
- Cümlədə buraxılmış sözü müəyyən edir (st. 2.1.2).
- Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.1).
- Çap hərfləri ilə verilmiş sözləri və kiçikhəcmli mətnləri üzündən köçürür (st. 3.1.1).
- Deyilişi və yazılışı fərqlənən bəzi sözlərin düzgün yazılışını müəyyən edir (st. 4.1.3).
- Sözü təşkil edən hecaları müəyyən edir (st. 4.1.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Kənd təsərrüfatı maşınları" üzrə ilkin biliklərin yoxlanılması |
| 2 | **Söz ehtiyatı** | Şəkil üzrə yeni sözlərin mənimsədilməsi |

| | | |
|---|---|---|
| 3 | **Danışma** | Süjetli şəkillər üzrə danışma |
| 4 | **Yazı** | Şəkil üzrə yazı |
| 5 | **Dil qaydaları** | Sözü hecalara ayırmaq |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə müxtəlif kənd təsərrüfatı maşınlarının şəkillərini asır və ya adını yazıb soruşur:

*– Bu maşınlardan hansı məqsədlə istifadə edilir?*

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Məqsəd şagirdlərin çörəyin ərsəyə gəlməsini izah etmək üçün lazım olan söz ehtiyatı, eləcə də maşınların təyinatı ilə tanış etməkdir. Müəllim hər şəkil haqqında şagirdlərin ilkin biliklərini yoxlayır. Sonra şəkil üzrə geniş müzakirə aparılır. Yeni sözlər söz boğçasına əlavə edilir.

2.1.2 **Tapşırıq B (dərslik). Dil qaydaları ilə inteqrasiya.** Şagirdlər mövzu ətrafındakı biliklərindən istifadə edərək yeni tanış olduqları hərəkət bildirən sözləri cümlədə işlətməklə sözün mənasını anladıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri). Dil qaydaları ilə inteqrasiya.** Şagirdlər cümlədə buraxılmış sözləri müəyyən etməklə yeni öyrəndikləri ad bildirən sözləri mənimsədiklərini nümayiş etdirirlər.

### Danışma

1.2.1 **Tapşırıq C, Ç (dərslik).** Məqsəd şagirdlərdə yeni öyrəndikləri sözlərdən istifadə edərək şəkil üzrə danışmaq və şəklin məzmununa uyğun informasiyanı müəyyən etmək bacarığını inkişaf etdirməkdir. Bu tapşırıqların bir-biri ilə əlaqəli şəkildə yerinə yetirilməsi tövsiyə olunur. Bunun üçün şagirdlər əvvəlcə birinci şəkil üzrə danışırlar. Həmin şəklin məzmununa uyğun "Ç" tapşırığından müvafiq cümləni (*Traktor torpağı şumlayır, toxum səpir*) müəyyən edirlər. Tapşırığın yerinə yetirilməsi bu şəkildə davam etdirilir.

### Yazı

3.1.1 **Tapşırıq Ç (dərslik). Oxu ilə inteqrasiya. Qruplarla iş.** Şəkil və cümlələrin uyğunlaşdırılması şifahi formada aparıldıqdan sonra şagirdlər qruplara bölünürlər. Onlara qeyri-ardıcıl verilmiş cümlələrdən mətn hazırlamaq tapşırılır. Şagirdlər cümləri şəkildə gördüklərinin məntiqi ardıcıllığına uyğun olaraq köçürürlər. Bu onların oxuyub-qavrama, həmçinin çap hərfləri ilə verilmiş cümlələrin hüsnxət normalarına uyğun köçürülməsi bacarıqlarını inkişaf etdirir.

### Dil qaydaları

4.1.3 **"Orfoqrafiya" rubrikası.** *Sünbül* və *kombayn* sözlərinin yazılışına diqqət edilir.

**Tapşırıq A (iş dəftəri).** Məqsəd şagirdlərə yeni öyrəndikləri, yazılışı çətin olan sözlərin düzgün yazılış formasını mənimsətməkdir.

4.1.2 **Tapşırıq C (iş dəftəri).** Şagirdlərin heca üzrə bilikləri xatırladılır. Tərkibində samitlərin çox olduğu və tələffüzü çətin bəzi sözlərin düzgün heca sxemini müəyyən etməklə şagirdlər yeni öyrəndikləri sözlərin səs və hərf tərkibi ilə daha yaxından tanış olurlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün ifadə etdiyi şəkli müəyyən edir. | Tap. A (dərslik) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Yeni öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tap. C (dərslik) |
| Sözü təşkil edən hecaları müəyyən edir. | Tap. Ç (iş dəftəri) |

## 4-cü dərs. "Çil toyuq və siçan balaları"

• Dərslik: səh. 71 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

- Mətnin məzmununu şəkillər əsasında nəql edir (st. 2.2.3).
- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir (st. 2.2.4).
- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Oxuduğu mətnin qısa məzmununu yazır (st. 3.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Zəhmətə aid atalar sözlərinin nümayişi |
| 2 | **Oxu** | "Çil toyuq və siçan balaları" mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Obrazların müqayisəsi və təhlili |
| 4 | **Danışma** | Mətndəki obrazlara münasibət bildirmə |

| | | |
|---|---|---|
| 5 | Yazı | Açar sözlərin köməyi ilə mətnin qurulması |
| 6 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə atalar sözləri yazır və şagirdlərdən soruşur:

– *Bunlardan hansına "Əkinçi və canavar" mətnində rast gəlmisiniz?*

- *Şərti şumda kəs, xırmanda yabalaşmayasan.*
- *Gəmiyə minib gəmiçi ilə dalaşma.*
- *İşləməyən dişləməz.*

**Tapşırıq A (dərslik).** Şagirdlər "Əkinçi və canavar" mətninin son cümləsini oxuyaraq izah edirlər.

### Oxu

2.2.3 **Tapşırıq B və C (dərslik). İnteraktiv (qruplarla) oxu.** Hər qrup mətnin bir hissəsini oxuyur:

I qrup ilk üç abzası (*Toyuq özü sünbülü dəyirmana apardı*) oxuyur və bu suallara cavab verir: "*Mətnin bu hissəsində hansı obrazlar var? Toyuq nə hazırlamaq istəyir? Siçanlar toyuğa nə cavab verdi?*"

II qrup 4-cü abzası oxuyur. "B" tapşırığındakı suallara cavab hazırlayır.

III qrup qalan hissəni axıra qədər oxuyur və suallara cavab hazırlayır: "*Toyuq kimləri kökə yeməyə dəvət edir? Siçanlara nə üçün kökə vermədilər? Sizcə, toyuq haqlı idi?*"

Qrupların təqdimatı dinlənilir.

2.2.5 **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətnin hekayə xəritəsini tərtib etməklə mətndəki əsas faktları yadda saxladıqlarını nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq C (dərslik).** Məqsəd şagirdlərin əkinçi, çil toyuq, dovşan və sincabın zəhmətkeş, canavar və siçan balalarının tənbəl olduqları qənaətinə gəlmələridir. Bu tapşırıq şagirdlərə əməksevərlik kimi dəyərləri aşılayır.

### Danışma

1.2.1. Şagirdlər müəllimin yönəldici sualları ilə həyatda gördüklərindən nümunələr gətirməklə obrazları şəxsi həyatları ilə müqayisə edirlər:

– *Ətrafınızda bu obrazlara bənzəyən kimlər var? Siz tənbəl uşaqlara nə demək istəyərdiniz?*

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Məqsəd açar sözlərdən istifadə edərək şagirdlərin mətn qurub yazmaq bacarıqlarını formalaşdırmaqdır.

**Müəllimin nəzərinə!** Şagirdlərə çörəyin çox böyük zəhmət bahasına başa gəldiyi haqqında məlumatları ümumiləşdirmək tapşırılır. Çörəyə hörmət və qənaət etməyin vacibliyi vurğulanır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Əsərdəki obrazları sadə formada təhlil edir və onlara münasibət bildirir. | Tap. Ç (dərslik) |
| Mövzu üzrə suallar hazırlayır. | Tap. D (dərslik) |
| Açar sözlərin köməyi ilə mətn qurub yazır. | Tap. B (iş dəftəri) |

# fəsil 3 CİZGİ FİLMLƏRİ

## 1-ci dərs. Cizgi filmləri necə yaranıb?

• Dərslik: səh. 72 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

- Həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 1.2.1).
- Oxunan mətni kitabdan izləyir (st. 2.2.1).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Mətn üzrə faktoloji suallara cavab verir (st. 2.2.3).
- Rollu oyun zamanı obrazın xarakterinə uyğun mimika və jestlərdən istifadə edir (st. 1.2.3).
- Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır (st. 4.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Sorğu |
| 2 | Danışma | Cütlərdə sevimli cizgi filminin müzakirəsi |
| 3 | Oxu. Söz ehtiyatı | Mətnin oxunması, yeni sözlər üzrə iş |
| 4 | Oxuyub-qavrama | Suallar və şəkillər üzrə iş |
| 5 | Danışma | Ayının hərəkətinin canlandırılması |
| 6 | Dil qaydaları | Ad, əlamət, hərəkət bildirən sözlərin təkrarlanması |
| 7 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

**Riyaziyyatla inteqrasiya.** Müəllim fəslin mövzusunu şagirdlərə aydınlaşdırmaq üçün "Boş vaxtınızda nə edirsiniz?" sualı üzrə sorğu keçirə bilər. Sorğunun

nəticələrini lövhədə yazır və şagirdlərə suallar verir:

– *Neçə nəfər cizgi filminə baxır? Cədvələ əsasən sevimli məşğuliyyət hansıdır?* və s.

| Məşğuliyyətim | Şagird sayı |
|---|---|
| Cizgi filminə baxıram | 16 |
| Oyuncaqlarımla oynayıram | 9 |
| Bacımla oynayıram | 11 |
| Kitab oxuyuram | 14 |

**Danışma**

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər cizgi filmlərini xatırlayırlar, cütlərdə sevdikləri cizgi filmi barədə danışırlar. Müəllim cütlərə belə bir təlimat verir:

*Bir-birinizi dinləyərkən sual verməklə yoldaşınızın danışdığı cizgi filmi barədə daha çox məlumat toplayın.*

Müəllim şagirdlərin dinləmə bacarığını yoxlamaq üçün suallar verir: "*Yoldaşının sevimli cizgi filmi hansıdır? Həmin cizgi filmi ilə bağlı nə öyrəndin?*"

**Oxu. Söz ehtiyatı**

2.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər qoyulmuş sualla bağlı öz fikirlərini söyləyirlər. Bununla şagirdlərdə mətni oxumağa maraq yaranır.

**Növbəli oxu** tətbiq olunur. Mətn oxunduqca şagirdlərə tanış olmayan sözlərin mənası izah edilir, söz boğçasına əlavə olunur. Oxu zamanı qartalın kadrlarına diqqət yetirilir. Müəllim bu cür şəkillərin kadr adlandığını da diqqətə çatdıra bilər.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərin söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır.

**Oxuyub-qavrama**

2.2.3 Mətn oxunduqdan sonra müəllim suallar verir: "*Cizgi filminin yaranmasında hansı peşə sahibləri iştirak edir?* (yazıçı, aktyor, kompüter mühəndisi) *Onlar cizgi filmini yaratmaq üçün hansı işləri görürlər?*"

**Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər verilmiş sualları cavablandırarkən həmçinin çap hərfləri ilə verilmiş sözləri üzündən köçürmək bacarıqlarını inkişaf etdirirlər.

**Danışma**

1.2.3 **Tapşırıq C (dərslik).** Şagirdlər bir hərəkət üçün cəmi neçə şəkil çəkildiyini müəyyən edirlər. Sonra Mikki Mausun hərəkətini təkrarlayaraq bu şəkillərlə rəssamın hansı hərəkəti göstərmək istədiyini tapırlar. Məqsəd şagirdlərə video təsviri yaratmaq üçün şəkillərin necə çəkildiyini anlatmaqdır.

**Dil qaydaları**

4.1.5 **Tapşırıq C (iş dəftəri).** Dil qaydaları üzrə biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Tanıdığı cizgi filmi haqqında danışır. | Tap. A (dərslik) |
| Mətn üzrə faktoloji suallara cavab verir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətndən ad, əlamət, say, hərəkət bildirən sözləri seçib qruplaşdırır. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq**

Müəllim şagirdlərə "Kunq-fu ustası panda" cizgi filminə baxmağı tapşırır. Bu cizgi filmindən döyüş səhnəsi olan fraqmentin nümayiş etdirilməsi tövsiyə olunur.

## 2-ci dərs. Kunq-fu ustası Panda

• Dərslik: səh. 73 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir (st. 2.2.5).
- Sözün ifadə etdiyi anlayışın əsas əlamətlərini sadalayır (st. 2.1.1).
- Verilmiş şəklə uyğun söz və cümlələr yazır (st. 3.1.2).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cizgi filmi ilə bağlı təəssüratlar |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Kunq-fu ustası panda" mətninin oxunması; yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Mətnə əsasən ardıcıllığın müəyyən edilməsi |
| 4 | **Yazı** | Oxuduğu mətnə əsasən ardıcıllığın yazılması |
| 5 | **Söz ehtiyatı** | Söz kartlarının hazırlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

"Kunq-fu ustası panda" cizgi filminə baxanlar bu filmlə bağlı öz təəssüratlarını bölüşürlər.

**Danışma**

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər şəklə baxaraq panda haqqında bildiklərini söyləyirlər. Onun balaca, yöndəmsiz olduğu bildirilir. Daha sonra "Kunq-fu ustası panda" cizgi filmindən bir döyüş səhnəsi nümayiş etdirilir.

### Oxu. Söz ehtiyatı

**2.1.1** **Növbəli oxu.** Müəllim şagirdlərə tapşırır ki, mətni oxuyarkən "kunq-fu" və "eskiz" sözlərini başa düşməyə çalışsınlar. Mətn oxunduqdan sonra müəllim bu sözləri izah etməyi tapşırır.

Şagirdlər "Kunq-fu ustası panda" mətnini növbə ilə cütlərdə oxuyurlar. Mətn oxunduqdan sonra şagirdlərin oxuyub-qavramasını yoxlamaq məqsədilə mətn və şəkil üzrə iş gedir.

**2.2.5** **Tapşırıq B (dərslik).** Şagirdlər mətndən öyrəndikləri məlumatlara əsasən cizgi filminin çəkilmə ardıcıllığını müzakirə edirlər. Daha sonra tapşırığı yerinə yetirərək 3 və 4-cü cümlələrin yerinin səhv verildiyini müəyyən edirlər.

### Yazı

**3.1.2** **Tapşırıq A (iş dəftəri).** Şagirdlərin mətni tam qavradıqlarını yoxlamağa yönəlmiş bu tapşırıq onların yazı, fikrini cümlə ilə ifadə etmə bacarığını da inkişaf etdirir.

### Söz ehtiyatı

**2.1.2** **Tapşırıq C (dərslik).** Tapşırıq fərdi və ya qruplar şəklində yerinə yetirilir. Qruplar üzrə iş belə aparıla bilər: hər qrupda 3 şagird olmaqla uşaqlar qruplara bölünürlər. Şagirdlər vəzifə bölgüsünə uyğun (sözün izahını yazan; sözü cümlədə işlədən; sözün aid olduğu məna qrupunu yazan) sözə aid kart düzəldirlər. Növbəti sözlərə kart düzəldərkən şagirdlər vəzifələrini dəyişməklə digər bacarıqlarını da nümayiş etdirirlər.

**Müəllimin nəzərinə!** Sözlərin izahını verməkdə çətinlik çəkən şagirdlərə bütün sözlərin izahını bir vərəqdə yazıb vermək olar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkillər üzrə danışır. | Tap. A (dərslik)<br>Tap. B (dərslik) |
| Mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən edir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tap. A<br>(iş dəftəri) |
| Cümlə qurur. | Tap. Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq**
Müəllim növbəti dərsdə şagirdlərin "A" tapşırığını yerinə yetirmələri üçün onları qruplara ayırır. Hər qrupa bir cizgi filmi haqqında məlumat toplamağı tapşırır ("Pinokkio", "Tom və Cerri", "Mikki Maus").

## 3-cü dərs. "Volt Disney" – Mikki Mausun yaradıcısı

• Dərslik: səh.75 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**
- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyənləşdirir (st. 2.2.3).
- Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır (st. 1.1.1).
- Adıçəkilən varlıqlara xas olan əlamətləri sadalayır (st. 4.1.5).
- Mətnlə illüstrasiya arasındakı uyğun(suz)luğu müəyyən edir (st. 2.2.3).
- Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır (st. 1.2.2).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cizgi filmləri barədə sual-cavab |
| 2 | **Danışma** | Cizgi film qəhrəmanları |
| 3 | **Dinləmə-danışma** | Volt Disney muzeyində dinləmə mətni üzrə iş |
| 4 | **Oxu. Söz ehtiyatı** | "Mikki Mausun yaradıcısı" mətninin oxusu; "Söz boğçası" üzrə iş |
| 5 | **Dil qaydaları** | Əlamət bildirən sözlər |
| 6 | **Danışma** | Mənim cizgi filmim |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**1.2.2** Dərslikdə verilmiş **"A" və "B" tapşırıqlarından** istifadə etməklə uşaqlarda Disney filmləri mövzusuna maraq oyatmaq olar. Uşaqlar Pinokkio, Tom və Cerri, Mikki Maus obrazları və filmləri barədə bildiklərini söyləyirlər.

Müəllim şagirdlərin diqqətini "B" tapşırığındakı şəklə yönəldir. Şagirdlər Mikki Mausun əlindən tutanın kim olduğu barədə təxminlərini söyləyirlər. Bu tapşırıqlar şagirdlərdə Mikki Mausun yaradıcısı haqqında mətnə maraq oyatmaq məqsədi daşıyır.

### Oxuyub-qavrama

**2.2.3** **Tapşırıq C (dərslik). İstiqamətləndirmə.** Müəllim lövhədə faktoloji suallar yazır, şagirdlərə tapşırır ki, mətni oxuyarkən bu sualların cavabını tapıb qeyd etsinlər: "*Volt Disney harada yaşayırdı? O, cizgi filminə harada baxırdı? O zaman cizgi filmləri necə idi? Mikki Mausu kim səsləndirirdi?*" Şagirdlərin oxu zamanı bu sualların cavablarını dəftərlərində qeyd etməsi mətndəki əsas məlu-

matları seçməyə kömək edir.

**Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətnə aid sualların cavablarını mətndən tapmaqla oxuyub-qavrama, həmçinin yazı bacarıqlarını möhkəmləndirirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər ikinci cümlənin mətnin məzmununa uyğun olmadığını müəyyən edib mətndən fakt gətirməklə (*Balaca olanda Volt siçandan qorxurdu*) fikirlərini əsaslandırırlar.

### Dinləmə-danışma

1.1.1 Müəllim "Volt Disney muzeyində" mətnini səsləndirir:

*"Bir gün biz ailəliklə Volt Disney muzeyinə getdik. Volt Disneyin çəkdiyi eskizləri görmək çox maraqlı idi. Hər birimiz öz sevimli cizgi qəhrəmanımızı görüb sevindik. "Ağca və 7 cırtdan", "Pinokkio", "Su pərisi" cizgi filmlərinin eskizləri mənim çox xoşuma gəldi. Atam isə "Əlləddinin sehrli çırağı" cizgi filminin ağ-qara rəsmlərini bəyəndi.*

*Burada Volt Disneyin mükafatları olan guşə də var idi. Onun ilk cizgi filmini izlədik. Ailəmiz üçün çox maraqlı bir gün oldu".*

Müəllim dinləmə mətni ilə bağlı suallar verir: – *Uşaqlar muzeydə nə gördülər? Uşaq hansı cizgi filminə çəkilmiş eskizləri bəyəndi?*

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən ad bildirən sözlərə uyğun əlamət bildirən sözləri seçməklə dil qaydaları üzrə biliklərini möhkəmləndirirlər.

2.2.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətni oxuyub ona uyğun illüstrasiyanı seçirlər. Daha sonra şəklə əsasən Plutonu təsvir edirlər.

### Danışma

1.2.2 **Tapşırıq D (dərslik).** Şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəlmiş bu tapşırıq müxtəlif şəkillərdə (qrup, fərdi və ya cütlərdə) aparıla bilər. Şagirdlər xəyali bir cizgi filmi qəhrəmanı şəkli çəkirlər və bu filmin məzmununu nəql edirlər. Müəllimin nümunə göstərməsi tövsiyə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkillər üzrə danışır. | Tap. A, B dərslik) |
| Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır. | MV, dinləmə mətni |
| Oxuduqca mətndən qeydlər götürür. | Tap. C (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. Ç (dərslik)<br>Tap. A, C (iş dəftəri) |
| Adıçəkilən varlıqlara xas olan əlamətləri sadalayır. | Tap. B (iş dəftəri) |
| Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır. | Tap. D (dərslik) |

## 4-cü dərs. "Disneylənd"

• Dərslik: səh. 76 • İş dəftəri: səh.62

**Təlim məqsədləri**

- Dinlədiyi fikirdəki əsas məqamları yadda saxlayır və açıqlayır (st. 1.1.1).
- Əsərdəki obrazları, hadisələrin baş verdiyi zaman və məkanı müəyyən edir (st. 2.2.3).
- Verilmiş cümlənin və ya abzasın mətndəki ardıcıllıqda yerini müəyyən edir (st. 2.2.5).
- Rollu oyun zamanı obrazın xarakterinə uyğun mimika və jestlərdən istifadə edir (st. 1.2.3).
- Öz yazısı ilə bağlı başqalarının təkliflərini nəzərə alır (st. 3.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müzakirə – çox sevdiyim parklar |
| 2 | **Danışma** | "Disney qəsri" haqqında müzakirə |
| 3 | **Oxu** | "Disneylənd" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Abzas üzərində iş |
| 5 | **Danışma** | Rollu oyun |
| 6 | **Yazı** | Sevimli cizgi filmi qəhrəmanım |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

1.1.1 **Tapşırıq A (dərslik).** Mövzuya yönəltmə üçün dərslikdəki "A" tapşırığından istifadə etmək olar.

Şagirdlərə əvvəlki dərslərdə öyrəndikləri gerblər xatırladılır. "*Nə üçün Bakının gerbində alov və dəniz təsviri var?*" – deyə müəllim soruşur. Daha sonra Disney cizgi filmlərində əks olunmuş şəklə diqqət yönəldilir. Şagirdlərin tapşırıqdakı sualla bağlı fərziyyələri dinlənilir.

### Dinləmə

1.1.1 Müəllim aşağıdakı mətni səsləndirir.

***Dinləmə mətni:***

*"Anamla "Disney" cizgi filmlərinin əvvəlində gördüyümüz qəsrə gəlmişdik. Bələdçi bizə qəsr haqqında məlumat verirdi. Sən demə, bu qəsr həm də "Sinderella qəsri" adlanır. 18 aya inşa olunan bu qəsri Volt Disney öz ailəsi üçün tikdirmişdir. Daha sonra biz burada yerləşən restorana daxil olduq. Hər tərəfdə Disney cizgi film qəhrəmanları var idi. Hətta bura gələn uşaqlara şahzadə paltarları da geyindirirdilər. Mən Disney qəsrində çox gözəl bir*

*gün keçirdim".*

Müəllim dinləmə mətni ilə bağlı suallar verir:

*– Disneyləndin adı əvvəllər nə idi? Neçə vaxta tikilib? Qəsrdə nə etmək olar?*

**Oxu**

**2.2.3** **Tapşırıq B (dərslik). Ziqzaq.** Müəllim "Disneylənd" mətnini oxumaq üçün şagirdləri qruplara bölür. Hər qrup bir abzası oxuyur və öyrənir. Daha sonra hər qrupdan bir nümayəndə seçilərək yeni qruplar yaradılır. Yeni yaranmış qruplarda şagirdlər öyrəndikləri abzasları nəql edərək digər qrup üzvlərinə də mətni bütövlükdə öyrənməkdə kömək edirlər. Daha sonra müəllim şagirdlərə faktoloji suallar verir:

*– Mətnin adı nədir? Mətndə hansı obrazlar var? Mətndə hadisələr harada baş verirdi? Oğlanın çəkdiyi parkın adı nə idi? O, parkı niyə belə adlandırmışdı? "Hamı üçün park"ı necə təsəvvür etdiniz?* və s.

Şagirdlər mətnin sonunda abzasla bağlı verilmiş sualları cavablandırırlar.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin məzmununa uyğun sözü seçməklə mətni anladıqlarını nümayiş etdirirlər.

**2.2.5** **Tapşırıq Ç (dərslik).** Şagirdlərin oxuyub-anlamasını yoxlamaqla bərabər, "abzas" anlayışının möhkəmləndirilməsinə xidmət edir.

**Danışma**

**1.2.3** **Tapşırıq D (dərslik). Oxu ilə inteqrasiya.** Tapşırıq şagirdlərdə dialoq qurmaq və dialoq zamanı uyğun mimika və jestlərdən istifadə etmək bacarıqlarını inkişaf etdirir. Tapşırıq yerinə yetirilməzdən öncə şagirdlər situasiyaya uyğun nəzakətli sözlər müəyyən edirlər.

**Dil qaydaları**

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq şagirdlərdə ad bildirən sözə əlamət bildirən söz əlavə etməklə cümləni genişləndirmə bacarığını inkişaf etdirir.

**Yazı**

**3.1.5** **Tapşırıq C (iş dəftəri).** Əvvəlcə müəllim şagirdlərə qısa mətn nümunəsi təqdim edir:

*"Mənim sevimli qəhrəmanım Ağbənizdir. O çox gözəl şahzadədir. Ağbəniz yaraşıqlı paltarlar geyinir. O həm də çox mehriban və məlahətlidir".*

Tapşırığın aşağıdakı ardıcıllıqla yerinə yetirilməsi tövsiyə olunur.

1. Şagirdlər nümunə əsasında öz sevimli cizgi filmləri haqqında mətn yazırlar.
2. Yazdıqları mətni oxuyub orfoqrafik səhvlərini düzəldirlər.
3. Öz yazılarını ucadan oxuyurlar. Dinləyən şagirdlər yazı barədə suallar verirlər.
4. Yoldaşlarının təkliflərinə və müəllimin qeydlərinə əsasən şagird öz yazısına əlavələr edib təkmilləşdirir.

**Müəllimin nəzərinə!** Şagirdlər yoldaşlarının yazıları barədə suallar verməzdən öncə müəllim nümunə mətni əsasında bir neçə sualı lövhəyə yaza bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil üzrə danışır. | Tap. A (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. A (iş dəftəri)<br>Tap. B, C (dərslik) |
| İllüstrasiyanın aid olduğu abzası və cümlənin abzasdakı yerini müəyyən edir. | Tap. C (dərslik) |
| Dialoqlarda situasiyaya uyğun sadə nitq etiketlərindən istifadə edir. | Tap. D (dərslik) |
| Digərlərinin təkliflərinə uyğun yazısını təkmilləşdirir. | Tap. C (iş dəftəri) |

# fəsil 4 KOSMOS

## 1-ci dərs. "Uçun Aya, ulduzlara"

• Dərslik: səh.77 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

- Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır (st. 1.2.2).
- Şeiri nəsrə çevirərək nəql edir (st. 2.2.2).
- Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır (st. 2.1.4).
- Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
- Əlamətlərin hansı anlayışa aid olduğunu müəyyən edir (st. 2.1.1).
- Sözləri əlifba sırası ilə düzür (st. 4.1.4)

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Bip-bip"in nəğməsi"nin səsləndirilməsi |
| 2 | **Danışma** | Şəkil üzrə məlumatları genişləndirmə |
| 3 | **Oxu. Söz ehtiyatı** | Şeirin düzgün intonasiya ilə oxunması, yeni sözlərin mənimsədilməsi |
| 4 | **Dil qaydaları** | Əlifba üzrə biliklərin möhkəmləndirilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

**Musiqi ilə inteqrasiya.** Müəllim "Bip-bip"in nəğməsi"ni (sözləri *Teymur Elçinin*, musiqisi *Fikrət Əmirovundur*) səsləndirir. Müəllim şagirdlərə sual verir:

– *Hansı səma cisimlərinin adlarını eşitdiniz?*

Mahnıda səslənən “peyk” sözünün mənası izah edilir: *planetlər ətrafında fırlanan göy cismi və ya Yerdən göndərilmiş qurğu.*

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər növbə ilə şəkildə təsvir olunan varlıqlar haqqındakı məlumatları oxuyur, əvvəlki biliklərindən istifadə edərək məlumatları genişləndirib danışırlar; məsələn, ulduz haqqındakı məlumatlara şagirdlər bu əlavələri edə bilərlər: *“Göydəki ulduzların sayı çoxdur. Ulduzlar işıq saçır”* və s.

Bu tapşırıq həmçinin şagirdlərin söz ehtiyatını (planet, raket, kosmonavt) artırır.

### Oxu. Söz ehtiyatı

2.2.2 **Tapşırıq B (dərslik).** Müəllim şeirin oxusundan əvvəl bəzi sözləri (*kainat, Venera, Yupiter, Mars* və s.) əvvəlcədən lövhəyə yazaraq uşaqları düzgün oxuya hazırlayır.

**Növbəli oxu.** "Uçun Aya, ulduzlara" şeiri şagirdlər tərəfindən növbəli oxunur. Bu zaman müəllim şeirin düzgün intonasiya ilə oxunmasına nəzarət edir.

Oxudan sonra şagirdlər şeirdə şairin arzularını öz sözləri ilə ifadə edirlər.

2.1.4 **Tapşırıq C (dərslik).** Tapşırıqda şagirdlər ilk misralara istinad etməklə şeirdə birbaşa verilməyən bənzətməni (metaforu) müəyyən edirlər. Şair uşaqları sayının çoxluğuna, kiçik görünüşünə və başqa xüsusiyyətlərinə görə ulduzlara bənzədir.

2.1.2 **Tapşırıq Ç (dərslik) və A (iş dəftəri).** Hər iki tapşırıq yeni sözlər üzrə söz ehtiyatını möhkəmləndirmək məqsədi daşıyır. Şagirdlər yeni öyrəndikləri sözləri cümlədə işlətməklə mənasını anladıqlarını və cümlə qurmaq bacarıqlarını nümayiş etdirirlər.

2.1.1 **Tapşırıq B (iş dəftəri). Təsviri incəsənət fənni ilə inteqrasiya.** Şagirdlər verilən əlamətlərin Günəş və Aya məxsus olduğunu müəyyən edir, anlayışların şəklini çəkməklə söz ehtiyatlarını nümayiş etdirirlər.

### Dil qaydaları

4.1.4 **Tapşırıq C (iş dəftəri).** Məqsəd şagirdlərin əlifba üzrə biliklərinin möhkəmləndirilməsi və söz ehtiyatının yoxlanılmasıdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlardan istifadə etməklə şəkillər üzrə danışır. | Tap. A (dərslik) |
| Şeiri nəsrə çevirərək nəql edir. | Tap. B (dərslik) |
| Bənzəyənlə bənzədilən arasındakı oxşar əlamətləri sadalayır. | Tap. C (dərslik) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Sözləri əlifba sırası ilə düzür. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. “Kosmosu kəşf edək”

• Dərslik: səh. 78 • İş dəftəri: səh.64

**Təlim məqsədləri**

- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Mətndəki hadisələrlə bağlı niyə? nə üçün? suallarına cavab verir (st. 2.2.5).
- Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir (st. 1.2.2).
- Dinlədiyi və oxuduğu məlumatları müqayisə edib nəticə çıxarır (st. 1.1.2).
- Adıçəkilən varlıqlara xas olan hərəkətləri sadalayır (st. 4.1.5).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | “Sehrli xalat” filmindən bir hissənin nümayişi |
| 2 | Oxu | “Kosmosu kəşf edək” mətninin oxusu |
| 3 | Oxuyub-qavrama | Mətndəki abzaslar üzrə iş, mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsinin müəyyənləşdirilməsi |
| 4 | Danışma | Mətnin davam etdirilməsi |
| 5 | Dinləmə | Dinlənən və oxunan məlumatların köməyi ilə sualların hazırlanması |
| 6 | Dil qaydaları | Cümlələrə hərəkət bildirən sözlərin əlavə edilməsi |
| 7 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim şərait olarsa, “Sehrli xalat” filmindən “Marsa ekskursiya” kadrlarını şagirdlərə izlətsin.

### Oxu. Söz ehtiyatı

2.2.5 **Tapşırıq A (dərslik). Növbəli oxu.** “Kosmosu kəşf edək” mətnini oxumazdan əvvəl müəllim şagirdlərin diqqətini mətnin başlığına və mətnə çəkilmiş illüstrasiyaya yönəldir:

– *Teleskopdan nə üçün istifadə edirlər?*

Mətn şagirdlər tərəfindən növbə ilə oxunur. Söz boğçasında olan sözlərin mənasını onları cümlədə işlətməklə izah edirlər.

Müəllim şagirdlərin mətni qavradıqlarını yoxlamaq üçün suallar verir:

*– Qədim insanların arzusu nə idi? İnsanların hansı kəşfi uçan xalçanı əvəz etdi? Teleskopun kəşfi ilə hansı sirlər aşkar olundu?*

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndəki abzaslarda əsas faktları yadda saxladıqlarını nümayiş etdirirlər. Tapşırıq həmçinin şagidlərin abzaslardakı fikri ümumiləşdirmək bacarıqlarını inkişaf etdirir.

**2.2.5 Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyənləşdirməklə mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**Danışma**

**1.2.2 Tapşırıq B (dərslik).** Məqsəd şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirməkdir. Şagirdlər öz təxəyyüllərinə və biliklərinə əsaslanaraq oxuduqları mətni davam etdirirlər.

**Dinləmə**

Müəllim mövzu ilə bağlı mətn səsləndirir.

*“Mən nənəmin yanında heç darıxmıram. Onun şirin söhbətlərini çox sevirəm. Bir gün nənəmə dedim:*

*– Can nənə, bir nağıl de. Əvvəllər danışırdın ha!.. “Uçan xalça”, “Sehrli güzgü”...*

*– Ay bala, indi təyyarə uçan xalçadan daha sürətlə gedir. İnsanlar elə şeylər düzəldirlər ki, uçan xalça, sehrli güzgü onların yanında yalandır. İndi adamlar göydən xəbər verirlər. Alimlər deyirlər ki, göydə gördüyümüz ulduzların hərəsi bir dünyadır. Onların bir çoxu Yerdən dəfələrlə böyükdür. Ancaq çox uzaqda olduqları üçün bizə xırda görünür.*

*Mən dözmədim:*

*– Nənə, görəsən, ulduzlarda da adam var?*

*– Bala, bax elə alimlər indi bunu öyrənmək istəyirlər ki, görsünlər ulduzlarda su, hava, bitki varmı, canlı yaşayırmı? Bunu bilmək üçün Aya, ulduzlara uçmaq, onları kəşf etmək lazımdır.*

*– Kaş mən də Aya uça biləydim...”*

Müəllim şagirdlərin diqqətlə dinlədiklərini yoxlamaq üçün suallar verir: “*Nənə ətrafdakı nələri nağıla bənzədirdi? Göy cismləri haqqında hansı yeni məlumatı öyrəndiniz? Alimlər daha nələri öyrənmək istəyirlər? Uşağın arzusu nə idi?”*

**1.1.2 Tapşırıq C (dərslik).** Şagirdlər mətni dinlədikdən sonra tapşırığın şərtini oxuyaraq kosmosla bağlı suallar düşünürlər. Məqsəd dinləmə və oxu mətnindən alınan məlumatların köməyi ilə şagirdləri yeni suallar ətrafında düşündürməkdir.

**Dil qaydaları**

**4.1.5 Tapşırıq C (iş dəftəri).** Şagirdlər yarımçıq verilmiş cümlələrə uyğun hərəkət bildirən sözləri əlavə edərək cümləri tamamlayırlar. Bununla da onların hərəkət bildirən sözlər üzrə söz ehtiyatları möhkəmləndirilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas hadisələri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Oxuduğu və ya dinlədiyi mətni təxəyyülünə uyğun dəyişdirir və ya davam etdirir. | Tap. B (dərslik) |
| Dinlədiyi və oxuduğu məlumatları müqayisə edib nəticə çıxarır. | Tap. C (dərslik) |
| Adıçəkilən varlıqlara xas olan hərəkətləri sadalayır. | Tap. C (iş dəftəri) |

## 3-cü dərs. “İlk kosmonavt”

• Dərslik: səh. 79 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

- Mətndəki əsas hadisələri (faktları) müəyyən edir (st. 2.2.5).
- Sözün ifadə etdiyi şəkli müəyyənləşdirir (st. 2.1.1).
- Yeni öyrəndiyi sözlərlə onların izahlarını uyğunlaşdırır (st. 2.1.1).
- Təxəyyülünə uyğun bədii mətn yazır (st. 3.1.3).
- Şəkillər üzrə təxəyyülünə uyğun kiçik dialoq qurub danışır (st. 1.2.3).
- Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir (st. 4.1.6).

**• Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Kosmonavt haqqında ilkin biliklərin yoxlanılması |
| 2 | **Oxu. Söz ehtiyatı** | Kosmonavtlar haqqında mətnin oxunması, yeni sözlər üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətndəki əsas faktların təhlili |
| 4 | **Yazı** | Şəkil üzrə mətn qurub yazma |
| 5 | **Danışma** | Şəkil üzrə mətn qurub danışma |

| | | |
|---|---|---|
| 6 | Dil qaydaları | Cümlədə sözlərin düzgün ardıcıllığının müəyyən olunması |
| 7 | Formativ qiymətləndirmə | |

**Mövzuya yönəltmə**

**Beyin həmləsi.** Müəllim şagirdlərə sual verir: *– Kimlərə kosmonavt deyilir? Onlar haqqında nə bilirsiniz?*

**Oxu. Söz ehtiyatı**

Müəllim mətnin oxunmasından əvvəl şagirdlərə oxu zamanı mətndəki əsas faktları qeyd etməyi tapşırır.

**Növbəli oxu.** Şagirdlər mətnin hissələrini növbə ilə səsli oxuyurlar. Yeni sözlərin mənaları izah olunub söz boğçasına daxil edilir.

**Oxuyub-qavrama**

Şagirdlər oxu zamanı hansı məlumatları qeyd etdiklərini təqdim edirlər. Bu, şagirdlərdə oxuduqları məlumatlar içərisindən əsas faktları seçmək bacarıqlarını inkişaf etdirir.

2.1.1 **Tapşırıq B (dərslik).** Müəllim şagirdlərin diqqətini kosmonavtın şəklinə yönəldərək "skafandr" sözünü izah edir. Şagirdlər skafandr haqqında təxmin etdikləri fikirləri söyləyirlər.

**Müəllimin nəzərinə!** Müəllim skafandr haqqında əlavə məlumat verə bilər: *"Skafandr bədən temperaturunu normal saxlayır. Kosmonavtı hava ilə təmin edir. Təhlükələrdən qoruyur"* və s.

Əlavə sual: "Skafandrı hansı peşə sahiblərinin geyiminə bənzədirsiniz?" (*Yanğınsöndürənlərin*)

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu fəsildə öyrəndikləri yeni sözləri həm təkrar edir, həm də mənalarını uyğunlaşdırmaqla söz ehtiyatlarını möhkəmləndirirlər.

2.2.5 **Tapşırıq B, C (iş dəftəri).** Şagirdlərin oxu zamanı diqqətli olduqlarını, mətndəki əsas faktları oxuyub yadda saxladıqlarını yoxlamaq məqsədi daşıyır.

**Yazı**

3.1.3 **Tapşırıq C (dərslik).** Məqsəd şagirdlərdə şəkildən istifadə edərək öz təxəyyüllərinə uyğun mətni tamamlayıb yazmaq, eləcə də məzmuna uyğun olaraq mətnə ad vermək bacarığını inkişaf etdirməkdir.

Şagirdlər şəkildə gördüklərini təxminən belə yaza bilərlər:

*"Lalə ilə Fuad raketə mindilər. Onlar Aya səyahət edirdilər. Bu onların ilk uçuşudur.*

*Raket Yerdən sürətlə uzaqlaşdı. Xeyli müddət keçdikdən sonra raket Aya endi. Uşaqlar sevinclə Ayın səthinə ayaq basdılar. Onlar vətəndən gətirdikləri bayrağı Aya sancdılar".*

**Danışma**

1.2.3 **Tapşırıq Ç (dərslik).** Əsas məqsəd şagirdlərin yaradıcı təxəyyülunu inkişaf etdirmək və şifahi nitq bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Müəllim kömək məqsədilə şagirdlərə suallar verə bilər:

*– Yadplanetlinin adi insanlardan fərqi nədir? Yusif yadplanetli ilə necə söhbət edə bilər? Yusif özü haqqında nə deyə bilər? Hansı məlumatı verə bilər? Sizcə, Yusif ona nə hədiyyə edər?* və s.

Şagirdlər şəkildə gördüklərini təxminən bu istiqamətdə danışa bilərlər:

*"Yusif də Marsa səyahət etmişdi. O, Marsda yadplanetli gördü. Bu cox qəribə idi. O, insana bənzəmirdi. Yaşıl bədəni, buynuzları, üç ayağı, uzun qolları var idi, burnu isə çox böyük idi. Ancaq o çox mehriban görünürdü. Yusif yadplanetli ilə salamlaşdı. Ona Yer haqqında danışdı. Yadplanetli isə ona Marsı gəzdirdi. Onlar dostlaşdılar. Yusif yeni dostunu Yerə dəvət etdi".*

**Dil qaydaları**

4.1.6 **Tapşırıq Ç (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər sualların köməyi ilə söz sırasını müəyyən edib cümlə qururlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə tanış olmadığı sözləri seçir və mənası ilə uyğunlaşdırır. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Təxəyyülünə uyğun bədii mətn yazır. | Tap. C (dərslik) |
| Şəkillər üzrə təxəyyülünə uyğun kiçik dialoq qurub danışır. | Tap. Ç (dərslik) |
| Cümlədə sözlərin düzgün ardıcıllığını müəyyən edir. | Tap. C (iş dəftəri) |

## **4-cü dərs.** Ümumiləşdirici dərs

• Dərslik: səh. 80 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

• Dialoq zamanı mövzuya uyğun fikir yürüdür (st. 1.2.3).
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 2.2.4).
• Sözü cümlədə mənasına uyğun işlədir (st. 2.1.2).
• Həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənləşdirir (st. 4.1.3).

• **Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmə adının xatırlanması |
| 2 | **Söz ehtiyatı** | Bölmədəki söz ehtiyatı üzrə iş |
| 3 | **Yazı** | Bölmə haqqında qısa məlumat |
| 4 | **Dil qaydaları** | Sözlərin yerindən asılı olaraq böyük və ya kiçik yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmənin adını soruşur. Bir daha "kəşf" sözünün mənası xatırlanır. Müəllim: "Bu bölmədə özünüz üçün nələri kəşf etdiniz?" – deyə soruşur.

### Danışma

1.2.3 **Tapşırıq A (dərslik).** Bu dərs ümumiləşdirmə məqsədi daşıdığından şagirdlər tapşırıqdakı suallar vasitəsilə bölmənin mövzusunu xatırlayır, bölmə üzrə təəssüratlarını bölüşürlər.

### Oxu. Söz ehtiyatı

**Tapşırıq B (dərslik).** Bölmə boyunca öyrəndikləri mövzuları xatırlayan şagirdlər tapşırıqda verilmiş şəkilləri bölmənin fəsilləri üzrə uyğunlaşdırırlar.

2.1.1 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə bölmə boyunca öyrədilən yeni sözlərin şagirdlər tərəfindən nə dərəcədə mənimsənildiyi yoxlanılır. Şagirdlər cümlə daxilində sözlərin yerini düzgün müəyyənləşdirirlər.

### Yazı

**Tapşırıq A (iş dəftəri).** Bölmə boyunca öyrəndikləri mövzuları xatırlayan şagirdlər tapşırıqda verilmiş məlumatları bölmənin fəsilləri üzrə ümumiləşdirib yazırlar.

### Dil qaydaları

4.1.3 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərə həm ümumi, həm də xüsusi isim kimi işlənən sözlərin yerindən asılı olaraq böyük və ya kiçik hərflə yazıldığını nümayiş etdirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Öyrəndiyi məlumatlar üzrə danışır. | Tap. A (dərslik) |
| Mətndəki əsas hadisələri (faktları) müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Sözü cümlədə mənasına uyğun işlədir. | Tap. C (dərslik) |
| Sözlərin yerindən asılı olaraq böyük və ya kiçik yazıldığını müəyyənləşdirir. | Tap. B (iş dəftəri) |

*BURAXILIŞ MƏLUMATI*

*Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün*
*Azərbaycan dili fənni üzrə dərsliyin (qrif nömrəsi: 2020-001)*
***metodik vəsaiti***
*Tədris dili*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Ülkər Nurullayeva**<br>**İradə Bayramova**<br>**Şəhla Zahidova**<br>**Nuriyə Allahverdiyeva**<br>**Aysel Xanalıyeva** |
| **Layihə rəhbəri** | **Rafiq İsmayılov** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Elmir Məmmədov, Məzahir Hüseynov** |
| Korrektor | **Aqşin Məsimov** |

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8386-4-0

Hesab-nəşriyyat həcmi 21,8. Fiziki çap vərəqi 23.
Səhifə sayı 184. Kağız formatı 57 × 82 $^{1}/_{8}$. Kəsimdən sonra ölçüsü: 195 × 275.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____. Tiraj: 8530. Pulsuz. Bakı – 2020.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 24.07.2020

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
"Radius" MMC mətbəəsi (Bakı ş., Binəqədi şosesi, 53)

Pulsuz